# İSLAM
# VƏ QƏRB MƏDƏNİYYƏTİ

SEYYİD MÜCTƏBA MUSƏVİ LARİ

بسم الله الرحمن الرحيم

Entesharate Darul-bashir


Kitabın adı:......İslam və qərb mədəniyyəti

Müəllif:….......Seyyid Müctəba Musəvi Lari

Nəşr edən:.....................................Darul-bəşir

Çap tarixi:..................................................2004

Çap növbəsi:..........................................Birinci

Tiraj:...........................................................3000

ISBN…………………..………964-8374-06-X

Mündəricat

MÜQƏDDİMƏ.......................................................5
İNSAN MƏDƏNİYYƏTİ VƏ HƏYATINA ÜMUMİ BİR BAXIŞ.......................................................11
MİS DÖVRÜNDƏN SONRA TARİXİN YENİ BİR MƏRHƏLƏSİ.......................................................15
MÜASİR QƏRB MƏDƏNİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ.......................................................17
XRİSTİANLIĞIN İNKİŞAF SƏBƏBLƏRİ..................32
KİLSƏ RƏHBƏRLİYİNİN TÖRƏTDİYİ FACİƏLƏR34
XRİSTİANLARIN İSLAM ƏLEYHİNƏ TƏBLİĞATI52
QƏRB DÜNYASINDA ƏXLAQ..................................59
KİLSƏDƏ İBADƏT.......................................................71
SPİRTLİ İÇKİLƏRİN DƏHŞƏTLİ ŞƏKİLDƏ YAYILMASI.......................................................76
MÜASİR DÜNYA HƏYATINDAKI ZİDDİYYƏTLƏR.......................................................82
MƏDƏNİ ƏSRDƏKİ VƏHŞİLİKLƏR........................ 87
İRQİ AYRI-SEÇKİLİK.................................................. 96
AİLƏ TƏMƏLİNİN SARSILMASI............................100
HEYVANLARI SEVMƏK.........................................106
QAYĞI VƏ MƏHƏBBƏTİN OLMAMASININ NƏTİCƏLƏRİ.......................................................110
İKİNCİ HİSSƏ.......................................................... 120
ÜMUMBƏŞƏRİ PROBLEMLƏRƏ QARŞI İSLAM DİNİNİN CAVABI120
İSLAM DİNİNƏ ÜZ TUTAQ....................................120
DAR DÜŞÜNCƏLİLƏR............................................136

İSLAM VƏ İQTİSADİ ÇƏTİNLİKLƏR....................145
İSLAMIN QƏRB MƏDƏNİYYƏTİNDƏKİ İZLƏRİ155
MƏDƏNİ-MAARİF SAHƏSİNDƏKİ İNQİLAB.....158
TƏBABƏT........................................................................164
ƏCZAÇILIQ....................................................................167
XƏSTƏXANALAR.........................................................168
KİMYA ELMİ..................................................................170
SƏNAYE..........................................................................173
RİYAZİYYAT..................................................................175
COĞRAFİYA...................................................................176
SƏNƏTKARLIQ.............................................................177
İSLAM VƏ ALKOQOLLU İÇKİLƏR.........................184
İSLAM VƏ HƏR NÖV AYRISEÇKİLİYİN RƏDDİ 193
İSLAM AZADLIQ VƏ ƏDALƏT DİNİDİR.............196
İSLAMDA CİHADIN SƏBƏBLƏRİ..........................210
İSLAM NÖQTEYİ-NƏZƏRİNDƏN AİLƏNİN MÖVQEYİ.........................................................................236
İSLAMDA BOŞANMA...............................................255
MÜVƏQQƏTİ EVLƏNMƏ..........................................268
ZÖVCƏLƏRİN SAYI....................................................276

# MÜQƏDDİMƏ

Bəşəriyyəti hər gün yeni-yeni üfüqlərlə tanış edən, zahiri bərli-bəzəkli görünən «mədəni dünya»mız artıq, həyat gerçəkliklərindən kənara çıxıb, iqtisadiyyat və maddiyyata əsaslanan öz məntiqi ilə insani dəyərlərin mahiyyətini dəyişdirir. Xalqın mə˒nəvi və ideoloji inkişafının keyfiyyəti onu əbədiyyət aləmindən xəbərsiz edir. Daxili xüsusiyyətləri əsasında gözünü mə˒nəvi dünyaya dikən insan, diqqətini yalnız maddi aləmə yönəldir və təbiətin qeyri-maddi cəhətini habelə, səmavi həqiqətləri xəyali məfhumlarla əvəz edir. Ona görə də mümkün qədər çox sərvət toplamaq və maddi rifaha malik olmaq onun ali məqsədinə çevrilir. Fərdi və ictimai münasibətlərdə hökmranlıq edən, müxtəlif şəkillərdə zahir olan belə təfəkkür tərzi ilə bəşəriyyətin həqiqi səadətə nail olacağını təsəvvür etmək düzgün deyildir. İnsan öz əli ilə düzəltdiyi maddiyyat bütlərini sındırmaqla, təfəkkürünü büsbütün dəyişməklə və mə˒nəvi həqiqətləri axtarıb tapmaqla nicat tapa bilər.

Biz bu sözlərlə heç də müasir mədəniyyətin bütün imkanlarını, rabitələrin sür˒ətliyini və texnikanın inkişafını inkar etmirik; onun

məziyyətlərinə və faydalarına göz yummuruq. Çünki, bu yolla insanın həyat və məişəti daha yaxşı tə`min edilir, onun normal yaşayış şəraiti daha da asanlaşır. Amma, insan ruhunun dərinliyi nəhayətsiz bir gerçəkliyin qarşısında qərar tapdığıdan, mə`nəvi səadəti maddi rifahla qurmağın qeyri-mümkün olmasını başa düşməliyik. İnsan batini rahatlığa çatmaq üçün yalnız maddi rifahla kifayətlənə bilməz. O, dinin əhəmiyyətini, onun nə üçün göndərildiyini unutmamalı və zatən ehtiyaclı olduğu şeylərdən xəbərsiz qalmamalıdır.

Ümumbəşəri qanunların, insan haqları və vicdan azadlığının müdafiəsi iddiaları ilə çıxış edən tərəqqipərvər əsrimizdə ictimai-siyasi məktəblər tam soyuqqanlılıq və rəhimsizliklə milyonlarla adamın ölümünə səbəb olan iki böyük dünya müharibəsinin tonqalını qalayıblar. Hal-hazırda dünya ictimaiyyətini ümumi bəlalardan qorumaq məqsədi ilə yaradılan beynəlxalq təşkilatlar da ehtimal verilən digər təhlükələrin qarşısını almaq üçün ağlabatan yollar göstərə bilmirlər. Son dövrlərdə daha bir müharibə alovunun şö`lələnmək ehtimalı heç kəsə gizli deyildir. Müasir kütləvi qırğın silahlarının dəhşətli

dağıdıcı gücünü nəzərə alsaq, başa düşə düşərik ki, belə bir ocağın qalanması ilə bəşəriyyət tamamilə yanıb külə dönə bilər.

Təəssüflər olsun ki, uzun illərdir şərq xalqları qərbin texnoloji və iqtisadi tərəqqisi qarşısında həqarət hissi ilə dayanmış, özünə e᾿timad və inam hissini əldən verib, ruhsuz və tüfeyli bir cəmiyyətə çevrilmişdir. Onlar müasir mədəniyyətlə kifayət qədər tanış olmadıqları üçün qərbdən gələn hər bir şeyi zamanın hökmü kimi qəbul edirlər. Qərb təfəkkür tərzi insanlara hakim olmuşdur və onlar elə düşünürlər ki, insan günün «tələblərinə» təslim olmalıdır. Hətta həmin «tələblər» səhv və məntiqsiz olsalar belə, onları qəbul etmək lazımdır.

Şübhə yoxdur ki, özündə zəiflik və çatışmazlıq hiss edən bir cəmiyyət bu mürtəce əqidənin tə᾿siri altına düşərək, heç vaxt həyatını yeniləşdirmək, geriliyini aradan qaldırmaq üçün sə᾿y etməyəcək. Xalqın iste᾿dad və bacarığını inkişaf etdirmək, cəmiyyətdə müstəqil düşüncə tərzini bərqərar etmək üçün insani dəyərləri dirçəltmək və bütün imkanları səfərbər etməkdən savayı başqa bir yol yoxdur.

Başqa bir tərəfdən isə gənc nəslin düşüncə tərzi müasir dövrün zərərli ideoloji hücumlarına mə`ruz qalıb, hər gün bu zəhərli ideyalar ona öz ziyanlı tə`sirini göstərməkdədir. Belə bir şəraitdə İslam alimlərinin vəzifəsi çox şərəfli və həyat bəxşedicidir. Onlar gərək elmi anlayışlar və məntiqi yollarla gənclər və yeniyetmələr üçün hidayət yolunu göstərsinlər, böyük İslam mədəniyyəti və maarifini onlara təqdim etsinlər.

Son illərdə alimlər tərəfindən bu istiqamətdə diqqətəlayiq işlər görülməsinə baxmayaraq, hələ də İslam ideologiyası cavanların bütün təbəqələrinin düşüncə və təfəkkürünə yol tapmayıb; bu böyük və çox qiymətli mə`nəvi irs kifayət qədər tanıtdırılmayıb. Bu kitabda qərb dünyasının maddi fikirlərə əsaslanan düşüncələri güclü islami məntiqlə üzləşdirilib, yetərli müqayisələr edilib və qərb mədəniyyəti ictimai, siyasi, iqtisadi zəminlərdə islami baxışlarla təhlil olunub. Mənbələrdən və dəlillərdən istifadə etməklə, İslamın ictimai asayişi bərqərar etmək, cəmiyyətin inkişaf yollarını göstərmək proqramları oxucuların nəzərinə çatdırılır. Çünki İslam, müxtəlif millətləri bir-birinə yaxınlaşdırmaq, mədəniyyəti inkişaf etdirmək və dünyada kamil

bir maarifin əsasını qoymaq üçün bütün müsbət elementləri səfərbər etməyə qadirdir.

Xristianlığın əksinə olaraq, islamda heç vaxt elm və din arasında çəkişmələr mövcud olmayıb. Daha doğrusu, alimlər İslam dininin sayəsində elmdə çox yüksək nəticələr əldə etmişlər. Onlar elmi tədqiqatlar, yaşayışın təkamülü və hamının qəbul edə biləcəyi təbii və fitri qanunlar baxımından, beş əsr ərzində bəşəriyyətin öncülləri olmuşlar. Müsəlmanlara maddi və mə᾿nəvi tərəqqi bəxş edən, onları elm öyrənməyə təşviq edən məhz İslam dininin özüdür. İslam, müasir dövrdə hakim olan təəssüblü fikirlərdən uzaq olub, insanlar arasında qarşılıqlı həmkarlıq ideyasını təbliğ edir.

Maddi me᾿yar və dəyərlərin əsiri olmuş müasir dünyada hələ də yalnız İslam dini öz əbədi tə᾿limlərini çəkinmədən göstərə bilir. İslamın mahiyyət və özülü həqiqətdən yoğrulub; o, həmişə olub və olacaq; İslam tə᾿limləri həmişə təravətlidir və bütün dövrlərlə ayaqlaşa bilir.

Hər bir əsrdə insan öz hədəfini və həyatının mə᾿nasını İslam dini ilə

müəyyənləşdirə bilər; onun qanunlarına tabe olaraq, maddi həyatın tufanlarından xilas olar.

Əgər cəmiyyət bu ali səmavi proqramları tətbiq etmək üçün çalışsa, həqiqi səadət qapılarını öz üzünə açar və məntiqli, sağlam həyat tərzini əldə etmiş olar.

Müxtəlif təbəqələrdən olan insanların bu kitabı yüksək rəğbətlə qarşılamaları belə bir həqiqəti sübuta yetirir ki, xoşbəxtlikdən gənc nəslin bir hissəsi haqqa tərəf addım atmaqdadır. Onların müasir mədəniyyət və onun müxtəlif cəhətlərini tanıması, qərb mədəniyyətinin mahiyyətini düzgün dərk etmələri bu gün çox mühüm bir işdir. Ümid edirəm ki, bu kitab insanların ümumi məˈlumatlarının artırılmasına kömək edəcək, onlara qərb mədəniyyətinin nə olduğunu daha yaxşı başa salacaq və gənc nəslin hidayət və islah olunmasına təˈsir edəcək.

**Əl-həmdu lillahi Rəbbil aləmin.**

**Qum şəhəri-Seyyid Müctəba Musəvi Lari**

## İNSAN MƏDƏNİYYƏTİ VƏ HƏYATINA ÜMUMİ BİR BAXIŞ

Alimlər yer üzərində ibtidai insanların yaşayışı barədə nə qədər çox tədqiqat aparırlarsa, həyatın yaranma tarixi bir o qədər uzaq dövrlərə gedib çıxır. Buna görə də həmin məsələ elmə mə̀lum olmayan bir çox anlaşılmazlıqların yaranmasına səbəb olmuşdur. Yer üzündə insanların yaranmasından elə də böyük bir müddət keçməmişdir və həmin zaman fasiləsi Yer qabığı və onda həyatın başlanması ilə müqayisədə çox əhəmiyyətsiz görünür. Arxeoloqların yeraltı qazıntılar zamanı əldə etdiyi əşyalar üzərində aparılan tədqiqatlar nəticəsində müxtəlif dövrlərdə yaşamış insanlar haqda diqqətəlayiq mə̀lumatların öyrənilməsinə baxmayaraq, hələ də qədim insanların həyat və yaşayışlarının müxtəlif prosesləri haqda aydın mə̀lumatlar əldə edilməyib.

Onlar öz elmi axtarışlarına əsasən, qədim tarixi müxtəlif dövrlərə bölmüşlər. İnsan daş dövründə acından ölməmək və həyatını davam etdirməkdən ötrü daş və ağac kimi sadə alətlər vasitəsi ilə ov edir, vəhşi və yırtıcı heyvanların təhlükəsindən qorunmaq üçün mağaralara

pənah aparırdı. O, yalnız ovçuluqla məşğul olur, bütün isteʾdad və bacarığını bu işə sərf edir, ibtidai şəkildə çəkic və nizə ucluqları düzəldirdi. İnsanın həyatı müntəzəm olaraq müxtəlif təhlükələrlə qarşılaşır və o, qaranlıqdan daha çox əziyyət çəkirdi. Məhz bu dövrdə od qalamağı öyrənərək, onunla yemək bişirir və gecə qaranlığında işıq əldə edirdi. Bu minvalla neçə-neçə əsrlər ötüb keçir və qədim daş dövrü sona yetir.

İnsan övladının yeni daş dövrünə daxil olması, onun yaşayışının müxtəlif sahələrində dəyişikliklər baş verməsi ilə xarakterizə edilir. Yaşayış vasitələri və əmək alətlərinin hələ də daşdan ibarət olmasına baxmayaraq, onlar bu dövrdə əvvəlkilərlə müqayisədə daha inkişaf etmiş formada olurdu. Onlar daş və ağacdan özləri üçün kiçik evlər düzəldir, günəş və od vasitəsilə bişmiş palçıqdan qablar hazırlayır, əkin əkməyi və heyvanları əhilləşdirməyi öyrənirdi. Ağac və bitkilərdən bəʾzilərinə qulluq edir, onlardan qidalanmaq və ya ox-kaman düzəltmək üçün istifadə edirdilər. Beləliklə, tədricən daş dövrü arxada qaldı və mis dövrü başlandı.

Bu dövrdə insan həyatı və mədəniyyətinin yeni mərhələsi formalaşmağa başladı. Artıq o, təkcə qarnını doyurmaq üçün çalışan bir canlı deyildi. Müxtəlif hadisələr onu «qarnından» daha uzaqlara diqqət yetirməyə vadar edir, ətraf mühit haqda düşünmək məcburiyyətində qoyur və təbiətlə mübarizə isə qələbələrinin sayını artırmağa səbəb olurdu. Buna görə də onun ehtiyac və istək dairəsi getdikcə genişlənirdi. Nəhayət, həyat uğrunda mübarizə aparan insan, təbiətin gözünün içinə dik baxaraq özü üçün müəyyən bir yol seçdi və bu proses xüsusi bir mədəniyyətin yaranması ilə nəticələndi; cəhalət və nadanlığın hökm sürdüyü bir şəraitdə, elm və bilik yolunu tapmağa çalışdı.

İnsanı digər canlılardan fərqləndirən əsas xüsusiyyət onun ağıl və idraka malik olmasıdır. İnsan, ağılı öz daxilində hərəkətverici bir qüvvə kimi hiss edirdi və bu da onu inkişaf və yeniliklərə doğru çəkirdi. Atdığı hər bir addımdan sonra, daxilində müəyyən bir rahatsızlıq və yeni şeylər öyrənmək hissi baş qaldırırdı. Tarixi hadisələrin yaranmasına səbəb olan və insanın yaşayış tərzini dəyişdirən həmin şey, vəsf olunması qeyri-mümkün sayılan

«insan ağlı»dır. İnsan bu «verginin» işığında əşyaları diqqətlə müşahidə edir, onlar haqqında düşünərək təcrübələr aparır, məˌlumatlarını beyin adlanan heyrətamiz bir yaddaş «anbarında» toplayır və hadisələrlə qarşılaşan zaman bunlardan istifadə edirdi. Bəşər övladı eramızdan dörd min il əvvəl, mədəniyyətin müxtəlif sahələrini inkişaf etdirərək əlifba və yazı, sənətkarlıq və ticarətdə mühüm nailiyyətlər əldə etmişdir. Heykəltaraşlıq və meˌmarlıqla məşğul olmuş, əmək alətləri düzəltmək üçün mis və dəmirdən istifadə etməyə başlamışdır. Həmin dövrdə böyük bir din meydana çıxmış, Babil ölkəsində həzrət İbrahim (ə) zühur etmiş və Allah-taala da o ölkə cəmiyyətinin rəhbərliyini onun öhdəsinə qoymuşdu. İbrahim (ə) mövcud vəziyyətlə mübarizəyə qalxaraq, peyğəmbərlik vəzifəsinin icrasına başladı; xürafi əqidə və fikirlərə qarşı vuruşdu. Həmin əqidə sahibləri ona qarşı ciddi müqavimət göstərdilər. Bunların ən güclüsü isə Nəmrud idi ki, İbrahimin (ə) təbliğatını özü üçün böyük təhlükə hesab edirdi. Ona görə də, Nəmrud bütün qüdrətini səfərbər edib peyğəmbərə qarşı çıxmağa başladı. Amma həzrət İbrahim (ə) Allahpərəstlik və Tövhid

təbliğatını habelə, zülmkarlar əleyhinə mübarizəsini qətiyyətlə davam etdirərək, Nəmrudu məğlub etdi. Uzun sürən səfərdən sonra Hicaz ölkəsinə daxil olub, övladı İsmailin (ə) köməkliyi ilə Tövhid evinin (Kə`bənin) binasını qoydu.

## *MİS DÖVRÜNDƏN SONRA TARİXİN YENİ BİR MƏRHƏLƏSİ*

Əldə olan tarixi m`əlumatlar e`ramızdan 750 il qabaqkı hadisələri əhatə edir. Rum imperiyasının təşkilindən iki əsr keçmişdi ki, İranda Zərdüştlik, Çində Laotse, Yaponiyada Konfutsi və Hindistanda isə Budda ideyalarının əsası qoyuldu. Yunanıstanda Ərəstun (Aristotel) və Əflatunun (Platon) fəlsəfi məktəbləri formalaşdı. Nəhayət, İsa ibni Məryəm (ə) Allah tərəfindən cəmiyyəti islah etmək üçün göndərildi ki, bəşəriyyəti yəhudilik girdabı olan dünyapərəstlik bataqlığından xilas etsin. O, xalq arasında ictimai bəla olan fəsad və əxlaq pozğunluğunu götürmək üçün ayağa qalxdı.

Bu mərhələnin inkişaf nümunələrini xatırlamaq istəsək, həmin dövrdə işlənən rabitə vasitələrini, tikililəri, sənətkarlıq və tibbi nailiyyətləri misal göstərmək olar.

Artıq, 476 -cı ildən e᾿tibarən orta əsrlər dövrü başlanır və həmin illərdə bir çox mühüm hadisələr baş vermişdir. Bu dövrdə kilsə öz mə᾿nəvi və ruhani hüdudlarını aşaraq cəmiyyətin bütün sahələrində nəzarəti öz üzərinə götürür, zahiri qüdrətdən başqa ictimai fikirlərə də hakim olur; Avropada qan tökmək, cəhalət, vəhşiliyə meyllik bu dövrün səciyyəvi xüsusiyyətlərindən hesab olunur. Həmin dövrdə şərqdə İslam mədəniyyəti yaranmağa başlayır.

Yeni dövr Sultan Məhəmməd Fatehin 1453-cü ildə İstanbula daxil olması və şərqi Rum imperiyasının dağılması ilə başlayır. Bu mərhələdə İngiltərə, Fransa, Almaniya, Avstriya, Macarıstan kimi böyük dövlətlərin qüdrəti genişlənmiş, kompasın kəşf olunması ilə avropalılar Atlantik okeanını keçərək Amerikanı kəşf etmişdilər.

Həmin dövrdə bir çox ideoloji və elmi hərəkatlar yaranmış, dövlətlər arasında rabitələr bərqərar olmuşdu.

1789-cu ildəki Fransa inqilabından sonra dünya sənayesində təsəvvürolunmaz irəliləyiş baş verdi. Kəşflər və ixtiralar sür᾿ətlə bir-birini əvəz etdi və hər bir sahədə yeniliklər

görünməyə başladı. Bununla da Avropa tarixində yeni bir səhifə açıldı.

## *MÜASİR QƏRB MƏDƏNİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ*

Qoynunda böyüyüb boya-başa çatdığımız, tərbiyə olunduğumuz və yaşadığımız dünya öz ictimai inkişaf yolunda insanlıq karvanını heyrətamiz bir səviyyəyə çatdırmışdır. Müasir dövrdə bəşəriyyət ideoloji inqilab və dəyişikliklər mərhələsinə daxil olmuş, çox böyük elmi və fikri qüvvə ilə təchiz edilmişdir. İnsan övladı hər gün öz düşüncə qabiliyyəti çərçivəsində istək və ehtiyaclarını nəzərdən keçirir, onları tə̓min etməyə çalışır. Texnologiya və sənayenin inkişafı sayəsində bir çox problemlər həll olunmuşdur. Elm, insanın məşəqqətli yükünün böyük bir hissəsini ondan alıb, maşın və istehsal vasitələrinin üzərinə qoymuşdur. Nəticədə o, həyat və məişətinin əksər hissəsini texnikalaşdırmış, yaşayışın daha asan və yüngül məziyyətlərindən istifadə etməyə başlamışdır. Elmi-texniki inkişaf bundan əlavə, materiyanın öyrənilməsində, bir çox dinamik sirlərin açılmasında insana fövqəladə köməkliklər göstərmiş və onun elmi

fəaliyyətlərinin daha da artmasında çox böyük rol oynamışdır. Aydındır ki, həyat fəaliyyətlərinin həddən artıq genişlənməsi sür᾽ət amilini diqqət mərkəzinə çıxarmış, vaxtilə gecə və gündüzlə ölçülən zaman vahidini dəqiq şəkildə dəqiqə və saniyələrə bölmüşdür. Ona görə də sür᾽ət, vaxtdan səmərəli istifadə və qısa bir müddət ərzində böyük işlər görülməsi elmin ən çox əhəmiyyət yetirdiyi işlərdəndir.

Elektrik və buxar gücünün kəşfindən əvvəl gəmilərin hərəkəti üçün küləkdən istifadə olunurdu. Amma bu gün elektrik və buxar maşınlarının özləri də təkmilləşdirilmiş, okeanlarda hərəkət edən nəhəng gəmilər icad edilmişdir. Uzaq səfərlərə çıxmaq və yük daşımaq üçün dördayaqlı heyvanlar əvəzinə avtomobillərdən, qatar və təyyarələrdən istifadə olunur; çox böyük məsafələr qısa müddətə qət edilir. Bəşər övladının daim cövlan edən düşüncə və fikirləri təkcə yer üzərini gəzib-dolanmaqla kifayətlənmir, daha geniş üfüqləri aşaraq yuxarılara yüksəlir, digər planetləri və göy cisimlərini ram etməyə çalışır. Göylərin yüksəklikləri və dəryaların dərinlikləri insanın diqqətini cəlb etməkdədir. Bu böyük dünya haqqındakı mə᾽lumatların həddindən artıq az

olduğu və bir çox məsələlərin yanlış düşünüldüyü zaman arxada qalmış, bir çox heyrətamiz sirlər kəşf edilmiş, elm və tədqiqatın sayəsində təbiət və onda baş verən hadisələr araşdırılmış, dəqiq təcrübələr aparmaqla aləmin qəribə müəmmaları üzərindən pərdələr götürülmüşdür. Təbii elmləri tədqiq edən labaratoriyalar müxtəlif növ elektron cihazlarla təchiz olunmuş, kiçik hissəcikləri öz həqiqi ölçülərindən min dəfələrlə böyük göstərməyə qadir olan mikroskoplar ixtira edilmişdir. Qısa şəkildə qeyd etmək lazımdır ki, qərbin əldə etdiyi məziyyət və üstünlüklər danılmazdır. Heç kəs müasir qərb mədəniyyətinin istehsal vasitələrinin inkişaf etdirilməsi, təbii mənbələrin kəşfi, onların düzgün mənimsənilməsi və elmi-texniki sahələrdəki nailiyyətlərini inkar edə bilməz. Səhiyyə və anti-sanitariyanın inkişafı isə göz qabağındadır. Keçmişdə təbabətin zəifliyi ucbatından bir çox xəstəliklərə qarşı dərmanlar yox idi. Körpə uşaqların böyük bir hissəsi dünyaya göz açan kimi müxtəlif xəstəliklərlə üzləşir, nəticədə qısa bir müddətdən sonra ölürdülər. Bə`ziləri isə həmin xəstəliklərə tutularaq ömür boyu onların tə`sirindən əziyyət çəkirdilər.

İnsan torpağa ayaq basdığı zamandan başlayaraq, müntəzəm olaraq həyatı inkişaf və dəyişikliklərlə yanaşı olmuşdur. Amma müasir dövrdə bəşəriyyətin elmi təşəbbüs qüvvəsi o qədər sür᾽ətli və hərtərəflidir ki, bu zaman intervalı xüsusi imtiyaz əldə etmiş, elmi qələbə, eləcə də təkamül adını almışdır. Əlavə olaraq qeyd etmək lazımdır ki, dünyanın və təbiətin sirlərini öyrənmək istiqamətində alimlərin heyrətamiz və böyük kəşflərinə baxmayaraq, hələ də həmin sirlər kitabının yalnız çox kiçicik bir hissəsi oxunmuşdur.

Təəssüflə e᾽tiraf etmək lazımdır ki, müasir qərb mədəniyyətinin bütün bu nailiyyətləri ilə yanaşı, çoxlu nöqsan və zəif cəhətləri də vardır. Cəmiyyətin asayiş və rifahını yüksəldən mədəniyyətin üstünlüklərini göstərdiyimiz zaman, onun ümumbəşəri fəzilətləri, həqiqi dəyərləri sarsıdıb aradan aparan və insanların mə᾽nəvi tənəzzülünə səbəb olan çatışmazlıqlarını da qeyd etmək lazımdır.

Qərbdə sənayenin inkişafı öz zirvə nöqtəsinə çatmışdır və insanların maddi təlabatı sür᾽ətlə tə᾽min olunur. Amma xalqın ruhi və mə᾽nəvi həyatı əksinə inkişaf edərək, yox dərəcəsinə çatmışdır.

Qərb dünyası insani və əxlaqi dəyərləri sərbəst e᾿lan edərək, insanların boynuna texnikanın köləlik zəncirini atmışdır. Şübhəsiz ki, maşın və cihazların qulları heç vaxt həqiqi xoşbəxtlik və səadətin nə olduğunu bilməyəcəklər. Elm, yaşayışı nizamlayır və bu nizam rifaha səbəb olur, amma xoşbəxtlik gətirmir. Səadət bəxş etmək elmin öhdəsindən xaric olan bir işdir. Elm, faydalı və ya ziyanlı, çirkin və ya gözəl tanımır; o, yalnız «düzgün» və yaxud «səhvi» bir-birindən fərqləndirməyi bacarır. Bəşər həyatı təkcə elmi quruluşdan ibarət olsa, yandırıcı cəhənnəmdən başqa bir şey deyildir. Bertrand Rasselin dediyi kimi, belə bir nizamla kəskin mübarizə aparmaq lazımdır.

Qeyd olunan mədəniyyət bəşəriyyətə qiymətli hədiyyələr bəxş etsə də, digər tərəfdən minlərlə dəhşətli cinayətlər və qorxulu fəsadlar da törətmişdir. Nəfsani istəklərin sonsuz və rəhimsiz atəşi ruh və canlara hücum çəkmiş, mə᾿nəvi rahatlığı insanların əlindən almışdır. Elm mə᾿nəvi həyat mühitində çıraq yandıra bilməmiş, əksinə onun zülmətini bir az da artırmışdır.

Elmin belə qələbəsi çoxlu tələfat, müsibətlər, bədbəxtliklər hesabına əldə edilən hərbi

qələbəyə bənzəyir ki, itkilərin yeri heç cür bərpa olunmur. Bu cür mədəniyyət bağında becərilən hər bir gülün yanında tikanlı kollar cücərməyə başlayır. Avtomobillər, təyyarələr, zavodlar, tibbi ləvazimatlar həyatın rifahı üçün müasir mədəniyyətin hədiyyələridir. Amma kütləvi qırğın silahları, raketlər, əxlaqsızlıq və cinayətlərin inkişafı da həmin mədəniyyətin bəşəriyyətə verdiyi üzdəniraq töhfələrdəndir.

Mədəni dünyamızda ağıl ayrı-ayrı mənafelərin xidmətindədir və maddi şeyləri əldə etməkdən başqa bir istiqamətdə işlədilmir. Ona görə də əxlaqi fəzilətlərin çoxu məhv edilmiş və həmin dəyərlər unudulmuşdur. Bu da sağalmaz yaraya bənzəyir. Müasir həyat şəraitimizin elmi fəaliyyət və hərəkatlar meydanından uzaq olmasına baxmayaraq, bu hücumlar mədəniyyətimizə, ictimai və şəxsi həyat mühitimizə, təʾlim və tərbiyəmizə yol tapmışdır. Hal-hazırda bir çox ölkələrin sərhədləri əcnəbi fikirlərin və əxlaqi normaların üzünə açıqdır. Adət-ənʾənələr bir ölkədən digərinə asanlıqla keçir. Bunların içərisində düzgün və faydalı fikirlər də mövcuddur, amma fəsad və pozğunluqlar ehtirasları coşduran hisslərin vasitəsi ilə daha tez və daha

qabarıq şəkildə özünə yer tapır. Cəmiyyətimiz elm və texnikanın inkişafı baxımından qərb millətlərinə çatmaq imkanında olmasa da, onların mədəniyyətində olan əxlaqi yüngüllükləri mənimsəməkdə yüksək rəğbət göstərir, qorxulu meyllər müsəlmanlar arasında daha tez yayılmağa başlayır.

Hər bir cəmiyyətin ən böyük məğlubiyyəti, yaxşıyla pisi fərqləndirmək qabiliyyətini əldən verməsidir. Belə bir cəmiyyət heç vaxt səadət və xoşbəxtlik əldə edə bilməz.

Təəssüflər olsun ki, bə`ziləri öz-özlərini aldadır, qərb mədəniyyətinin zahiri cilvələri onların gözünü qamaşdırır və nəticədə müasir dövrün əxlaqi böhran və müsibətlərini görə bilmirlər. Bəzən həmin mədəniyyətin ağuşuna düşmüş bir sıra şəxslər elə vəziyyətə gəlib çıxırlar ki, düzgün olmayan yaramaz həyat tərzini ən üstün yaşayış növü sayırlar və bər-bəzəkli zahiri cazibələrin hesabına, hətta özlərini belə tamamilə itirirlər. Qərb mədəniyyətinə uyğun olmayan hər bir hərəkət və rəftardan çəkinərək, bunları özləri üçün xəcalət sayırlar. Ən böyük çatışmazlıq sayılan bu ruhiyyə, müstəqil fikir və şəxsiyyətin itirilməsi ilə yanaşı, milli və dini dəyərlərin

gözəlliklərindən xəbərsizliyin də nəticəsidir. Həmin insanlar öz vəziyyətlərini dərindən təhlil edə bilsələr, bir çox həqiqətlər onlar üçün aydınlaşar. Bə`zi xalqlar Avropanın inkişaf etmiş sahələrini öyrənmək və müasir mədəniyyətlərə yiyələnməklə bərabər, keçmiş adət-ən`ənələrindən və dinlərindən də əl çəkməmişlər. Bu ölkə və xalqlara Yaponiyanı misal göstərmək olar. Yaponiya öz əqidə və adətlərini qoruyaraq, ildırım sür`ətilə inkişaf yoluna qədəm qoymuş və mütərəqqi ölkələrdən birinə çevrilmişdir. Bu ölkə 60 ilin ərzində geridə qalmış dövlətlər sırasından çıxaraq, dünyanın ən qabaqcıl ölkələri sırasına daxil olmuşdur. Yaponiya heç vaxt qərb mədəniyyətinin əsiri olmamış, qədim zamanlardakı kimi milli-məzhəbi ən`ənələrini qoruyub saxlamağı bacarmışdır.

Amma bizim bə`zi üzdəniraq ziyalılarımız son dərəcə aydın məsələləri düzgün təhlil edə bilmir və ən sadə dini göstərişləri dərk etməkdə aciz qalırlar. Din haqqında yersiz iradlar və tənqidlər irəli sürür, bununla fəxr edir və özlərinin kamil bir ziyalı olduğunu sübut etmək istəyirlər. Qəflətdə olan bu sinif heç vaxt həyatın gerçəklikləri haqqında düzgün və azad

fikir yürüdə bilməyəcək, zehni araşdırma və tədqiqatlarla həqiqəti tapmağa qadir olmayacaqlar.

Bir məsələyə də diqqət yetirilməlidir ki, bəşər təfəkkürünün inkişafı sayəsində maddi həyatın müxtəlif sahələrində və insan həyatında misilsiz dəyişikliklər, böyük sıçrayışlar baş vermişdir. Bütün bunlar elmi axtarışların nəticəsi olaraq, təcrübələr vasitəsi ilə təbiət qüvvələrinin ram edilməsinə səbəb olmuşdur. Həyat səhnəsindəki qələbələr yüksək zəhmətlər və daimi səʾylərin məhsuludur. Təcrübi və əqli elmlərdə təkamül və inkişaf heç vaxt eyni sürʾətlə baş vermir. Daha doğrusu, bunlar iki müxtəlif cəhətlər hesab olunur. Hətta mümkündür ki, bir sahədəki tərəqqi, digər sahədəki geriliklə eyni vaxtda müşahidə olunsun. Qərb alimlərindən birinin dediyi kimi, «Qərb məʾnəviyyət sahəsində Şərqə möhtacdır. Şərqin məʾnəviyyatı qərbinkindən daha zəngin və dolğundur. Əgər şərqlilər müasir elm və sənayedə qərblilərdən istifadə edirlərsə, qərblilər də məʾnəviyyat sahəsində şərqlilərdən istifadə etməlidirlər». Bəşəriyyət öz yaşayışında müasir sənaye və texnoloji avadanlıqlardan başqa, digər üsullara da ehtiyaclıdır. Əgər cəmiyyətin ictimai-siyasi

qurumları həyatın əsl fəlsəfəsindən ayrılsa və yaşayış mə᾽nəvi dəyərlərə əsaslanmayaraq, yalnız maddi tələbatların ödənilməsinə yönəlsə, onda həyata zalım bir rəhimsizlik hakim olar.

Təəssüf ki, bu gün bəşəriyyət özünün «uşaqlıq» çağını yaşamaqdadır və hələ də əqli kamilliyə yetişməyib ki, öz səadəti üçün təbiətin qoynunda gizlənən qiymətli ehtiyatlardan həmçinin, insanın zəngin daxili imkanlarından lazımı şəkildə istifadə edə bilsin. Bu səbəbdən də müasir insan əqli gerçəkliklərdən daha çox öz cılız hisslərinin tə᾽siri altında olan uşaqlar kimi, yaşayışlarında ağıl və məntiqin yerini təəssüb və mənfi emosiyalara vermişlər. Hələ də bəşəri düşüncə xürafat və mə᾽nasız xəyalların caynağındadır. Bə᾽zən bütlərə pərəstiş şəklində, bə᾽zən də materialist düşüncə tərzi formasında zahir olan «mütərəqqi və mədəni» ideyalar arasında heç bir fərq yoxdur. Bəşəriyyət acı təcrübələr nəticəsində başa düşməyə başlamışdır ki, ya həqiqət və hidayət yolunu seçməli, yaxud da məhv olmalıdır. Məşhur sosioloq Sorokin deyir: «Qərb cəmiyyətinin mədəni, mə᾽nəvi və həyati sahələrinin hər biri böhran vəziyyətindədir. Bu mədəniyyətin cismi və ruhu şiddətli dərəcədə xəstədir. Qərb

mədəniyyətinin «cismində» yaralı olmayan üzvləri və ya onun «əsəb sistemində» öz vəzifəsinə düzgün əməl edən hissləri tapmaq çox çətindir.»

Biz iki əsrin qovuşduğu bir zamanda yaşayırıq. Dünənin can verməkdə olan maddiyyatla bağlı mədəniyyəti, öz yerini sabahın doğulmaqda olan mə’nəviyyata əsaslanan mədəniyyətinə verməkdədir. Altı əsr müddətində parlayan mədəniyyətin işığı artıq sönmək ərəfəsindədir. Başa çatmaqda olan bu dövrdən sonra yeni mədəniyyət əsri başlayır və gələcəkdə bəşəriyyətə yüksək bir mə҆nəvi mədəniyyətin hakim olacağı gözlənilir.

İnsafdan çox uzaqdır ki, biz başqalarının adət-ən҆ənələrini tamamilə qəbul edək və yadların itaət zəncirini boynumuza keçirək.

Təşəbbüs istiqlalın gözü olduğu kimi, kor-koranə təqlid də istiqlalı məhv edən amildir. Əlbəttə, əgər başqalarından bir şey iqtibas etmək quruculuq və islahatçılıq xarakteri daşıyarsa, bu daha təqdirəlayiq bir iş olacaqdır. Məsələn, insan bir əli ilə hər hansı bir şeyi götürüb, digər əli ilə onu islah edib dünyaya nümayiş etdirirsə, onu müsbət qiymətləndirmək lazımdır. Şübhə yoxdur ki,

düşüncə və əxlaqımızda hərc-mərcliyə düçar olmağımız, ya geri qalmağımız, başqalarının zərərli fikirlərinin ardınca getməyimiz ucbatındandır. Öz tarixi və əxlaqi köklərimizdən uzaq düşmək, habelə qərbə meyl etmək belə təhlükələri daha da çoxaldır.

Böyük İslam mütəfəkkirlərindən biri deyir: «Biz demirik ki, düşüncə və rəftarımızda özünütəcrid yolunu seçək və tarixin svilizasiyalı inkişafından geri qalaq. Biz də bu karvanın sərnişinləriyik və onda öz payımız var. Daha doğrusu, biz müsəlmanlar bəşər mədəniyyətinə misilsiz töhfələr bəxş etmişik. Amma təəssüflər olsun ki, bu gün öz qədir-qiymətimizi bilmirik və həmin məqama əhəmiyyət vermirik. Parlaq və şanlı keçmişimizi düzgün qiymətləndirməyincə, dünya ictimaiyyəti arasında öz layiqli yerimizi tutmayınca, fikir və düşüncələrimiz köləlikdən azad olmayacaqdır. Yadlara əl açmaq adətini tərk edə bilsək, onların bizlərə necə itaət etdiyinin şahidi olarıq.

Burada mədəniyyət məfhumunu iki cür izah edə bilərik: Birincisi, öz parlaq keçmişimizi əldən verməyək və daimi yaşayış prinsiplərimizi həyat təcrübələrimizlə uyğunlaşdıraq və qoruyaq.

İkincisi, əcnəbi mədəniyyətlərin aldadıcı qiyafəsini həyat və məişətimizdə tətbiq edək və bunların bizim mədəniyyətimizə necə tə᾿sir edəcəyi haqda əsla düşünməyək.

Birinci mə᾿na ali insani təfəkkürlə uyğun olan mədəniyyətdir. İkincisi isə, işi yalnız itaət və yamsılamaq olan meymunların mədəniyyətidir. Mədəni millətlər arasında maddiyyata meyl etmək ifrat dərəcəyə çatmışdır və praktiki olaraq, hər hansı bir avropalı öz yaşayışının hədəfini daha çox maddi ne᾿mətlərə sahib olmaqda görür. Amma bununla belə oradakı insanların çoxu öz dini e᾿tiqadlarına bağlıdır və bu da həmin təhrif olunmuş, xürafatla qarışmış məsihilik ayinlərindən ibarətdir. Aydındır ki, belə ayinlər xalqın mə᾿nəvi və ruhi ehtiyaclarını tə᾿min edə bilməz. Təəccüblüsü budur ki, mütərəqqi dünyamızda belə bir din hökmranlıq edir və qərb mədəniyyətinin mə᾿nəvi quruluşunu məhz bu çərçivələr təşkil edir.

Bazar günləri bütün idarə və müəssisələr bağlanır və hər tərəfdən kilsə zənglərinin səsi eşidilir. Mə᾿bədlərdə xalqın müxtəlif təbəqələrdən olan nümayəndələri toplanır və keşişlərin moizələrinə qulaq asırlar. Kilsənin nəzarəti altında televiziyadan dini verilişlər

yayılır. Təzə doğulan uşaqlar kilsəyə aparılır və keşiş onların qulağına dualar oxuyur. Din xadimlərinə xalq tərəfindən yüksək ehtiram edilir və onları cəmiyyətin ruhani atası adlandırırlar. Dövlət dini təşkilatları tə᾽min etmək üçün xalqdan vergilər alır və onlar da istər-istəməz həmin vergiləri ödəyirlər. Bu qayda ilə xristian ruhaniləri təmin olunurlar.

Kilsələrdəki xüsusi yerlərdə insanlar keşişin yanına gedib öz günahlarını e᾽tiraf edir və bu «müqəddəs atalar» da onların «günahlarını bağışlayır»!?

Radio, televiziya, qəzet və jurnallar, habelə video filmlər vasitəsilə dini inanclar təbliğ olunur və kilsə bütün bu işlərə xüsusi nəzarət edir.

Mən (müəllif) vaxtilə Almaniyada katolik xəstəxanalarının birində müalicə olunurdum. Orada bir müsəlman ruhanisi kimi mənə xüsusi ehtiram və qayğı göstərirdilər. Həmin xəstəxananın bütün otaqlarında həzrəti İsanın (ə) və həzrət Məryəmin (ə) şəkilləri asılmışdı və orada xəstələrin şəfa tapması üçün dualar oxunurdu.

Bə᾽zi günlər xəstəxananın salonlarının birində həzrət İsanın (ə) heykəli önündə şamlar

yandırılırdı. Bu mövzuya yaxşı diqqət edin. Əgər qərbdə gündüz vaxtı bir kəs heykəl qarşısında şam yandırırsa, buna heç kim pis baxmır, amma gecə qaranlığında imamzadə və pirlərdə bir müsəlman şam yandırarsa, bə᾽zi «yeni» fikirli adamlar ona istehza ilə yanaşarlar.

Qan vurmaq lazım olan vaxt xəstəxana müdiri məndən İslam dininin xəstəyə hansı qanın vurulmasına icazə verdiyini soruşdu. O, qeyri-müsəlmanın qanını müsəlmana vurmağın mümkün olub-olmadığını soruşduqdan sonra qeyd etdi ki, İslam dini hansı qanın vurulmasına icazə verirsə, biz onu hazırlamağa qadirik!!

İnkişaf etmiş cəmiyyətlərdə xalq öz azadlığını müəyyən hədlər daxilində qəbul edir və yaşayış vasitələrindən sui-istifadə etmir. Heç kəsin haqqı yoxdur ki, ucadan danışaraq hətta, divarın o tayında olan qonşuları narahat etsin. Heç kəs gecələr başqalarının istirahətini pozmağa bais olan məclislər keçirə bilmir və şəhərin heç bir yerindən küçədə radio səsləri eşidilmir. Təəssüflə qeyd etmək lazımdır ki, bizim ölkələrdə radio, televiziya və bu kimi sair vasitələrdən düzgün istifadə edilmir. Nəticədə mədəniyyət və mə᾽nəviyyata xidmət etmək

üçün yaradılmış həmin texniki vasitələr əxlaqın pozulmasına xidmət edir. Radio, televiziya, maqnitafon və video maqnitafonları ixtira edənlər heç vaxt razı olmazdılar ki, bu texniki vasitələr insanlara əziyyət versin və ya onların mə᾽nəviyyatının, yaxud əxlaqının pozulmasına səbəb olsun.

## *XRİSTİANLIĞIN İNKİŞAF SƏBƏBLƏRİ*

Müasir dövrdə səmavi və ya qeyri- səmavi din və məzhəblər müxtəlif təhriflərin, eləcə də nöqsan və çatışmazlıqların ucbatından inkişaf etmək əvəzinə, günbəgün süquta doğru yaxınlaşırlar. Təkcə xristianlıq cürbəcür təşəbbüs və səylər nəticəsində bütün dünyada geniş şəkildə təbliğ olunmaqdadır. Hal-hazırda dünyada qarşı-qarşıya dayanan yalnız iki böyük din mövcuddur. Bunlar İslam və xristianlıqdır.

Xristianlığın inkişafı onun mahiyyətindən irəli gələn xüsusi amillərdən doğmur və bu dinin öz ayinləri burada əsaslı rol ifa etmir. Hər bir ideoloji məktəbdə olduğu kimi, onun inkişafında da təbliğat güclü və mühüm təsir amili hesab olunur.

Təbliğat məsələsi xristianlığın inkişaf mərhələləri üçün yüksək əhəmiyyətə malik olan

renosans (intibah) dövründə diqqət mərkəzində olmuşdur. O dövrdən indiyədək xaçpərəstlər güclü təşkilatların vasitəsi ilə öz dinlərini dünyanın bütün nöqtələrində yaymaqla məşğuldurlar.

Onların təbliğatı modern üsullarla mədəni millətlər arasında hərtərəfli və güclü şəkildə aparılmış, iqtisadi cəhətdən geri qalmış xalqlara müəyyən yardımlar göstərməklə, böyük bir kütləyə öz dinlərini qəbul etdirə bilmişlər. Xristianlığın aldadıcı zahiri görünüşü milyonlarla insanın gözünü qamaşdıraraq, onların fikir və düşüncələri üzərinə qaranlıq pərdə çəkmiş, haqqı axtarmaq, həqiqi dini tapmaq imkanından məhrum etmişdir.

İslamın dəvət və təbliğinə gəldikdə isə, imkanlarımız məhdud olduğundan, habelə zəruri təbliğat vasitələrinin kifayət qədər olmaması üzündən dinimizin parlaq simasını dünyaya tanıtdırmağımız çox çətin olmuşdur.

Qeyd olunan məsələ xristianlığın inkişafına səbəb olan mühüm amilllərdəndir.

Müsəlman xalqları və dövlətləri arasındakı münaqişə və çəkişmələr onların zəifləyərək, dünyanın böyük ölkələrinin tə`siri altına düşmələrinə səbəb olmuş, İslam dininin təbliğ

olunmasının qarşısı alınmış və nəticədə xristianlığın yayılması üçün böyük imkanlar yaranmışdır.

## *KİLSƏ RƏHBƏRLİYİNİN TÖRƏTDİYİ FACİƏLƏR*

Xristianlıq xalqın ictimai işlərini idarə etmək üçün xüsusi sistem, qanun və üsullara malik olmadığından, məsihi ruhani qurumları ictimai-siyasi və hökumət məsələlərinə heç vaxt qarışmırdılar.

Bu vəziyyət altıncı əsrə qədər davam etdi. 756-cı ildə Fransa imperatoru öz hökmranlığı altında olan torpaqların bir hissəsini Papanın ixtiyarına verdikdən sonra, sanki xristian ruhaniləri üçün yeni bir dövran başlandı. Avropada nüfuz və qüdrət qazanmaq uğrunda kilsə xadimləri ilə krallar arasında çəkişmələr şiddətləndi.

Kilsəni məsihi ruhaniliyinin simvolu hesab edən xalq, onu kəskin şəkildə müdafiə edirdi və bununla da kilsənin qüdrəti günbəgün artırdı. Uzun sürən bu çəkişmələrdən sonra, artıq iş o yerə çatmışdı ki, kilsə rəqibsiz olaraq, Avropa xalqları üzərində hökmranlıq edirdi. Xristianlıqda məzhəb ixtilafları yaranana qədər

hər bir Avropa şəhərini bir kardinal idarə edirdi. Bir neçə şəhərlərdən təşkil olunan vilayətlərə isə, Papanın canişinləri başçılıq edirdilər. Papa xaçpərəstlərin ali rəhbərliyini öz öhdəsinə alıb kardinal və canişinləri vəzifəyə qoyur və ya çıxarır, bütün işlərə rəhbərlik vəzifəsini həyata keçirirdi. Tədricən Konstantinopoldakı canişinlər Papanın nüfuzu altından çıxmaq fikrinə düşdülər. Uzun illər davam edən bu çəkişmələr, nəhayət 1052-ci ildə onların tamamilə bir-birindən ayrılmasına səbəb oldu; xristianlıq iki yerə bölündü. Şərqi Avropa Konstantinopol ruhanilərinə tabe olaraq, özlərini «ortodoks» adlandırdılar. Polşadan İspaniyayadək uzanan qərbi Avropa ölkələri isə Roma Papasına itaət etməkdə davam etdilər və özlərini «Katolik» adlandırmağa başladılar. Bu iki məzhəb qarşı tərəfi inkar etmə yolunu seçərək, bir-birlərinə qarşı kəskin və barışmaz mövqe tutdular.

16-cı əsrin əvvəllərində Avropada «Protestantlıq» adlı yeni bir məzhəb meydana çıxdı. Həmin məzhəbin banisi Lüter və onun həmfikirləri «cənnət hədiyyə etmək» və «günahları bağışlamaq» kimi cəfəng iddialar irəli sürən Papaya qarşı müxalifətə başladılar.

Onlar kilsənin üzdəniraq qayda-qanun və eyiblərini aradan qaldırıb, onu saflaşdırmaq istəyirdilər. Kilsə üsul idarəsinə və Papanın mütləq məqamına qarşı çıxan Lüter hərəkatının Avropada çoxlu tərəfdarı olduğundan, xristianlıq üç yerə bölündü.

12-13-cü əsrlərin katolik Avropasında Papanın mütləq hakimiyyəti nəticəsində xristianlıqda bid҆ətlər ortaya çıxmağa başladı. Belə bid҆ətlərin qarşısını almaqdan ötrü 1215-ci ildə Papa tərəfindən «inkvizisiya» adlı təşkilatın yaradılması haqqında fərman imzalandı. Fransa, İtaliya, Almaniya, İspaniya, Polşa və başqa ölkələrdə həmin təşkilat bid҆ətçiləri axtarıb tapır, mühakimə edir və cəzalandırırdı.

Bu təşkilat hər cür azad və yeni fikirlərin qarşısını amansızcasına alır, dində təhrif və azğınlıq yaratmaq ittihamı ilə minlərlə insanın qətlinə fərman verirdi. İnkivizasiya ümumi fikirlərdə elə bir boğucu atmosfer yaratmışdı ki, kilsənin əqidələri ilə müxalif olan hər kəs onun qəzəbinə düçar olaraq, müxtəlif işgəncələrə mə҆ruz qalırdı. Hətta, bə҆zən ölülər də küfr və bid҆ət etdikləri üçün məhkəmə qarşısında qalırdılar. Əlbəttə, bu vaxt onların tabutdakı sümükləri «ittiham» olunurdu. Vill Dorant

«Mədəniyyət tarixi» kitabında həmin məhkəmələrin xüsusiyyətlərini belə şərh edir:

«Təftiş məhkəməsi (inkivizasiya) əqidələri, qanunları və ayinləri özünəməxsus şəkildə yoxlayırdı. Hər hansı bir şəhərdə məhkəmə başlamazdan qabaq kilsələrin qüllələrindən xalqa «iman fərmanı» oxunurdu və onlardan tələb olunurdu ki, bid᾿ətçi və kafirlər barəsində nə bilirlərsə, tezliklə məhkəməyə çatdırsınlar. İnsanlar xəbərçiliyə, qonşularını və qohumlarını satmağa təşviq olunurdular. Xəbərçilərin hərtərəfli müdafiə və himayə olunmasına tə᾿minat verilirdi. «Kafirləri» tanıyıb, təftiş məhkəməsinə xəbər verməyənlər özləri məhkum olunurdurlar. Hərdən ölülər də mühakimə edilir, var-dövləti varislərindən alınır və onların otuz faizi həmin xəbərçilərə verilirdi. İşgəncə üsulları ayrı-ayrı vaxtlarda və yerlərdə müxtəlif cür idi. Bə᾿zən müttəhimin əllərini arxadan bağlayıb asır və ya ağzına su doldurub boğurdular. Yaxud da əl-ayaqlarına kəndir bağlayıb sümüklərə çatana qədər sıxırdılar».

Xristian ruhaniləri Avropada elə bir qüdrətə yiyələnmişdilər ki, Almaniya və Fransanın 10-dan artıq böyük dövlət xadimi Papa tərəfindən

kafirlikdə günahlandırılmışdı. Bu səbəbdən də həmin şəxslər ya hakimiyyətdən uzaqlaşdırılmış, ya da «tövbə» etməyə məcbur edilmişdilər. 1075-ci ildə Alman imperatoru altıncı Henri, fərmana e᾽tinasızlıq etdiyi üçün Papa səkkizinci Qriqori tərəfindən kafir e᾽lan edilmişdi. Henri əlacsız qalıb tövbə etmiş, lakin Papa üç gün onun tövbəsini qəbul etməmişdi. Nəhayət üç gündən sonra Papa Henrinin tövbəsini qəbul edərək, onu bağışlamışdı.

1140-cı ildə səkkizinci Lui, Papa tərəfindən kafir e᾽lan olunmuşdu. 1205-ci ildə isə İngiltərə kralı ilə Roma Papası arasında ixtilaf baş vermiş və Papa onun haqqında kafirlik hökmü çıxarmışdı. Qısa bir müddətdən sonra İngilis kralı aşağıdakı məzmunda əhdnamə imzalmağa məcbur olmuşdu:

«Qeyb mələklərindən belə bir göstəriş almışıq ki, İngiltərə və İrlandiya ölkələri İsaya (ə), Həvarilərə, Papaya və onun canişinlərinə itaət etməlidir. Bundan sonra ölkələrimizi Papanın canişini kimi idarə edəcəyik. Roma katolik kilsəsi hər il bizdən iki min gümüş lirə almalıdır. Əgər biz yuxarıdakı öhdəliklərin hər hansı biri ilə müxalifət etsək, hakimiyyət hüququndan məhrum oluruq».

Marsel Kaş yazır: «Bu dövrlərdə Papanın fərmanı ilə müxalifət etdiyinə görə beş milyon nəfər qətlə yetirilmişdi. 1448-1499-cu illər ərzində təftiş məhkəməsinin hökmü ilə 1020 nəfər diri-diri yandırılmış, 6860 nəfər şaqqalanmış və 97023 nəfər ağır işgəncələr nəticəsində həlak olmuşdular». Orta əsrlərdə təftiş məhkəmələrinin hökmü ilə 350 min nəfər alim və mütəfəkkir diri-diri yandırılmışdı.

Məşhur fransız yazıçısı Viktor Hüqo bu barədə belə deyir: «Kilsə həyatı bəşəriyyətin inkişaf və tərəqqi istiqamətində deyil, tarix səhifələrinin arxasında yerləşir. Kilsə, bir alimi ulduzlar haqqında müəyyən bir fikir söylədiyinə görə şallaqlayaraq yaralamış, başqa birisini digər bir dünyanın mövcudluğu haqda danışdığı üçün işgəncələrə məʾruz qoymuşdu. Qanın insan bədənində hərəkət etdiyini söyləyən digər alimi isə təftiş məhkəməsi döydürərək ağır cəzalara məhkum etmişdi. Qalileyi yerin fırlanması haqda irəli sürdüyü nəzəriyyəyə görə zindana salmışdılar. Xristofor Kolumb isə kilsənin qabaqcadan xəbər vermədiyi torpaqları kəşf etdiyi üçün təʾqiblərə məʾruz qalmışdı. Paskalı kafir eʾlan edən də həmin kilsədir».

Kilsə öz nüfuz və qüdrətindən müsəlmanlar əleyhinə də istifadə etmiş, Beytül-müqəddəsin azad olunması bəhanəsi ilə müsəlmanları vəhşicəsinə qətli-am etmişdi. Səlib müharibələri adı ilə tarixdə məşhur olan və yüz minlərlə müsəlmanın faciəli şəkildə öldürülməsi ilə nəticələnən bu qırğınlar 1095-1270 -ci illər ərzində bir neçə mərhələdə baş vermişdir.

Həmin müharibələrin əsas səbəbi xristian din xadimlərinin müsəlmanlara qarşı öz ürəklərində bəslədikləri kin və ədavət idi. Onlar avropalıları müxtəlif hiylələrlə aldadaraq, müsəlmanlar əleyhinə qızışdırırdılar. Müharibə başlamazdan əvvəl, Papa ikinci Urben keşişlərin və xristian təəssübkeşlərinin iştirakı ilə bir konfrans təşkil etdi. Həmin konfransda müsəlmanlara qarşı müharibə qərarı çıxarıldı. Papa bu yığıncaqda bütün keşiş və kardinallara xalqı müsəlmanların ziddinə təşviq etmək əmrini verdi. Fransada isə bu işi şəxsən özü həyata keçirir, ardıcıllarını müharibəyə də̒vət edirdi.

Bir milyondan artıq döyüşçüdən təşkil olunmuş böyük xristian ordusu Beytül-müqəddəsi zəbt etmək üçün səlib yürüşünə başladı. Sanki bütün Avropa şərqə tərəf axışırdı. Qoşun qarşısına çıxan hər bir yaşayış

məntəqəsini qarət edir, hər yeri yandırır, müsəlmanları dara çəkir, boğur və qılıncdan keçirirdi. Bu amansız müharibədə heç kəsə rəhm edilmir, qoca-uşaq, kişi-qadın və hətta uşaqlar belə, xüsusi qəddarlıqla öldürülürdü. Səlibçilər 1099-cu ildə Beytül-müqəddəs şəhərini ələ keçirən zaman, bir milyondan artıq döyüşçüsü olan o böyük ordudan cəmi 20 min nəfər salamat qalmışdı. Səlibçilər böyük təlafatlar verməklə Beytül-müqəddəsi tuta bilmişdilər. Onların itkiləri bir milyona yaxın idi.

Bu xristian qoşununun vəhşilikləri ilə yaxından tanış olmaq üçün fransız tarixçisi Qustav Lebonun yazdıqlarını nəzərdən keçirək:

«Səlibçilərin azğınlıqları onları dünyanın ən vəhşi, yırtıcı və şüursuz heyvanları sırasına daxil edir. Onlar qocalar, cavanlar, qadınlar və uşaqlarla eyni cür qəddarlıqla davranırdılar. Yəʾni, heç kimə fərq qoymadan hamını öldürür və var-yoxlarını qarət edirdilər. Yeri gəlmişkən, rahib Robertin şəxsən özünün iştirak etdiyi hadisələr haqqında yazdıqlarına baxsaq, məsələ daha aydın olar. O deyir: «Bizim qoşun müxtəlif ərazilərdən keçirdi. Öz balasını yalamaqdan ləzzət alan dişi şir kimi, qoşunumuz uşaqları

tikə-tikə etməkdən, kütləvi qətllər törətməkdən zövq alırdı.

Cavanlar və qocalar qılıncdan keçirilirdi. Qətl mərasimlərini sürʾətlə icra etməkdən ötrü eyni vaxtda bir kəndirlə bir neçə müsəlman dardan asılırdı. Qızıl, gümüş və qiymətli əşyalar qarət edilir, bəʾzi sağ qalan cavanlar kölə kimi satılmaq üçün Antaliyaya göndərilirdi». Bu qaniçən qoşunun başçısı Papaya göndərdiyi məʾlumatında belə yazırdı: «Beytül-müqəddəsdə əlimizə keçən müsəlmanlarla nə etdiyimizi bilmək istəyirsinizsə, agah olun ki, Süleyman eyvanının ətrafı və tamam məʾbəd atlarımızın dizlərinə qədər qan içində idi».

Bunlar orta əsrlərdə və səlib müharibələrində xristianların alimlərə, mütəfəkkirlərə, habelə müsəlmanlara qarşı etdikləri misilsiz cinayətlərin bəzi nümunələridir. Avropa ölkələrindəki inkivizasiyanın təzyiq və işgəncələri nəhayət oradakı elm xadimlərini təngə gətirdi. Onlar bu vəhşi zülmlərdən azad olmaq üçün kilsə ilə mübarizəyə başladılar.

Alimlərlə kilsə xadimlərinin mübarizəsi gün-gündən kəskinləşərək barışmaz sinfi mübarizəyə çevrildi. Belə bir şəraitdə təbiət elmləri inkişaf etməyə başladı. Nəhayət, kilsə

xadimləri geri çəkilməyə məcbur oldular və azad fikirli insanların fəaliyyəti üçün meydanı tərk etdilər.

Kilsənin əsassız iddiaları və azğın cinayətləri səbəb oldu ki, bir sıra alimlər ümumiyyətlə bütün dinləri elmlə mübarizə aparan cəhalət hesab etməyə başladılar. Nəticədə, inkivizasiya bütün dinlərə böyük zərbə vuraraq, etiqadi fikirlərə qarşı bədbinlik hissi yaratdı. Həqiqi din haqqında düzgün mə᾽lumatların olmaması insanlarda ona qarşı nifrət oyatmışdı.

Başqa ölkələrdə də kilsənin fəaliyyətləri xalqın narazılığına səbəb olurdu. Çar Rusiyasında kilsə həddindən artıq geniş səlahiyyətlərə malik idi. Milyon hektarlarla torpaqlar, meşələr, otlaqlar, balıqçılıq və ticarət mərkəzləri provaslav kilsəsinə zəngin sərvətlər toplamaq imkanı yaratmışdı. Rusiyadakı kilsələr ən böyük torpaq sahibi və ən böyük bank səhmlərinə yiyələnən təşkilat idi. Kilsə tərəfindən rəhimsizcəsinə ağır işgəncələrə mə᾽ruz qalmış kəndlilər din xadimlərini «keşiş libası geymiş quldurlar» adlandırırdılar. Keçmişdə gerilik və irtica simvolu olan həmin kilsə artıq bu gün, öz əsaslarını möhkəmlətmək

üçün elm və mədəniyyətin bütün sahələrindən çox səmərəli şəkildə istifadə etməkdədir.

Hal-hazırda təkcə katolik kilsəsinin dörd mindən artıq təbliğat qrupu mövcuddur və onlar dünyanın bütün nöqtələrinə səpələnmişlər. Kifayət qədər büdcə ehtiyatlarına malik olan xristian təşkilatları hətta Afrikanın ən ucqar bölgələrində öz təbliğatlarını aparırlar. Yalnız İngilis kilsəsinin bir ildəki təbliğat üçün çəkdiyi xərcləri bizim ölkə miqyasında təbliğat işlərinə sərf etdiyimiz xərclərlə müqayisə etsək, vəziyyətimizin necə olduğunu daha yaxşı anlaya bilərik. Xristianlar indiyədək «İncili» bütün dillərə tərcümə etmiş və onun milyonlarla nüsxələrini bütün dünyada həmçinin, müsəlman ölkələrində çox geniş şəkildə yaymışlar. Vatikan öz gündəlik qəzetini 300 min nüsxə ilə, 50-yə yaxın jurnal və kitabçalarını isə ayda bir neçə milyon nüsxədə dünyaya yayır. Onun 32 mindən çox müxtəlif səviyyəli məktəbləri mövcuddur. Vatikanın saysız-hesabsız xəstəxana və klinikaları dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. Katolik dini kitablarının yayılması, kilsələrin tikilməsi, təbliğat qruplarının müxtəlif nöqtələrdə güclü iş aparması həmin fəaliyyətləri

daha da mütəşəkkil edir. Protestant məzhəbinin ardıcılları tərəfindən aparılan təbliğatlar isə göz qabağındadır. Qərb qəzetlərindən biri yazır: «1950-ci ildən başlayaraq, ən azı 10-a yaxın protestant dini hövzəsi təsis edilmiş, çox güclü fəaliyyətlər sayəsində həddindən artıq yüksək nəticələr əldə edə bilmişlər. Onların cəmiyyətlərinin sayı sür᾽ətlə 2-3 dəfə artırılmışdır. Kilsələr üçün yüzlərlə binalar alınmış və çoxlu sayda missioner hey᾽ətləri müxtəlif ölkələrə e᾽zam olunmuşdur. Ən mühüm məsələ isə budur ki, protestant cəmiyyətlərindəki insanlar həmin məzhəbin sevinc və səadət bəxş edən yeganə din olduğunu dərk etmişlər»! Xristian dini qurumları nə yəhudi, nə də buddizm dinlərindən qorxmurlar. Çünki bu dinlər yalnız müəyyən xalqlara bağlıdır və həmin mühitdən kənara çıxa bilmirlər. Onların nüfuz dairələri də bağlı olduqları millətlərlə məhdudlaşır. Xristian təşkilatlar yalnız, əhatə dairəsi bütün dünya xalqlarına şamil olan İslam dinini özləri üçün təhlükə sayırlar. Roma papası Vatikanda keşişlər şurasının açılışı zamanı söylədiyi nitqində demişdi: «Afrikada xristianlıq və qərb

üçün real təhlükə olan İslam, dünyadakı kommunizm təhlükəsindən daha qorxuludur».

Hal-hazırda İslam təbliğatının çox zəif aparılmasına baxmayaraq, onun zəngin maarifi və hərəkətverici qüdrəti dünyanın bə͑zi nöqtələrində, xüsusilə Afrikada inkişaf etməkdədir. İslam dini məzlum zəncilərin ən yaxşı pənahgahına çevrilmişdir və kilsə bu təhlükəni nəzərdən qaçıra bilməz. Belçikanın tədqiqat və araşdırma müəssisələri belə bir mə͑lumat vermişlər: «20-ci əsrin əvvəllərində Konqoda yalnız bir bölgədə yaşayan dörd min müsəlman var idi. İndi isə bütün ölkə ərazisində 230 mindən çox müsəlman yaşayır».

Parisdə çıxan jurnallardan birində şərqşünas Marsel Karder yazır: «Əvvəllər hökmdarların və şahzadələrin dini olan İslam, bu gün ümumxalq məzhəbinə çevrilmişdir. Sel kimi coşqun olan xalqlar onun bayrağı altında birləşirlər. İslam şimali Afrikadan həmin qitənin cənubuna doğru sür͑ətlə və ardıcıllıqla irəliləməkdədir. Statistika da bu inkarolunmaz faktı təsdiq edir».

«Rio de Paris» jurnalı bütpərəstlər, xristianlar və müsəlmanlar haqqındakı statistik mə͑lumatları qeyd etdikdən sonra müsəlmanların say çoxluğunu göstərərək belə

yazır: «Ümumiyyətlə, afrikalıların yarısı müsəlman hesab olunur. İslam bu qitədə qəribə sürˈətlə inkişaf edir. Belə ki, hər il orta hesabla 500 min nəfər müsəlman olur. Bu inkişaf İslamın keçmişdəki nüfuzu hesabına deyil, daha doğrusu yeni şəraitlə bağlıdır. 1950-ci ildə Əl-əzhər universitetinin dörd nəfər məˈzunu Mabaku şəhərində bir mədrəsə açdılar və burada İslam dini ildırım sürˈəti ilə inkişaf etməyə başladı. Amma Fransa dövləti tez bir zamanda onu bağladı». Neapol universitetinin professoru Vakliyeri yazır: «Görəsən müsəlman ölkələrində qeyri-müsəlmanların geniş azadlıqlara malik olduğu təqdirdə və hazırkı dövrdə həqiqətən İslamı təbliğ etmək üçün heç bir təşkilatın olmadığı bir şəraitdə nə üçün son illərdə Asiya və Afrikada İslam dini sürətlə inkişaf edir? Bu gün «fatehlərin qılıncı İslamın yayılmasını təˈmin edir» sözlərini beyinlərə yeritmək olmaz. Əksinə, əvvəllər İslamın hakimiyyət etdiyi həmin məntəqələrə, indi başqa dinlər və hökumətlər sahib durmuşlar. Əcnəbi təşkilatlar İslam ölkələrində illərlə güclü təbliğat aparsalar da, həmin dini xalqdan ayıra bilməmişlər. Bu dinin daxilində hansı möˈcüzəli qüvvə gizlənmişdir? Bəşər ruhunun hansı guşə

və dərinliklərində bu dinə kömək edən qüvvələr mövcuddur ki, təkcə ibtidai formada də᾿vət etməklə milyonlarla insan İslamın çağırışına səs verir?»

Xristianlar müsəlmanların əqidələrini məhv etmək üçün hər cür üsula əl atırlar. Cənubi Afrikada yerləşən İngiltərəyə məxsus olan bir gəmiçilik şirkətində çoxlu müsəlman işləyirdi. Bu şirkətin başçıları xristian olduqlarından müsəlmanların orada çalışmasına dözə bilmirdilər. Şirkət başçısı bir gün qəribə iş tutdu. Müsəlman fəhlələrin əmək haqqının üçdə iki hissəsinin əvəzinə onlara alkoqollu içkilərdən ibarət şüşələr verdi. O yaxşı bilirdi ki, müsəlmanlar bu içkiləri nə içəcəklər, nə də satacaqlar. Çünki, İslamda bunların hər ikisi haramdır. Beləliklə, müsəlman fəhlələr əmək haqlarının mühüm bir hissəsindən məhrum oldular. Onlar e᾿tiraz olaraq, məhkəməyə müraciət etdilər. Nəticədə onların şikayətinə heç kəs məhəl qoymadı və hamısını işdən çıxartdılar. Bəli, demokratiya və insan hüquqlarının müdafiəsi budur?! İndi Afrikada İslamı təbliğ etmək üçün geniş üfüqlər açılıb və bu iş ciddi aparılsa, oradakı xalq kütlələri canla-başla dinimizi qəbul edəcəklər. Afrika xalqları

din və məzhəb axtarışındadır ki, onunla maddi və mə᾿nəvi tərəflər arasında uyğunluq yarada bilsin, nəticədə ictimai mühitdə bərabərlik qazansın, sülhə, əmin-amanlığa və həqiqətə qovuşsun.

Şübhəsiz, indiki xristianlıq belə istəkləri tə᾿min edə bilmir və bu cəhətdən çoxlu çatışmazlıqlarla üzləşir. Hətta kilsə özü ayrı-seçkilik və ixtilaf amilinə çevrilmişdir. Afrikada qara və ağ dərililərin ayrı-ayrı kilsələrdə ibadət etmələri bunu aydın şəkildə göstərir.

Konqonun mərhum rəhbəri Lumumba Paris qazetlərinin birində belə deyirdi: «Heç vaxt başa düşə bilmirdim ki, nə üçün məktəblərdə bizə xristianlıq qaydalarına hörmət etməyi öyrədirdilər. Çünki, məktəbdən xaricdə biz avropalıların hər cür ləyaqətsiz işlərinin şahidi olurduq. Onlar bütün mədəni və insani üsulları tapdalayırdılar. Məktəblərdə bizə öyrətdikləri üsullarla, onların qara dərili insanlara münasibət tərzi kəskin şəkildə fərqlənirdi.»

Afrikada İslamın inkişafından, hətta Amerikadakı missioner təşkilatları da narahatdırlar. Onlar Amerikadakı qara dərililərin də müsəlman olması prespektivindən çox qorxurlar və bu dinin əleyhinə bütün

vasitələrlə mübarizə aparırlar. ABŞ senatorlarından biri vaxtı ilə zənci müsəlmanların həmin ölkədəki təşkilatlarının bağlanması tələbi ilə prezidentə müraciət etmişdi.

Amma bütün bunlara baxmayaraq, qara dərili müsəlmanların sayı günbəgün artmaqdadır və onların təşkilatlarının fəaliyyətləri genişlənir. İndi ABŞ-ın 27 ştatında 70-dən çox müsəlman təşkilatları mövcuddur. Çikaqo və Betroyt şəhərlərində müsəlman maarif mərkəzləri vardır. Onlar çoxlu məscidlər inşa etmiş və islami qəzetlərin yayılmasına nail olmuşlar. Bə̓zi şəhərlərdə nümayişlər keçirib, «La ilahə illəllah, Muhəmmədən rəsulullah» şüarları ilə öz mövqelərini bildirirlər. Zənci müsəlmanlar öz dini ayinlərini yerinə yetirir və qadınlar İslami örtük qaydalarına riayət edirlər. Ət və sair ərzaq məhsullarını yalnız müsəlmanların dükanlarından almağa çalışırlar. Ərəb dilini öyrənmək üçün çox səy edirlər. Öz cavanlarına Qur̓an oxumağı öyrənməyi tövsiyə edirlər. Onların arasında oğurluq və başqa cinayətlər edən şəxslər demək olar ki, yoxdur. Hətta, düşmənlər də e̓tiraf edirlər ki, müsəlman olduqdan sonra zəncilər çirkin adətlərdən uzaq

olurlar. Afrikada təbliğat aparan missionerlər zəncilərin tərəqqiyə yetişməsini istəmirlər. Daha doğrusu, onların kilsəyə və həmin missioner təşkilatlarını maliyyələşdirən dövlətlərə tabe olmasına çalışırlar. Professor Vesterman belə bir həqiqəti çox düzgün qeyd edir: «Zənci müsəlman olduqdan sonra özünü ali bir cəmiyyətin üzvü hesab edir və tezliklə onda özünə inam hissləri yaranır. O, öz mövqeyini dərk edir və başa düşür ki, dünyanın tam hüquqlu üzvüdür. Başa düşür ki, avropalılarla müəyyən qədər rabitəsi var. Əvvəllər zir-zibil kimi hesab olunan zənci, müsəlman olduqdan sonra avropalıların da ona hörmətlə yanaşdığını yaxşı başa düşür. Amma bütpərəst və xristianlığı qəbul edən zənci, müsəlmanlarla öz vəziyyətini müqayisə etdikdə, aralarında təsəvvürolunmaz fərqlərin mövcud olduğunu görür. Çünki bizim (məsihilər) mövcud şəraitimiz bir növ özəllik təşkil edərək zənci irqini tamamilə özündən ayırır. Ona görə də onlar bizim mədəniyyətlə üzləşəndə uyğunlaşa bilmirlər. Biz hələ də zəncilərə tə᾿lim verə bilməmişik və buna görə də onlar öz xüsusi vəziyyətlərini başa düşmürlər. Çünki biz zəncilərin mədəniyyətinə diqqət etməmişik.

Onların vəziyyətini öz mədəniyyətimizlə ölçüb-biçirik. Biz zənciləri həmişə Avropada pis şəkildə tanıtdırmışıq və onları iyrənc avropalı hesab etmişik. Amma İslam dini zənciləri qədim Afrikalı kimi ehtiramla qəbul edir. İslamın onlara verdiyi ictimai bərabərlik, avropalıların onlara olan münasibətindən çox fərqlidir.»

Bə᾽zi avropalılar hətta xristian zənciləri də adam yerinə qoymurlar. Başa düşməliyik ki, belə münasibətlər ucbatından əvvəllər xristian təbliğatını görmüş ölkələrdəki zəncilər, İslamla tanış olduqdan sonra bu dini qəbul edirlər. Avropalıların onları bərabər hüquqlu insanlar kimi qəbul etmədiyini görən zəncilər, İslamın yeganə düzgün din olduğunu asanlıqla başa düşürlər.

## *XRİSTİANLARIN İSLAM ƏLEYHİNƏ TƏBLİĞATI*

Kilsə xadimləri İslam dininin mə᾽nəvi nüfuzundan bərk qorxur və son dərəcə narahatlıq hissi keçirirlər. Onlar İslam dünyasının heysiyyətini ləkələmək üçün onun əleyhinə təbliğat aparırlar. Vaxtaşırı olaraq bu dinə iftira yaxır, müxtəlif üsullarla həqiqət günəşinin üzünə pərdə çəkməyə çalışırlar.

Onlar dünya xalqlarının İslam dininin həqiqət və gerçəkliklərindən xəbərsiz qalmaları üçün əllərindən gələni əsirgəmirlər.

Almaniya televiziyası ilə Yəməndəki vəziyyət, oradakı məscid və müsəlmanların ibadətləri haqda verilişlər göstərilirdi. Verilişin aparıcısı ilk növbədə həmin ölkənin gerilik və problemləri, xalqın üzləşdiyi məhrumiyyətlər barədə danışırdı. Daha sonra isə İslama qarşı hücuma keçib söhbətini belə davam etdirdi: «İslam bu millətin tərəqqi və inkişafı yolunda çoxlu çətinliklər yaratmış, onu 200 il geriyə atmışdır. Bu ölkədəki gerilik və çatışmazlıq İslami proqramların nəticə və simvoludur. Bu xalqların beynəlxalq inteqrasiya və inqilabi dəyişikliklərdən məhrum olmasının səbəbi İslam dininin göstərişləri və onların dini e՚tiqadlarıdır».

Diqqət edin, bu zəhərli sözlər və hiyləgərcəsinə aparılan təbliğat müsəlmanların əqidəsi ilə yaxından tanış olmayan avropalıların təsəvvüründə necə əks olunacaq və onların İslam barəsində mə՚lumat və mühakimələri hansı şəkildə formalaşacaq?! Məgər bütün bunlar ayrı-ayrı xalqlara və bəşəriyyətə qarşı xəyanət deyilmi?!

Əlbəttə, bu kimi təbliğata belə cavab verilməlidir: Əgər Yəmən əhalisinin maddi gerilik və çatışmazlıqlarının səbəbi onların İslam dininə e᾽tiqadlı olmalarıdırsa, bəs nə üçün Papanın yaşadığı İtaliyanın cənub bölgələri iqtisadi gerilik və böhran içindədir? Bəs nəyə görə oradakı insanlar müasir svilizasiyadan geri qalaraq, yoxsul vəziyyətdə yaşayırlar? Hətta ibtidai tələbatlarını tə᾽min etməkdən ötrü qonşu ölkələrə mühacirət edirlər. Yaxud, nəyə görə qeyri-müsəlman və Avropa ölkəsi sayılan Yunanıstan İslam ölkələrinin çoxundan geridə qalır? Halbuki, yunanlar hələ xristianlıqdan çox-çox qabaq dünyanın mütərəqqi xalqlarından sayılırdılar. Amma xristianlığı qəbul etdikdən sonra inkişafdan geri qalmış, hətta osmanlıların müstəmləkəsinə çevrilmişlər. Nə üçün Asiyadakı bə᾽zi qeyri-müsəlman ölkələri İslam ölkələrindən aşağı səviyyədə yaşayırlar?

Halbuki, Bosniya kimi bə᾽zi ölkələrdəki müsəlmanlar katolik və ortodoks xristianlardan daha yaxşı yaşayırlar. Çindəki müsəlmanlar isə buddistlərdən üstün mövqeyə malikdirlər. Sinqapur adalarında yaşayan ərəblər maddi cəhətdən oradakı sakinlərdən, hətta ingilislərin özündən də irəlidədirlər. Kimsəyə gizli deyildir

ki, Qərb ölkələrinin kütləvi informasiya vasitələri İslam barəsində olan mə`lumatları əksinə işıqlandırır və xalqa əsassız mətləbləri çatdırırlar. Bu təbliğatların tə`siri altında yaşayan xalqlar, adətən İslamın ən ibtidai üsullarından xəbərsiz olurlar. Qeyd etdiyimiz kimi, bu cür tədbirlər kilsə və onlarla əlaqədar olan təşkilatlar tərəfindən həyata keçirilir.

Böyük mütəfəkkir və yazıçı Məhəmməd Qütb deyir: «BMT-nin Misirdəki nümayəndələrindən biri ilə İslami dəyər və proqramlar haqqında bir neçə saat söhbət etdim. Bu qərb ziyalısı axırda belə dedi: Görürəm ki, İslam dini barəsində mənə mə`lum olmayan həqiqətləri deyirsiniz. Amma, mən müasir texnologiyanın bəxş etdiyi faydalardan məhrum olmaq istəmirəm. Çünki, təyyarələrlə səfər etmək istəyirəm... Təəcüblə ondan soruşdum: Səni müasir texnologiyanın bəhrələrindən məhrum edən nədir? Cavabında dedi: Məgər sizin İslam dini insanlardan çadırlarda yaşamağı və köçəri həyat tərzi sürməyi tələb etmirmi?»

Almaniyada qaldığım mehmanxananın sahibi Fransa və İngiltərədə ali doktorluq təhsili almışdı, ərəb dilində danışmağı da bacarırdı. O deyirdi: «Mən Allahın təkliyinə tamamilə

inanıram. Amma, dinlərin tanıtdırdığı, ona ibadət və pərəstiş olunmasını tövsiyə etdikləri Allahı qəbul edə bilmirəm. Bunu, yə̓ni ibadəti məntiqi bir iş hesab etmirəm. Fikir və idrak aydın başa düşür ki, bu dini idiologiyalar bəşər fitrətinin tam əksinə yol göstərirlər.»

O, üzündə qəm-qüssə və kədər hissi aydın sezildiyi bir halda belə deyirdi: «Gərək bəşəriyyətin Allaha pərəstiş haqqındakı indiki fikirlərinin əsasları dəyişdirilsin və xalis tovhidin düzgün başa düşülməsi üçün lazımi islahatlar aparılsın».

Bu şəxs İslamın xalis tovhid dini olmasından və Qur̓an ilə təhrif olunmuş İncil və Tövrat arasındakı fərqlərdən tamamilə xəbərsiz idi. O, təsəvvür etmirdi ki, müqəddəs Qur̓an ilahi vəhyə bağlı bir kitabdır!

Sonra mən İslam dininin əsasları haqqında alman dilinə tərcümə edilmiş bir kitabı ona təqdim etdim ki, oxuyub dinimizi başa düşsün.

Təəssüflər olsun ki, xaricdə yaşayan bə̓zi həmvətənlərimizin yaramaz hərəkətləri qərblilərdə İslama qarşı mənfi fikirlərin yaranmasına səbəb olur. Haqqında danışdığım həmin mehmanxana sahibi bə̓zi iranlılardan üzdəniraq hərəkətlər gördüyü üçün, heç bir

vəchlə müsəlmanları oraya buraxmaq istəmirdi. Onun tanışlarından birinin vasitəçiliyi nəticəsində mənim orada qalmağıma icazə vermişdi. Orada müvəqqəti qaldığım bir neçə gün ərzində onun mənə qarşı e᾿timadı fövqəladə dərəcədə dəyişdi. O şəxs həmin günlərdə məni müşahidə etmiş, qayda-qanuna zidd olan heç bir iş görmədiyimin şahidi olmuşdu. Hiss edirdim ki, getdikcə onun mənə qarşı rəğbət və ehtiramı artır, hərdən bə᾿zi hədiyyələr verməklə öz səmimi hisslərini izhar edirdi.

Bir müddətdən sonra öz yerimi dəyişməli oldum. O, təzə ünvanımı öyrənib mənə zəng vurur, müntəzəm olaraq əlaqə saxlayırdı. Hər dəfə onun mehmanxanasına iranlılar müraciət etdikdə, əvvəlcə mənimlə danışır və bildirirdi ki, əgər siz bu adamlara zəmanət versəniz, mən onları qəbul edərəm. Qeyd etməliyəm ki, ölkəyə birinci gün gəlmiş adamlar üçün mehmanxanalarda yer almaq çox çətin olduğundan, belə şəxslərə köməklik göstərib zəmanət verməyi özümə borc bilirdim. Bir gün Almaniyaya təzə gəlmiş bir neçə iranlıya yer vermək üçün həmin mehmanxana sahibinə müraciət etdim və o da həmişəki kimi onları

qəbul etdi. Amma bir gün sonra mənə zəng edib, çox narahatlıqla bildirdi ki, sizin zəmanət verdiyiniz iranlılar özlərini apara bilmir və nalayiq hərəkətlərə yol verirlər. Mən ondan üzr istədim və bir daha yaxşı tanımadığım həmyerlilərimdən ötrü müraciət etməyəcəyimi bildirdim.

Hal-hazırda mədəni xalqların İslam haqqında olan fikirlərini dəyişmək, onlarda dinimizə qarşı rəğbət hissi yaratmaq üçün gözəl fürsət vardır; dinimizi və müqəddəs ayinlərimizi dünyaya düzgün tanıtdırmaq imkanları çox genişdir. Doğrudur ki, dinin bəşər fitrəti ilə uyğunluğu onun inkişafına səbəb olur. Amma müasir dövrün inkişafı və onun mövcud şəraiti yeni təbliğat üsullarından istifadə etməyi tələb edir. Çox acınacaqlı bir haldır ki, biz hələ də dövri təbliğat üsullarından tam istifadə edə bilmirik. Düzgün təşkil olunmayan proqram və fəaliyyətlər heç də səmərə vermir. Bə`zən yaxşı nəticə versə də, çox kiçik miqyasda olur və güclü müxaliflər qarşısında müqavimət göstərə bilmir. Bizim səhvimiz nəhəng informasiya mərkəzlərinə əhəmiyyət verməməyimizdədir. İslamın heyrətamiz təbliğat vasitələrindən düzgün istifadə etməmək bizə çox baha başa

gəlir. Ən düzgün və qiymətli dini dəyərlərə malik olduğumuza baxmayaraq, qəribə durğunluq içində qalmışıq. Həmin səbəblər nəticəsində də geniş təbliğat meydanlarını İslama zidd olan din və məzhəblərin ixtiyarına qoymuşuq.

### *QƏRB DÜNYASINDA ƏXLAQ*

Əslində qərblilərin yaşayışı müasir texnika ilə bağlı olan ruhsuz və hərarətsiz bir həyata çevrilmişdir. Bəşəriyyət maddi həyatın müxtəlif sahələrində yüksək səviyyədə inkişaf etmiş, bir çox problemlərini həll edə bilmiş və nəticədə asayiş və rifaha çatmışdır. Amma, mə᾿nəvi dəyərlər və əxlaqi məsələlərin çoxu unudulmuş, ruhi həyat gerçəkliklərinə diqqət xeyli azalmışdır.

Müasir elmi-texnologiya və mədəniyyətin ortaya çıxardığı ruhi narahatlıq və xəstəlikləri nəzərə almamaq olmaz. İndiyədək olan bütün kəşflər və ixtiralar yaşayışı asanlaşdıraraq, ümumbəşəri inkişafa kömək etsə də, onun fikri və ruhi narahatlığını azalda bilməmişdir; mə᾿nəvi məsələlərdəki problem və böhranları aradan qaldırmamış, insanlara həqiqi səadət bəxş etməmişdir.

İnsanlar cismani ehtiyaclardan əlavə, məˈnəvi və ruhi tələbatlara da malikdirlər. Cismani ləzzətlərə bağlı olduğu qədər, məˈnəvi istəklərin təˈmin olunmasını da istəyirlər. Şübhə yoxdur ki, bu ehtiyacların ödənilməsi yolları maddi varlıqlardan kənarda axtarılmalıdır. Maddiyyat çərçivəsində onlara cavab vermək bağışlanılmaz səhv olmaqla yanaşı, insanın xilqət, fitrət və təbiəti ilə də müvafiq deyildir. İnsan övladı yaşayışının əvvəllərindən maddi mədəniyyət mərhələsinin inkişafına başlamış, onun isteˈdadı elm və sənətin tərəqqisində əsas rol oynamışdır. Amma maddi və məˈnəvi həyatdakı nailiyyətlərin müvazinəti olmasa, insan həqiqi səadətə çata bilməz.

Əxlaqi və ictimai çatışmazlıqları müşahidə etdikdə görürük ki, bəşəriyyətin təkamülü hələ də hərtərəfli və layiqli şəkildə inkişaf etməmişdir. Bu gün insanlar xoşbəxtlik amillərini seçməkdə və tanımaqda səhvə yol verirlər.

Tarixdə, yaşayışının bütün guşələrinə sirayət etmiş fəsadlarla üzləşməyən heç bir xalq tapmaq olmaz. Hal-hazırkı qərb cəmiyyətindəki əxlaqi fəsadlar çox kəskin və qabarıq şəkildə inkişaf etmişdir. Halbuki, oradakı insanların

əksəriyyəti əmanətdar, işlərində dəqiqlik sevən və ədalət tərəfdarıdırlar. Amma bütün bunlarla yanaşı, onların əxlaqi çatışmazlıqları da göz qabağındadır. Baxmayaraq ki, yuxarıda göstərdiyimiz xüsusiyyətlər də əxlaqi keyfiyyətlərdən sayılır, lakin onları müxtəlif əsaslar üzrə cürbəcür məqsədlərdən ötrü işlətmək olar. Qərbdə belə əxlaqi keyfiyyətlər dindən ayrı düşmüşdür və onun üçün də hər cür mə᾽nəvi dəyər və məziyyətlərini itirmişdir. Həmin şəkildə olan əxlaqi keyfiyyətlər şəxsi mənafelərdən yaranır və qərbliləri «düzgünlüyə» riayət etməyə məcbur edir. Xalq bu əməllərə maddiyyat «pəncərəsindən» baxır və öz inkişafında onları vasitə hesab edir. Amma bu keyfiyyətlərdən yalnız maddi mənafelər üçün istifadə edilməsə, onlar həqiqi-mə᾽nəvi dəyərlərə çevrilə bilərlər.

Qərb ölkələrində mövcud olan intim məsələlər bütün çərçivələrdən kənara çıxmışdır və bu sahədəki əxlaqi pozğunluqlar özünün ən yüksək səviyyəsinə çatmışdır. Aydındır ki, əvvəllər qərbdə cinsi iffət əsas əxlaqi dəyərlərdən hesab edirdilər. Lakin bu məsələ tədricən unuduldu və nəhayət arzuolunmaz bir şəkil aldı.

Qərbdə iffət elə bir şəkildə yaddan çıxmışdır ki, guya o, heç insanın əxlaqi kefiyyətlərindən hesab olunmur!

Dostlarımdan biri belə deyirdi: «Bir gün alman radiosunda cavan bir qız öz problemlərindən danışaraq, onlardan onun üçün çıxış yolu göstərmələrini xahiş edirdi: «Mən cavan qızam və neçə ildir ki, bir cavan oğlanla ailə qurmadan dostluq əlaqəsi yaradıb, birlikdə yaşayıram. İndi ona qarşı meylim azalıb, başqa bir oğlana rəğbətim artıb. Mən keçmiş dostumla əlaqələrimi kəsib, təzə tanışımla daimi əlaqə yarada bilərəmmi? Yaxud, yeni dostumla ünsiyyətdə ola-ola, keçmiş sevgilimlə də əlaqələrimi saxlaya bilərəmmi? Xahiş edirəm bu işdə mənə yol göstərin»!

Onun cavabında isə «yol göstərən» radio əməkdaşı belə deyir: «Siz 28 yaşına qədər azad surətdə qeyd-şərtsiz bir və ya bir neçə cavanla cinsi yaxınlıq edə bilərsiniz. Buna görə də özünüzü heç bir şübhə və iztiraba salmayın»!

Belə bir məqama diqqət yetirilməlidir ki, əxlaqsızlıq və fahişəlik əsas e᾿tibarı ilə vəzifəsi cəmiyyəti mə᾿nəvi süqutdan qorumaq olan mərkəzlər vasitəsilə yayılır. Həmin radio, televiziya, qəzet və jurnallar iffət, mə᾿nəvi

paklıq kefiyyətlərini təbliğ etmək əvəzinə, pozğunluq və əxlaqsızlığı yaymaqla məşğul olurlar. Bu işdə bir qədər də uzağa gedərək, «yeni» əxlaqi normalar haqqında göstəriş verirlər. Nikahdan qabaq cavanlar arasında «dostluq» münasibətləri adı ilə fahişəliyin yayılmasına yardım edirlər. «Mütləq azadlıq» adı altında əxlaqsızlığı təşviq edib, şərəfsizlik və qeyrətsizliyi adi «insani norma» kimi geniş surətdə təbliğ edirlər. Məşhur sosioloq Vill Dorant yazır: «Şəhərlilərin yaşayış tərzi elə bir şəkil alıb ki, adamı evlənmək haqqında fikirləşməkdən çəkindirir. Cinsi ehtiraslar xalqı mə̀lum rabitələrə sövq edir və qeyri-qanuni əlaqələrin yaranmasına səbəb olur. Qərb mədəniyyəti evlənməyi əhəmiyyətsiz bir məsələyə çevirib. Yaşı otuzu ötmüş çoxlu kişi və qadınlar vardır ki, hələ də ailə sahibi olmamışlar. Bütün bunların nəticəsində bir zamanlar fəzilət və dəyər hesab edilən mə̀nəvi paklıq tamamilə öz əhəmiyyətini itirmişdir.

Əlbəttə, belə bir şəraitdə əvvəllər ən gözəl insani keyfiyyətlərdən sayılan həya, indi tamamilə öz mə̀nasını itirmişdir. Kişilər öz günahlarının sayı ilə fəxr edir, qadınlar isə onlarla bərabər olduqlarını iddia edərək

əxlaqsızlıqda kişilərlə yarışırlar. Aydındır ki, belə cəmiyyətlərdə nikah məsələsi heç bir əhmiyyət kəsb etmir. Küçələrdə fahişələrin sayının azalması, onların polisdən qorxduqları üçün deyil, digər qadınların başqa yerlərdə həmin «vəzifəni» daha geniş şəkildə icra etmələrindən irəli gəlir».

İnsan fitrəti onu öz qüvvələrinə nəzarət etməyi və bunlardan mö`tədil şəkildə istifadə olunmasını tələb edir. Küçədə yeriyərkən təhlükəli yollarla addımlamaq pis nəticələrə səbəb olduğu kimi, fitrətlə müxalifət etmək də eyni şəkildə mə`nəviyyat sahəsində böyük faciələrə gətirib çıxarır.

Qərb mədəniyyəti ümumiyyətlə şəhvət və cinsi ehtirasların nəzarətsiz formada bəslənməsinə şərait yaradaraq, mütləq azadlığın hakim olmasına icazə verir. Amma nədənsə, indiyədək şəhvətbazların bu mütləq azadlıq şəraitində «doyduqları» gözə çarpmır. Əksinə, cəmiyyətdə psixoloji narahatlıqlar, stress və əsəb xəstəlikləri artmaqdadır.

İsveçdə 20 il ərzində icazə verilən mütləq cinsi azadlıq cavanların dəhşətli faciələrə düçar olduqlarına gətirib çıxartdıqdan sonra, həmin ölkə rəhbərləri çıxış yolları tapmaq üçün

parlamentdə müzakirələrə başladılar. Ölkənin baş naziri açıq şəkildə deyirdi: «Bizə 20 il müddətində buraxdığımız səhvləri düzəltmək üçün 40 il vaxt lazımdır».

Xalq, Freydin aldadıcı fikirlərinin tə᾽siri altında öz rəftarında heyvani hisslərə aludə olmuş və cinsi təmayüllər əxlaqdan ayrılmış, iffət aradan getmiş, pozğunçuluq elə bir həddə çatmışdır ki, onun dayandırılmasının mümkünsüzlüyü göz qabağındadır. Aşağıdakı statistik mə᾽lumatlar bunu daha aydın göstərir: Alman dövləti tərəfindən yayılan mə᾽lumatlara əsasən, son illərdə müharibədə qalib gələn dövlətlərin əsgərlərinin alman qadınları ilə qeyri-qanuni cinsi yaxınlıqları nəticəsində 200 min uşaq doğulmuşdur və hal-hazırda onlar Almaniya dövlətinin himayəsi altındadırlar. Bunların beş mini zənci uşaqlardır. Almanların özlərinin e᾽tiraf etdiyi kimi, bu say qeyri-qanuni doğulan uşaqların ümumi miqdarının yalnız onda bir hissəsidir. Çünki, adətən belə hallarda uşaqların böyük əksəriyyəti dünyaya gəlməzdən qabaq məhv edilir. Qeyd edilməlidir ki, bu mə᾽lumatlar təkcə Qərbi Almaniyaya aiddir.

Digər Qərb ölkələrindəki vəziyyət heç də Almaniyadan geri qalmır. İngiltərə, Fransa və sair ölkələrdə də oxşar statistika mövcuddur. Məşhur psixoloq Karneqi belə yazır: «Amerikanın statistika idarələrindən birinin apardığı tədqiqatlara əsasən, ölkədəki bütün ailələrdə təqribən ərlərin yarısı öz həyat yoldaşlarına xəyanət edir və xəyanət etməyən digər hissəni təşkil edən ərlər isə heç də iffət üzündən deyil, «fürsət» düşmədiyindən, yaxud imkansızlıqdan bu işi görmürlər. Nyu-Yorkun telefon xətləri yoxlanıldıqda isə aydın oldu ki, ərli qadınların çoxu öz həyat yoldaşlarına xəyanət edirlər»!

ABŞ-da 650 xəstəxana zöhrəvi xəstəliklərin müalicəsi üçün ixtisaslaşıb. Halbuki, bu cür xəstələrin yalnız 1,5 faizi həmin yerlərdə müalicə olunurlar və onların çoxu evlərdə xüsusi həkimlərə müraciət edirlər. Bu ölkədə hər il 30-40 min körpə belə xəstəliklərin tə̕sirindən ölürlər. ABŞ-da zöhrəvi xəstəliklərdən ölənlərin sayı təbii ölənlərin sayından daha çoxdur.

Amerikada çıxan jurnalların biri yazır: «Keçmişlə müqayisədə ABŞ-da qeyri-qanuni yolla doğulan uşaqların sayının kəskin surətdə

artması dövləti böyük çətinliklər qarşısında qoymuşdur. Belə uşaqların sayı ildə 200 mini ötür». ABŞ-da bir il ərzində edilən abortların sayı 1,5 milyondan çoxdur ki, bunların 65%-dən çoxu qeyri-qanuni əlaqələrin nəticəsində baş verir və 50%-ə yaxın abortlar azyaşlı ərsiz qızlarla bağlıdır.

İngiltərəli doktor Malnez deyir: «İngiltərədə kilsəyə gedən qızların hər beş nəfərindən biri hamilə olur. Hər il Londonda 50 min abort baş verir. Doğulan hər 20 uşaqdan biri qeyri-qanuni əlaqələrin nəticəsində dünyaya gəlir. Həyat şəraiti yaxşılaşdıqca belə uşaqların sayı artır. Qeyri-qanuni uşaqlar ən çox yüksək təbəqədən olan qızlara aiddir. Bütün bu misallar aydın şəkildə göstərir ki, «mədəni cəmiyyətlər» cinsi ehtirasların qaranlıq zindanında həbs edilmişdir. İş o yerə gəlib çatmışdır ki, bir çox əxlaqi-mə̓nəvi dəyərlər unudulmuş, əxlaqsızlıq heç bir sərhəd tanımadan inkişaf etmişdir. ABŞ-dakı yaşayış məntəqələrinin birində baş vermiş biabırçı hadisə haqqında isə qəzetlər açıq-aydın mə̓lumat vermişdilər. Orada bir dəstə «insan!?» öz arvadlarını üç həftə müddətində bir-birilərilə dəyişdirmiş və dostluq nişanəsi olaraq, qadınlarını başqalarına hədiyyə etmişdilər!!!

Bu hadisə hətta ABŞ-ın özündə böyük səs-küyə səbəb olmuşdu. Sadaladığımız bütün misallar qərbdəki cinsi yaşayış tərzinin eybəcərliklərini aydın surətdə göstərir.

Hər bir xalqın başçılarının həyata olan baxışları həmin millətin təfəkkür tərzinə yüksək tə`sir göstərir. İctimaiyyətə rəhbərlik edən təbəqənin əxlaqi fəsadlara aludə olması ümumi mə`nəvi dəyərləri viran qoyan ən güclü amildir. Çünki, hər bir şəxs təbii ehtirasların cazibəsi ilə üzləşdikdə, cəmiyyət başçıları insanların təfəkkürünün formalaşmasında həlledici rol oynayır. Əxlaqsızlıq mühitində böyüyən şəxs hökmən mütləq azadlıq və cinsi həyatda mə`suliyyətsizlik hisslərinə yiyələnir və onun üçün iffət məfhumu öz mə`nasını itirir. Əxlaqi rəzalətlərə düçar olanlar özlərindən sonra nəfsani istəklərə əsir olan mə`nəviyyatsız adamların dünyaya gəlməsinə səbəb olurlar ki, bunlar da vicdanın və sağlam əqlin əmr etdiyi bütün vəzifələri çiyinlərindən atırlar.

1962-ci ildə Kennedi deyirdi: «Amerika gələcəkdə böyük problemlərlə üzləşəcək. Səhlənkar və şəhvətdə qərq olan cavanlar onlara həvalə olunan vəzifələrin öhdəsindən gələ bilməyəcəklər. Hərbi xidmətə çağırılan hər

yeddi cavandan biri yararsız olur. Bu da o səbəbdəndir ki, cavanlar ifrat dərəcədə şəhvətə aludə olub, öz cismi və ruhi hazırlıqlarını əldən verirlər.

Sovet rəhbərlərindən olan Xruşşov isə belə deyirdi:

«SSRİ-nin gələcəyi təhlükə qarşısındadır. Bizim səhlənkar və şəhvət əsiri olan cavanlarımızın heç vaxt ümidverici gələcəyi ola bilməz».

Qəribədir, insan elm və texnikanın inkişaf etdiyi bir əsrdə cavanların başını qızışdıran bu problemin qarşısında diz çökür və hər gün müasir cəmiyyətdə yeni-yeni xoşagəlməz çətinliklər meydana çıxır.

Həmin ictimai problemlər, onların cavanlara etdiyi tə`sir və fəsadın artması bir daha sübut edir ki, müasir mədəniyyət insanların fitri və ruhi istəklərini tə`min edə bilmir və onların mə`nəvi hiss və meyllərinə düzgün cavab verilmir.

Özünüöldürmə hallarının cəmiyyətdə çoxalması həmin mövcud vəziyyətin törətdiyi eybəcərliklərdəndir. Xalqın maddi rifahının yüksək olmasına baxmayaraq, özünüöldürmə faktlarının sayı artmaqdadır. 1976 -cı ildə

Almaniyada özünə qəsd edənlərin sayı 10 min nəfəri keçmişdi. Həmin il orada 6 min kişi və 7 min qadın özlərinə qəsd etsələr də, onları xilas edə bilmişdilər. Müasir mədəniyyətdə hamıdan çox özünə yer tutan Fransada hər il ən azı 35 min nəfər özünü öldürür.

ABŞ-da cavanların narkotik maddələrə qurşanması dəhşətli şəkil almışdır. Nyu-York polisi son vaxtlar 16-35 yaş həddində olan 38 min cavanın narkotik maddələrin tə᾽sirindən həlak olduğunu xəbər vermişdi. Narkomanlar arasında heroindən istifadə edənlər «birinci yeri» tuturlar. Hal-hazırda təkcə Nyu-Yorkda 100 min adam heroindən istifadə edir.

İncəsənət xadimləri hesab olunan artistlər, sənətçilər və mədəniyyət işçiləri arasında narkomanlıq geniş yayılmışdır. Nyu-Yorklu bir həkim deyirdi ki, məşhur incəsənət xadimlərindən biri 24 saat ərzində 10 dəfə özünə iynə vururdu. Ümumiyyətlə, dünyadan vaxtsız köçən çoxlu sayda məşhur sənət adamları həddən artıq narkotik maddə işlətdikləri üçün ölürlər.

ABŞ kimi böyük və «mədəni» ölkədə hər 25 dəqiqədə bir ağır cinayət, hər sutkada 3 qətl və 5 zorlama, 3 böyük oğurluq, 3 min kiçik oğurluq

başverir. Halbuki təkcə Nyu-Yorkda cinayətkarlığın qarşısını almaqdan ötrü hər il 100 milyon dollardan artıq vəsait sərf edilir.

Bu həmin «Amerika yaşayış tərzi»dir ki, iftixarla təbliğ edilir və dünya xalqları üçün nümunə kimi göstərilir!

### *KİLSƏDƏ İBADƏT*

Kilsə öz güclü təbliğat qurumları və böyük qüdrəti ilə qərb cəmiyyətinin ictimai-mədəni həyatının müxtəlif sahələrinə nüfuz etsə də, xalqın əxlaqının saflaşdırılmasına heç bir təˈsir edə bilməmiş və insanların məˈnəviyyatının islah olunmasını təˈmin etməmişdir. Cəmiyyətin məˈnəvi fəsadlar caynağından xilas olması və insanların heyvani istəklərin əsirliyindən nicat tapmasında müvəffəqiyyət qazana bilməmişdir. İbadət və nəfsin paklanması, ali insaniyyət dərəcələrinə çatmaq, Allaha yaxınlaşmaqla və xalis niyyət yolu ilə həyata keçirildiyi halda, kilsə özü həqiqi üsullarından uzaqlaşaraq, saxta əqidələrin təbliğ edilməsinə bais olmuşdur.

Xristianlıq təkcə əqidə məsələlərində xurafata düçar olmamış, həmçinin Allaha həqiqi və düzgün ibadət etmək yollarını da əldən

vermişdir. Təəccüb etməyin, kilsədə hətta «rəqs salonu» qurulur ki, cavanları bunun vasitəsilə ibadətə sövq etmək mümkün olsun.

İffət, təqva və gözəl əxlaqi keyfiyyətlər yetişdirmək üçün nəzərdə tutulan ibadətgahlar belə yüngül və dəyərsiz əyləncələr məkanına çevrilir. Vəzifəsi əxlaqi fəsadlar selinin qarşısını möhkəm sədd kimi almalı olan dini rəhbərlərin özləri mə˒nəvi və əxlaqi pozğunluqların tə˒siri altına düşmüşlər. Buradan belə bir nəticə çıxarmaq olar ki, xristianlıq heç vaxt insanlara Allahı düzgün şəkildə tanıtdırmağı bacarmaz, qərb dünyasını əxlaqi fəsad və mə˒nəvi böhran vəziyyətindən xilas edə bilməz. Kilsənin aşağıda göstərilən «hidayət» üsulları dediklərimizi bir daha təsdiqləyir:

«Ruhani atalar rəqs və musiqi ilə kilsə mühitində yol azmışları «hidayət» edirlər. Fransis ata 35 ildir ki, kilsədə musiqi ilə məşğul olur. Onun bu sahədə böyük məharəti var. İndiyədək o, 1500 kilsə mahnısı bəstələyib. Bu keşiş öz dini fəaliyyətlərində və yaradıcılıqda böyük enerji sərf etməkdə davam edir».

Məgər belə əməlləri ibadətgahlarda həyata keçirmək din və məzhəbə qarşı məsxərə etmək deyilmi? İbadət Allah peyğəmbərlərinin ən ali

tərbiyəvi göstərişlərindəndir. Heç kəs təkcə Allaha arxalanmadan, ağılsızlıq dərəcəsində maddiyyata bağlı olan dünyanın fəsadlarından kənarda qala bilməz. İnsan öz yaşayışında Allahı düzgün tanımadan heç vaxt səadətə yetişməz.

İnsanı qeyd-şərtsiz şəhvətin əsirliyindən azad edən ibadətdir. O, insanları məˈnəvi səadətə qovuşmağa və Allaha yaxınlaşmağa nail edir. Özünüz fikirləşin, belə bir ilahi üslub necə olub ki, nəfsani istəklərə tabe olan adamların əlində alətə çevrilmişdir.

Qəflət pərdələrini yırtmaq və ruhi-məˈnəvi həyatda böyük bir inqilab yaratmaq İslami ibadətlərin fəlsəfəsidir. Yaxşı olar ki, məsihi alimlərinin biri Sehvud Uobbun dilindən müsəlman və xristian ibadətlərinin ədalətli müqayisəsini göstərək:

«Sofiya məscidində məzhəbi namaz mərasimini müşahidə etmək imkanı əldə etmişdim. Bu mərasimin mühüm bir hissəsi «ruku» və «səcdə»dən ibarətdir. Namaz qılanlar gərək neçə dəfə ruku, sonra da neçə dəfə səcdə etsinlər. Həmin vaxt Allahı sitayiş edən müqəddəs kəlmələri demək lazımdır.

Namaz vaxtı müsəlmanların əzəmətli şəkildə təvazökarlığı və Allaha itaəti məni şiddətli surətdə heyrətləndirdi. Doğrusu mən belə riyasız, xalisanə və Allaha itaətin dərinliyi ilə seçilən ibadəti heç vaxt və heç bir xristian kilsəsində görməmişəm. Sonra mənə balkonların birindən «Qədr gecəsi» adlanan, Qur᾽an oxunması və namaz qılınması ilə müşahidə edilən mərasimə baxmaq şərəfi nəsib oldu. Bu gecədə müqəddəs Qur᾽an İslam peyğəmbərinə nazil olmuşdur. Sofiya məscidi həmin gecə 5 mindən çox adamla dolmuşdu. Onlar namaz qılır, Qur᾽an oxuyur və ibadət edirdilər. Namaz qılanların ruku və səcdə etməsi, təkbir demələri, ayə oxumaları çox xəfif halda, lakin dərin mə᾽naya malik bir ibadətdir.

Misilsiz və əzəmətli mərasimdə eyni zamanda müsəlmanların Allahdan necə qorxmaları müşahidə edilirdi. Qorxu və sitayişin dərinliyi ilə bərabər müsəlmanların ibadət mərasimində azadlıq, həqiqi bərabərlik və ayrı-seçkiliyin olmaması aydın surətdə görünürdü. Mən müşahidə edir və görürdüm ki, kasıb bir hambal çox yaxşı geyinmiş varlı müsəlmanla çiyin-çiyinə dayanıb dua oxuyur, qara dərili müsəlman isə yaraşıqlı və əsilzadə

görkəmli din qardaşının yanında ibadətlə məşğuldur.

İslam yarandığı vaxtdan nüfuzlu qardaşlıq dini kimi tanınır və indiyədək özünün bu xüsusiyyətini əldən verməmişdir».

Din və məzhəb barəsində qərb dünyasının düçar olduğu ən böyük səhv budur ki, onlar dini, şəxsi və batini bir iş kimi təsəvvür etmişlər. Bu halda da dinin heç vaxt həyat gerçəklikləri ilə rabitəsi olmur. Əqidələrindəki həmin səhvlər onların həyatının bütün sahələrinə öz kölgəsini salmışdır və fəaliyyətlərinə zərərli şəkildə sirayət etmişdir. Əqidələrdəki böhranlar insanın yaşayışında da özünü kəskin formada göstərir. Nəticədə, insan nəfsani istəklərin və cinsi ehtirasların qurbanına çevrilir, habelə cəmiyyətin bütün sahələrində fəsadlar baş alıb gedir.

Bundan əlavə, belə tərzi-təfəkkürlü insanın nəfsi daxilində daim yüksək məʾnəvi dəyərlərə qarşı mübarizə baş verir. İnsan gərək öz dini vəzifələrini yaxşı tanıyıb, yaşayışında onları rəhbər tutsun. Hər bir əməl və təsəvvür əqidələr çərçivəsində özünəməxsus rəng alır və əslində həyat əqidədən başqa bir şey deyildir. Dini xarici dünyadan və əqidəni dini hökmlərdən

ayırmaq böyük və bağışlanmaz bir səhvdir. Amerikalı bir yazıçı «Elm və din arasındakı çəkişmələr» adlı kitabında həmin səhvlər haqqında belə yazır: «Rum imperiyasında xristianlığı rəsmi və məcburi din e᾽lan edən Konstantin bütpərəstləri yeni dinə cəlb etmək üçün bütpərəstlik məfhumlarının və ayinlərinin bə᾽zilərini xristianlığa qarışdırdı.

Orta əsrlər və yeni dövrdəki Avropada Allahın inkarına gətirib çıxaran fikirlərin əsas səbəbi məhz belə bir təsəvvürdür ki, guya din yalnız insanın Allahla əlaqəsidir və onun yaşayış sahələrində heç bir rolu yoxdur. Başqa sözlə, belə düşüncəli adamların təsəvvüründə əqidə yalnız insanın qəlbi ilə bağlıdır, yaşayış mühiti isə əqidədən tamamilə ayrıdır».

## *SPİRTLİ İÇKİLƏRİN DƏHŞƏTLİ ŞƏKİLDƏ YAYILMASI*

Baş gicəlləndirən alkoqollu içkilərin istifadəsi ictimai ruhun tənəzzülündə mühüm rol oynayır. Sərxoşluğun baş alıb getdiyi cəmiyyətlərdə dini, psixoloji, əxlaqi və sağlamlıq sahələrində müxtəlif problemlər yaranır. Bu içkilərə qurşanmaq insanların cürbəcür ruhi xəstəliklərə düçar olmasına gətirib çıxarır, qətllərə, özünü

öldürmə hallarına, oğruluğa, fahişəliyə səbəb olur. Minlərlə insan bunun nəticəsində tələf olaraq, aradan gedir.

Bir çoxları içki içməklə özlərini çətinliklərdən və qəm-qüssədən xilas etmək istəyirlər. Amma, əslində onlar həyati problemlər qarşısında öz acizliklərini izhar edir və həmin çətinlikləri həll etmək əvəzinə, bunların qarşısında diz çökürlər. Həyatın yaşayıb-yaratmaq və çətinliklərlə mübarizə siqnalı səslənən zaman, belə zəif ruhlu insanlar içkiyə pənah aparırlar. Bununla da guya həyatın əziyyətli fikirlərindən «nicat» tapır və qısa müddətli də olsa, problemsiz xəyali bir dünyada yaşayırlar.

İnsanları spirtli içkilər içməyə təhrik edən bəhanələr heç vaxt məqbul olmamış və ictimai xəstəliklərin artması üçün həmişə zəmin yaratmışdır. Bu xəstəliklər yalnız insanların təfəkkür və ruhiyyəsini tərbiyə etməklə aradan qaldırıla bilər.

Ağıllı insanlar çalışırlar ki, elm və bilik badəsindən dadmaqla «sərxoş» olsunlar. Amma alkoqol ağılı aradan aparır və insanı layiq olmadığı ən alçaq səviyyəyə endirir.

Günlərin bir günündə Hamburq şəhərindəki cah-cəlallı yəhudi məʾbədinin yanından

keçərkən, onun əzəmətli quruluşu diqqətimi cəlb etdi. Məʾbədin rəisinin vasitəsi ilə onun müxtəlif hissələrini gəzib nəzərdən keçirirdim. Salonların birinin içki içmək üçün nəzərdə tutulduğunu eşitdikdə bir anlığa heyrətdən donub qaldım. Həmin yəhudi ruhanisindən soruşdum ki, məgər məʾbəddə alkoqollu içkilər də içirlər? O, ciddi bir şəkildə cavab verdi:

«Bəli, amma ümumi şəkildə yox! Yalnız xüsusi adamlar burada görüşüb, içki içə bilərlər»!

Spirtli içkilərdən ifrat dərəcədə istifadə olunması qərbin hökumət dairələri və alimlərini narahat etdiyi üçün, onunla mübarizə məqsədi ilə müxtəlif təşkilatlar, o cümlədən «alkoqolla mübarizə qurumu» yaradıldı. Amma belə ictimai bəlalarla mübarizədə bu cür təşkilatlar çox aciz və qüdrətsiz olurlar. Çünki, həmin zəhərin işlədilməsi gündən-günə artır və gənc nəslin gələcəkdə yaramaz əyyaşlar ordusuna çevrilmə təhlükəsi reallaşır. Aşağıdakı statistik məʾlumat alkoqolun gətirdiyi fəsad və bədbəxtlikləri daha aydın göstərir: Fransada keçirilən alkoqolla mübarizəyə həsr edilmiş 24-cü beynəlxalq konfransda belə faktlar açıqlanmışdır: «Xəstəxanalara müraciət edən

qadınların 20%-i, kişilərin isə 60%-i alkoqola qurşananlardır. Ruhi xəstələrin 70%-i və zöhrəvi xəstəliyə tutulanların 40%-i alkoqollu içkilərdən istifadə edilməsinin nəticəsində bu bəlalara düçar olmuşlar».

İngiltərədəki alimlərin tədqiqatları nəticəsində mə̓lum olmuşdur ki, bu ölkədə ruhi xəstəliklərə düçar olanların 95%-i alkoqollu içkilərdən istifadə etmək üzündən həmin vəziyyətə düşürlər.

Fransanın səhiyyə naziri bu baxımdan olan statistik mə̓lumatları ictimaiyyətə çatdırdıqda, ölkədə böyük sarsıntı yaranmışdı. Həmin ölkənin vətəndaşlarından 20 min nəfəri alkoqolizm xəstəliyinə tutulmuşdur. Həmçinin avtomobil qəzalarının 57%-i sürücülərin sərxoş vəziyyətdə rol arxasında əyləşməsi nəticəsində baş verir. Fransa prezidenti belə bir bəyanatla çıxış etməyə məcbur olmuşdu: «Ey Fransa övladları! Sizin ən böyük təhlükəniz alkoqollu içkilərdən istifadə etmənizdir. Onunla əsl mübarizəyə qalxın! Fransanın bu bəla nəticəsindəki itgiləri müharibələrdə verdiyi təlafatlardan çoxdur. Sizə ləzzətli görünən içkilər əslində amansız qatillərdir. Alkoqol sizi

tez qocaldıb, ömrünüzü azaldır. Sizi cürbəcür xəstəliklərə düçar edir və günbəgün zəiflədir».

Fransadakı xəstələrin 40%-i, ruhi xəstələrin isə 50%-i spirtli içkilərdən bu bəlalara tutulur, xəstə körpələrin 50%-i valideynlərinin içkiyə qurşanmaları səbəbindən xəstəxanalara düşürlər. Bu bəlanın ölkə büdcəsinə vurduğu maddi ziyan milyardlarla frank məbləğinə çatır.

Alkoqolizm ölkədə vaxtsız ölümlərin artmasına səbəb olur. Kişilərin 55%-i, qadınların isə 30%-i bu bəla nəticəsində ölürlər. Uşaq qatillərinin 95%-i özləri alkoqolik olmaqla bərabər, həm də bu cür valideynlərin övladlarıdırlar.

Almaniyada vətəndaşlar tərəfindən törədilmiş 150 minə yaxın cinayət spirtli içkilər qəbul etdikdən sonra baş vermişdir. Digər ölkələrdəki statistika da ürək açan deyil. Amerikanın nazirlərindən biri belə mə`lumat verirdi: «ABŞ 10 il ərzində 18 milyard dollar alkoqollu içkilərin istehsalına pul sərf etmişdir. Nəticədə 100 min cavan kimsəsizlər evinə göndərilmiş, 150 min adam zindana düşmüş, 1500 nəfər öldürülmüş, 2000 adam özünü öldürmüş, 200 min qadın dul qalmış və bir

milyon uşaq atasız böyüməyə məcbur edilmişdir».

«Alkoqolun vurduğu ziyanlar iqtisadi baxımdan da diqqəti cəlb edir. Dəqiq mə᾽lumatlara əsasən, alkoqol Fransa dövlətinə aşağıda göstərilən qaydada 128 milyard frank zərər vurmuşdur: 10 milyard xəstəxanalara çəkilən xərclər, 40 milyard yardım və xeyriyyə işləri üçün, 17 milyard ictimai təhlükəsizliyi tə᾽min etmək üçün, 60 milyard ədliyyə və həbsxanalar üçün. Bundan əlavə, digər sahələrdə xərclənmiş bir milyard frank da dövlət büdcəsinə dəymiş zərərlərdəndir».

Keçmiş SSRİ-də də alkoqol əleyhinə geniş mübarizə başlamışdı. Bu mübarizə alkoqolizmin Sovet iqtisadiyyatına vurduğu hədsiz ziyanlara görə aparılırdı. Pravda qəzeti yazırdı: «Alkoqol SSRİ-də cinayətlərin sayının artmasına, işə çıxmamaq hallarının çoxalmasına, nizam-intizamın pozulmasına səbəb olur».

Tədqiqatlara görə hətta çoxlu hava qəzaları və təyyarələrin süqutu pilotların sərxoşluğu nəticəsində baş verir. Psixoloqların araşdırmaları göstərir ki, Amerikada şəxsi təyyarə və vertolyotların pilotları sərxoş halda

onları idarə edərkən daha çox hava qəzalarına uğrayırlar.

## *MÜASİR DÜNYA HƏYATINDAKI ZİDDİYYƏTLƏR*

Kapitalizmin inkişafı və sənaye inqilabı bütün sahələrdə, xüsusən xalqın maddi həyatında böyük dəyişikliklərə səbəb olmuşdur. Sənaye və texnikanın sür᾽ətli inkişafı nəticəsində böyük sərmayələri olan kompaniyalar, kartellər və trestlər yarandı. Bir dəstə adam təsəvvürolunmaz dərəcədə varlandı, digərləri isə son dərəcə kasıblaşdılar. Varlılar istədikləri maddi ne᾽mətlərdən istifadə edir, hətta itləri və pişikləri üçün əlçatmaz yaşayış vasitələri düzəltdirirdilər. Kasıblar isə ən adi və ibtidai şeylərə həsrət qalırdılar. Təəssüf ki, bu cür təzahürlər hələ də müasir dünyanın gerçəkliklərindəndir.

Keçmişdə kiçik həcmdə görünən cəmiyyətin bədbəxtlikləri indi daha böyük miqyasda baş verir.

İnkişaf etmiş ölkələrdə iqtisadi tərəqqi üçün edilən sə᾽ylər dünya miqyasında və bütün insanların xeyrinə xidmət etmir. Belə ölkələr yalnız öz iqtisadi yüksəlişlərini əsas tutur, başqa

xalqların və ölkələrin süquta uğraması onları narahat etmir. Bu cür iqtisadi inkişaf cəmiyyətdə sinfi təbəqələşməni kəskin şəkildə gücləndirir. Hal-hazırda dünyanın bir çox yerlərində kasıbçılıq və aclıq geniş surətdə artmaqdadır. Üçüncü dünya ölkələrində 250 milyon adam kifayət qədər yemək yemir və ərzaq azlığından əziyyət çəkir. 150 milyon adam yaxşı qidalana bilmir və hər il 8 milyon nəfər acından ölür.

Yalnız Braziliyada ərzaq çatışmazlığı üzündən ildə 250 min körpə ölür. Hindistanda isə doğumla ölüm arsındakı nisbət həmin səbəbdən xeyli fərqlidir. ABŞ-dakı bir ailənin qabağından artıq qalan yeməklə dörd hindli ailəsini tə᾽min etmək olar. Belə bir şəraitdə bə᾽zi «iş adamları» tapılır ki, ərzaq məhsullarının qiymətlərini artırmaq və sü᾽ni qıtlıq yaratmaqdan ötrü, milyonlarla ac adamı ölümdən qurtara bilən milyon tonlarla ərzaq məhsullarını məhv edirlər. Bu cür qeyri-insani əməllərə misal olaraq, aşağıdakıları göstərmək olar:

1960-cı ildə ABŞ-dakı anbarlarda 125 milyon ton çörək məhsulları zay olmuşdu. Bu qədər ərzaq Hindistanda aclıq içində olan əhalini bir il

müddətində tə᾽min edərdi. ABŞ-da hər il dövlətin qüdrət və mənafelərini qorumaqdan ötrü çox böyük miqdarda ərzaq məhsulları məhv edilir!!! Son illərdə bu cür «siyasət» daha da güclənməkdədir.

Anbarlarda ərzaqı məhv və zay olana qədər saxlamaqla dünyada təkcə aclıq artmır, ABŞ başqa ölkələri baha qiymətə ərzaq məhsulları almağa məcbur edir və bununla da varlanır. Nəticədə başqa ölkələrin iqtisadiyyatına ağır ziyan vurulur. ABŞ dövləti bu şəkildə «qazandığı» pullar hesabına böyük hərbi potensial yaradır və dünyada «ağalıq» edir.

Məşhur filosof Bertrand Rassel yazır: «Keçən 14 il ərzində ABŞ dövləti öz fermerlərindən taxıl məhsullarını almaq üçün dörd milyard dollar pul xərcləmişdir. Milyon tonlarla taxıl və başqa ərzaq məhsulları dövlət anbarlarında uzun müddət saxlanıldıqdan sonra zay olmuşdur. Bütün bunlar dünyada ərzaqın qiymətlərini bahalaşdırmaqdan və daha çox gəlir əldə etməkdən ötrü edilir.

Belə bir vəziyyət dəyişməzsə, gələcəkdə dəhşətli partlayışa səbəb ola bilər. Həmin şeytani siyasət aclığın artması və şiddətli əxlaqi pozğunluğun baş alıb getməsinə yönəlmişdir.

Məşhur sosioloq və filosof Sorokin deyir: «Sənaye və texnikanın hazırkı inkişafı ilə yanaşı, hər şeydən çox əxlaqi kasıblıq hiss edirik. İnkişaf etmiş ölkələrin cəmiyyətləri əxlaqi keyfiyyətlər baxımından geri qalmış ölkələrin əhalisindən heç də üstün deyillər. Bu günkü maddi mədəniyyət ziddiyyətlərlə doludur. Söz və əməldə, təsəvvür və e᾿tirafda, fikir və hisslərdəki ziddiyyətlər qərb cəmiyyətlərində çox dərin kök salmışdır. Maddi mədəniyyət ümumiyyətlə, zahirdə bütün insanların bərabərliyini e᾿lan etsə də, əslində cəmiyyətdə ayrı-seçkiliyə, ədalətsizliyə habelə fikri, dini, iqtisadi, siyasi, psixoloji və ictimai ziddiyyətlərə rəvac verir. Daha doğrusu, təəssüblə bunların yayılması üçün şərait yaradır; demokratiya və xalq hakimiyyəti şüarları ilə ictimai ədalət yaratmaq iddiası edir. Lakin, dövlət və hökumət xalqa biganə olan bir dəstə adamın əlində cəmləşir. Sözdə cəmiyyətin səadətini istəyir, amma əməldə bədbəxtliklər gətirir. Maddi mədəniyyət öz tə᾿limlərində eqoizm və özünüdüşünmək hallarını tənqid edir, başqalarına hörmət etmək və ictimai yaşayış prinsiplərini təbliğ edir. Lakin əməli olaraq, başqalarının taleyinə e᾿tinasızlıq, şəxsi mənafe

düşkünlüyü və cah-cəlal tələbi kimi ideyaları yayır».

İnkişaf etmiş ölkələrdəki cəmiyyət dünya əhalisinin 25%-ni təşkil edir. Amma dünyanın 85% sərvəti bu ölkələrin əlindədir. Geri qalmış ölkələr dünya əhalisinin 75%-ni təşkil etsələr də, onların payına cəmi 15% sərvət düşür. Bu fərq illər ötdükcə daha da artır. Həmin inkişaf etmiş ölkələrdə isə sərvətlər yalnız bir qrup adamın əlində toplanır. ABŞ komissiyalarının birində açıqlanan hesabata görə, biznes qurumlarının cəmi 5%-ni təşkil edən bir qrup böyük sənaye şirkətləri ölkənin sənaye istehsalının ümumi gəlirinin 85%-ni qazanırlar. ABŞ-da sənaye sahəsində işləyən əhalinin 60%-dən çoxu bu şirkətlərdə çalışır və sənayenin xalis gəlirinin 84%-i həmin böyük kompaniyaların payına düşür.

BMT-nin ərzaq məhsulları və əkinçilik üzrə ümumdünya təşkilatının rəisi deyir: «Hələ də dünya əhalisinin üçdə ikisi daimi olaraq aclıq içərisində yaşayır və 1,5 milyarda yaxın insan özünü dolandırmaqda aciz qalır».

Latın Amerikası ölkələrinin başçılarından biri vaxtilə ABŞ prezidenti Trumenə müraciət edərək demişdi:

«Dünyadakı aclığın qarşısını almaq və milyonlarla insanı ölümdən qurtarmaqdan ötrü yaxşı olardı ki, ABŞ dövləti öz ixtiyarında olan kənd təsərrüfatı və ərzaq məhsullarının artıq qalan və anbarlarda çürüyən hissəsini beynəlxalq təşkilatların ixtiyarına versin və onlar da həmin məhsulları ac əhali arasında paylasın».

Trumen isə belə cavab vermişdi:

«ABŞ prezidenti kimi bu təkliflə razılaşa bilmərəm. Çünki, bizim başqalarına etdiyimiz kömək və yardımlar siyasi maraq və mənafelərimizdən ayrıla bilməz»!!!

## *MƏDƏNİ ƏSRDƏKİ VƏHŞİLİKLƏR*

Bə῾zi sosioloqların fikrincə, müharibələr bəşər həyatının ayrılmaz bir hissəsidir və insan yaşayışı ibtidai çəkişmələr və davalarla əkiz doğulmuşdur. Amma bir çox sosioloqlar, psixioloqlar və alimlər bu fikri rədd edir və deyirlər ki, müharibə insan cəmiyyəti üçün qarşısıalınmaz hadisə deyildir. Daha doğrusu o, ictimai, siyasi və iqtisadi ziddiyyətlərin, habelə əxlaqi çatışmazlıqların nəticəsidir. Buna görə də müharibənin səbəblərini bəşər təbiətindən kənarda axtarmaq lazımdır və ictimai

münasibətləri tarazlaşdırmaqla, əsaslı və düzgün tə͑lim-tərbiyə yoluyla onu doğuran səbəbləri aradan qaldırmaq olar. Nəticədə müharibələrin insan cəmiyyətinə vurduğu sağalmaz yaraların və böyük tələfatların qarşısını almaq mümkündür. 20-ci əsr, elm və texnika sahələrində əldə edilən parlaq və misilsiz qələbələrlə yanaşı, maddi imkanlarını artırmaq, bir qrup adamların tüğyan edən təmayüllərini doydurmaq üçün törədilən ən vəhşi müharibələrlə müşayiət olunub. Əgər bu əsrdəki müharibə və hadisələrin qaranlıq tarixinə nəzər salsaq, görərik ki, bu cinayətlər öz həcminə və şiddətinə görə indiyədək olan bəşəriyyət tarixindəki bütün cinayətləri ötüb keçmişdir.

Təəssüf ki, müasir texnologiyalara və nüvə silahlarına malik olan qərb dünyası elmin qüdrəti ilə bəşəriyyəti qan və fəlakətlərə doğru sürükləyir və abadlıqları viran qoymaq planları hazırlayır.

Hər iki dünya müharibəsi böyük dövlətlərin maddi mənafelərindəki ziddiyyətlər üzündən baş vermiş və bəşəriyyətə çox acı nəticələr bəxş etmişdir. Həmin müharibələrin dəhşətli statistikasına nəzər salaq:

Birinci dünya müharibəsi 1565 gün davam edərək, döyüş meydanlarında 9 milyon adamın ölümü, 22 milyon nəfərin yaralanması və şikəst olması, 5 milyon nəfərin itkin düşməsi ilə nəticələndi. Bütün bu rəqəmlər təkcə döyüş meydanlarıyla əlaqədardır. Saysız-hesabsız kəndlər və şəhərlər, yaşayış məntəqələri müharibə vaxtı viran qoyulmuşdu. Bu müharibəyə sərf olunan xərclər 400 milyard dollardan çox idi. Karneqi mərkəzinin hesablamalarına görə bu pulla İngiltərə, İrlandiya, Şotlandiya, Belçika, Rusiya, ABŞ, Almaniya, Kanada və Avstraliyada bütün əhali üçün kifayət qədər yaşayış şəraiti olan evlər tikmək olardı. Birinci dünya müharibəsi ağlasığmaz təlafat və xəsarətlərlə başa çatdı; onun yaraları sağalmamış ikinci dünya müharibəsi başladı. İkinci dünya müharibəsində 35 milyon nəfər öldürüldü, 20 milyon adam şikəst oldu, 13 milyon məktəb, 6 min universitet, 8 min elmi labaratoriya dağıdıldı.

1945-ci ildə ABŞ tərəfindən Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə iki atom bombası atıldı. Xirosimada 70 min adam məhv oldu və bir o qədər də yaralandı. Naqasakidə 40

min adam öldürüldü və təqribən bir o qədər də yaralandı. Bundan 5 gün sonra Yaponiya danışıqsız təslim oldu və ikinci dünya müharibəsi başa çatdı. Onun digər dəhşətli nəticələrini aşağıdakı mə`lumatdan da anlamaq olar:

SSRİ ABŞ dövlətindən dörd milyon sü`ni ayaq (protez) düzəltməyi xahiş etmişdi. Bunlar müharibədə əl-ayaqlarını itirmiş sovet əsgərləri üçün nəzərdə tutulmuşdu. Çünki SSRİ təklikdə bu işin öhdəsindən gələ bilmirdi. ABŞ zavodlarına verilən həmin sifarişin həcmini başa düşdükdə, Avropanın başqa ölkələrindəki insan təlafatlarının miqdarını yaxşı anlamaq olur.

Hal-hazırda mövcud olan ən kiçik nüvə silahları Xirosimaya atılan bombadan 5 min dəfə güclüdür. Bir hidrogen bombası isə 5 milyon dəfə atom bombasından şiddətli dağıntı yarada bilər. Təkcə bir belə bomba Nyu-York, Paris, London vvə Moskva kimi böyük şəhərləri yerlə yeksan etməyə qadirdir. Belə bombaları işə salmaq üçün fədakar əsgərlər lazım deyil və müasir raketlər onları dünyanın hər hansı bir nöqtəsinə çatdıra bilər.

Pentaqonun yüksək rütbəli zabitlərindən biri deyir: «Gələcəkdə baş verəcək müharibələrin təlafatı təkcə hərbçilərə aid olmayacaq, daha doğrusu belə bir müharibə bütün millətlərin məhvinə gətirib çıxarar. Hətta uşaqlar və qadınlar da tələf olacaqlar. Çünki silah düzəldən fiziklər və alimlər müharibə qüdrətini əsgərlərdən alıb, onu şüursuz fiziki tərkiblərə və döyüş alətlərinə vermişlər. Həmin döyüş vəsait və imkanları təkcə döyüşçüləri deyil, ümumiyyətlə, bütün insanları öz çənginə alacaqdır. Gələcəkdə düşmənlər bir-birlərinin qalalarının üstünə hücum etməyəcəklər. Döyüş meydanı bütün şəhər və kəndləri əhatə edəcək. Çünki yeni nəzəriyyələrə əsasən, düşmənin əsas qüvvəsi onun ordusunda deyil, bazarların və ticarət mərkəzlərinin, zavodların və fabriklərin cəmləşdiyi şəhərlərin sayındadır. Əgər müharibə olsa, bunlar nüvə bombaları ilə, kimyəvi və bakteroloji silahlarla darmadağın ediləcək».

İndi aşkar şəkildə görürük ki, qərb dünyasının başına gələn hər iki dünya müharibəsi misilsiz dağıntı və təlafatlarla nəticələnsə də, qərblilərin əxlaqına heç bir təˈsir etməmişdir. Dünyapərəstlikdən və alkoqoldan

məst olan bu əxlaq dəyişilməmiş, keçmiş bəlalardan ibrət götürülməmişdir. Hal-hazırda dünyanın bir çox nöqtələrində regional hərbi münaqişələr baş verir və onların böyük dünya müharibəsinə çevrilmək təhlükəsini heç kim inkar etmir. Belə bir böyük müharibə isə mədəniyyət və insanlığın əsasını məhv edə bilər.

«Mədəni millətlər» özlərinin güclü potensiallarının böyük bir qismini - əslində maddi rifah və asayişə sərf olunmalı çoxlu sərmayələrini təhlükəli, dağıdıcı silahların yaradılmasına yönəldirlər. Həmin xərclər bu dövlətlərin büdcəsinin böyük bir hissəsini təşkil edir.

İngilis filosofu Bertrand Rassel deyir: «Bu gün Aya və Yer ətrafı orbitə süʾni peyklər göndərən dövlətlər bir-birləri ilə yarışırlar. Həmin müsabiqənin nəticəsi axırda dünyanın məhvinə gətirib çıxara bilər. Əgər keçmişdə müharibələr, qarətlər və qətllər ictimai zərurət üzündən baş verirdisə, indi həmin müharibələr ictimai inkişaf və tərəqqiyə mane olur. Gələcəkdə isə bunlar bəşəriyyətə çox böyük bədbəxtliklər gətirəcək. Hazırkı dünyada mövcud olan iqtisadi istehsal yarışı ictimai məhvin amillərindən biridir». «İqtisadi araşdırmalar»

jurnalının yazdığına görə dünyada 20-ci əsrin birinci yarısında 4000 milyard dollar vəsait müxtəlif silahların hazırlanmasına sərf edilmişdir. Həmin pulla 50 il ərzində bütün dünya əhalisini havayı yeməklə tə᾽min etmək olardı və yer üzündəki insanların üçdə ikisi üçün ev tikmək mümkün idi.

Bir tərəfdən elə bir dünyada yaşayırıq ki, onun əhalisinin üçdə iki hissəsi ərzaq çatışmazlığı və aclıqla üzləşir və hələ də savadsızdır, digər tərəfdən isə ildə hərbi xərclərə 120 milyard dollar vəsait qoyulur. Yə᾽ni, sutkada 350 milyon dollar dağıdıcı məqsədlər üçün xərclənir. Bu məbləğ bütün dünyadakı bir ildə istehsal olunan əmtəələrin qiymətinə bərabərdir və ya bütün dünyadakı sərmayə qoyuluşlarının yarısı ilə eynidir. Dünyadakı elmi işçilərin 70%-i silahların hazırlanması ilə məşğuldur. Bu gün dağıdıcı və kütləvi qırğın silahları o qədər çoxdur ki, əgər üçüncü dünya müharibəsi baş verərsə, bəşəriyyət tamamilə məhv olar.

Məşhur alim Sorokin deyir:

«Bizim zamandakı əsas məsələ kapitalizmin, ya sosializmin, millətçilik və ya beynəlmiləlçiliyin üstün olması deyil, indiki

mədəniyyətin gələcək svilizasiya üçün layiqli keçid mərhələsi rolunu oynamasıdır. Mən dəfələrlə qeyd etmişəm ki, bizim zaman gələcək dövrlər üçün xüsusi bir mədəniyyət hazırlayan əsrə çevrilməlidir. 1-ci və 2-ci dünya müharibələri zamanı dəfələrlə eşidirdik ki, əgər qarşı tərəf aradan getsə, sülh və əmin-amanlıq bərqərar olar. 1-ci dünya müharibəsi zamanı çoxları elə təsəvvür edirdilər ki, alman imperatoru Vilhelm və ya İngiltərə dövləti məhv olsalar, müharibə başa çatacaq. 2-ci dünya müharibəsi dövründə deyirdilər ki, əgər Hitler olmasaydı, ya Çörçill İngiltərəyə başçılıq etməsəydi, ya Mussolini dünyaya gəlməsəydi, ya Hirohito yaponların imperatoru olmasaydı, ya Stalinin yerini Trotski tutsaydı, heç vaxt müharibə başlamazdı. Halbuki adları çəkilən bu adamlar dünyadan getdikdən sonra da dünyanın bir sıra bölgələrində müharibələr baş verməkdə davam edir. Çünki həmin adamlar 20-ci əsrin böhranlarını yaratmamışdılar. Daha doğrusu, bu adamları böhranlar yaratmışdı. Əgər onlar olmasaydı, digərləri bu yerləri tutacaq və həmin işləri görəcəkdilər. Belə adamlar xəstə bədəndəki çirkli yaralara bənzəyirlər. O yaraları sıxıb çirki çıxartdıqdan

sonra onun yerinə təzəsi gəlir. Bu cür xəstə cism yalnız əsaslı surətdə müalicə vasitəsiylə - qanı təmizləməklə sağala bilər». Qəribədir, heyvanları qorumaq üçün «müdafiə cəmiyyətləri» yaradan, sü͗ni ürək düzəldən yeni dünya günahsız adamların öldürülməsinə e͗tinasız yanaşır. BMT və «İnsan hüquları konvensiyası» yaradan müasir dünya özünü zülmün düşməni və məzlumların himayəçisi sayır. Amma minlərlə insan hazırkı dünyada acından ölür.

Məgər bütün bu «şuralar», «cəmiyyətlər», insan hüquqlarını müdafiə təşkilatlarının özləri dünya ictimaiyyətində ziddiyyətlər və müharibələrin yaranmasına səbəb olmurlarmı?

Məgər bütün ixtilafları diplomatik yollarla həll etməyə çağıranlar və dünyada sülh və təhlükəsizlik yaratmaqdan dəm vuranlar, özləri başqalarına insafsızcasına təzyiqlər və hücumlar etmirlərmi?

Xristian başçıları isə zahirdə xalqın xoşuna nə gəlirsə, onu bəhanə edərək təbliğat aparırlar və belə «sülhsevərlik» əslində müharibədən də pisdir. Roma kilsəsi və faşistlər arasında bağlanan saziş isə Avropadakı yaşlı nəslin hələ də yaddaşından silinməyib!

## *İRQİ AYRI-SEÇKİLİK*

İrqçilik nəzəriyyəsinə görə, millətlər heç vaxt bərabər olmamışlar və «ali irqə» mənsub xalqlar nəhayətdə, dünyaya ağalıq edəcək, zəif irqlər isə onlara tabe olacaqlar.

Belə təfəkkür tərzi bəşərin həyat fəlsəfəsi, fərdi və ictimai azadlıq prinsipləri ilə tamamilə ziddir və zəif millətlərin tənəzzülünə səbəb ola bilər. Müasir tədqiqatçıların və filosofların böyük bir hissəsi tarixi və elmi baxımdan irqçiliyi xəyali, saxta və əsassız tə᾿lim kimi qiymətləndirmişlər.

«İndiyədək hər hansı bir irqin xalis qaldığı müşahidə olunmadığı, həmçinin bu sahədə dəqiq mənbələrə söykənməyən bir sıra təhqiqatçılar bu məsələnin əsil mahiyyətini tam aydınlaşdırmadan belə fikir yürüdürlər ki, «ariya» irqi söz-söhbəti də əfsanədən başqa bir şey deyil və dəqiq bir fakt yoxdur ki, tarixdə ariya irqinin mövcud olduğunu sübut etsin. Aydın olan isə yalnız aryayi dillərin həqiqətən varlığıdır və əksərən müxtəlif irqlərin eyni dildə danışdığı göz qabağındadır.»[1]

---

[1] "Dinlərin tarixi".

İkinci dünya müharibəsinin törənmə səbəblərindən biri Hitler Almaniyasında «millətçilik» ideyasının yaranmasıdır. Bu ideya alman millətinin ən yüksək irqə malik olması fikirlərinə əsaslanırdı. Hitlerin son məqsədi Almaniya ərazisini genişləndirmək və Avropanın mərkəzində qüdrətli «German» dövləti yaratmaq idi. Bu rejim öz hakimiyyəti dövründə güclü təbliğat üsulları ilə milli qüvvələri cəlb edə bilmiş və onlardan xüsusi məqsədlərinə çatmaq üçün istifadə etmişdi.

Doktor Qustav Loben deyir:

«İctimai fikirlərdə mühüm rol oynayan ideyalardan biri də irqçilik idi. Keçmiş siyasətçilər ona böyük əhəmiyyət verirdilər və bu, onların siyasətlərinin əsasını təşkil edirdi. Həmin ideyanın yayılması nəhayətdə, misilsiz dağıntılar və ağır itkilərlə bitən müharibələrə səbəb oldu. Bu ideyanın yayılmasının əsas səbəbi bu idi ki, guya ən güclü və toxunulmaz millət daha çox əraziyə malik və daha çox sayı olan millət hesab edilməlidir. Halbuki, belə millətlər məğlubiyyətə daha yaxın olurlar».

Hələ də dünyanın ən mütərəqqi sayılan ölkələrində ağ dərililərin zəncilərdən üstünlüyü fikri və çürümüş irqi müqayisələr təfəkkürü

fövqəladə nüfuza malikdir. Mədəniyyətin beşiyi sayılan bir çox ölkələrdə zəncilər ümumi hüquq və azadlıqlardan məhrumdurlar. Son illərə qədər ABŞ-da irqçiliyin biabırçı təzahürləri qalmaqda idi. 1963-cü ildə ABŞ prezidenti konqresdəki çıxışında deyirdi:

«Bu gün Amerikada doğulan hər zənci uşağın məktəbə qəbul olma imkanı ağ dərili uşaqların qəbul olma imkanının yarısı qədərdir. Zəncinin universitetə daxil olma ehtimalı ağ dərililərin üçdə biri qədərdir. Onun mütəxəssis olmaq imkanı da eyni cürdür. İşsiz qalmaq təhlükəsi isə çox böyükdür»!

1954-cü ildə ABŞ-ın ali məhkəməsinin zəncilərlə ağların eyni hüquqla məktəblərdə oxuması haqqında çıxardığı hökmə baxmayaraq, cəmi 4% zənci ağların məktəblərinə qəbul edilmişdi. Zənci uşaqların ağ dərililər oxuyan məktəblərə qəbulu bir çox hallarda dava-dalaşla və polisin işə qarışması ilə müşahidə olunurdu.

ABŞ-da ağların zəncilərə qarşı törətdikləri cinayətlər öz vəhşiliyinə görə orta əsrlərin cinayətlərini xatırladırdı.

Məşhur filosof Sorokin deyir:

Mən «şərq şərqdir, qərb qərbdir və onlar heç vaxt bir-birinə çatmazlar» deyənlərlə müxalifəm. Niyə çatmazlar? İnsanlar arasında nə fərq var?

İsa Məsihin zühurundan iki min il sonra yada salmalıyıq ki, o deyirdi: İnsanlıq və fəzilət niyyətə, yaxşı əmələ və məhəbbətə bağlıdır. İndi isə biz, «mədəni şəriət» deyirik ki, insanın fəziləti onun qanının növündən və dərisinin rəngindən asılıdır.

Deyirlər ki, Hitler pis adam idi və irqi ayrıseçkiliyə inanırdı. Amma, indi ətrafımıza diqqət yetirin. Hər tərəf kiçik hitlerlərlə doludur. Afrikanın cənubuna və ya Amerikaya baxın. Hər yer irqi ayrı-seçkiliklə doludur. Əslində ABŞ-ın Vyetnamdakı müharibəsi əsl irqçilik nümunəsi idi və qərbin ağ dərili irqinin, sarı dərili Asiya irqindən üstünlüyü prinsipinə əsaslanmışdı». Son vaxtlaradək Cənubi Afrikada mövcud olan «aparteid» rejimi irqçiliyin ən çirkin forması idi.

Bu dövlətin rəsmi qanunlarına görə, zəncilər ağ dərililər yaşayan bölgələrdə yaşaya bilmirdilər. Vətəndaşların irqi mənsubiyyəti onların pasportlarında qeyd olunurdu. Zəncilər üçün ayrıca qatarlar, avtobuslar, mehmanxanalar və hətta kilsələr nəzərdə

tutulmuşdu. Onlara ağların istifadə etdiyi telefon köşklərindən danışmağa icazə verilmirdi. Dünyasını dəyişmiş zəncilər ağların qəbristanlığında dəfn edilə bilməzdilər!

İrqçiliklə mübarizə aparan zəncilər tutulub həbsxanalara salınırdı. Belələrinin sayı 1,5 milyona çatırdı. Bu ədalətsizliklərə qarşı e῾tiraz nümayişi keçirən zəncilər CAR-nın polisi tərəfindən pulemyotlarla güllələbaran edilmişdilər. 1960-cı il martın 21-də baş verən həmin qanlı hadisə zamanı 69 nəfər öldürülmüş, 180 nəfər isə yaralanmışdı. İnsanlığa zidd olan belə bir vəhşiliyə nə ad qoymaq olar? Görəsən insanları dərisinin rənginə görə kölə vəziyyətində yaşamağa məcbur etmək «mədəniyyət» sayılırmı?

## *AİLƏ TƏMƏLİNİN SARSILMASI*

Cəmiyyətin əsasını təşkil edən və ictimai həyatın kiçik bir hissəsindən ibarət olan ailə həyatı hər şeydən artıq mehribanlıq və məhəbbət hisslərinə ehtiyaclıdır. İnsan yaşayışının müxtəlif mərhələləri ev mühitindən başlayıb, orada da başa çatır. Ailə üzvləri arasında mə῾nəvi və əxlaqi bağlılıq nə qədər möhkəm olarsa, həmin mühitdə səadət və

xoşbəxtlik daha qüvvətli olacaqdır. Həyatın keşməkeşli təˈsirləri qarşısında rahat ailə mühitində hər şeydən artıq dinclik və aramlıq əldə olunur. «Sənaye inqilabı»ndan əvvəl qərb millətləri sadə yaşayış tərzi keçirərdilər. Onların ailə mühitində səfa-səmimiyyət hökm sürürdü. Kişilər öz ailələrinin ehtiyacını təˈmin etmək üçün işləməyə gedir, qadınlar ev işləri və uşaqların tərbiyəsi ilə məşğul olur və bununla da onların fəaliyyəti ailə mühitindən kənara çıxmırdı.

Yüksək səviyyədə işçi qüvvəsi tələb edən sənaye inkişafının ilk töhfəsi bu oldu ki, kişi və qadınlığından, kiçik və böyüklüyündən asılı olmayaraq, ümumi insan kütləsi sənaye mərkəzlərinə, dövlət idarələrinə, ticarət mərkəzlərinə və sair müəssisələrə cəlb edildi. Şəhərlərin vəziyyəti tamamilə dəyişdi, fəaliyyətlərin əksəriyyəti daha yaxşı yaşamaq istiqamətinə yönəldi və ictimaiyyətdə yaşayışın zahiri görünüşünü yaxşılaşdırmaq marağı yarandı.

Bu dəyişikliklərdən sonra ailə üzvləri arasında narazılıq, ər-arvad bağlılıqlarının zəifləməsi, qohumluq əlaqələrinin əhəmiyyətsizliyi, övladlara qarşı məhəbbət

hisslərinin azalması, uşaqların tərbiyəsinə diqqətsizlik təzahürləri ortaya çıxdı. Qadınlar işdə çox enerji sərf etdiklərindən ev işləri və ailə məsələləri ilə məşğul ola bilmirdilər. Onlar iş yerlərində yorulduqdan sonra evə gəlir və ona görə də lazımi qədər ailə-məişət məsələlərinə diqqət yetirməyə qadir olmurdular. Digər tərəfdən də mütləq qadın «azadlığı» cəmiyyət üzərinə öz ağır kölgəsini saldı və bir çox ailələrdə iffət məsələsi unuduldu. Uzun illərdən bəri ailədə hakim olan əxlaqi dəyərlər tədricən öz yerini üzdəniraq xüsusiyyətdərə verdi.

Dünyada baş verən boşanmaların dəhşətli statistikası mədəni millətlərin ən böyük ictimai probleminə çevrilmişdir və artıq o, qarşısıalınmaz proses hesab olunur. Ər-arvad arasında baş verən ən kiçik mübahisə böyük dava-dalaşa çevrilir və boşanma ilə nəticələnir. Ümumiyyətlə, müasir boşanmaların əksəriyyəti xırda məsələlər üzündən baş verir və əgər belə mübahisələrdə bir qədər güzəştə gedilsə, ailənin dağılmasının qarşısını almaq olar.

Almaniyada müvəqqəti yaşayan dostlarımdan biri deyirdi ki, burada yaşadığım bir neçə ildə qonşuluğumdakı ailələrin

hamısının mə᾿nasız işlər ucbatından necə dağıldığının şahidi olurdum!

Almaniyada boşanmaların səbəbini araşdırmaq və onların qarşısını almaq üçün həkim, psixoloq və hüquqşünaslardan ibarət bir təşkilat da yaradılmışdı. Həmin təşkilat belə bir nəticəyə gəlmişdi ki, boşanma səbəbləri qadınların evdən xaricdə daha çox işləməsi ilə əlaqədardır.

Aylıq gəlirin azlığı 70%-ə qədər ərli qadınları işləməyə məcbur edirdi ki, bunların 60%-i uşaqlı idi. Təbiidir ki, ağır iş şəraiti, evdə uşaqlara qulluq etmək və tərbiyə işi ilə məşğul olmaq yüksək əsəbi gərginlik yaradır. Belə şəraitdə yaşayan qadınlar öz ərləri ilə mənasız işlər üstündə mübahisə edir və nəticədə ixtilaflar böyüyür, boşanma məsələsi ortaya çıxır və nəhayət ailə dağılır.

Tanınmış rus yazıçısı Lev Tolstoy deyirdi:

«Boşanmaların çoxalmasının səbəbini qadınların ruhiyyəsindəki qeyri-sabitlik və incəliklə yanaşı, onların yüksək ixtiyara malik olmasında da axtarmaq lazımdır. Baxmayaraq ki, bunun digər səbəbləri də vardır. Məsələn: işlərin maşınlar tərəfindən icrası kişi və qadınların əsəb sistemində yorğunluq yaradır,

müəssisələrdə qadınların kişilərlə birgə işləməsi bə᾿zən onlar arasında qeyri-qanuni əlaqələrin yaranmasına səbəb olur. Ona görə də boşanma səbəbləri haqqında danışanda qadınların evdən xaricdə işləmələri məsələsini unutmaq olmaz».

Bir neçə il əvvəl aparılmış sosioloji tədqiqatlardan mə᾿lum oldu ki, Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş boşanmaların ən böyük hissəsi sənət adamlarının payına düşür. Boşanmaların tədqiqi bütün təbəqələr arasında sənət adamlarının böyük əksəriyyətlə «liderlik» etdiyini göstərdikdən sonra, Hollivudun özündə də belə bir statistik araşdırma aparıldı. Oradakı boşanmaların sayı o qədər çox olmuşdu ki, həmin mərkəz nəticələri dərc etməkdən çəkinmişdi.

Yazıçılardan biri Amerikadakı boşanmaların çoxluğu haqqında belə deyirdi:

«Son illərdə ABŞ-da boşanma halları on dəfə artmışdır. Təqribən hər dörd nikahdan biri boşanma ilə nəticələnir».

İsveçdə isə son əlli il ərzində boşanma min faiz! çoxalmışdır. Fransada da bu rəqəm ildə 70%-dən artıq olur.

Birinci və xüsusilə də ikinci dünya müharibəsindən sonra nikahların sayının kəskin azalmasına səbəb olan amillərdən başlıcası əxlaqi pozğunluqların artması idi. Gənclər ailə qayğısı çəkmədən, məʾsuliyyətsiz yaşamağı nikahdan daha üstün tuturdular.

Fransada ildən-ilə boşanmaların artmasını görən «ailə federasiyası» təşkilatı dövlətdən 1945-ci ildə ləğv olunmuş qanunun yenidən tətbiq olumasını tələb etmişdi. Həmin qanuna görə evlənmənin ilk üç ilində hər cür boşanma qadağan edilirdi. İngiltərədə belə qanun aşağıdakı iki halın istisna edilməsi ilə icra olunurdu:-«Ər tərəfindən fövqəladə vəhşilik və kobudluq, qadın tərəfindən hədsiz pozğunluq və xəyanət».

Amerikada qadınların əksəriyyəti evləndikdən iki, səkkiz və ya iyirmi ay sonra ərlərindən ayrılırlar. Hər il 150 min körpə boşanmanın qurbanı olur. Hazırda ABŞ-da üç milyon uşağın ata-anası bir-birlərindən ayrı yaşayırlar. Bu ölkədəki boşanmaların 80%-i qadınların tələbi ilə baş verir.

## *HEYVANLARI SEVMƏK*

Bə᾿zi qərb ailələrində heyvanları evdə saxlamaq və onlara bağlılıq dəlilik həddindədir. Almaniyada tibbi təhsil alan bir iranlı belə deyirdi: «Mənim ev sahibim öz itini çox sevirdi. Onu qucaqlayır, öpür və hətta özü ilə yatızdırırdı. Mən bir gün ona xəbərdarlıq etdim ki, o, itin bədənindəki mikroblar vasitəsilə xəstəliyə tutula bilər. Amma o, mənim sözlərimə heç bir əhəmiyyət vermədi. Əlacsızlıqdan bu barədə yazılmış kitabı ona göstərdim. Oradakıları oxuduqdan sonra o, heyrətə gəldi və çox təəccübləndi. Məndən soruşdu ki, əgər itlə təmasda olmaq bu qədər təhlükəlidirsə, bəs nə üçün alimlər və həkimlər özləri evlərində it saxlayırlar. Dedim: «Bir çox şeylər vardır ki, sağlamlığa zidd e᾿lan olunsalar da, bə᾿zi həkimlər özləri buna riayət etmirlər». (Məsələn, siqaret çəkmək və s.)

Amerikadakı jurnallardan biri it saxlayan qadınlar arasında sorğu keçirərək, onlara aşağıdakı suallarla müraciət etmişdi:

1. İtinizi ərinizdən çox istəyirsiniz?

2. Əgər itiniz və özünüz ac olsanız və azacıq yeməyiniz olarsa, itinizə verərsiz ya özünüz yeyərsiniz?

3. İtiniz sizin otaqda yatırmı?

4. İtiniz ölsə, ağlayarsınız?

5. İtinizi «heyvandan» yüksək mövqeli sayırsınız?

6. Əgər itinizlə uşağınız dalaşsa və nəticədə uşağınız ağlayıb, itiniz ulasa, hansını birinci olaraq sığallayarsınız?

7. Əriniz və itiniz eyni vaxtda xəstələnsələr, birinci onların hansı üçün həkim çağırarsınız?

8. İşdə olduqda itiniz yadınıza düşürmü?

75 min məktubdan ibarət olan cavabda nəticə belə idi:

1. Üçdə iki hissə cavab vermişdilər ki, ərlərimizi istəyirik, əgər onlar itlərimizi istəsələr! Bə`ziləri bildirmişdilər ki, itləri onlar üçün hər şey deməkdir!

2. 60 min nəfər demişdi: Yeməyi itə verərik.

3. 49 min qadın demişdi: Əlbəttə itlərimizi öz otağımızda yatızdırırıq. Necə olsa da başqalarından yaxşıdır!

4. Üçdə iki hissə itləri ölsə ağlayacaqlarını bildirmişdi.

5. Təqribən bütün qadınlar yazmışdı: İtimizin «heyvandan» yüksək mövqedə olduğunu hesab edirik və onu «mə`nəvi şəxsiyyət» sayırıq.

6. Belə yazmışdılar: Səʾy edərik ki, hər ikisi sakit olsun.

7. Cavablar belə idi: Əvvəl baytar həkimini, sonra isə insan həkimini çağırarıq!

8. Bütün qadınlar iş vaxtı itlərini xatırladıqlarını bildirmişdilər.

Doğrusu çox qəribədir ki, itin «məʾnəvi şəxsiyyətə» malik olduğuna inanırlar və onun ölümü üçün ağlayırlar. Amma azadlıq və istiqlaliyyət uğrunda mübarizə aparan minlərlə insan vəhşicəsinə qətlə yetirildikdə, «mədəni» insanların ürəklərində heç bir hiss oyanmır. İtləri öz otaqlarında yatızdırırlar, amma qara dərili insanlarla hətta eyni küçədə yaşamaq istəmirlər. İt xəstələnən kimi həkim çağırırlar, lakin minlərlə insanın aclıqdan və xəstəliklərdən ölməsi onları narahat etmir.

ABŞ-dakı mağazalarda müxtəlif növ «it odekolonları» satılır. İtlər üçün hətta diş pastaları da almaq olar. Belə mağazalarda itləri «bəzəmək»dən ötrü cürbəcür ləvazimatlara rast gəlmək olar.

«Taym» jurnalının yazdığına görə, böyük şəhərlərdə itlərə olan «məhəbbət» sayəsində onların sayı o qədər çoxalmışdır ki, bəʾzi iri şəhərləri «it məskənləri» kimi qeyd etmək olar.

İtlərin uşaqları qapması halları çoxalmaqdadır. Tokioda 280 min, Los-Ancelesdə 300 min, Nyu - Yorkda 500 min, Londonda 700 min, Meksikada 1 milyondan artıq it mövcuddur.

Fransada nəşr edilən jurnallardan biri yazırdı:

«ABŞ-da hər il itlərin yemək-içməyinə və bəzək əşyalarına 300 milyon dollar pul xərclənir. Nyu -York, San-Fransisko, Çikaqo və Los-Anceles şəhərlərində itlərə bəzək vurmaq üçün minlərlə salonlar vardır. Bu salonlarda böyük növbələr olur. Bir «it bərbəri» ixtisas üzrə təşkil olunmuş kurslarda altı ay təhsil aldıqdan sonra bu cür salonlarda işləmək hüququ verən vəsiqə alır. ABŞ-ın böyük şəhərlərində ən azı üç-dörd it qəbiristanlığı mövcuddur.

Şübhə yoxdur ki, heyvanlara qayğı göstərmək gözəl insani xüsusiyyətlərdəndir. Amma, yuxarıda göstərilən formada heyvanlara mehr-məhəbbət bağlamaq ən azı insafsızlıqdır. Hər gün dünyada minlərlə insan acından ölür, amma «mədəni cəmiyyət»lərdə milyonlarla dollar vəsait itlərin bəzək-düzəyinə sərf edilir. Qərb dünyasının bu təzahürləri adamı dərindən fikirləşməyə vadar edir və insanda istər-istəməz belə bir sual yaradır: Qərb mədəniyyəti doğrudan da insan mədəniyyətidirmi?...

## *QAYĞI VƏ MƏHƏBBƏTİN OLMAMASININ NƏTİCƏLƏRİ*

Qadınlar fiziki keyfiyyətləri və bioloji xüsusiyyətlərinə görə kişilərdən fərqlənir. Allah-taala onları həyatda öz vəzifələrini yerinə yetirmək üçün lazımi şəkildə təchiz etmişdir. Fizioloji qabiliyyətləri və analıq xüsusiyyətləri onlara məxsus mehribançılıq, atifə və ruhiyyə verir. Onların ən mühüm vəzifəsi övladlarına qayğı göstərmək və dəqiq şəkildə tərbiyələndirməkdir. Psixoloji baxımdan bunun böyük əhəmiyyəti vardır. Körpələri maddi qidalarla yanaşı, daimi olaraq ana məhəbbəti ilə bəsləməyi və lətif duyğularla köksünə sıxıb nəvaziş etməyi heç bir şeylə əvəz etmək olmaz. Ən yaxşı avadanlıqlarla təchiz olunmuş uşaq bağçalarında uşaqlara göstərilən mehribançılıq və qayğı ana məhəbbəti ilə müqayisədə əhəmiyyətsiz görünür. Ana məhəbbəti ilə böyüməyən uşaqların gələcəkdə hansı psixoloji problemlərə düçar olması danılmaz bir faktdır. Müasir qərbli qadın evdən xaricdə işlədiyinə görə öz təbii vəzifələrinin sərhəddini aşmış və həyatın, habelə təbiətin ən aşkar qanunlarından kənara çıxmışdır.

Şübhəsiz, nə kommunizm xülyası, nə də qərbin maddi mədəniyyəti bəşər təbiətini dəyişməyə qadir deyildir. Onlar qadınları əsas vəzifələrindən ayırdıqları üçün cəmiyyətdə silsiləvari ruhi-əxlaqi çatışmazlıqlar yarandı.

Ana məhəbbətindən məhrum olan uşaqlara dəyən zərbələr bəlkə də heç vaxt sağalmaz.

Psixoloqlar deyirlər ki, uşaq bağçalarında uşaqlarla təkcə məvacib almaqdan ötrü zövqsüz-həvəssiz işləyən tərbiyəçilər hövsələsizlik və əsəbilik edirlər. Onlar uşaqlarda özünəe᾿timad hisslərini və başqa lazımi duyğuları istiqamətləndirə bilmirlər.

Məşhur alim, doktor Karrel Avropa ailələrindəki səhvlər haqqında belə deyir: «Müasir ictimaiyyətin ən böyük səhvi odur ki, kiçik yaşdan başlayaraq, uşaqları valideyn qayğısından məhrum etmiş, onların tərbiyəsini bağça və məktəbin öhdəsinə buraxmışdır. Bu işi qadınların xəyanəti kimi qiymətləndirmək lazımdır. İdarə işləri, müxtəlif peşələr və ya boş-boş əyləncələrlə asudə məşğul olmaqdan ötrü uşaqlarını bağçaya verən analar ailə ocağının söndürülməsinə səbəb olurlar. Ailə mühitində uşaqların tərbiyə və inkişafı məktəblərdə və bağçalarda böyüyən uşaqlarla

müqayisəolunmazdır. Uşaq ailədə tez bir müddətdə öz cismi və ruhi xüsusiyyətlərini inkişaf etdirir. Bağça və məktəblərdə isə həmyaşıdlarından çox az şey öyrənir. Düzgün inkişaf üçün uşaqlar kiçik ailə mühitinə çox ehtiyaclı olurlar».

Yuxarıda qeyd olunanlar ailə nizamsızlığı haqda qısa mə᾽lumat idi ki, əsasən qadınların öz əsas vəzifələrini başqalarının öhdəsinə qoymaqdan irəli gəlir.

ABŞ-da boşanmaq üçün məhkəmələrə müraciət edən qadınların 25%-i müxtəlif növ psixi xəstəliklərə düçar olanlardır. Hər il 150 min uşaq ata-analarının boşanmasının qurbanı olur.

İş yerlərində yorulan amerikalı qadınlar evə gəldikdən sonra da rahat ola bilmirlər. Milyonlarla belə qadınlar əsəb gərginliyini aradan qaldırmaq üçün ya daim sakitləşdirici həblər atır, ya da psixiatorlara müraciət edirlər. Xülasə, onlar bərk yorğun olurlar və bu yorğunluq ictimai səhnədə şiddətli fəaliyyətlərdən doğur. Məşhur psixoloq Corc Mali deyir: «Cavanlardakı bir çox psixi çatışmazlıqlar uşaqlıq dövrünün yadigarıdır ki, bunu onların analarının günahı kimi

qiymətləndirmək olar. Yalan danışan, heyvanlara və bitkilərə zərər yetirən, cəmiyyət qanunları ilə hesablaşmayan uşaqlar əksər hallarda valideyn qayğısından məhrum olan uşaqlardır. Qərbdə valideyn-övlad münasibətləri, eləcə də onlar arasında olan rabitə və məhəbbət olduqca zəifdir. Uşaqlar buna görə də öz valideynləri qarşısındakı vəzifələrini yaxşı dərk etmirlər. Bə᾿zən bir ailə üzvləri illərlə bir-birləri ilə görüşmürlər. Valideynlərin, yaşı təqribən 17-ni ötmüş övladlarına olan münasibət tərzi qeyri-məqbuldur. Dəfələrlə müşahidə olunmuşdur ki, valideynlər həddi-büluğa çatan övladlarını öz mənzillərindən xaric edirlər və onlar da əlacsız qalaraq haradasa tənha yaşamağa məcbur olurlar. Əgər övlada ata evində qalmaq icazəsi verilərsə o, gərək gündəlik xərclərini özü ödəyə. Hətta təsadüfən evdə bir qab sındırsa, gərək onun pulunu ödəyə və ya təzəsini ala. Belə bir rəftar xüsusilə qızlara ağır tə᾿sir göstərir və əksər hallarda onlar ağır şəraitdə tənha yaşamağı valideynlərlə birgə yaşamaqdan üstün tuturlar. Sahibsiz qızların ictimai pozğunluqlar burulğanında necə qərq olmasını, müxtəlif fəsadlara qurşanmasını isə kimsə inkar

edə bilməz. İnsanlar arasında ülfətin qırılması, bir-birlərinə qarşı laqeydlik və soyuq münasibət bütün cəmiyyətlər üçün arzuolunmaz haldır. Qərb ölkələri və onların mənfi tə’sirinə mə’ruz qalan xalqların vəziyyəti həddindən artıq acınacaqlıdır. Həyati münasibətlərin əsasını təşkil edən məhəbbət guya müasir sənaye maşınlarının çarxları arasında qalıb parça-parça olmuşdur. Adamlar öz həmdərd və dostlarını barmaqla sayırlar. «Mədəni cəmiyyət» əslində yeni ictimai nizam yaratmaq üçün insanların mə̓nəvi dəyərlərini qurutmuş, onları cansız və quru formalara salmışdır. İnsanlar yalnız ruhsuz qanunlar çərçivəsində bir-birlərilə ünsiyyətdə olur, mə̓nəvi cəhətdən isə hətta öz yaxınları ilə əlçatmaz uzaqlıqda yaşayırlar. Kimsəyə bir bəla üz versə, başqaları ona kömək etmir və özlərini ən cüz̓i maddi zərərə salmağa hazır olmurlar; başqalarından ötrü heç vaxt özlərinin zəhmətə düşməsini istəmirlər. Hər hansı bir iş yalnız onların qanuni vəzifəsi olduqda, məsələn, hüquq-mühafizə orqanları onlardan həmkarlıq etmək tələb etdikdə və köməklik istədikdə yardım edirlər.

Almaniyada xəstəxanada yatdığım vaxt, mənə baş çəkməyə gələnlər üçün mə̓lum

məhdudiyyətlər olsa da, onların sayı yerli xəstələri yoxlamağa gələnlərdən daha çox idi. Bu fakt xəstəxana işçilərinə çox qəribə gəlirdi. Mən görürdüm ki, xəstələrin hətta ən yaxın qohumları Almaniyada yaşaya-yaşaya onları yoxlamaqdan ötrü xəstəxanaya gəlmirdilər.

Sizin üçün şahidi olduğum bir hadisəni nəql edim ki, «mədəni millətlərin» dünya görüşlərini daha yaxşı başa düşəsiniz:

Hamburq universitetinin milliyyətcə alman olan bir professoru Allahın hidayəti və həmin şəhərdə fəaliyyət göstərən İslam cəmiyyətinin təbliğatları nəticəsində müsəlmanlığı qəbul etmişdi. Bir müddətdən sonra o xərçəng xəstəliyinə tutulur. Xəstəxanada olduğu vaxt şəhərdəki İslam cəmiyyətinin üzvləri tez-tez yeni müsəlman olmuş qardaşlarına baş çəkirmişlər. Həmin cəmiyyətin başçısı danışırdı ki, bir gün professorun yanına getmişdim. Onu çox pərişan halda gördüm. Qəmli-qəmli mənim üçün başına gələnləri danışdı və dedi: Bu gün oğlum və arvadım yanıma gəlmişdilər. Onlar tam soyuqqanlılıqla mənə dedilər ki, həkimlər sənin cəmi bir neçə gün yaşayacağını bildiriblər. Ona görə də səninlə xudafizləşməyə gəlmişik. Professor deyirdi: Bir neçə gündən sonra öləcəyimə narahat deyiləm, çünki Allah-taala

bəndələri ilə öz hikmət və ədaləti ilə rəftar edir. Qəmgin olmağımın səbəbi arvadım və oğlumun mənə qarşı e͗tinasızlığıdır.

Bir neçə gündən sonra professor vəfat etdi. Biz onu şəriət qanuna uyğun olaraq, müsəlman qəbristanlığında dəfn etmək üçün aparırdıq. Birdən cavan bir oğlan gəlib çıxdı, əsəbi halda qışqır-bağır salaraq qabağımızı kəsdi. Mə͗lum oldu ki, həmin cavan rəhmətlik professorun oğludur. O, dedi: Mən atamın meyitini hələ sağlığında üzərində tədqiqat işləri aparmaq üçün bu xəstəxananın təcrübə laboratoriyasına 30 marka satmışam. Ona görə də sizin meyiti aparmağa haqqınız yoxdur.

Təbii ki, biz İslam şəriətinə zidd olan bu işə yol vermədik və pulu ödədikdən sonra mərhumu qayda-qanun üzrə müsəlman qəbristanında dəfn etdik.

Həmin cavan sonralar e͗tiraf edərək deyirdi ki, maliyyə vəziyyəti pis olduğundan atasının meyitini satmaq istəyirmiş. O, gündüzlər kiçik bir zavodda, axşamlar isə «it dəlləyi» işləyirmiş. Lakin buna baxmayaraq, yenə də maddi cəhətdən çətinlik çəkirmiş.

Bu hadisə çox acı bir həqiqətdir və «mədəni cəmiyyət»lərdə ailə bağlılığı və insanlar

arasındakı məhəbbətin məhv olduğunu aydın şəkildə göstərir.

Müasir dövrdə əxlaqi dəyərlər baxımından bəşəriyyətin tənəzzülü və ictimai fəsadların tüğyan etməsi inkarolunmaz bir həqiqətdir. Böyük mütəfəkkirlər bu acı həqiqəti dərk edərək, onun əleyhinə mübarizə aparmaq, fəzilət və imana əsaslanan yeni bir dünya qurmaq yollarını tapmağa çalışmışlar.

Bu şəkildə yaşayan adamlar özləri də dərk edirlər ki, bu cür həyat mə'nasız bir yaşayış tərzidir və o, heç vaxt bəşəriyyətə səadət bəxş edə bilməz. Yaxşı olar ki, ABŞ-ın sabiq prezidenti C. Karterin bu barədəki e᾿tirafını qeyd edək: «Var-dövlət içində olduğumuzu görürük, amma ruhiyyəmiz sarsılıb, əlimiz aya çatır, lakin burada yerdə pərişan haldayıq!

Biz müharibəyə düçar olmuşuq və sülh istəyirik. Nifaq bizi parçalamaqdadır! Yaşayışımızı puçluq əhatə edib, həyatda rahatlıq arzusuyla ömür sürürük!

Mə᾿nəvi böhran bizi çoxlu suallara cavab verməyə məcbur edir. Onlara cavab tapmaq üçün gərək özümüzə diqqətlə baxaq. Əgər vicdanımızın səsinə qulaq assaq, görərik ki, o bizdən yaxşılıq, iffət və mehribanlıq kimi çox sadə görünən lakin, əsaslı şeylər istəyir!»

Məşhur fransız fiziki doktor Karel yazır: «Biz elə bir dünyaya ehtiyaclıyıq ki, hər kəs cavanlıqdan öz layiqli yerini orada tuta bilsin və maddiyyatla məˈnəviyyət bir-birindən ayrılmasın. Gərək necə yaşadığımızı bilək. Yavaş-yavaş başa düşürük ki, kompassız və yol göstəricisiz səfərə çıxmaq çox təhlükəlidir. Qəribədir, belə təhlükələri görə-görə yaşayışımızı islah etmək üçün vasitələr axtarmırıq. Həmin təhlükənin çox böyük olduğunu başa düşənlər isə indi həddən artıq azdırlar. Bu gün xalqın böyük bir hissəsi ürəkləri istədiyi kimi yaşayır və müasir texnologiyaların bəhrələrindən məst olurlar. Onlar yeni mədəniyyətin məziyyətlərindən əl çəkməyə razı deyillər. İnsanların başı maddi mənfəət axtarmağa və cürbəcür boş əyləncələrə qarışıb.

Biz həyatın danılmaz həqtqətlərini ideoloji qəliblərə salmışıq. Bu səbəbdən də elə bir dünya yaratmışıq ki, o bizim həqiqi ehtiyaclarımızı təˈmin edə bilmir və həmişə insanlara qarşı biganədir.

Müasir insanlar maddənin ilkinliyini qəbul edir və məˈnəviyyatı iqtisadiyyata qurban vermişdir. O, qüvvəni və müvvəqəti şadlıqları daimi rahatlıqdan üstün tutmuşdur.

Biz bu gün həqiqi ehtiyaclarımıza diqqət vermədən texnoloji inkişaf yolu ilə gedirik. Maddiyyat dünyasında batırıq, amma bunu başa düşmək istəmirik. Bəşəriyyət neçə əsrlərdir belə bir girdaba düşüb.

İnsanlar təbiətin deyil, liberalizm və marksizmin məxluquna çevrilib. İnsan yaşayıb-yaratmaq üçün xəlq edilib. Əgər insan öz həyatını yalnız iqtisadi fəaliyyət və maddi ne҆mətlər əldə etməyə yönəltsə, onda sanki, onun vücudunun böyük bir hissəsi kəsilib atılmışdir! Əgər müasir dünya bütün bu fəsadların və mə҆nəvi tənəzzülün kökünü kəsmək istəyirsə, ilahi peyğəmbərlərin səmavi tə҆limlərinə əsaslanmaqdan başqa çıxış yolu yoxdur. Nə qədər ki, şəhvət tufanı bəşər əqlini qaranlıq zindanda məhbus edib və əxlaqi pozğunluqlar onun əl-ayağını zəncirləyib, o heç vaxt həqiqi səadətə çatmayacaq.

Xülasə, bəşəriyyət öz təfəkküründə inqilab etməyincə və hazırki əxlaqi fəsadlar həqiqi mə҆nəvi dəyərlərlə əvəz olunmayınca, xoşbəxtliyə çatmaq qeyri-mümkündür.

# İKİNCİ HİSSƏ

## *ÜMUMBƏŞƏRİ PROBLEMLƏRƏ QARŞI İSLAM DİNİNİN CAVABI*

### *İSLAM DİNİNƏ ÜZ TUTAQ*

Keçən fəsildə qərb mədəniyyətini qısa şəkildə təhlil etdik. İndi isə İslam mədəniyyəti haqqında xülasə şəkildə olsa da, danışmaq və onu başqa mədəniyyətlərlə müqayisə etmək istəyirik. Dinimizin bəşəriyyətə bəxş etdiyi ülvi dəyərləri açıqlayıb şərh etmək kimi mühüm bir işdə Allah-taaladan yardım diləyir və bu işdə bizə müvəffəqiyyət əta etməsini istəyirik!

Baxmayaraq ki, burada seçdiyimiz hər bir mövzunun həddindən artıq geniş şərhə ehtiyacı vardır. Amma əziz oxucuları yormamaq üçün təhlilləri mümkün qədər yığcam və qısa şəkildə çatdırmağa çalışacağıq.

İslam dini insanın maddi-mə᾽nəvi həyatının bütün sahələrinə şamil olan kamil və misilsiz bir ideologiyadır. Çünki o, insan fitrətinin axtardığı bütün xeyir və səadət yollarını göstərir, öz sağlam ruhuyla bəşəriyyəti hər növ mə᾽nəvi xəstəliklərdən xilas edir. İslamın dəyişməz, mətin və həmişə təravətli hökmləri ictimai sahələri tamamilə əhatə edir. İnsan həyatının elə

bir guşəsi tapılmaz ki, dinimizin yol göstərən nurlu hökmləri onun haqqında düzgün proqramlar irəli sürməsin.

İslam qanunlarının əsas hədəfi insanın hərtərəfli tərbiyə və təkamülüdür. Dinimiz insanın mahiyyəti barədə irəli sürülən yanlış təsəvvürləri heç vaxt qəbul etməmişdir. Humanitar və dəqiq elmlərin yüksək səviyyədə inkişafına baxmayaraq, insan haqqında söylənən səhv təsəvvürlər elə bir dərəcəyə çatıb ki, bə᾽zən insanı ilahiləşdirir, bə᾽zən də əskik və alçaq bir varlıq kimi qiymətləndirirlər; bir tərəfdən onu mütləq ixtiyar sahibi adlandırır, digər tərəfdən də ona heç bir qüdrət və iradəyə malik olmayan, təbii və maddi məcburiyyətlər qarşısında aciz məxluq kimi baxırlar. Amma İslam dini insana öz həqiqi qiymətini verir, layiq olduğu şəkildə tanıtdırır və onun başqa canlılardan daha üstün mövqeyə malik olmasını göstərir. Bu dinə görə insan bütün yaradılmışların ən üstünü və ən fəzilətlisidir.

Dinimiz göstərir ki, ölüm həyatın sonu deyildir; dünya həyatı axirət həyatından ayrılmazdır. İnsan biryönlü məxluq deyildir; ruh və bədənin bir-birinə qeyri-adi bağlılığı vardır. Ona görə də İslam dini hər iki dünyada

səadətə çatmaq yollarını çox dəqiq şəkildə göstərir.

İslam nöqteyi-nəzərindən insanların maddi xüsusiyyətlərindən tam fərqli olan istək və meylləri də vardır. Öz ali hədəfinə çatmaq istəyən insan, bunların vasitəsi ilə maddi telləri qıraraq, kamillik dərəcəsinə yüksələ bilər; əsas və ali hədəf də məhz budur. İnsanın cismi, ağlı və ruhu hər biri ayrı-ayrılıqda xüsusi istəklərlə yaşayır ki, onlara tam gerçəkliklə baxmaq lazımdır və biri digərindən üstün tutulmamalıdır. İslam müvazinətin pozulması ilə müxalifdir və insanın səadətini maddi və məʾnəvi təmayüllərin hərtərəfli, kamil şəkildə təʾmin edilməsində görür. Bu halda insanın maddi təmayülləri unudulmamalı və onun təbii ehtiyacları nəzərə alınmalıdır.

Başqa sözlə desək, İslam dini iki ziddiyyətli qütb arasında yerləşir. O, sonu görünməyən mütləq və heyvani azadlığın qarşısında dayanan, insani ehtirasları məğlub edən əqidələr silsiləsini insanlara təqdim edir. Mütləq azadlığı təbliğ edən Freyd və digər psixoloqlar isə bəşərin hətta heyvanlardan da artıq sərbəstlik qazanmaq hüququna layiq olduğunu iddia edirlər. İslam xəyali bir aləm üçün

nəzərdə tutulan nəzəriyyələr toplusundan ibarət deyildir; o, bəşəriyyətə dolğun mə`nalı həyat bəxş etməkdən ötrü göndərilmişdir.

İslam dini materialist təfəkkür tərzini rədd edir, maddənin əsalətinin (ilk olmasının) əleyhinədir, iqtisadiyyatın hər şeydən üstün olmasını qəbul etmir və maddi ləzzətləri xoşbəxtliyin əsası saymır.

Bu din insanı maddiyyatla məhdudlaşan iqtisadi çərçivələrdə məhbus etmir. Çünki, onun də`vətinin əsası daha əhatəli və daha genişdir. O, insanlara həyatımızın müxtəlif sahələrində əxlaqa, mə`nəviyyata əsaslanan qayda-qanunları təklif edir və tərəqqiyə gedən inkişaf yollarını göstərir.

İslami tərbiyə insanın istək və meyllərini tənzim edir və saflaşdırır. Onları məntiqli və daha düzgün istiqamətə yönəldir. İnsan elə bir dünyada yaşayır ki, bir tərəfdən maddi tələbatlarını tə`min etmək, digər tərəfdən isə öz mə`nəvi, ruhi təmayüllərinə cavab vermək zərurəti ilə qarşılaşır. Hər hansı bir fərd və ya cəmiyyət hər iki istiqamətdə tarazlıq əldə edərsə, həyat həqiqi səadət və xoşbəxtliyə çevrilər. Dinimiz insana əxlaqi fəzilətlər və yüksək mə`nəviyyət qazanmaq üçün lazım olan qayda-

qanunları çox dəqiqliklə göstərir və o da Allahın ona verdiyi ağılın vasitəsiylə həmin yolun tam düzgünlüyünü dərk edir.

İslamın tə᾽limləri və insanlar üçün tə᾽yin etdiyi vəzifələrin hamısı hər bir insanın malik olduğu güc və imkan çərçivəsində olur. Müqəddəs İslam şəriəti hər hansı bir şəxsə müəyyən bir vəzifə tə᾽yin etdikdə, ilk növbədə onun təbii xüsusiyyətlərini və imkanlarını nəzərə alır. Heç vaxt insana onun bacardığından artıq iş vacib etməz. Bu gün ən güclü və hüquqi mənbə ümumi iradə sayılır. Müasir dünyanın demokratik sistemlərində qanunun əsaslandığı mənbə, xalq və əksəriyyətin rə᾽yidir. İctimaiyyətin müqəddəratını tə᾽yin edən «ümumi iradə» dir və burada başqa bir şey rol oynamır. Azlıqda qalanlar hətta haqlı olsalar belə, onlarla heç kim hesablaşmır. Qısa şəkildə desək, müasir dünya «insan iradəsi hakimiyyəti»ni ən müqəddəs ictimai qanun kimi tanıyır. Amma İslam dininə görə, qanunvericilik yalnız Allahın iradəsinə bağlıdır və burada ümumi xalqın talehi əksəriyyəti təşkil edən ayrı-ayrı fərdlərin nəfsani istəkləri əsasında tə᾽yin edilmir. İslam nöqteyi-nəzərindən qanunvericilik heç vaxt ilahi

şəriətdən ayrı ola bilməz. Allahın hakimiyyəti və qanunları bütün insanlara şamildir. Sitayiş məhz Allaha məxsus olduğu kimi, mütləq hakimiyyət və qanunvericilik də yalnız Ona məxsusdur. İnsanlardan heç kəs ürəyi istədiyi kimi hökm çıxarmaq və qanun təʾyin etmək hüququna malik deyildir. Allahı mütləq sitayişə layiq bildiyimiz halda, Onun qanunlarından başqa digər qanunlara necə tabe ola bilərik?

İslamın hədəfi budur ki, insan cəmiyyətinin bütün sahələrində haqq və ədalət icra olunsun. Çünki insanın fitrəti bu şeyləri tələb edir və Allahın bəndələrinə əmr etdiyi də məhz budur.

İnsanın vücudu həddindən artıq mürəkkəb və sirli olduğu üçün, onun yaşayışı ilə bağlı olan qanunlar da beləcə çətin və mürəkkəb şəkildə olur. Heç kəs iddia edə bilməz ki, həmin qanunları tam dəqiqliyi ilə bilir və səhv, xəta və ya günahlardan uzaqdır. Həmçinin insan iddia edə bilməz ki, özünün səadət yollarını tam məʾnada dərk etmişdir.

Bəşəriyyətin malik olduğu elmin məhdudiyyətlərini də bu mövzuda nəzərə almalıyıq. Doktor Karel müasir elmlər haqqında belə yazır: «Doğrudur ki, insanlar özlərini daha yaxşı tanımaqdan ötrü çox çalışmışlar. Dünyada

başverən hadisələri, varlıqları tədqiq edən alimlər indiyədək çoxlu kəşflər etmişlər. Lakin, bütün bu mə᾽lumatlarla yanaşı, insan özü haqqında çox cüz᾽i biliyə malik olduğunu yenicə dərk etməyə başlamışdır.

Həqiqət budur ki, biz həddindən artıq savadsız və nadanıq. Uzun müddət insan haqqında tədqiqat aparıb bu sahədə kifayət qədər mə᾽lumat əldə etməsini güman edən alimlər də onun vücuduna aid olan bir çox suallar qarşısında aciz qalırlar. Aydın məsələdir ki, bu mütəxəssislərin əldə etdiyi mə᾽lumatlar kəşf olunmayanlarla müqayisədə əhəmiyyətsiz dərəcədədir və həmin biliklər demək olar ki, hələ öz ibtidai mərhələsini yaşayır».

İnsan vücudunu tanımadan onun həyatını tənzim edən və cəmiyyətdə onun mənafelərini lazımınca qoruya bilən qanunların tətbiq edilməsi mümkün deyildir. Bu səbəbdən də insanların müxtəlif cəmiyyətlərdə özləri üçün müəyyənləşdirdiyi həmin qanunlar bəşəriyyətin çox saylı problemlərini ədalətlə həll edə bilməz. Hər gün qarşıya çıxan həyati, iqtisadi, ictimai və siyasi məsələlərdəki problemlərin həlli üçün nəzərdə tutulan qanunların tətbiqi zamanı ortaya çıxan ziddiyyət və çatışmazlıqları buna

misal göstərmək olar. Bir gün ali və kamil hesab olunaraq qəbul edilən qanunlar bir müddət keçdikdən sonra ya dəyişdirilir, ya da «təkmilləşdirilir». Lakin bununla belə, yenə də onların tətbiqində nöqsan və ziddiyyətlər yaranır.

İnsanlar qanunları tə᾽yin edən zaman öz şəxsi istək və meyllərinin tə᾽siri altında olurlar. Bu fakt öz-özlüyündə ümumi ədalət prinsipinin qorunması ilə qəti şəkildə ziddir. Monteskyu yazırdı: «Qanunda öz xüsusi nəzərini əks etdirməyən heç bir qanunverici olmamışdır. Onun səbəbi də budur ki, hər qanunverici xüsusi meyllərə və fikirlərə malik olur. Qanunverici qanun qəbul edən zaman öz şəxsi fikirlərini ona daxil etmək istəyir. Aristotel qanun qəbul etdiyi zaman Platona qarşı olan paxıllıq hisslərini sakitləşdirmək istəyirdi. Platon Afinalıların istibdadından təngə gəlmişdi və həmin nifrəti onun qəbul etdiyi qanunlardan da hiss etmək olar. Məqsəd budur ki, qəbul edilən qanun qanunvericinin şəxsi istək, meyl və hissləri ilə sıx bağlıdır. Bə᾽zən qanunlar həmin hisslərin tam tə᾽siri altında olur».

Müasir dünyada insan hüquqları, vicdan azadlığı, bərabərlik, milli iradə şüarları geniş

yayılıb. Milli iradə adı altında qanunlar tətbiq edilir. Lakin həqiqət budur ki, müasir cəmiyyətlərdə də həmin qanunlar bir qrup şəxsin iradəsilə müəyyənləşdirilib tətbiq edilir.

İngilis yazıçısı Henri Ford dünyada demokratiyanın atası sayılan öz ölkəsinin vəziyyəti barədə belə deyir: 1926-cı ildə İngiltərədə baş verən ümummilli tə`til və nümayişlər hələ də yadımdan çıxmır. Dövlət var qüvvəsilə bu kütləvi çıxışları yatırtmağa çalışırdı. Varlı sinfi müdafiə edən qanun e`lan edirdi ki, belə tə`til və nümayişlər ölkəmizin xeyrinə deyil. Polis və ordu hissələri odlu silahlarla xalqın canına düşmüşdülər. Eyni zamanda radio və qəzetlər təbliğat apararaq, dövləti fəhlələrin tərəfdarı kimi tanıtdırırdı. Sonra isə fəhlə sinfinin həmkarlar ittifaqını əmlaklarının müsadirə edilməsi və başçılarının zindana salınması ilə qorxudurdular».

Sov. İKP-nın 22-ci qurultayındakı çıxışında kommunist partiyasının baş katibi Xruşşov belə deyirdi: «Şəxsiyyətə pərəstiş dövründə (Stalin dövrü) partiya və dövlət rəhbərliyində qanunsuzluq baş alıb gedirdi. Qanunları öz istəklərinə uyğun tə`yin edənlər özləri onları kobud şəkildə pozurdular. Qorxu hissi bütün

cəmiyyəti bürümüşdü. Bu dövrdə çoxlu yaltaq, yalançı və fırıldaqçı adamlar ortaya çıxıb, ölkəni idarə edirdilər».

Belə bir forma qərb və şərq hökumət sistemləri üçün adi bir haldır. Onlar xalq, parlament, və demokratiya maskaları altında öz hiyləgər siyasətlərini yürüdürlər. Həmin quruluşlar Allahın bəndələr üçün tə᾽yin etdiyi qanunların ziddinə olduğu üçün, istər-istəməz bir qrup hakimlər tərəfindən şəxsi mənafe və meyllərə uyğun qanunlarla idarə olunurlar.

Jan-Jak Russo belə deyirdi:

«Millətin problemlərini həll edə biləcək ən yaxşı qanunları kəşf etmək üçün kamil bir ağıl lazımdır ki, o, insanın bütün istəklərini, həvəslərini, meyllərini görsün, amma bunlar ona heç bir tə᾽sir etməsin. Təbiəti kamil şəkildə tanısın, lakin təbiətdən asılı olmasın. Onun səadəti bizimlə bağlı olmasın, amma bizim xoşbəxtliyə çatmağımıza kömək etməyə hazır olsun».

Qeyd edilən gerçəklikləri nəzərə almaqla demək olar ki, bütün lazım olan keyfiyyətlərə malik, ən yaxşı qanun tə᾽yin edən aləmlərin və insanın xaliqi Allah-taala məhz Özüdür. O, mövcudların bütün sirlərindən agahdır.

Bəşəriyyətdən heç bir şəkildə asılı deyildir; tamamilə ehtiyacsızdır. Ona görə də ictimai qanunlar üsulunu elə bir kəsdən öyrənmək lazımdır ki, o ilahi vəhy sərçeşməsindən qidalanıb və Allahın mütləq və hüdudsuz elminə əsaslanıb.

* * *

İlahi qanunlarla bəşəri qanunların əsas fərqi, bəşəri qayda-qanunların yalnız ictimai nizam-intizam bərqərar etmək məqsədi daşımasındadır. Həmin qanunların insanın ruhi və mə᾿nəvi məziyyətləri ilə heç bir işi yoxdur. İnsanların batini çirkinliklərini, cəmiyyətin nizamına qarşı zidd hərəkətlərə çevrilməyincə, islah etmək üçün addım atmır. Bu gün qərbdə hakim olan qanunlar yalnız ayrı-ayrı adamların istəkləri əsasında qəbul edilir və xalqın mə᾿nəvi cəhətdən paklanmasına heç bir dəxli yoxdur. Amma İslamın bu barədəki baxışları xeyli əhatəli və genişdir. Onun qanunları ayrı-ayrı fərdlərlə yanaşı, cəmiyyətin təkamülü üçün də nəzərdə tutulmuşdur.

İslam ictimai nizam-intizamı qorumaqla yanaşı, fərdi həyatın bütün sahələrində islah və tərbiyə məsələsinə də yüksək diqqət yetirir. İslamın hədəfi cəmiyyəti intizamlı, əxlaqlı, pak

fikirli və əməldə düzgün görməkdir. O, insan ruhunu kamilləşdirmək istiqamətində hərəkət edir; bütün sahələrdə onun öz göstərişləri var. İslam təbiətlə insanın münasibətində, maddi və mə᾿nəvi həyatın uyğunlaşmasında, fərdlərin cəmiyyətlə təmasında kamillik istəyir. Dinimiz insandan Allah qanunları ilə müxalifət etməməyi tələb edir. Bəşər qanunlarında onları icra etmək üçün müxtəlif qurumlar və mə᾿murlar nəzərdə tutulur. Amma islamda qanunların icrasına zamin olan xalqın köklü və dərin imanıdır. Müsəlmanlar onları Allahdan başqa heç kimin görmədiyi yerlərdə və şəraitlərdə də mə᾿nəvi qüvvə və imana əsaslanaraq icra edirlər. Yalnız süst əqidəli və münafiq adamlara qarşı inzibati qaydaların tətbiq edilməsi zərurəti yaranır. Xülasə, İslam dini ürək paklığı və əməlin düzgünlüyünə çox diqqət yetirir. Pak əməl həmişə öz layiqli mükafatını alır, çünki o, xalislik prinsipinə əsaslanır.

Amerika hüquqşünaslarından biri «İslamda hüquq» kitabının müqəddiməsində belə yazır: «Amerikada qanun çox məhdud dərəcədə əxlaqi vəzifələrin icrası ilə təmasdadır. Bir amerikalının mövcud qanunlar qarşısında sadiq

yaşaması mümkündürsə, onun həmin qanunlar əsasında alçaq və rəzil əxlaq sahibi kimi ömür sürməsi də mümkündür. Bunun əksinə olaraq, İslam qanunlarının mənbəyi Allahın iradəsidir. Həmin iradə Məhəmmədi (s.ə.v.v) peyğəmbərliyə çatdırıb və bütün mö҆minlər onun qarşısında eyni şəkildə cavabdehdirlər. Qəbilələrindən, millətlərindən, irqlərindən, maddi vəziyyətlərindən asılı olmayaraq, bütün müsəlmanlar üçün bu qanunlar Qur҆anda göstərilmişdir. Mö҆minin nəzərində bu dünya bir dəhlizdir və onun dalısıyca axirət dünyası gəlir. Qur҆an müsəlmanların bir-birinə qarşı rəftarını və cəmiyyətin münasibətlərini müəyyən edir ki, bunların vasitəsi ilə də insanlar bir dünyadan başqasına islah olunmuş şəkildə köçə bilsinlər».

Qərb təfəkkür tərzində İslam haqqındakı baxışların son dərəcə məhdud və təhrif edilmiş şəkildə olmasına, habelə bu kimi məsələlərə qərəzli mövqedən yanaşılmasına baxmayaraq, qərbin bir çox mütəfəkkirləri dinimizin dərin və ilahi maariflə bağlı olan tə҆limlərinin kamilliyini e҆tiraf etmişlər. Aydındır ki, bir müsəlman aliminin İslam qanunlarını tə҆rifləməsi heç də təəccüblü bir iş deyildir. Amma dini təəssübləri

nəzərə almaqla, böyük bir qərbli şəxsiyyətin, yaxud digər qeyri-müsəlmanın İslamın böyüklüyünü və əzəmətini qeyd etməsi çox əhəmiyyətli bir məsələdir. Belə şəxsləri dinimizə ehtiramla yanaşmağa sövq etdirən İslamın mütərəqqi qanunlarıdır. Qərbin böyük şəxsiyyətlərinin İslam barəsində dediklərini misal gətirməkdə məqsədimiz öz dinimiz haqqında əcnəbilərin söylədikləri ilə fəxr etmək deyildir. Burada məqsəd, yalnız haqq axtaran adamların İslama qarşı şəkk-şübhələrini aradan qaldırmaqdır.

Neapol universitetin məşhur professoru doktor Vagilyeri müqəddəs Qur῾an barəsində belə deyirdi:

«Biz bu kitabda elm xəzinələrinin mövcud olduğunu görürük. Bu elm ən böyük filosofların, alimlərin iste῾dadlarından çox-çox yuxarıdadır. Həmin dəlillər sübut edir ki, Qur῾an hansısa, hətta ən savadlı şəxsin elminin məhsulu ola bilməz. Qur῾an Allahın həqiqi mö῾cüzəsidir. O, elmi yalnız göyləri və yeri əhatə edən Allah tərəfindən göndərilə bilər».

Bernard Şou özünün «Məhəmməd (s.ə.v.v) Allahın elçisidir» kitabında yazır:

«Məhəmmədin (s.ə.v.v) dinində qəribə bir təravət və həyatvericilik olduğu üçün mən həmişə ona yüksək ehtiramla yanaşmışam. Nəzərimcə, İslam yeganə dindirdir ki, bütün əsrlərdə həyatın müxtəlif sahələrində yaşayış üçün ən düzgün yollar göstərir. Mən bu dinin gələcəkdə hətta, Avropada qəbul ediləcəyi xəbərini indidən söyləyirəm. Orta əsrlərdə xristian ruhaniləri cəhalət və təəssüb üzündən İslamı məsihiliyin ziddinə olan mürtəce bir din kimi qələmə verirdilər. Mən İslam Peyğəmbəri haqqında çoxlu tədqiqat aparmışam və belə bir nəticəyə gəlmişəm ki, o, nəinki məsihiliyin ziddinə olmamış, hətta onu özündən əvvəlki ayin kimi təsdiq etmişdir. Mənim əqidəmə görə, əgər belə bir şəxsiyyət dünyaya rəhbərlik etsəydi, bəşəriyyət bütün problemlərini həll edər, yer üzündə sülh, ədalət və həqiqi səadət bərqərar olardı.

Əvvəllər İslama qarşı kəskin müxalifətdə olan və 40 il dini fəlsəfə, tarix, habelə başqa elmləri araşdıran və nəhayət, peyğəmbərimiz haqqında ehtiramla danışan Volter belə e`tiraf edir:

«Məhəmmədin (s.ə.v.v) gətirdiyi din şübhəsiz xristianlıqdan üstündür. Onun ayinində heç vaxt məsihilikdə olduğu kimi dəlilik dərəcəsinə

çatan küfr mövcud olmayıb. İslamda tək Allahı üç Allah və ya üç Allahı tək Allah saymayıblar. Yeganə Allaha inam bu dinin əsasıdır. İslam dini öz vücudu ilə həmin e`tiqadların banisinə borcludur. Xristianlıq qılınc və odla öz ayinlərini başqalarının boynuna yükləyir. Ey Rəbbim! Kaş bütün Avropa xalqları özləri üçün müsəlmanları nümunə hesab edəydilər».

Volter xristianlıqda protestant məzhəbinin banisi sayılan Martin Lüter haqqında belə deyir: «Lüter, Məhəmmədin (s.ə.v.v) ayaqqabısının bağını açmağa belə layiq deyil». Daha sonra yazırdı: «Şübhə yoxdur ki, Məhəmməd (s.ə.v.v) çox böyük şəxsiyyət olmuş və həm də böyük şəxsiyyətlər yetişdirmişdir. O, çox ağıllı başçı, ədalətli hakim, gözəl əxlaqlı bir peyğəmbər olduğu üçün yer üzündə ən böyük inqilab etmişdi».

L.Tolstoy isə belə deyirdi: «Məhəmməd (s.ə.v.v) üçün təkcə vəhşi və qaniçən bir milləti yüksək tərəqqi və mədəniyyətə çatdırmaq işi kifayət qədər iftixarlı hesab edilə bilər. Məhəmmədin (s.ə.v.v) şəriəti ağıl və hikmətlə uyğun olduğundan, gələcəkdə bütün dünyada hökmranlıq edəcək».

## *DAR DÜŞÜNCƏLİLƏR*

Dünyada mövcud olan sirlərin kəşfi yolunda alimlərin yüksək səʾy göstərmələrinə və misilsiz elmi tərəqqiyə nail olmalarına baxmayaraq, hələ də bəşər üçün çoxlu məsələlər məchul olaraq qalır. İnsanın əldə etdiyi məʾlumatlar bilmədiklərinin müqabilində müqayisəolunmaz dərəcədə azdır.

Böyük mütəfəkkirlər ictimai, siyasi, iqtisadi həyatın əlifbasını tanımaqda çətinliklərlə üzləşirlər və bu barədə müxtəlif əqidələrə sahibdirlər. Bu cəhətdən də dünya bir-biri ilə tam zidd olan iki qütbə bölünmüşdür. Bu alimlərin hər bir dəstəsi öz əqidələrinin düzgünlüyünü və qarşı tərəfin səhvlərini sübut etmək üçün minlərlə məqalə və kitablar yazmışlar. Onların hər biri digər tərəfin əqidəsini bədbəxtlik və hərc-mərclik səbəbi kimi qələmə verir, öz yollarını isə səadətə aparan yeganə düzgün yol sayırlar. Aydındır ki, bütün bu ziddiyyətli nəzəriyyələr düzgün ola bilməz. Eyni zamanda hər iki dəstə elm və sənaye sahələrində diqqətəlayiq müvəffəqiyyətlər əldə etmişlər.

Qərb millətlərinin müasir elm yolu ilə misilsiz tərəqqiyə çatmaları ilə bərabər, layiqli

insan yaşayışına nail olmalarını fikirləşənlər çox səhv edirlər. Heç vaxt bir cəmiyyətin hansısa sahədə inkişaf etməsi, onların yaşayış üsulunun tamamilə düzgünlüyünə dəlalət etmir. Mümkündür ki, mahir bir fizik və ya görkəmli bir cərrah meʾmarlıq haqqında çox cüzʾi məʾlumata malik olsun. Eləcə də müasir sənaye texnologiyalarına yiyələnərək inkişaf etmiş bir cəmiyyətin həyat tərzində, ictimai və fərdi əxlaq sahəsində, habelə məʾnəviyyatda tənəzzül etməsi də mümkündür. Qərb dünyasındakı müxtəlif çatışmazlıqları müşahidə edərək başa düşürük ki, onlar mədəniyyət, fikir, elm, din, hökumət və əxlaq sahələrində düzgün istiqamətlərdə inkişaf etməmiş və hələ də təkamülə çatmamışlar.

Doktor Karel müasir mədəniyyətin nöqsanları haqqında belə deyir: «Müasir mədəniyyət çox çətin bir mövqedə yerləşib. Bu bizim həqiqi mahiyyətimizlə uyğun deyil və yalnız elmi kəşfləri, xalqın müxtəlif təmayüllərini və cürbəcür nəzəriyyələri doğurmuşdur. Bu mədəniyyət bizim öz səʾylərimiz nəticəsində gerçəkləşsə də, əsil vəziyyətimizlə mütənasib deyildir. Biz insanı

hər şeyin miqyası kimi qəbul etməliyik. Amma qərbdə bunun əksini edirlər.

Həmin cəhətdən də dəqiq elmlər humanitar elmlərə nisbətən çox böyük fərqlə inkişaf etmişdir və bu da bəşəriyyətin ən böyük cinayətlərindəndir. Biz əslində uduzmuş adamlarıq və əxlaqi, habelə əqli nəzərdən tənəzzülə uğramışıq. Əgər biz inkişaf etmiş sənaye ölkələrinə nəzər salsaq görərik ki, orada dəqiq elmlərin səviyyəsi çox yüksəlmiş, əxlaq və mə̀nəviyyat isə vəhşi insanlar səviyyəsində qalmışdır».

Müxtəlif sahələrdə insanın təkamülü həyat gerçəkliklərinə əsaslanan, cəmiyyəti səhvlərdən qoruyan düzgün və silsiləvari tə̀limlər əsasında mümkündür. Bu da Allahın vəhyi ilə təchiz olunmuş peyğəmbərlər vasitəsi ilə həyata keçirilə bilər.

Əgər əxlaq təbiətin fövqündə dayanan bir qüvvəyə əsaslanmırsa, heç vaxt inkişaf edə bilməz. Bəşər dünyaya qədəm qoyub mədəniyyətin özülünü qoyduğu zamandan, onun vücudunun dərinliklərindən din adlı həqiqət baş qaldırmışdır ki, bu da əxlaqi qayda-qanunların və dəyərlərin qorunması deməkdir.

İnsanlığa zidd olan faciələr, haqsızlıqlar, cinayətlər və dünyadakı müharibələr belə bir həqiqəti sübuta yetirir ki, heç vaxt dövlətlər və onların qanunları insanın imanının və yüksək mə᾽nəvi hisslərinin yerini tuta bilməz. Dinə bağlı olmayan elm və bilik problemlərin həllində, insanların mə᾽nəvi faciələrdən nicat tapmasında həlledici rol oynaya bilmir. Amerikalı sosioloq Vil Dürant deyir:

«Məgər belə bir böyük iqtisadi qüdrətə malik olan dövlət xalqın mə᾽nəvi və əxlaqi dəyərlərini qoruya bilərmi? Onu artırıb, inkişaf etdirməyə qadirdirmi? Gələcək nəsillərə həmin dəyərləri ötürə bilərmi?

Nə üçün Amerikanın ən böyük şəhərlərini ən «kiçik» kişilər idarə edir? Nə üçün seçkilərdə saxtakarlıq və pulun hökmranlığı baş alıb gedir? Nə üçün bu dövlət sülh haqqında danışa-danışa müharibə planları hazırlayır? Bu həmin dövlətdir ki, xalq ayrı-ayrı fərdlərin və ümumilikdə cəmiyyətin qorunmasını onun öhdəsinə qoymuşdur?».

Qərb cəmiyyəti müəyyən vaxta qədər əxlaqi hərc-mərcliyə dözə bilər. Amma bunun davamı həyəcan siqnalını xatırladır. Çünki mədəniyyət səbəb, hədəf və qüdrətin müvazinəti bərqərar

olduqda, öz ideyalarına əsaslanıb möhkəmlənir. Amma bu müvazinət pozulduqda şiddətli tənəzzül başlayır. Heç bir xalq şəhvətpərəstlik, əxlaqi pozğunluqlarla öz daimi qüdrətini qoruyub saxlamağa qadir deyildir.

Rum imperiyası bu cür əxlaqi hərc-mərclik üzündən süqut etmişdi. Yunanlar əsrlərdən bəri malik olduqları qüdrət və əzmətlərini əxlaqsızlığa yuvarlandıqları üçün əldən vermişdilər. Şəhvət və ehtirasların əsiri olan Fransa ilk zərbədən sonra diz çökdü. O dövrdə yaşamış fransız generallarından biri ölkəsinin Almaniya qarşısında qısa bir müddətdə məğlub olmasının səbəbini, millətinin ifrat dərəcədə cinsi pozğunluqlara qurşanmasında görürdü.

Alman alimi Şpiger qərb mədəniyyətinin süqutunu təhlil edərək deyir ki, gələcəkdə mədəniyyət öz ilkin beşiyində, yə̓ni Şərqdə parlayacaq. Hər bir mədəniyyətin məhvi, ona bağlı millətlər üçün əlverişli bir fürsət yaradır ki, onlar Allahın əmr etdiyi düzgün həyat formasına qayıda bilsinlər. Amma həmin millətlər Allahın onlara bəxş etdiyi fürsətdən düzgün istifadə etməyib, ilahi proqramlarla yaşamağa başlamasalar, günbəgün yeni-yeni

fəsadlara qurşanacaq və nəhayətdə öz insanlıqlarını itirib məhv olacaqlar.

Təəssüflə qeyd etmək lazımdır ki, bu gün qərbin sənaye sahəsindəki müvəffəqiyyətləri ilə yanaşı, onların əxlaqi tənəzzül əlamətləri də şərq həyatının bir çox sahələrində görünməkdədir. Bə᾽zi müsəlmanların təfəkkürünə qərb mədəniyyətinin puç adət-ən᾽ənələri elə nüfuz edib ki, onlar hər şeyə bu mədəniyyətin gözüylə baxmağı üstün tuturlar. Belə müsəlmanlar inkişaf və «tərəqqi» qazanmaq üçün addımba-addım qərblilərin yaşayış tərzini, adətlərini, əxlaqını və qanunlarını təqlid edirlər. Onlar qərb həyat tərzinin atributlarını kor-koranə qəbul edir və bunların sonradan hansı faciələrə gətirib çıxaracağı haqqında düşünmürlər. Belə bir hal müsəlmanların maddi və mə᾽nəvi qüvvələrini məhv edə bilən, onlara bədbəxtlik, zillət və əsarət gətirəcək amillər yaratmağa qadirdir. Bu müsəlmanlar qərbin elm və biliyinin bəşərin mə᾽nəviyyatla bağlı problemlərinin həllində aciz olmasını görmək istəmirlər. Aydındır ki, bu cür dar düşüncəlilər İslami təfəkkür tərzi ilə həyata baxa bilmirlər və ya əslində saf, yüksək əxlaqi dəyərlərə bağlı baxışlar onlara sərf etmir.

Beləlləri islam cəmiyyətində yaşadıqlarına baxmayaraq, dinlərini əldən verirlər. Onlar İslam dinindən və mədəniyyətindən uzaqdırlar. Bununla belə, öz dini dəyərlərimizi qərb mədəniyyətinin təzahürləri ilə müqayisə etməyə çalışırlar. Görkəmli İslam mütəfəkkirlərindən biri deyir: «Əgər yad bir mədəniyyət ölkəmizdə ictimai «ədaləti» bərqərar etsə, beynəlxalq aləmdə bizə «yer» versə, əcnəbi dövlətləri bizə hakim təʾyin etsə, onda üzürxahlıq üçün heç bir bəhanə gətirə bilmərik. Bütün problemlərimizi öz mövcud imkanlarımız vasitəsi ilə həll etmək imkanında ola-ola, hər yoldan ötəndən köpək payı uman zəlil dilənçilər kimi yadlara əl açmağımıza heç bir şey haqq qazandıra bilməz. Ölkələrimizi qərblilərin ixtiyarına qoysaq, onlar bizim təbii sərvətlərimizi mənimsəyəcək, sonra isə «humanitar yardım» adı altında bizim sərvətlərimizdən qazandıqları pullar hesabına dilənçi payı şəklində bizə «kömək» edəcəklər. Mən təəccüb edirəm ki, insan öz əli ilə özünü şərəfli mövqedən zillət və alçaqlığa necə sürüyə bilər?! Dövlətli bir şəxs özünü dilənçi vəziyyətinə salmağa necə razı olar? Mən başa düşə bilmirəm, qüdrətli bir insan həqarəti necə qəbul edə bilər?

Şübhə yoxdur ki, bizim mədəniyyətimiz ümumbəşəri svilizasiyaya qiymətli töhfələr bəxş etməyə qadirdir. Qərb mədəniyyəti isə bizə təlqin etməyə çalışır ki, İslam mədəniyyəti irticadan başqa bir şey deyil. Eləcə də bizi və ümumiyyətlə, hamını belə düşündürməyə açlışırlar. Qərb mədəniyyətinin ünsürləri geyimimizdən, yeməklərimizdən tutmuş, təfəkkür tərzimizə, əxlaqımıza qədər nüfuz etməkdədir. Ölkələrimizdə qərb dövlətlərindən eyni ilə götürülmüş qanunları tətbiq edirik. Amma fikirləşmirik ki, o ölkələrdə hansısa qanun təʾyin edilən zaman, həmin ölkənin dini, əxlaqi, məʾnəvi, ictimai, siyasi və iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla bu iş icra edilir. Biz isə həmin qanunu bir müsəlman ölkəsində tətbiq etmək istəyirik və düşünmürük ki, müsəlmanlarla fransızlar arasında çox böyük fərqlər mövcuddur. Belə hallar müsəlmanlara nəinki heç bir fayda gətirmir, əksinə islami cəmiyyətlərdə əxlaqsızlıq, məʾnəviyyatsızlıq və maddiyyata pərəstiş meyillərini gücləndirir. Qərblilərin qanunlarını müsəlmanlara hakim etmək istəyənlər isə xalqın bütün ehtiyaclarına biganə olan, öz dini köklərindən ayrı düşmüş bir qrup adamlardır. Əgər qanun

müsəlmanların ruhiyyəsinə ziddirsə və onların ehtiyaclarını tə᾿min etmirsə, onun heç bir faydası ola bilməz».

Harvard universitetinin professoru Hakinq özünün «Dünya siyasətinin ruhu» adlı kitabında belə yazır: «İslam ölkələrinin inkişaf yolu Qərbdən kor-koranə təqlid etməkdən asılı deyil. Bə᾿ziləri soruşa bilərlər: Məgər İslamda yeni fikirlər yaradan qüvvə varmı və bəşəriyyətin ehtiyaclarını tə᾿min edəcək, müasir həyatın tələblərinə uyğun qanunları bu din ortaya çıxara bilərmi? Cavabında deyə bilərik: İslamda inkişaf və təkamül üçün kifayət qədər potensial qüvvələr vardır. İslamın bəşər həyatındakı dəyişikliklərə cavab vermək qüdrəti bütün dinlərdən daha artıqdır. Müsəlman ölkələrinin problemləri İslam ayinində inkişaf vasitələrinin olmaması üzündən meydana çıxmayıb. Geriliyə səbəb həmin ölkələrdə bu inkişaf vasitələrindən lazımi qaydada istifadə edilməməsidir. Mən tam yəqinliklə deyə bilərəm ki, İslam dininin üsul və qanunlarında cəmiyyətin inkişafı və səadəti üçün bütün yollar açıq-aşkar göstərilmişdir».

## *İSLAM VƏ İQTİSADİ ÇƏTİNLİKLƏR*

İqtisadi məsələ və təbii ehtiyatlardan istifadə etmək, insan həyatının zəruri məsələlərindəndir. İbtidai ehtiyacların ödənməsi həmişə insanların yaşayışında mühüm işlərdən hesab olunmuşdur. Əsrlər keçdikcə bu ehtiyaclar dəyişmiş, müxtəlif formalara düşmüşdür. Qədim dövrlərdə təbii mənbələrdən istifadə və dolanışıq üçün vasitələrin hazırlanması ibtidai şəkildə mövcud olmuşdur. Tədricən millətlərin tərəqqisi və bir-birlərilə əlaqələrinin güclənməsi, iqtisadi həyatda bir sıra qayda-qanunların yaradılması zərurətini ortaya çıxarmışdır. Kapitalizmin təşəkkül tapması ilə iqtisadiyyat elminin əsaslarının yaranması eyni vaxta təsadüf edir. Son əsrlərdə sənaye inqilabı, müasir texnologiyaların yaradılması və güclü iqtisadi inkişaf insanları iqtisadiyyat elmini daha dərindən araşdırmağa vadar etdi.

Sosializm və kapitalizm quruluşlarında insanların maddi həyat səviyyəsi yaşayış üçün əsas amil kimi götürülür. İctimai və iqtisadi problemlər insan mə̓nəviyyatına və əxlaqına fikir verilmədən həll olunur. Ümumiyyətlə Qərb təfəkkürünə görə, bəşər həyatı üçün əsas hədəf maddi sərvətlərin artırılmasıdır. Amma İslam öz xüsusi dünya baxışı və fəlsəfəsi ilə insana hərtərəfli şəkildə diqqət yetirir, onun maddi həyat

şəraitini tənzim etməklə yanaşı, əxlaqi fəzilətləri və məˈnəvi kamilliyi artıran qanun və hökmləri özündə əks etdirir. İslam dini maddi sərvəti insanın fitri ehtiyaclarını təˈmin edən amil kimi sayır və bununla yanaşı iqtisadi imkanlardan bəşər təfəkkürünü yüksəltməkdən ötrü və onun həqiqət aləminə bağlılığını, habelə insanın məˈnəviyyat dünyasına inanmasını təˈmin etmək üçün istifadə edir.

Qərb dünyasının qanunları varlı sinfin keşikçisidir və həmin təbəqənin mənafelərini qorumaq üçün nəzərdə tutulur. Amma İslam qanunlarının mənbəyi insan ağlının məhsulu və onun nəfsani istəkləri deyil, ilahi vəhydir. Bu qanunlarda bir təbəqə digərindən üstün tutulmur və heç kəsə başqasının haqqını tapdalamaq hüququ verilmir. Bunlar müəyyən bir qrupun məsləhəti ilə, onların şəxsi fikirlərinə uyğun olaraq icad edilməyib. Bu müqəddəs qanunlar məcmuəsi aləmlərin Rəbbi tərəfindən bütün insanların mənafe və xeyrini misilsiz hikmətlə həmin qanunlarda əks etdiribdir. Allahın elm və hikməti bütün xətalardan uzaq olduğu üçün Onun qanunlarında da heç bir səhv ola bilməz. Həmin qanunları icra edənlər isə əvvəlcədən müəyyən olunmuş vacib şərtlərə malik olan möˈminlərdir. Bu adamlar hər cür şəxsi mənfəət

və qürur hissindən uzaq, özlərini başqalarından üstün tutmayan müsəlmanlar olarlarsa, cəmiyyət həqiqi azadlıq və istiqlaliyyət əldə edər. Qərb mədəniyyətindəki göstərdiyimiz nöqsanları nəzərə almaqla, İslamın əsaslarını onların qanunları qarşısında tətbiq etsək, cəmiyyətimiz həqiqi asayiş və rifaha yüksələ bilər.

İqtisadiyyatda ən mühüm məsələlərdən biri də şəxsi və ictimai mülkiyyət məsələsidir. İndiyədək bu məsələlər haqqında bir çox iqtisadçılar müxtəlif fikirlər irəli sürmüş və müxtəlif nəzəriyyələr yaratmışlar. Tanınmış iqtisadçı Şale iqtisadi inkişafın ən mühüm amili kimi fərdi mülkiyyətin, ictimai sərmayənin artmasında xüsusi rolunu göstərərək deyir: «Mülkiyyətin zərurəti üçün ən mühüm dəlil ictimai mənfəətdir. Cəmiyyət ayrı-ayrı fərdlərin fəaliyyətinə ehtiyaclıdır. Bu işin gerçəkləşməsi üçün lazımi mühərrik olmalıdır. Həmin fəaliyyətin genişlənməsinə kömək edən ən yaxşı amil isə mülkiyyətdir. Cəmiyyətin mənfəəti bundadır ki, xalq müəyyən maddi ehtiyatlara və imkanlara malik olsun. Bu isə öz növbəsində ictimai sərmayənin artmasına kömək edir. Gərək cəmiyyət fərdlərə bu cür maddi ehtiyatlara və imkanlara malik olmaq hüququ versin. Mülkiyyət

yeganə amildir ki, məcburiyyətsiz şəkildə xalqı iş görməyə və çalışmağa vadar edir».

İslam da öz qanunlarında, yaşayışın inkişafında çox təˀsirli olan, fitri istəklərlə üst-üstə düşən bu mühüm amili təsdiq etmişdir. Halal yolla qazanılan və əldə edilən şəxsi mülkiyyət iqtisadi inkişaf üçün çox vacib amil sayılır.

İslam şəxsi mülkiyyətin təbiətən zülmkarlıq və istismar mənşəyi olduğunu rədd edir. Avropa və Qərb dünyasında şəxsi mülkiyyətin zülm və haqsızlıqla əkiz olmasına səbəb, həmin cəmiyyətlərdəki qanunvericilik hüququnun uzun əsrlər boyu yalnız varlı təbəqənin əlində qalmasındadır. Yuxarıda qeyd etdik ki, İslamda qanunvericilik hüququ Allaha məxsusdur və O, bu məsələdə heç bir insan qrupunu digərindən üstün tutmur. Varlı və kasıb eyni dərəcədə Allah qanunlarına tabe olmalıdırlar. Ona görə də İslam qanunları icra olunmağa başlayan vaxt şəxsi mülkiyyət mövcud olsa da, heç bir zülm və haqsızlıq cəmiyyətin iqtisadi həyatında müşahidə edilmirdi.

İslam nöqteyi-nəzərindən zavod, fabrik və digər müəssisələri onları təˀsis edənlərin əlindən zorla almaq düzgün deyil. Çünki bu iş ictimai asayiş və fərdlərin hüququna hörmət bəsləmək prinsipinə ziddir. Belə əməllər iş fəaliyyətində

təşəbbüskarlığı aradan apara bilər. Amma İslam hökuməti inhisarçılıq yaratmamaq, ictimai ədaləti möhkəmləndirmək və milli mənafeləri qorumaqdan ötrü böyük sənaye obyektlərinin idarəsini öz öhdəsinə götürə bilər. Başqa sözlə desək, İslamın iqtisadi qanunları fərdi və ictimai mülkiyyətin hər ikisinə, ictimai və şəxsi mənafeləri qorumaq şərti ilə inkişaf etmək imkanı verir. İslam dini xüsusi mülkiyyət hüququnu qorusa da, onun ictimai mənafelərə ziyan vurmasına heç vaxt razı olmur.

İslam xüsusi mülkiyyət məsələsində səhlənkarlığa yol verilməsinin əleyhinədir və fərdi mülkiyyəti rəsmi surətdə tanısa da, onun yalnız qanuni və halal yolla əldə edilməsinə icazə verir. Haram və qeyri-qanuni şəkildə mövcud olan mülkiyyət İslamda qəbul edilməzdir. İslam təcavüz, zülm, möhtəkirlik və başqalarına zərər yetirməklə qazanc əldə etməyi qadağan edir və ədalətsiz şəkildə, şəriət qanunlarını pozmaqla toplanan sərvəti haram sayır. Dinimiz müasir qərb iqtisadiyyatında geniş yayılmış riba (sələmçilik) və möhtəkirliyi qətʾi şəkildə rədd edir və onları xalqı istismar etmək üçün şərait yaradan əsas səbəblərdən sayır.

Müxtəlif təbəqələr arasında iqtisadi müvazinət yaradılması yollarından biri də İslamda çox

mühüm və vacib sayılan zəkat və xums hesab edilir. Xums və zəkat vasitəsilə hər il varlı adamların sərvətlərinin bir hissəsi vergi şəklində toplanaraq, kasıb və ehtiyacı olanlar arasında paylanır.

Sərvət və sərmayənin varlı təbəqənin əlində toplanmasının qarşısını alan qanunlardan biri də, həmin sərvətlərin bir qisminin İslam dövlətinə məxsus olmasını nəzərdə tutan qanundur. Meşələr, otlaqlar, dənizlər, əkinə yararsız torpaqlar, oradakı ağaclar və mə᾽dənlər daxil olmaqla dağlar, vəqf edilmiş və sahibi məchul olan mallar, müharibəsiz müsəlmanların öhdəsinə qoyulmuş torpaqlar, varissiz dünyadan köçmüş şəxslərin mirası və bu kimi digər sərvətlər İslam dövlətinin ixtiyarında olur.

İslamda xüsusi mülkiyyətə hörmət və toxunulmazlıq müəyyən həddə qədərdir. Əgər bu mülkiyyət İslam cəmiyyəti üçün təhlükəyə çevrilirsə, dövlət mövcud qanunlar çərçivəsində zərurət qarşısında qalaraq, həmin mülkiyyəti mö᾽tədilləşdirir. İslam qanunları sərvətin bir dəstə adamın əlində toplanıb, digərlərinin aclıq çəkməsinə razı ola bilməz. Qur᾽an buyurur:

**«Sərvətlərin bölünməsi və paylanması üçün tə᾽yin etdiyimiz qayda-qanun ondan ötürüdür ki, sizin aranızda yalnız bir dəstə varlı adamın**

**əlində bütün var-dövlət toplanmasın».** (Həşr surəsi 7-ci ayə)

Belə şəraitdə ictimaiyyətin zərəri ayrı-ayrı fərdlərin zərəri hesab edilir və cəmiyyətlə fərdlərin hüquqları arasında heç bir ziddiyyətdən söhbət gedə bilməz. İslam xüsusi mülkiyyətə hörmətlə yanaşdığı halda, zərurət olduqda ondan ictimai mənfəətlər xatirinə istifadə etmək yollarını da göstərir. Baxmayaraq ki, İslam dini sərmayədarlığın həddi aşmasına və digərlərinin hüququna təcavüz etməsinə yol vermir, lakin təkcə qanunlarla bu məsələnin həll olunması ilə də kifayətlənmir. Dinimiz insanları Allah yolunda öz mallarından başqalarına verməyə, ehsan və bəxşişlərə təşviq edir. Maddi cəhətdən tə`min olunmuş müsəlman tox olan halda, digərlərinin yoxsulluq və aclığına biganə qala bilməz. İslamda çox tövsiyə olunan ehsan və başqalarına kömək məsələsi böyük əxlaqi əhəmiyyət kəsb edir. İslam varlı adamların israfçılığı və əyyaşlığı ilə kəskin mübarizə aparır. Həmçinin varlıların xəsisliyini və Allah yolunda öz sərvətlərini digərlərilə bölüşməmələrini pisləyir.

İslamın tövsiyə etdiyi bütün bu əməlləri yerinə yetirən insanlar Allahın razılığını qazanırlar və axirətdə isə öz layiqli mükafatlarına yiyələnəcəklər. Hətta ən varlı mö`minlər dünya

ne͗mətlərinin müvəqqəti olduğunu yaxşı anlayırlar. Beləlləri tamah, hərislik, ədalətsizlik və zülmdən çox-çox uzaq olurlar. Amma pul və dünya malını hər şeydən üstün tutan münafiqlər Allahla rabitələrini kəsir və nəhayətdə tamamilə imanlarını itirib, sərvət və var-dövlət əsirinə çevrilirlər. Tarix boyu Allaha pərəstiş məsələsində səhvlərə düçar olmuş insanlar arasındakı münasibətlərdə müxtəlif növ qeyri-insani təzahürlər müşahidə olunub. Allahla düzgün və yaxın rabitəsi olan insanların başqalarına zülm və təcavüz etməsi mümkün deyil. Bu cür adamlar heç vaxt varlanmaqdan ötrü digərlərinin haqqını tapdalaya bilməzlər.

İslamda fərdi və ictimai mənafeləri qorumaq hökumətin ixtiyarına verilib. İslam dövləti insan hüquqlarını və azadlıqlarını qorumaq vəzifəsini qətiyyətlə öz öhdəsinə alır. Bundan əlavə cəmiyyətdə əxlaqi dəyərlərin inkişaf etdirilməsi və mə͗nəvi tənəzzülə səbəb olan amillərlə mübarizə aparmaq İslam hökumətinin ümdə vəzifələrindən hesab edilir.

İslam nöqteyi-nəzərindən insan heç vaxt iqtisadi zülmün köləsi ola bilməz. O, dünyanın fəal və qurucu bir qüvvəsidir. Dinimizin iqtisadi qanunlarını başqalarından fərqləndirən bir cəhət də budur ki, onlarda heç bir şəkildə məcburiyyət

yoxdur. İnsanlar öz ixtiyarları ilə istədikləri sahədə qanunlara uyğun fəaliyyət göstərə bilərlər. Qərb mütəfəkkirlərinin bir çoxu bu fikirdədir ki, demokratiya və sərmayədarlıq fərdlərə ifrat həddində azadlıqlar vermişdir. Bu isə ictimai tarazlığı pozur. Bir dəstə varlı bütün sərvət mənbələrini və istehsal vasitələrini əllərində toplayıb, xalqı öz iqtisadi iradələrinə tabe etmişlər. Həmin adamlar siyasi və hökumət qurumlarında böyük nüfuza malik olurlar, bə͑zən də tamamilə onları idarə edirlər.

Qərb iqtisadi sisteminin bu nöqsanlarını dərk edən həmin mütəfəkkirlər ayrı bir yol seçilməsini tövsiyə edirlər. Biz qətiyyətlə deyə bilərik ki, 14 əsr öncə bəşəriyyətə göstərilmiş ən ədalətli yol İslam qanunları ilə yaşamaqdan başqa bir şey ola bilməz. Uzun əsrlər boyu İslam qanunları xalqın bütün ehtiyaclarını çox yüksək səviyyədə tə͑min etmişdir. Bu qanunlar müsəlmanların müxtəlif millət və irqlərlə birgə, sülh şəraitində yaşamasına şərait yaratmışdır. Müsəlmanların heç vaxt əcnəbi qanunlara ehtiyacı olmamışdır. Hazırkı dövrdə də müsəlmanlar öz qiymətli qanunlarını rəhbər tutaraq, çox gözəl və firavan həyat şəraitində yaşaya bilərlər. Çünki bu qanunlarda insanın bütün maddi və mə͑nəvi problemlərini həll etmək üçün aydın yollar göstərilib.

İslam qanunları öz kamilliyinə görə bütün qanunlardan üstündür. Onları tə`yin edən, ən xırda məsələlərin həllində belə heç vaxt səhv etməyən, insanlarla misilsiz ədalət və hikmətlə rəftar edən uca və qüdrətli tək Allahın Özüdür.

1951-ci ildə Paris universitetində İslam fiqhini (hüququnu) təsdiq etmək üçün bir elmi konfrans keçirilmişdi. Konfransın məs`ulları bütün dünyada İslam alimlərinə bir neçə mövzu barəsində dinimizin nəzərini bildirməyi təklif etmişdilər. Tə`yin olunmuş mövzular bunlar idi:

1. İslam fiqhində malikiyyətin isbat olunması yolları;

2. İctimai mənafeyə görə xüsusi əmlakın zəbt olunma şəraiti və yolları;

3. Cinayət məs`uliyyəti;

4. Müxtəlif İslami fiqhi məzhəblərin qarşılıqlı tə`sirləri.

Konfrans sona yetdikdən sonra ona sədrlik edən şəxs belə e`tiraf etdi: «Bundan əvvəl İslam hüququnun yeni dünya problemlərinin həllində aciz olması fikrimiz tamamilə alt-üst edilmişdir. Bu konfransda bizə tam aydın oldu ki, İslam hüququ çox dərin və düzgün dəlillərə əsaslanan geniş əhatəli qanunlarla müasir dünyamızın bütün problemlərini ədalətlə həll etməyə qadirdir. İslam fiqhi öz obyektiv üsulları ilə müasir

dünyada bəşəriyyətin bütün ehtiyaclarını tə᾽min edə bilən böyük bir hüquq məktəbidir».

## *İSLAMIN QƏRB MƏDƏNİYYƏTİNDƏKİ İZLƏRİ*

Qərb ölkələrinin müasir sənaye inkişafına məftun olanlar, İslam alimlərinin müxtəlif elmi kəşflərini və həmin elmi baxışların Qərb mədəniyyətinə vaxtı ilə göstərdiyi böyük tə᾽sirləri unutmuşlar.

İslamın bəşəriyyətə bəxş etdiyi hərəkət elə güclü və yaradıcı olub ki, onun nəticəsində ən geri qalmış millətlər çox yüksək inkişaf və tərəqqi səviyyəsinə qalxmışlar. Bu dinin ən böyük mö᾽cüzəsi, onun cəhalət və nadanlığın hakim olduğu bir mühitdə baş qaldırması və burada qələbə çalaraq xariqələr yaratmasıdır. İslam dini xalqın bütün həyatını dəyişdirdi və yarımvəhşi insanları yüksək mədəniyyət və əxlaq sahibi etdi.

İslam qısa bir müddətdə Adriatik dənizi sahillərindən Afrika səhralarına, Atlantik okeanından Çin səddinə qədər əraziləri fəth etdi.

Bu fəth və qələbələr insani dəyərlərə dəqiq riayət olunması ilə birgə baş verirdi. İslam təfəkkür tərzi təkcə Ərəbistan yarımadasıyla kifayətlənmir, bütün dünyaya yayılırdı. Müsəlmanlar qədəm qoyduqları hər bir yerdə

İslamın ədalətli və bərabərlik prinsipini əks etdirən qayda-qanunlarını tətbiq edirdilər. İslam həmin dövrün insanlığa zidd, zalım qüdrətlərini məğlub etdikdən sonra, nüfuz etdiyi ölkələrdə nurlu ideyalarını yaymağa başlayırdı. Müxtəlif millətlər bu dinin üstünlüklərini görüb, tezliklə onu qəbul edirdilər. Ərəbistanda bütpərəstlər, İranda zərdüştlər, Misir və Şamda məsihilər İslamın yeganə düzgün din olduğunu başa düşüb müsəlman olurdular.

Həmin dövrlərdə müsəlman aləmində müxtəlif elmlər sür`ətlə inkişaf etməyə başladı. İslam mədəniyyəti başqa mədəniyyətlərdən müqayisəolunmaz dərəcədə yüksəlişə çatdı. Hətta, İslam düşmənləri bu dövrlərdə dinimizin mədəniyyət, sənət, elm və sair sahələrdəki müvəffəqiyyətlərini inkar edə bilməzlər. Müsəlman alimlərinin müxtəlif elmlərdə qazandıqları nailiyyətlərdən bütün dünyada, o cümlədən Avropada istifadə edirlər. Qərblilər müsəlman alimlərinin fizika, kimya, həndəsə, riyaziyyat və astronomiya elmlərindəki kəşflərini və tədqiqatlarını öyrənməyə çalışır, bunlardan öz elmi tədqiqatlarında geniş surətdə faydalanırdılar.

Orta əsrlərin cəhalət dövrü Avropada kilsənin vəhşilikləri və zülmləri ilə yadda qalıb. İslam isə

hələ renosans dövründən əvvəl hərtərəfli və işıqlı bir mədəniyyəti dünyaya tanıtmışdı.

Həmin dövrlərdə Kopernikin nəzəriyyəsini müdafiə etdiyi və Yerin fırlanmasını dediyi üçün Qalileyi kilsə mühakimə edirdi. Onu məcbur etdilər ki, öz əqidəsindən əl çəksin və bu şəkildə «tövbə» etsin:

«Mən Qaliley həyatımın 70-ci ilində siz həzrətlərin (Papa və keşişlər nəzərdə tutulur) qarşısında diz çökürəm və müqəddəs İncil kitabı gözümün qabağında olduğu halda ona əl basıram və tövbə edirəm. Yerin hərəkət etdiyi haqqındakı puç iddiamı inkar edirəm və onu mənfur və rədd olunmuş bir fikir sayıram».

Məşhur filosof Bekona İngilis kralı Edvard tərəfindən verilən əmrə görə kimya elmi ilə məşğul olmaq qadağan edildi. Bekon Fransaya sürgün edildi və kilsənin nəzarəti altında yaşamağa məcbur oldu. Kilsə kimya elminin şeytanla bağlı olduğunu iddia edir, kimyaçıları isə cadugər sayırdı.

Tarixi baxımdan İslam mədəniyyətinin Avropada elmi hərəkat yaranmasında etdiyi tə`sir inkarolunmaz bir həqiqətdir. Qərb tarixçiləri və alimləri bunu aydın şəkildə təsdiq edirlər. Burada müsəlmanların elmi inkişafı barəsində qərb alimlərinin söylədiklərinə bir nəzər salaq.

## *MƏDƏNİ-MAARİF SAHƏSİNDƏKİ İNQİLAB*

İslam meydana gəldiyi ilk vaxtlardan elm və biliyi himayə etmiş, təhsil almağı hər bir fərd üçün vacib saymışdır. Maarif və tə᾽lim-tərbiyənin tarazlığını əldə etmək elmi gizlətməyi və başqalarına öyrətməməyi qadağan edir. İslamın böyük peyğəmbəri Məhəmməd (s.ə.v.v) əxlaqi və fərdi xüsusiyyətlərinə görə bəşəriyyətin ən görkəmli şəxsiyyəti olmaqla yanaşı, elm və maarifin insanlar arasında yayılmasının ən kəskin tərəfdarı idi. Elm öyrənməyin savabı və fəzilətləri haqqında o Həzrətdən (s.ə.v.v) çoxlu hədis və rəvayətlər nəql olunmuşdur. Aşağıda nəql olunan tarixi hadisə bir daha Peyğəmbərimizin (s.ə.v.v) elm və savad öyrənməyə nə qədər qiymət verdiyini sübut edir:

Bədr döyüşündə müsəlmanlar qələbə çalmışdılar və müşriklərdən bir hissəsi əsir alınmışdı. Əsirlərdən bə᾽ziləri özlərini azad etdirmək üçün pul və mal-dövlətə malik deyildilər. Amma onlar yazıb-oxumağı bacarırdılar. Peyğəmbər (s.ə.v.v) göstəriş verdi ki, əsirlərdən kim on nəfər müsəlmana yazıb-oxumağı öyrətsə, onu azad edəcəklər. Peyğəmbərin (s.ə.v.v) göstərişinə əməl olundu və

bu yolla bir çox müsəlman yazıb-oxumağı öyrəndi.

Həzrət Əli (ə) öz xütbələrinin birində elm və maarifin yayılmasını İslam hökumətinin vəzifələrindən biri hesab edərək belə buyururdu: Ey camaat! Mənim sizin boynunuzda haqqım və sizin də mənim boynumda haqqınız vardır. Sizin haqqınız budur ki, gərək mən həmişə sizə öyüd-nəsihət verəm və sizə xeyirxahlıq göstərəm. Sizin sərmayələrinizin və mal-dövlətinizin artırılması üçün çalışam. Cəhl və nadanlıq vəziyyətində qalmamaq üçün sizə xoşrəftarlıq və ədəb, elm və tə᾽lim-tərbiyə öyrətmək mənim vəzifəmdir».

Hicri qəməri tarixilə 215 -ci ildə Bağdad şəhərində Abbasi xəlifəsi Mə᾽mun tərəfindən bir rəsədxana və böyük kitabxanaya malik olan «Beytul-hikmət» adlı elmi mərkəz tə᾽sis edilmişdi. Mə᾽mun bunun üçün 200 min dinar pul sərf etmiş və orada müsəlmanların elmi əsərlərini başqa dillərə tərcümə etmək üçün bir çox alimləri toplamışdı.

Mə᾽mun ibni Təriq və Həccac ibni Mətər kimi xarici dillərə bələd olan alimləri əcnəbi ölkələrə göndərib, oradakı yunan, fars, latın, suryani, hind dillərində olan həndəsə, riyaziyyat, tibb və fəlsəfəyə aid kitabları əldə edərək Bağdada gətirməyi əmr etmişdi. Onlar da hər yerdən

qiymətli kitabları tapıb Mə՝muna göndərirdilər. Bu kitablar yüz dəvə yükü qədər idi.

Bütün Avropada bircə dənə də olsun elmi-maarif mərkəzi tapılmayan dövrdə, İslam ölkələrində çoxlu belə mərkəzlər mövcud idi. Həmin elmi mərkəzlərdə bütün sahələr üzrə tədqiqatlar aparılır və mütəxəssislər yetişdirilirdi. Səlib yürüşlərinin başlanması ilə İslam mədəniyyəti və elmi nümunələri sür՝ətlə Avropada da yayıldı.

Doktor Qustav Loben belə yazır:

«Kitab və kitabxanaların Avropa xalqları nəzərində heç bir dəyəri olmadığı və bütün kilsə və monastırlarda cəmi 500 cild dini kitab mövcud olduğu dövrdə, İslam ölkələrində kifayət qədər zəngin kitabxanalar var idi. Bağdaddakı «Beytul-Hikmət» kitabxanasında 4 milyon kitab, Qahirədəki «Səltənət» kitabxanasında bir milyon, Şamdakı «Trablos» kitabxanasında 3 milyon kitab mövcud idi. O dövrdə müsəlmanların əlində olan İspaniyada təkcə bir ildə 80 minə yaxın cild kitab hazırlanırdı».

Qərb tarixçilərindən biri belə yazır:

«Mustənsiriyyə şəhərində çox böyük və əzəmətli binası olan, İslam dünyasında görünməmiş bir universitet var idi. Burada ayrı-

ayrı fəaliyyət göstərən dörd mədrəsə yerləşirdi. Hər mədrəsədə 75 tələbə və dörd ustad olurdu ki, bunların hamısı aylıq məvaciblə tə᾽min edilirdi. 300 tələbənin hər birinə ayda bir qızıl dinar verilirdi. Universitetin yeməkxanasında onlar pulsuz yeməklə tə᾽min olunurdular. Bundan əlavə, burada xəstəxana və böyük bir kitabxana mövcud idi. Universitetin özünün hamamı və qida məhsulları ilə dolu olan anbarları da var idi. Nəzərə almaq lazımdır ki, bütün bunlar 13-cü əsrin əvvəllərində mövcud olmuşdur!»

Doktor Maks Meyerhof isə belə yazırdı:

«İstanbulda 80-dan artıq kitabxana var ki, burada on minlərlə kitab toplanıb. Qahirədə, Dəməşqdə, Mosulda, Bağdadda və İranda bir-birindən böyük çoxlu kitabxanalar mövcuddur. Təəssüf ki, bu kitabxanalarda yığılmış kitablardakı mə᾽lumatlar müasir dünya tərəfindən çox az araşdırılıb. Nəzərimcə, gələcəkdə dünya alimləri İslami elmlərə daha artıq əhəmiyyət verərək, bu qiymətli xəzinələri öyrənməyə çalışacaq».

Doktor Qustav Loben belə yazır: «Müsəlmanların müxtəlif elmləri öyrənməyə yüksək əhəmiyyət göstərməsi doğrudan da çox heyrətamizdir. İslam fəthləri zamanı onlar

tutduqları hər bir şəhərdə birinci olaraq məscid və mədrəsələr inşa edirdilər. 12-ci əsrin alimlərindən olan Bencamen Tuvel yazırdı ki, mən təkcə İskəndəriyyə şəhərində 20 elmi labaratoriya görmüşdüm. Bağdad, Qahirə və başqa müsəlman şəhərlərində çoxlu elmi mərkəzlər, labaratoriyalar, kitabxanalar və rəsədxanalar mövcud idi. Halbuki, Avropada ilk kitabxana bundan 400 il sonra Parisdə təˈsis edilmişdi».

Müsəlmanların dünya mədəniyyəti qarşısındakı xidmətləri təkcə elmi tədqiqat və kəşflərlə bitmir. Kitabların yazılması, qorunması və elmlərin yayılmasını da buna əlavə etmək olar.

Müsəlmanlar bütün dünyada elm və maarifin yayılmasından ötrü çox böyük işlər görmüşlər. Onların avropalılara bəxş etdikləri elmi məˈlumatları nəzərə alsaq, müsəlmanların həqiqətən qərblilərə bir neçə əsr müddətində həqiqi məˈnada müəllimlik etdiyini başa düşərik. Maraqlısı da budur ki, avropalılar müsəlmanlar vasitəsilə qədim Yunan və Roma mənbələrini öyrənməyə başlamışdılar.

Orta əsrlərdə Avropa cəhalət və nadanlıq içərisində boğulurdu. Xalq qəribə bədbəxtlik şəraitində yaşayırdı. Onların hökmdarları müalicə üçün, elm axtaran adamları isə bilik qazanmaqdan ötrü İslam universitetlərinə üz

tuturdular. Qahirə, Bağdad, İstanbul və İsgəndəriyyə universitetləri dövrün müasir təcrübə və tədqiqat labaratoriyaları ilə fəxr edə bilərdilər.

Jozef Mak-Kap orta əsrlərdə müsəlmanların elm və maarif sahəsindəki tərəqqisini belə göstərirdi:

«Hətta ən aşağı ictimai təbəqə kitab oxumaq üçün təşnə idi. Kasıblar ən az yeməklə və köhnə geyimlə kifayətlənib, axırıncı pulları ilə kitab alırdılar. Yüksək elm sahiblərinin arasında çoxlu qadınlar da var idi!»

Nehru müsəlmanların Əndəlusdakı əzəmət və qüdrəti haqqında belə deyirdi:

«Burada əhalisi bir milyondan artıq olan müsəlman şəhəri var idi. Həmin şəhərdə 20 km. uzunluğunda olan bir bağ salınmışdı. Şəhərdə 60 min saray və qəsr, 200 min kiçik ev, 80 min dükan, 3800 məscid, 800 ümumi hamam mövcud idi.

Bu şəhərdə çoxlu kitabxanalar, o cümlədən 400 min kitabı olan böyük «Əmir kitabxanası» var idi.

Tarixçilərdən biri deyir ki, müsəlman İspaniyasında hamı yazıb-oxumağı bilirdi. Halbuki xristian Avropasında ruhanilərdən başqa hətta ən yuxarı təbəqənin böyük bir hissəsi savadsız idi».

## *TƏBABƏT*

Doktor Meyerhof müsəlmanların təbabət elmindəki inkişafı barəsində belə yazır: «Səlib yürüşləri zamanı müsəlmanlar avropalı həkimlərin mə`lumatlarının çox aşağı və ibtidai səviyyədə olduğunu görüb onlara gülürdülər.

Xristianlar İbni Sina, Cabir ibni Həyyan, Həsən ibni Heysəm və Zəkəriyya Razinin kitablarını latınca tərcümə etdilər və hal-hazırda da həmin tərcümələrdən istifadə edirlər. 16-cı əsrdə İbni Rüşd və İbn Sinanın əsərləri İtaliyada tərcümə olundu. Bu kitabların kimlər tərəfindən tərcümə olunduğu mə`lum olmasa da, onlar İtaliya və Fransa universitetlərində tədris edilirdi».

Razinin vəfatından çox keçməmişdi ki, İbni Sina elm dünyasında günəş kimi parladı. Baxmayaraq ki, çoxları onu fizik və filosof kimi tanıyırdı. Amma Avropada İbni Sinanın təbabət elmindəki nüfuzu heyrətamizdir. Razi və İbn Sinadan başqa İslam aləmində bir çox böyük həkimlər də olmuşdur. Əndəlosi, Əbbas İrani, Əli ibni Rizvan Misri, İbni Bətlan Bağdadi, Əbu Mənsur Herati, İbni Vəfid İspaniyayi, Masəviyyə Bağdadi, Əli ibni İsa Bağdadi, Əmmar Mosuli, İbni Rüşd Əndəlosi kimi təbiblər özlərindən sonra elm aləminə çoxlu qiymətli kitablar yadigar qoyub getmişlər. Həmin kitablar latıncaya və bir

çox Avropa dillərinə tərcümə edilmişdir. Müsəlmanlar bir çox elmlərdə öz dövrlərini alimlərindən irəlidə idilər. Onlar Avropaya daxil olan zaman avropalılar hələ vəba mikrobunu kəşf etməmişdilər. Bütün İspaniya camaatı o vaxt deyirdi ki, bu, göydən gələn bir bəladır və günahkar bəndələri tənbeh etmək üçün nazil olub. Amma müsəlman həkimləri vəbanın yolxucu xəstəlikdən başqa bir şey olmadığını sübut etdilər.

Doktor Hof İbni Sinanın «Qanun» adlı kitabı haqqında deyir: «Bu kitab İslam aləmində təbabət haqqındakı şah əsərlərdən biridir. 15-ci əsrin axırlarında bu kitab Avropada 16 dəfə çap olunub və yayılıb. 15 dəfə latınca, bir dəfə də ərəbcə çap edilib. 16-cı əsrdə isə 20 dəfədən artıq çap olunub. Bu da həmin əsərin əhəmiyyətini aşkar şəkildə göstərir.

Onun latınca və ərəbcə şərhləri həddən artıq çoxdur. Dəfələrlə çap olunmuş bu kitab 17-ci əsrin 2-ci yarısına qədər təbabət üzrə ən mühüm dərslik hesab edilirdi. Təbabət sahəsində onun qədər çap olunan kitab tapmaq çətindir. Hal-hazırda tibb elminin sivil inkişafına baxmayaraq, hələ də alimlər ondan istifadə edirlər».

Vil Dorant yazır: «Ən məşhur və qabaqcıl müsəlman təbibi Məhəmməd ibni Zəkəriyyə Razi hesab edilir. O, 200 dən çox kitab yazmışdır.

Bunların da əksəriyyəti təbabətə aiddir. Onun «Çiçək» və «Qızılca» adlı iki kitabı ən mühüm və qiymətli əsərlər sayılır.

Bu kitablar əvvəlcə latıncaya, sonra isə digər Avropa dillərinə tərcümə edilib. Dörd əsr müddətində 40 dəfə müxtəlif dillərə tərcümə olunub.

«Əl-haviəl-kəbir» kitabı da onun ömrü boyunca apardığı tədqiqat və təcrübələrinə aiddir və 20 cilddən ibarətdir. Hal-hazırda onun yalnız 10 cildi mövcuddur. Əsərin 5 cildi yalnız göz xəstəliklərinə dair imiş. Bu kitab 1279-cu ildə latıncaya tərcümə edilib və dövrünün ən mühüm tibbi əsəri hesab olunurdu».

Cərrahlıq sahəsinin tərəqqisi də müsəlman alimləri vasitəsilə başlamışdır. Hətta cərrahiyyə əməliyyatı zamanı istifadə edilən narkoz kimi dərmanlar da müsəlman cərrahlarının elmi ixtiralarından sayılır.

İbni Sinanın kitabları bütün dünya dillərinə tərcümə edilib və altı əsr müddətində tibb elminin əsasları kimi onlardan geniş istifadə olunub. Xüsusilə, İtaliya və Fransada onun kitablarından dərslik kimi istifadə edirdilər.

İslam alimləri və həkimləri tibb elmində bir sıra yenilik və ixtiralar əldə etmişdilər. O cümlədən, vərəm xəstəliyinin dırnaq yolu ilə müəyyən

olunması, sarılıq xəstəliyinin müalicəsi, soyuq su vasitəsiylə qanaxmanın qarşısının alınması, böyrək və sidik kisəsindən daşların salınması və s.

İslam aləminin ən böyük cərrahı isə Əbul Qeys Əndəlosi sayılır. O, 11-ci əsrdə yaşamışdır və cərrahiyyə alətlərinin çoxunu özü kəşf etmişdir. 14-cü əsrdən sonra gələn bütün cərrahlar Əbul Qeysin kitablarından faydalanmışlar. Onun əsərləri dəfələrlə latıncaya çap edilib və ən axırıncı çapı 1816-cı ilə təsadüf edir.

## *ƏCZAÇILIQ*

Doktor Qustav Loben yazır: «Müsəlmanlar müalicə üsullarında bir çox kəşflər etmişlər. O cümlədən, qızdırma xəstəliyinin müalicəsində soyuq sudan istifadə edirdilər ki, bir neçə əsr sonra avropalılar da həmin üsula müraciət etməli oldular. Müsəlmanların ixtira etdiyi bar çox kimyəvi tərkiblər hələ də işlədilməkdədir. Onlar dərmanları xüsusi üsullarla hazırlayırdılar. Uzun əsrlər keçdikdən sonra Avropada həmin dərmanlar yeni üsul adıyla tətbiq edilməyə başlamışdır.

Müsəlmanlar pulsuz dərmanlar verən apteklərdən istifadə edirdilər və xəstəxanası olmayan yerlərə müəyyən ləvazimat və dava-dərman göndərilirdi.

Corc Zeydan yazır: «Avropa alimləri əczaçılıq elmində apardıqları tədqiqatlar nəticəsində başa düşdülər ki, bu elmin əsasını qoyan müsəlmanlardır. Müsəlmanlar əczaçılıq üsullarını tərtib etmiş və yeni dərmanların kəşfində misilsiz nailiyyətlər qazanmışdılar. Onlar hələ neçə əsr qabaq müasir apteklər formasında olan dərmanxanalar açmışdılar.

Mak-Kapın dediyinə görə, təkcə Bağdadda 60 aptek mövcud idi. Avropalıların əlində olan bir çox dərman bitkilərinin və otların adları hələ də ərəb mənşəli sözlərdən təşkil olunmuşdur. Bu da bir daha sübut edir ki, həmin dərman bitkilərini avropalılar müsəlmanlar vasitəsilə tanımışlar.

## *XƏSTƏXANALAR*

Corc Zeydan yazır: «Üçüncü əsr hələ başa çatmamış, Məkkə və Mədinə, habelə başqa müsəlman şəhərlərində xəstəxanalar mövcud idi. Müqtədir Abbasi və onun vəziri xəstəxana tikintisində bir-biri ilə yarışa çıxmışdılar. Qısa bir müddətdə təkcə Bağdadda dörd xəstəxana inşa edilmişdi. Oradakı Əzdi xəstəxanasında hər biri müəyyən sahənin mütəxəssisi olan 24 həkim çalışırdı.

Müsəlmanların xəstəxanaları nizam-intizamla idarə olunurdu və millətindən, məzhəbindən,

peşəsindən asılı olmayaraq, bütün xəstələr yüksək səviyyədə müalicə edilirdilər. Hər bir növ xəstəlik üçün xüsusi salonlar nəzərdə tutulmuşdu. Oradaca tibb və əczaçılıq tədris edilirdi. Tələbələr nəzəri biliklərlə yanaşı, təbabət elmini də praktiki qaydada öyrənirdilər. Hələ o dövrdə səyyar xəstəxanalar da mövcud idi. Bunlar qatır və dəvələr vasitəsilə bir yerdən digərinə aparılırdı. Sultan Mahmud Səlcuqinin səyyar xəstəxanası 40 dəvə vasitəsilə daşınırdı».

Doktor Qustav Loben yazır:

«Müsəlmanların xəstəxanaları sağlamlığı qorumaq üçün nəzərdə tutulmuşdu və onlar indiki Avropa xəstəxanalarından daha yaxşı idi. Həmin xəstəxanalar həddindən artıq geniş olub, hava və su ilə yaxşı tə᾽min edilirdilər. Məhəmməd ibni Zəkəriyyə Razi xəstəxana inşa etmək üçün göstəriş aldıqda, bir yoxlama aparmışdı ki, indiki yoluxucu xəstəliklər üzrə mütəxəssislər də onu təsdiq etmişlər. O, şəhərin müxtəlif yerlərində bir parça ət asmış, ətin ən gec xarab olan yerini xəstəxana binası üçün münasib bilmişdi.

Müsəlmanların xəstəxanaları müasir xəstəxanalar kimi böyük salonlara malik idi. Orada tibbi öyrənən tələbələr üçün də xüsusi otaqlar nəzərdə tutulmuşdu və onlar öz peşələrinə əməli olaraq yiyələnirdilər. Həmin

dövrlərdə, hətta ruhi xəstələri müalicə etmək üçün xəstəxanalar da var idi».

Mak-Kap yazır: «Qahirədə böyük bir xəstəxana tikilmişdi. Orada fəvvarələr, bağçalar və dörd iri həyət mövcud idi. Həmin xəstəxanaya müalicəyə gələn kasıb adamlar sağaldıqdan sonra oranı tərk edən vaxt onlara beş ədəd qızıl sikkə də verilirdi!»

## *KİMYA ELMİ*

Cabir ibni Həyyan İmam Sadiq (ə)-ın şagirdi və böyük elmi şəxsiyyətlərdən biri olmuşdur. O, kimya elmində fövqəladə məharət qazanmışdı. Maks Hof onun barəsində belə deyir: «Cabir bütün dünyada ərəb kimyasının atası sayılır. Onun yüz cildə yaxın kimya elminə dair kitabı hələ də əllərdədir və həmin kitabların müasir kimyaya nüfuzu çox güclüdür».

Mərhum Əllamə Seyyid Şəhristani yazırdı: «Mən Cabirin qədim xəttlə yazılmış 50 cild kitabını görmüşəm. O, bu kitablarda hər hansı bir elmi mövzu barədə fikir söyləməzdən əvvəl, onları İmam Sadiqə (ə) nisbət verir. Cabirin kitablarından 500 cildi çap edilib. Bundan daha çox sayda Berlin və Paris kitabxanalarında yəqin ki, hələ də qalmaqdadır».

Avropa alimləri ona «hikmət ustadı» ləqəbini veriblər və adını daim əzəmətlə yad edirlər. Onlar

e˒tiraf edirlər ki, indiyədək kəşf olunan elementlərdən on doqquzunu vaxtilə Cabir kəşf etmişdir. Cabir özü belə deyirdi: «Bütün bu elementlər öz mənşəyini maddənin tərkibindəki güclü elektrik sahəsinə malik olan çox xırda, müşahidə olunmayan zərrəcikdən alırlar.»

Cabir qəribə bir şəkildə atomun ətrafında fırlanan elektron haqqında mə˒lumat verir!

Doktor Qustav Loben yazır: «Müsəlmanlar bu gün də lazımlı olan bir çox maddələri kəşf etmişdilər. Təəssüflər olsun ki, müsəlman alimlərinin çoxlu qiymətli əsərləri məhv olub aradan getmişdir. Mövcud olan kitablarda onların əldə etdiyi kimyəvi tərkibləri nəzərdən keçirdikdə, bu sahədə hansı böyük müvəffəqiyyətlər qazandıqlarını aydın dərk etmək olur.

Rənglərin düzəlməsi, filizlərin çıxarılması, polad istehsalı və dabbağçılıqdakı məharətləri sübut edir ki, onlar sənətkarlıq sahəsində də kimya elmindən istifadə edirmişlər.

İndiki kimya kitablarında Lavuazye bu elmin banisi adlandırılır. Bu tamamilə yanlış bir fikirdir. Halbuki min illik tarixə malik olan İslam kimyaşünaslığı mövcud olmuş və müəyyən inkişaf səviyyəsinə yüksələ bilmişdi».

Corc Zeydan yazır: Şübhə etmək olmaz ki, müsəlmanlar öz təcrübə və tədqiqatları ilə yeni

kimya elminin əsasını qoymuşlar. Onlar bir çox kimyəvi tərkibləri kəşf etmişlər. Yeni kəşflər də məhz həmin kəşflərdən faydalanmaqla müasir vəziyyətə gəlib çıxa bilmişdir. Bundan əlavə, müsəlman kimyaçıları elə şeylər kəşf ediblər ki, onlar bizə yalnız ümumiləşdirilmiş formada gəlib çatıb. Amma, onların necəliyi barəsində hələ də dəqiq mə᾿lumatımız yoxdur».

Doktor Hof, Razi haqqında belə yazır: Onun «Kimya sənəti» kitabı son zamanlarda bir hind şahzadəsinin kitabxanasından tapılmışdı. Razi bu kitabda müxtəlif maddələrin təsnifatını vermiş və onların hər birinin xassələrini dəqiqliklə göstərmişdir».

Vill Dorant yazır: «Kimyanın elm kimi formalaşması müsəlmanların təşəbbüslərinə bağlıdır. Çünki onlar dəqiq elmi müşahidələr və təcrübələr apararaq, bu elmin təşəkkül tapmasında müstəsna rol oynamışlar. Müsəlmanlar bir çox maddələri tərkib hissələrə bölə bilmiş, daşların təsnifatını tərtib etmişlər. Turşu və qələvilərin xassələrini aydınlaşdırmış, onların rolunu dəqiq müəyyənləşdirə bilmiş və yüzlərlə yeni tibbi dərmanlar aşkar etmişlər. Dəmirin qızıla çevrilməsi ideyasından əl çəkib, həqiqi kimyanın məsələlərilə dərindən məşğul olmuşlar. İslam alimlərinin, müəllifləri bəlli

olmayan kimyaya dair çoxlu kitabları latıncaya tərcümə edilib və həmin əsərlər Avropada bu elmin inkişafında vəsfolunmaz tə᾽sir göstərmişdir».

## *SƏNAYE*

Abbasi xəlifəsi Harunun dövründə icad olunan ilk saat böyük sənət nümunəsi sayılırdı. Müsəlmanlar tərəfindən ixtira edilən bu saatı Harun hədiyyə kimi Fransa kralına göndərmişdi. Doktor Qustav Loben bu barədə belə deyir: «Harun Ər-Rəşid Fransa kralı üçün çoxlu hədiyyələr göndərmişdi. Onlardan ən mühümü vaxtı göstərən bir saat idi. Hər saat tamam olduqda o, zəng vururdu. Fransa kralı və onun ə᾽yanları bundan mat-məəttəl olmuşdular. Sarayda heç kim bu saatın «sirrini» başa düşə bilmirdi».

Doktor Loben sözünə davam edir: «Ərəblər Əndəlosdan (indiki İspaniya) çıxarıldıqdan sonra bu diyar tənəzzülə uğradı. Tarixdə belə bir qısa müddətdə bu cür şiddətli tənəzzülə düçar olan ikinci ölkə görünməyib. Elm, sənət, əkinçilik xülasə bütün sahələrdə mövcud olan tərəqqi az bir zamanda məhv olub getdi. 400 min əhalisi olan Madriddə 200 mindən də az adam qalmışdı.

Şəhərlərdəki eʾmalatxanalar yavaş-yavaş dağılmağa başladı».

Həmin fransız alimi qeyd edir ki, ilk dəfə pambıqdan kağız istehsal etməyi öyrənənlər müsəlmanlardır. O, deyir: «Orta əsrlərdə uzun müddət avropalılar dəri üzərində yazı yazırdılar. Bu da çox baha başa gəldiyindən kitabların böyük həcmlə nəşr olunmasında maneçilik törədirdi. Dəri o qədər az tapılırdı ki, yunan və rum rəhbərləri qədim kitabları yığıb, onlardakı yazıları pozaraq, əvəzinə xristian məzhəbi mətnlərini yazmağı əmr etmişdilər. Əgər müsəlmanlar kağızı icad etməsəydilər, rahiblər əllərində olan bütün qədim kitabları məhv edəcəkdilər. Müsəlmanların kağızı ixtira etməsi, doğrudan da elmə böyük töhfə idi.

Kasiri «Eskorial» kitabxanasında 1009-cu ildə kağız üzərində yazılmış bir kitab aşkara çıxarmışdı. Bu kitabdan məʾlum olurdu ki, ilk dəfə dəri əvəzinə kağızdan istifadə edənlər məhz müsəlmanlar olmuşlar. İpəkdən kağız ixtira edilməsini çinlilərə nisbət verənlər belə eʾtiraf ediblər: «İpəkdən olan kağız Avropaya çatmamışdı. Çünki Avropada ipək yox idi. Müsəlmanlar birinci olaraq pambıqdan kağız istehsal edib, onu avropalılara tanıtdırdılar. Kağız üzərində yazılmış müsəlmanların çoxlu qədim

kitabları mövcuddur. Onlar elə yüksək keyfiyyətli kağız əldə etmişdilər ki, hətta indinin özündə də belələrinə rast gəlmək olmur!»

## *RİYAZİYYAT*

Baron Karra De Vu yazırdı:

«Müsəlmanlar müxtəlif elmlərdə böyük müvəffəqiyyətlər əldə etmişdilər. Onlar ədədlərin işlədilməsini xalqa öyrətmişdilər...

Onlar cəbri dəqiq elm səviyyəsinə qaldırdılar və onu inkişaf etdirdilər. Təhlili həndəsənin əsasını qoydular. Şübhə yoxdur ki, səthi üçbucaqlar və dairələri (triqonometriya) onlar kəşf etdilər. Xristian Qərbinin başı müharibə və çəkişmələrə qarışdığı vaxt, müsəlmanlar elmləri tədqiq edir və öz məˋnəviyyatlarının qorunmasına çalışırdılar».

Müsəlmanlar riyaziyyat, həndəsə və triqonometriya sahələrində çoxlu kəşflər etmişlər. Avropalılar onlardan bu elmlər barəsində çox şey öyrənmiş və hal-hazırda da həmin məˋlumatlardan istifadə edirlər. Avropalıların bu gün işlətdikləri riyazi terminlərin çoxunun ərəb mənşəli olması buna ən yaxşı sübutdur. Alqebra ərəbcə əl-cəbr deməkdir. Fransız dilində hesab rəqəmlərinə «ərəb rəqəmləri» deyilir.

Müsəlman riyaziyyatçılarının keçmişdə etdiyi mühüm kəşflər hələ də diqqət mərkəzindədir. Onlar səma cisimlərinin hərəkətlərini öyrənmək və hesablamaq üçün nəzərdə tutulan «üstürlab» rəsəd alətini kəşf etmişlər. Triqonometriya və onun terminləri də müsəlman riyaziyyatçılarının kəşfləri nəticəsində meydana çıxıb. Bir ingilis tarixçisi yazırdı ki, biz avropalılar riyaziyyat elmlərinin hamısını məhz müsəlmanlardan öyrənmişik.

## *COĞRAFİYA*

Məşhur fransız tarixçisi Doktor Qustav Loben yazır:

«Müsəlmanlar gəmiçilikdə həmişə mahir olmuşlar və çox uzaq məsafələrə səfərlər etmişlər. Onlar Çin və Afrikanın ucqar bölgələri ilə ticarət əlaqələri saxlayırdılar. Həmin dövrlərdə bu məntəqələr avropalılar üçün əlçatmaz yerlər sayılırdı. Süleyman adlı səyyah öz «Səfərnaməsini» çap etdirmiş və bu kitab Avropada da nəşr olunmuşdur.

İbni Hoqəl böyük müsəlman coğrafiyaşünasıdır. O, öz kitabında belə yazırdı: «Mən bu kitabda Yerin eni və uzunluğunu göstərmişəm. Bütün İslam ölkələri və onların sərhədləri barəsində mə`lumat vermişəm. Hər ölkənin şəhərləri,

qəsəbələri, çayları, gölləri, məhsulları, əkinçiliyi və yolları haqqında olan mə᾽lumatları gətirmişəm. Ölkələrin arasındakı məsafələr, oradakı ticarət məhsulları, xülasə coğrafiya elmi üçün lazım olan bütün mə᾽lumatlar haqqında şərhləri bu kitabda tapmaq olar».

Fransız tarixçisi daha sonra Əbu Reyhan Biruni, Əbul Həsən və başqa müsəlman coğrafiyaşünaslarının adını çəkərək belə qeyd edir: «Müsəlmanlar coğrafiya elmində çox inkişaf etmişdilər. Bunun da səbəbi onların səyyahlıqda bacarıqlı olmaları, astronomiya elmilə yaxından tanış olmaları idi».

## *SƏNƏTKARLIQ*

Doktor Loben yazır: «Müsəlmanların keçmişdən qalan məscidlərinə, mədrəsələrinə, mehmanxanalarına və digər tikililərinə baxanda başa düşürük ki, İslamda din və mədəniyyət bir-biri ilə elə qaynayıb-qarışıbdır ki, onların birini digərindən ayırmaq heç vaxt mümkün olmaz. Hər millətin zövq və bacarığını onun yaratdığı sənətkarlıq nümunələrindən anlamaq olar.

Müsəlmanların hal-hazırkı əsrə qədər qorunub saxlanılmış sənət nümunələri sübut edir ki, heç bir millət bu sahədə onlardan irəli gedə bilməmişdir. Qədim binaları və tikintiləri

müşahidə etməklə müsəlmanların sənət aləmində necə böyük nailiyyətlər qazanmasını yaxşı dərk edə bilirik. Buna ən yaxşı nümunə olaraq, Kordova məscidini göstərmək olar. Gözəl me᾿marlıq incisi olan bu məscidin inşasında o dövrün yeni və mütərəqqi tikinti üsullarından istifadə edilib.

Ağac, fil sümüyü və sədəf üzərində nəqqaşlıq sənətində müsəlmanlar fövqəladə ustalıq qazanmışdılar. Qədim məscidlərdə, yaraşıqlı darvazalarda, minbərlərdə, pəncərə və tavanlarda həmin gözəl nəqqaşlıq nümünələrini görmək olar. Hansı ki, bu gün müasir imkanlardan istifadə etməklə, bu kimi sənət əsərlərini düzəltmək çox çətindir.

Səlib yürüşləri zamanı İslam ölkələrindən gətirilmiş gözəl naxışlı sandıqlar və mücrülər indi də Avropadakı muzeylərdə sənət inciləri kimi qorunmaqdadır. Təəccüblüsü də budur ki, müsəlmanlar belə incə və nəfis işləri ən sadə və adi alətlərlə yaradırdılar. Bu da onların ustalığının çox yüksək səviyyədə olmasına ən yaxşı dəlildir. Hələ indiyədək Avropada belə nəqqaşlıq nümunələrinə rast gəlinməyib.

Saxsı qablar düzəltməkdə və dulusçuluqda da me᾿marlıqda olduğu kimi müsəlmanlara çatan yox idi. 10-cu əsrin əvvəllərindən Əndəlosda

müsəlmanlar kaşı istehsalına başladılar. Onlar orada e᾿malatxanalar tə᾿sis edir və öz məhsullarını dünyanın hər yerinə ixrac edirdilər.

«Qırmızı sarayda» kaşı nümunələrinin misilsiz incilərini görmək olardı. İtalyanlar bu sənəti məhz müsəlmanlardan öyrənib, Avropada məşhurlaşmışdılar. Kaşı düzəltmək sənətinin ən böyük yadigarlarından biri «Qırmızı sarayda»kı məşhur güldan hesab edilir. Onun hündürlüyü 1,5 metrdir və naxışlarının gözəlliyi doğrudan da heyrətamizdir».

Doktor Maks Meyerhof deyir: «Müsəlmanların elmi potensialı get-gedə aşkar olur. Son illərin kəşfləri İslam elmləri tarixinə işıq salmışdır. Lakin bunlar hələ kifayət qədər həmin mədəniyyəti dünyaya tanıtdıra bilmir. Ümidvaram ki, gələcəkdə dünya xalqları İslamın dərin elm və mədəniyyətinin misilsiz nümunələrini öyrənib, onlardan daha çox faydalanacaq. Müsəlmanların elmləri orta əsrlər Avropasını qaranlıq gecədə parlayan Ay kimi işıqlandırmışdı və həmin elmlərin nurunu biz hələ də hiss etməkdəyik».

Avropa və Amerika tarixçilərinin bir çoxu Qərbdə elmin inkişafına müsəlmanların elmi mə᾿lumatlarının necə böyük tə᾿sir etdiyini e᾿tiraf edirlər.

Kembric universitetinin professorlarından olan Con Brend Trend belə deyirdi: «Avropanın böyük bir hissəsi maddi və mə᾽nəvi bədbəxtçiliklərə düçar olduğu zaman, İspaniya müsəlmanları mədəniyyət və iqtisadiyyatda çox böyük nailiyyətlər qazanmışdılar.

İspaniyalı müsəlmanlar sənaye, elm, ədəbiyyat və digər sahələrdə elə böyük tərəqqiyə çatmışdılar ki, istər-istəməz bu mədəniyyət başqa Avropa ölkələrinə nüfuz etməyə başlamışdı. Avropanın tanınmış alim və mütəfəkkirlərinin çoxu həmin mədəniyyətin tə᾽siri altına düşmüşdülər. Buna görə də müsəlman İspaniyasını Avropa mədəniyyətinin bayraqdarı saymaq lazımdır».

İngilis alimi Çember yazır: «E᾽tiraf etməliyik ki, müsəlmanlar öz insanlıq və səadət bəxş edən adət-ən᾽ənələri ilə bizim torpaqlara işıqlı bir mədəniyyət daxil etmişdilər. Avropanın tərəqqi və inkişafında bu böyük mədəniyətin oynadığı rolu təsəvvür etmək çox çətindir.

Əgər 711-ci ildə Tariq ibni Ziyadın başçılığı altında müsəlmanlar Cəbəlüt-Tariq boğazından Avropaya keçməsəydilər, biz indiki vəziyyətimizə heç vaxt nail ola bilməzdik».

İngilis alimi Buqold isə belə yazır:

«Bağdad və Əndəlosdakı İslam universitetlərində yəhudi və xristian tələbələrə xarici olduqlarına baxmayaraq, «xoş gəldin» deyirdilər və onları maddi cəhətdən dövlət xəzinəsindən tə̓min edirdilər. Onlara hörmətlə yanaşırdılar. Yüzlərlə avropalı cavan müsəlmanların bu alicənablığından istifadə edərək, həmin mərkəzlərdə təhsil alırdılar».

Məşhur Amerika tarixçisi Draber yazır:

«Müsəlman alimləri bir çox qədim və yeni elmlərdə mühüm mə̓lumatlar əldə etmişdilər. Mexanika, hidravlika, dinamika, kimya və ümumi fizika sahələriində misilsiz göstəricilərə nail olmuşdular.

İslam universitetlərində fizika, kimya, astronomiyadan tutmuş əxlaq və fəlsəfəyə qədər bütün elmlər tədris edilirdi. Bə̓zi böyük universitetlərdə 6 minə qədər tələbə təhsil alırdı!»

Kordovada neçə kilometrlərlə uzanan daş döşəməli yollar var idi. Halbuki, London və Paris bundan 7 əsr sonra belə vəziyyətə nail ola bilmişdilər. Bütün müsəlman şəhərlərində saysız-hesabsız gözəl me̓marlıq əsərləri olan hamamlar mövcud olduğu halda, avropalılar hamamın nə olduğunu bilmirdilər!

Biz müsəlmanlar belə işıqlı və əzəmətli mədəniyyətin varisi olduğumuz halda, nə üçün

bu gün hazırkı vəziyyətdə yaşayırıq? Dünya mədəniyyətində aparıcı məqamı hansı səbəblər üzündən əldən vermişik? Niyə bizim mədəniyyətimiz, elmlərimiz və siyasi qüdrətimiz zəifləyib? Nə üçün tərəqqimiz dayanıb? Niyə biz yerimizi qərblilərlə dəyişmişik? Nə üçün elm və sənayedə biz onlardan asılı olmuşuq, onların isə bizə ehtiyacı yoxdur?

Tarix göstərir ki, müsəlmanlar öz səmavi tə`limlərinin ruhundan uzaq düşən kimi, zəlillik və bədbəxtliklərə düçar olurlar. Keçmişdə əzəmətli dövrünü yaşayan müsəlmanlar öz dinlərinə və mədəniyyətlərinə bizdən daha artıq bağlı idilər. Dini dəyərlərin əvvəlki zamanlardakı kimi qiymətləndirilməməsi elm və fikir, maddi və mə`nəvi həyat arasındakı tarazlığı pozub, İslam ölkələrində çəkişmələr və müharibələrə səbəb oldu. Nəticədə iqtisadi gerilik, elm və mədəniyyətin tənəzzülü müsəlmanların başının üstünü aldı. Bundan istifadə edən Qərb millətləri öz mədəniyyətlərini və həyat tərzlərini dünyada sür`ətlə yaymağa başladılar. Müsəlman ölkələrinin bir çoxu qərblilərin tə`siri altına düşüb, hətta bə`ziləri öz siyasi və iqtisadi müstəqilliklərini də itirdilər.

Müsəlmanların əxlaqi səciyyələri də dəyişdi. Səmimiyyət, düzgün əməl, səadət və iman kimi

keyfiyyətlər başqa şeylərlə əvəz olundu. Bu sərhədlər pozulduqdan sonra müsəlmanlar öz dinləri ilə vidalaşdılar. İslamın müqəddəs prinsiplərini tərk edənlər isə hökmən bədbəxtlik və cəhalətə düçar olurlar. Əgər müsəlmanlar həqiqi İslamdan uzaq düşməsəydilər, onların əzəmətli vəhdəti heç vaxt pozulmazdı və bu din bütün dünyanı fəth edərdi.

«Müqəddəs Yelena» adasında Napoleon ilə birgə sürgündə olmuş onun yaxın adamlarından sayılan Lakas deyirdi: «Napoleon Misirdə olduğu vaxt öz təəccübünü ifadə edərək deyirdi: İslam peyğəmbəri və başqa müsəlmanlar necə olub ki, asanlıqla bu qədər ölkələri fəth edə biliblər? Lakas belə davam edir: «Həmin amil Napoleonun İslama meylini gücləndirmişdi. O vaxtlar imperator izhar edirdi: «Mən İslam dinini seçəcəyəm». Hal-hazırda İslam qanunları ictimai və siyasi səhnədən, hətta müsəlmanların həyat tərzindən kənarda qalıb. Qeyri-islami qanunlarla yaşayan cəmiyyət isə əslində İslam cəmiyyəti deyildir. Müsəlmanlar yaşadığı bir çox ölkələrdə İslami əxlaq və təfəkkür tərzi demək olar ki, tamamilə aradan getmək üzrədir. Ona görə də mədəniyyətimizin tənəzzülü bə`zi müsəlmanların günahı ucbatındandır və bu işdə İslam dininin heç bir günahı yoxdur.

Müsəlmanlar bu günkü dünyada layiqli yer tutmaqdan ötrü vəziyyəti düzgün qiymətləndirib, öz imkanlarından əlverişli şəkildə istifadə etməlidirlər. Geriliyi aradan qaldırmaq üçün öz dini köklərinə qayıdıb, maddiyyatla mə`nəviyyatı tarazlaşdırmağa çalışmalıdırlar. Başqa sözlə desək, müsəlmanlar qiymətli İslam tə`limlərinə müraciət etməyincə, əvvəlki əzəmət və qüdrətlərini heç vaxt əldə edə bilməzlər. Müsəlmanlar dünya və axirətə şamil olan həqiqi İslama qayıtmayınca, dini əqidələrini möhkəmləndirməyincə və Allahla sarsılmaz rabitəni bərpa etməyincə, səadət və xoşbəxtliyə yetişməyəcəklər.

## *İSLAM VƏ ALKOQOLLU İÇKİLƏR*

İslamın tə`lim-tərbiyə üsulları bütün dünyaya şamil olan və insanların həqiqi səadətini tə`min edən, ilahi vəhyə əsaslanmış qayda-qanunlardır. Dinimizə də`vət ağıla, vicdana və daxili hisslərə xitab etməklə möhkəmlənir. Qur`ani-Kərimin bir çox ayələri e`tiqadi və əməli maarifimizi güclü dəlillərlə bəyan edir; Həmin dəlillərlə hədəf və məqsədlərimizi göstərir. İslam əqlin və zəkanın gücü ilə insanları heyvanlar cərgəsindən çıxarmaq istəyir; onu yaradılışda nəzərdə tutulan məqsədə və hədəfə doğru aparmağa çalışır. İslam fərdi və ictimai yaşayışı əqlin öhdəsinə qoyur və bu

ne᾽mətə böyük qiymət verir. Əqli, insana yol göstərən daxili peyğəmbər kimi tanıtdırır. Bu böyük ne᾽mətin təbii fəaliyyətini zəiflədən və onu aradan aparan hər bir şeyin qarşısını almağı vacib bilir.

Spirtli içkilər əqlin fəaliyyətinə çox pis tə᾽sir göstərən amillərdəndir. Alkoqol həm sağlamlığa, həm də mə᾽nəviyyata sarsıdıcı zərbə vurur. İnsan əqlini korlayan alkoqollu içkiləri İslam dini kəskin şəkildə qadağan edir və hətta bir qətrə bu içkilərdən içmək böyük günah sayılır.

İslamın meydana gəldiyi mühitdə (Ərəbistan yarımadası) şərab içmək çox geniş yayılmışdı. Cahiliyyət dövründəki ərəblər bu çirkin əmələ adət etmişdilər. Adamlar cəhalət və fəsad içərisində qərq olmuşdular. Belə bir mühitdə vəsfolunmaz təqva və imana malik olan əzəmətli İslam peyğəmbəri Həzrəti Məhəmməd (s.ə.v.v) zühur etdi. O, Allahın vəhyinə əsasən, xalqı İslama də᾽vət etməyə başladı.

Cahiliyyətdən miras qalan bir sıra çirkin adətlər kimi, şərabın da qadağan edilməsi və ərəblərin onu tərk etməsi İslamın heyrətamiz müvəffəqiyyətlərindəndir. Əlbəttə, şərabın qadağan edilməsi və haram buyurulması tədricən baş vermişdi. Nəhayətdə açıq şəkildə şərabın

ziyanları göstərildi və onu içmək haram buyurularaq qəti şəkildə qadağan edildi.

**«Şübhəsiz, şeytan içki və qumarla aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istəyir.»** (Maidə surəsi 91-ci ayə).

Şərabı qadağan edən ayə nazil olan vaxt bə`zi ərəblər içki içməklə məşğul idilər. Ayəni eşitdikdən sonra fikirləşmədən şərab qablarını sındırmağa və içərisindəkiləri yerə tökməyə başladılar. Ənəs ibni Malik deyirdi: «Ayə nazil olan vaxt biz Əbu Təlhənin mənzilində şərab içməklə məşğul idik. Peyğəmbərin carçısının nidasını eşitdik: Ey müsəlmanlar! Agah olun ki, şərab haram e`lan edildi və gərək onu küçələrə tökəsiniz.

Əbu Təlhə məndən şərabları küçəyə tökməyi tələb etdi və mən də onun göstərişinə əməl etdim. Bə`ziləri şərab qablarını sındırırdılar və küçələrə o qədər şərab tökülmüşdü ki, yağış yağan vaxt yerdə şərabın rəngi və iyi zahir olurdu».

Bu qanun müsəlmanlar arasında elə nüfuz etmişdi ki, İslam ordusunun tutduğu hər bir ölkədə qısa zaman ərzində şərabdan əsər-əlamət qalmırdı. İndinin özündə də milyonlarla müsəlman tapmaq olar ki, ömrü boyu bir qətrə də şərab içməyib.

Bəşəri qanunlarda nöqsanların aşkar olması ilə onun haldan-hala düşməsi və onların öz əvvəlki fikirlərini dəyişmələri bu qanunlarda tə`sirini qoyur. Qanunların dəyişməsi də insanları müxtəlif dəyişikliklər etməyə məcbur edir. Aşağıda göstərəcəyimiz bu iki təcrübəyə diqqət yetirin:

Birinci təcrübə ABŞ-da vaxtilə alkoqollu içkilərin qadağan olunması haqqındakı qanun və onun nəticələri barəsində, ikinci təcrübə isə İslamın zühurunun əvvəllərində şərabı qadağan edən ayənin nazil olması ilə əlaqədardır. Bu iki təcrübənin müqayisəsi çox ibrətamizdir.

ABŞ konstitusiyasının 18-ci maddəsinin düzəlişinə əlavə edilməzdən qabaq, bu ölkədə bir qrup xeyirxah adam alkoqollu içkilər əleyhinə güclü və geniş təbliğat kompaniyasına başladılar. Onlar müxtəlif kitablar, məqalələr, dəlillər vasitəsilə 10 il müddətində, alkoqolun insanların cisminə, sağlamlığına, mə`nəviyyatına habelə iqtisadiyyata vurduğu ziyanları xalqa başa salırdılar.

Bu təbliğatın başlamasından 1925-ci ilə qədər 65 milyon dollar həmin kompaniyanın aparılmasına sərf edilmişdi. Nəticədə xalqın böyük əksəriyyəti Amerika konqresindən alkoqollu içkiləri qadağan edən qanun

çıxarılmasını tələb etdi. Dəqiq araşdırmalardan, habelə bunun mənfi və müsbət cəhətləri öyrənildikdən sonra, ABŞ konqresi və Senatı alkoqollu içkilərin ölkədə qadağan olunması haqqında qanun qəbul etdi.

Amma bu qanun hələ qüvvəyə minməmiş, içkiyə adət etmiş xalq öz əvvəlki əqidəsindən əl çəkdi. Gizli şərab zavodlarının sayı və qaçaq yolla ölkəyə alkoqollu içkilər gətirilməsi sür˒ətlə artdı. Qanundan qabaq ölkədə 400-ə yaxın şərab zavodu var idisə, qanundan sonra gizli şərab zavodlarının sayı 80 minə çatdı! Tədriclə oğlan və qız uşaqları gizli restoranlara ayaq açmağa başladılar. Cinayətkarlığın statistikası sür˒ətlə yüksəlirdi. Qanunun qüvvədə olduğu 13 il ərzində 200 nəfər öldürülmüş, 500 min nəfər məhkum edilmiş, 400 milyon dollarlıq əmlak müsadirə olunmuşdu.

Az yaşlılar arasında törədilən cinayətlərin sayı qadağandan əvvəlkinə nisbətən dəfələrlə artmışdı. Alkoqolizmdən xəstələnən və ölənlərin statistik göstəriciləri isə dəhşətli idi.

Xülasə, bütün bu itkilərdən sonra ABŞ hökuməti qanunu ləğv etməyə məcbur oldu. 1933-cü ilin dekabrında həmin qanun tamamilə və rəsmi surətdə ləğv edildi. «Mədəni cəmiyyət» yenə də «azadcasına» şərab içməyə başladı.

İngiltərədə bir vaxtlar hökumət alkoqollu içkilərin işlədilməsini azaltmaq məqsədilə qanun çıxarıb onu parlamentin təsdiqinə vermişdi. İngilislər bundan həyacana gəlmiş, müəssisə və mağazaları tə᾽til etmişdilər. Dövlət də əlacsız qalaraq qanunun icrasından vaz keçmişdi. Qanunvericilik və onun icrasındakı bu cür təzadlar cəmiyyətin meylləri və nəfsani istəklərindən doğur. İslamda isə yalnız cəmiyyətin sağlamlığı və səadəti nəzərə alınır və mənfi meyllərə, habelə xalqın istəklərinə fikir verilmir.

Elm inkişaf etdikcə, tədqiqatlar dərinləşdikcə alkoqolun cürbəcür və yeni-yeni ziyanları mə᾽lum olur. Zorakılıq, iffətsizlik, ailədə ixtilaflar və sair bəlalar alkoqolun törətdiyi «cinayətlərin» yalnız bir qismidir. Tibbi baxımdan onun insan orqanizminə vurduğu ziyan isə inkarolunmazdır.

Alkoqolun zərərləri haqqında minlərlə kitab yazılmış, müxtəlif dillərdə saysız-hesabsız jurnallar buraxılmış və onun əleyhinə uzun müddət güclü təbliğat aparılmışdır. Amma bütün bunlar İslamın təkcə bir qadağan qanunu ilə həyata keçirdiyi işlə müqayisədə çox əhəmiyyətsizdir.

İslamın yarandığı dövrlərdə şərab əleyhinə nə belə təbliğatlar aparılıb, nə də bu işə milyonlarla

pul xərclənib. Yalnız Rəsuli-Əkrəm (s.ə.v.v) müsəlmanlara e᾿lan etmişdi ki, Allah şərab içməyi haram buyurur. Nəzərə almaq lazımdır ki, həmin dövrdə ərəblər üçün şərab içməkdən üstün sayılan başqa bir ləzzət yox idi! Xalq şiddətli dərəcədə bu dərdə mübtəla olmuşdu. Lakin Peyğəmbərin (s.ə.v.v) carçısı hələ sözünü bitirməmiş, xalq şərabdan əl çəkdi və onunla həmişəlik vidalaşdı.

İlahi qanunlarla bəşəri qanunların fərqlərindən biri də budur ki, insanlar cinayətlərinə görə cəza alacaqlarından qorxaraq, bəşəri qanunları pozmamağa çalışırlar. Aşkarda onlara riayət edib, gizlində isə həmin qanunlara heç bir əhəmiyyət vermirlər. Amma həqiqi mö᾿minlər ilahi qanunları heç vaxt pozmazlar. Çünki, elə bir yer yoxdur ki, həmin məkanda günah edilsin və Allah onu görməsin. Günahlardan çəkinməyin yolu Allahla rabitəni gücləndirməkdə və daim imanla yaşamaqdadır. Əgər insan bu dünyadakı yaşayışla həyatın bitməməsini başa düşsə və etdiyi günahlara görə axirətdə cavab verməli olacağına e᾿tiqad bəsləsə, onda onun həyat tərzi kamil insanın yaşayışına çevriləcək.

«Mədəni cəmiyyət»lər bu gün xalq üçün iradə azadlığını tə᾿min etdiklərini iddia edir və qanunların tə᾿yin olunmasında «milli iradə»yə

əsaslandıqlarını söyləyirlər. Amma bu «milli iradə»ni təhlil etdikdə aydın olur ki, o əksəriyyətin azlıq üzərindəki ağalığıdır. Əgər xalqın 51%-i hansısa qanunun qəbul edilməsini istəsə, yerdə qalan 49%-in rə᾽yinə e᾽tina olunmur. Aydındır ki, «azadlıq»ın rə᾽yinin qanunda nəzərə alınmaması heç də «ümumi milli iradə» demək deyil. Azlıqda qalan insanların haqqının tapdalanması «azadlıq» sayıla bilərmi? Məgər köləlik insanları azadlıqdan məhrum etmək deyilmi? Əksəriyyətin əqidəsini azlığa zorla qəbul etdirmək əsarət adlandırılmırmı?

Ona görə də belə «azadlıq»da əslində köləlik gizlənmişdir. Amma ilahi qanunlarda xalq köləliyin bütün formalarından azad edilmişdir. Burada «əksəriyyət» və «azlıq»ın iradəsi ortaya çıxmır. Həmin qanunlar ümumi mənafeni tə᾽min etmək və cəmiyyətə həqiqi xoşbəxtlik və səadət bağışlamaq üçün nəzərdə tutulurlar.

Dindar bir şəxsin nəzərində bu qanunlara itaət etmək vacib iş sayılır. Çünki, onları tə᾽yin edən Allahın özüdür.

Bəşər qanunlarının təhlili göstərir ki, onlar heç vaxt insanları əxlaqsızlıq və mə᾽nəviyyatsızlıqdan çəkindirə bilmirlər. Bəşər müasir elm və texnalogiyalara nə qədər çox yiyələnsə də, mə᾽nəvi xəstəliklərdən yalnız Allaha iman

gətirmək sayəsində xilas ola bilir. Burada qərb alimlərindən bir neçəsinin şərabın qadağan edilməsi barədə İslam qanunu haqqında söylədikləri fikirlərə nəzər salaq. İngilis alimlərindən biri deyir:

«İslamın ən yaxşı qanunlarından biri də şərabın haram edilməsidir. Şərab içən afrikalılar dəlilik həddinə çatırdılar. Ona adət etmiş avropalılar buna görə afrikalılara şərab içməyi qadağan etməliydilər və özləri də bu bəlanın həqiqi zərərini başa düşməliydilər. Şərab içən şimallıların ağlı zəifləyir, cənublular isə dəlilik həddinə çatırlar».

Valter yazırdı:

«Məhəmmədin dini məntiqli, ciddi, pak və insansevər bir ayindir. O, əsil dəlilik olan şirki heç vaxt qəbul etmir və Allah üçün bənzərlər, taylar düzəltmir. Onda heç bir ziddiyyət yoxdur. Bu din ciddidir; Həmin cəhətdən də şərab və qumarı haram sayır. Onların yerinə gündə beş dəfə namaz qılmağı əmr edir. Pak dindir; ona görə də İslama qədər Asiyada geniş yayılmış çoxarvadlılığı dörd daimi kəbinlə məhdudlaşdırır. İnsansevər bir dindir; o cəhətdən də zəkatı və imkansızlara köməyi həccdən daha vacib hesab edir. Bütün bunlar İslamın həqiqi nişanələridir».

Başqa bir avropalı alim Jül La Bum isə belə deyir:

«Ərəblər şərab içməkdə ifrat dərəcəyə çatmışdılar və qumarı halal sayırdılar. Kişi istədiyi qədər evlənə bilərdi və istədiyi vaxt da arvadını boşamağa icazəsi vardı. Belə boşanmış qadınlar keçmiş ərləri öldükdən sonra həmin kişilərin oğulları tərəfindən yenidən arvadlığa qəbul edilirdilər! İslam dini bütün bu adətləri kənara atdı.»

Professor Edvard Monte deyir: «Qur'anın ərəblər arasında yayılmış qız uşaqlarının qətli kimi insanın qurban edilməsi, spirtli içkilərin istifadəsi və qumar oyunlarını qadağan edərək bu kimi islahatların sayəsində ərməğan gətirdiyi tərəqqi bais oldu ki, biz Məhəmmədi (s) ən humanist insanların önündə görək.»

## *İSLAM VƏ HƏR NÖV AYRISEÇKİLİYİN RƏDDİ*

İslamın əqidə və inam məsələləri tövhid əsasında qurulduğu üçün İslam icmasının strukturunu da vəhdət prinsipləri təşkil edir. İslamın nəzərində insan anlayışı geniş bir mə'na kəsb edərək onun bütün üzvləri vahid bir icmanın fərdləri hesab olunur. Bu ideyanın əhatəsi o qədər genişdir ki, bəşər arasında ixtilafa səbəb ola

biləcək hər növ ayrıseçkiliyi aradan qaldırır, yerində qardaşlıq, ülfət, həmrə’ylik və sair kimi onları bir-birinə vəsl edən ictimai birliyi bərpa edir, vəhdəti poza biləcək hər hansı amilin tam əleyhinə durur. İslam insanlar arasında ayrıseçkilik kimi dəstəklənən irq, rəng, kök, dil və sairinin qarşısında məntiqlə çıxış edərək deyir ki, bəşər öz mənşəyini bir kişi və qadından götürmüş və sadalananların heç biri birinin kimsə üzərində imtiyaz və üstünlüyünə dəlalət etmir. Ümumiyyətlə, nasionalizm fikir və hissləri İslamda heç bir mə’na daşımır. Bununla da İslam dini millət, dil və irqçiliklə fəxr etməyi əsassız e᾿lan etmişdir.

Dərinin rəngi və dillərin müxtəlifliyi Yaradanın qüdrət nişanələridir. Qur᾿an bu məsələyə diqqət edib, dərindən düşünməyi insanlara tövsiyə edir.

***«Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət nişanələrindəndir. Şübhəsiz ki, bunda ağıl sahibləri üçün nişanələr var».***[2]

***«İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və əzabla qorxudan peyğəmbərlər göndərdi».***[3]

---

[2] Rum surəsi 22-ci ayə.

[3] Bəqərə surəsi 213-cü ayə.

Bu ayədən mə᾽lum olur ki, sonradan meydana gələn ixtilaflar ilk bəşər cəmiyyətində mövcud olmamışdı və insanlar vəhdət halında yaşamışdılar.

Həzrət Əmirəl-mö᾽minin Əli (ə) özünün Malik Əştərə yazdığı məşhur məktubunda belə deyir: «*Agah ol, ey Malik! Millətə qarşı öz ürəyində mərhəmətə yer ver. Onlara qarşı məhəbbətli ol. Heç vaxt vəhşi heyvanlara oxşay*

*araq, onların malını və canını məhv etmə. Onlar ya sənin dini qardaşlarındır, ya da sənin kimi insandırlar.*»

Buradan da biz İslamın bütün irqlərə və müxtəlif dilli xalqlara necə münasibət bəslədiyini aşkar şəkildə görürük.

Millətlər arasında olan ən güclü və ən möhkəm rabitə dini bağlılıqdır ki, bunun vasitəsilə müxtəlif millətlər və irqlər ən yaxşı şəkildə bir-birlərilə əlaqələr qururlar.

İslam bu vasitə ilə fərdlərin bağlılığını və vəhdətini tə᾽min edərək ixtilaflar zəncirini qırıb. Bütün müsəlmanların imanla möhürlənən qardaşlığını e᾽lan edibdir. İslamda dini qardaşlıq hüquq bərabərliyinə, səmimiyyətə və qarşılıqlı köməyə əsaslanır. Müsəlmanların əqidə birliyi və dini vəhdətinə əsaslanan bu dini qardaşlıq, hətta

doğma qardaşlıqdan da güclü olur. Çünki, ən yüksək səviyyəli bağlılıq, ürəklərin bağlılığıdır.

***«Həqiqətən mö᾽minlər qardaşdırlar. Öz qardaşlarınız arasında sülh yaradın və Allahdan qorxun ki, bəlkə rəhm olunasınız.»***[4]

İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur: *«Mö᾽minlərin cəmiyyəti məhəbbət və rəğbət baxımından vahid bir bədən kimidir. Hər vaxt bədənin bir üzvü dərdə mübtəla olsa, onun başqa əzaları da narahat olur və inciyir. Əgər bir müsəlman dərd və bəlaya düçar olsa, digər müsəlmanlara ona kömək etmək və qəminə şərik olmaq hökmən lazımdır.»*

## *İSLAM AZADLIQ VƏ ƏDALƏT DİNİDİR*

Azadlıq, haqq-ədalət məsələlərini irəli sürən diktatorluqdan tutmuş kapitalizm və ta fəhlə sinfinin təşkil etdiyi quruluşları belə çək-çevir edəndə görürük ki, bu ideyalar müxtəlif qanun çərçivələri altında avam xalq kütlələrini tərk-silah edərək bir iddə hökmran, mülkədar, sahibkar və sərmayə sahiblərinin mənafeyi və əmniyyətinə xidmət edir. İslam insanları zülmkarların hər cür hökmranlığından azad edir və xalqın malını, canını və şərəfini ədalətlə qoruyur. İslamın insanlara bəxş etdiyi həqiqi azadlıq Allahın tə᾽yin

---

[4] Hucurat surəsi 10-cu ayə.

etdiyi çərçivələr daxilində, onların bütün hüquqlarını tə`min edir.

İslam istəyir ki, insanlar şərəflə yaşasınlar və bu da cəmiyyətin bütün üzvlərinin hüquq bərabərliyi əsasında mümkündür. O, insani dəyərlərə yüksək qiymət verir və cəmiyyətdə ədaləti bərqərar edir.

Əgər İslam yalnız bir millətin və irqin köməyinə arxalansaydı, heç vaxt belə parlaq inkişafa nail ola bilməzdi. Dinimizdə milli və irqi ayrıseçkiliyin olmaması müxtəlif millətlərin və xalqların onu qəbul etməsinə böyük tə`sir etmişdir. Tarix boyu irqçiliyin və millətçiliyin əsassız əqidələri insanlar arasında mə`nasız çəkişmələrə və müharibələrə səbəb olmuşdur. İslam ixtilaf amillərindən qabaq, vəhdət və qüdrət amillərini müsəlmanlara tanıtdırmışdır. Müsəlmanlar yəhudi və xaçpərəstləri ixtilaflara son qoymağa və Tövhid dinini düzgün başa düşmək üçün həqiqəti axtarmağa də`vət edirdilər.

***«Ey Peyğəmbər! Söylə ki, ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! O kəlmə budur ki, Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi özümüzə Rəbb qəbul etməyək».***[5]

Bu gün vəhdət, birlik, ədalət və azadlığını itirmiş millətlər, milli ayrı-seçkilik nəticəsində

[5] Ali-İmran surəsi, 64-cü ayə.

əziyyət çəkənlər öz nicatlarını İslamda axtarmalıdırlar. Çünki, İslam dini sayəsində insanların həqiqi bərabərlik və vəhdəti gerçəklənir. Qara və ağ, sarı və qırmızı dərili insanlar bərabərlik və azadlıq şəraitində İslam bayrağı altında rahat yaşaya bilərlər.

İslam nöqteyi-nəzərindən insanlar arasında üstünlük elm və əmələ görədir və imtiyazlar yalnız əxlaqi paklıq və məˈnəvi fəzilətlərə əsaslanır. İnsanların birini digərindən üstün tutan şey yalnız təqvadır (Allahdan qorxmaq).

Qurˈan belə buyurur:

***«Allah yanında ən hörmətliniz Allahdan ən çox qorxanınız və pis əməllərdən ən çox çəkinənizdir».***[6]

Rəsuli-Əkrəm (s.ə.v.v) belə buyurur: «*Ərəbin əcəm, ağın qara üzərində heç bir imtiyazı yoxdur. Üstünlük yalnız təqva və ruhi fəzilət sayəsində ola bilər*».

Məkkəni fəth edəndən sonra Peyğəmbər (s.ə.v.v) özünü başqa millətlərdən üstün sayan ərəblərə xitabən belə buyurmuşdu: «*Allaha şükür olsun ki, İslamın ali təˈlimləri ilə sizdən cahiliyyət dövrünün lovğalığını və təkəbbürünü götürdü. Agah olun və bilin! Allahın qarşısında iki dəstə var: Onun*

---

[6] Hucurat surəsi 13-cü ayə.

*əzizlədiyi təqvalılar və Onun nəzərində alçaq olan günahkarlar».*

Bir nəfər İmam Riza (ə)-ın hüzuruna gəlib dedi: «Dünyada sənin ata-babalarından üstün bir şəxs tapmaq olmaz».

İmam buyurdu: *«Onların böyüklüyü və şərəfi təqvada idi. Ata-babalarım Allaha itaətdə çox çalışırdılar».* Başqa bir kəs Həzrət (ə) belə dedi: «Allaha and olsun, sən dünyada ən yaxşı şəxssən». İmam buyurdu: *«Ey kişi and içmə. Məndən daha üstünü, təqvası məndən çox olandır və Allaha daha artıq itaət edəndir. And olsun Allaha, hələ bu ayə əvəz olunmayıb*:

**«Sizin bizim yanımızda ən əziz olanınız, ən çox təqva sahibi olanlarınızdır».**

Qeyd olunan təqva azadlığın eynidir və məhdudiyyət demək deyildir. Çünki, məhdudiyyət insanı səadətdən məhrum edir, amma təqva ruhun bir zinətidir və adama toxunulmazlıq verir. Ona azadlıq və mə᾽nəviyyat bəxş edib nəfsani istəklər məhbəsindən qurtarır. Təqva bəşərə ictimai həyatda da azadlıq verir. Təqvalılar mövlası həzrət Əli (ə) buyurur: *«Təqva paklığın və düzgünlüyün açarı, qiyamət gününün libasıdır. Hər cür bədbəxtlikdən insana nicat verir və ona azadlıq bəxş edir. İnsan təqva vasitəsilə öz hədəfinə*

*çatır və düşmənlərinin şərindən xilas olur. Öz arzu və istəklərinə yetişir».*

Zülmətlər içində qərq olan, təbəqələr arasında keşməkeşlərin baş alıb getdiyi, zəiflərin güclülər tərəfindən əzildiyi və hər cür insaniyyətə zidd olan adət-ən`ənələrin hökmranlıq etdiyi bir mühitdə İslam Peyğəmbəri (s.ə.v.v) zühur edib misilsiz şəhadətlə bütün yaramaz qayda-qanunları ləğv etdi. O, bütün fərdlərin hüquq bərabərliyini və azadlığını e`lan etdi. Bu səmavi din indiyədək heç bir sistemin və məktəbin yarada bilmədiyi ən kamil və ən humanist ictimai ədaləti bərqərar edə bildi. İslam hökumətini o vaxtadək mövcud olmuş hökumətlərlə müqayisə etdikdə, onların arasında nəhayətsiz fərqlərin olduğu aydınlaşır.

Əmirəl-mö`minin Əli (ə)-ın xilafəti dövründə ona mə`lumat çatır ki, Bəsrədəki nümayəndəsi Osman ibni Hüneyf şəhərin varlı adamları üçün təşkil edilən böyük bir ziyafətdə iştirak edib. Həzrət Əli (ə) çox narahat olur və öz e`tirazını əks etdirən məktubla Osmanı şiddətlə tənqid edir. İslam bütün dünya məktəblərindən daha artıq irqi və ya hər hansı bir növ ayrı-seçkiliklə qəti mübarizə aparır. Baxmayaraq ki, dünyada bu gün ağ və qara dərili insanlar arasındakı bərabərlikdən çox danışılır, lakin əməli olaraq

ayrı-seçkiliyin nişanələri hələ də göz qabağındadır. Müasir dünyada e҆lan olunan azadlıq, demokratiya, hüquq bərabərliyi şüarlarının arxasında acı həqiqətlər gizlənmişdir.

Fransa inqilabından sonra yayılan insan hüququ bəyannaməsi və ikinci dünya müharibəsindən sonra qüdrətli dövlətlərin ortaya atdığı vicdan azadlığı və bərabərliyi ideyaları müəyyən həddə qədər onları e҆lan edənlər tərəfindən qorunur. Həmin böyük dövlətlərə bə҆zən bu ideyalar sərf etmədikdə, müxtəlif bəhanələrlə onları tapdalayırlar.

«Mədəni» ölkələrdəki bir çox insanlar hələ də irqi və milli fərqlərin bəşərə heç bir üstünlük vermədiyini anlaya bilmirlər. Amma tarix boyu irqi ayrı-seçkilik məsələsi müsəlman cəmiyyətlərində qara dərililər daim başqa müsəlmanlarla eyni hüquqlu tanınıb və onlar digərləri kimi bütün dini, ictimai və siyasi işlərdə fəal iştirak ediblər. İslam Peyğəmbəri (s.ə.v.v) müsəlmanlara nümunə olmaq üçün öz bibisi qızını əvvəllər qul olan Zeyd ibni Harisə ərə vermişdi. Bir gün Rəsuli-Əkrəm (s.ə.v.v) öz məclisində zənci və kasıb, lakin təqva sahibi olan Cuvəybirə riqqətlə baxıb belə buyurdu: «Cuvəybir! Nə yaxşı olardı ki, səninlə həyatına

şərik olan, dünya və axirət işləriində sənə kömək edən bir zövcə seçərdin.»

Cuvəybir belə cavab verdi: Atam-anam sənə fəda olsun! Hansı qadın mənə ərə gəlməyə razı olar. Mənim ki, əsəb-nəsəbim, mal-dövlətim və gözəl görkəmim yoxdur. Peyğəmbər (s.ə.v.v) buyurdu: «Allah cahiliyyət dövründə haqsız ağalıq edənlərin hökmranlığını ləğv etdi və İslamdan qabaq məhrum, biçarə olanları şərəfli mövqeyə çatdırdı. Cahiliyyətin qaranlıq dövründə zəlil olanları izzətli etdi. Qəbiləsi və irqi ilə öyünmə adətini dağıtdı. Bu gün ərəb və əcəm, ağ və qara daxil olmaqla hamı bərabər hüquqa malikdir. İnsanların hamısı Adəmdən (ə) yaranıb. Adəmi də Allah torpaqdan yaradıb. Allahın dərgahında ən sevimli adam Ona ən çox itaət edən və ən təqvalı bəndələrdir.

Ey Cuvəybir! Bu gün mən səndən daha çox təqvaya malik olan və səndən artıq Allaha itaət edən şəxslərdən başqa səndən daha üstün bir şəxs tanımıram. Yubanmadan Ziyad ibni Lubəydin yanına get. O, Bəni-Bəyazə qəbiləsinin böyüklərindəndir. Ona deyərsən ki, məni peyğəmbər göndərib və göstəriş verib ki, qızını mənə ərə verəsən.

Həmin vaxt Ziyad, qəbiləsindən olan bir neçə şəxslə öz evində oturmuşdu. Cuvəybir evə daxil

olub Ziyada və məclisdəkilərə salam verdikdən sonra dedi: Ziyad ibni Lubəyd! Allahın Rəsulu (s.ə.v.v) məni sənin yanına bir sifarişdən ötrü göndərib. Onu adamların yanında deyim, yoxsa təklikdə?

Ziyad dedi: Nəyə görə təklikdə və gizli deməlisən, mən Peyğəmbərin (s.ə.v.v) sifarişini özümə fəxr bilirəm. Elə buradaca söylə görək Həzrət (s) nə buyurub.

Cuvəybir dedi: Peyğəmbər (s.ə.v.v) buyurur ki, sən öz qızını mənə ərə verəsən.

Ziyad cavab verdi: Biz qızlarımızı şan-şöhrətimizlə bərabər olmayan şəxslərə ərə vermirik. Qayıt və mənim üzürxahlığımı Peyğəmbərə (s.ə.v.v) çatdır. Cuvəybir qayıdıb vəziyyəti Həzrətə danışdı. Peyğəmbər (s.ə.v.v) Ziyadın özünü hüzuruna çağırtdırıb ona belə buyurdu:

«Ey Ziyad! Cuvəybir mö᾽min bir kişidir və mö᾽minə bir qadına layiqdir. Müsəlman bir kişinin müsəlman bir qadınla şan-şöhrəti bərabərdir. Öz qızını ona ərə ver!

Ziyad evinə qayıdıb hadisəni qızına danışdı. Qızı dedi: Atacan! Peyğəmbərin (s.ə.v.v) göstərişini və məsləhətini qəbul et və Cuvəybiri kürəkənliyə götür.

Ziyad qızının yanından çölə çıxıb, qəbilə adamlarının qarşısında Cuvəybirin əlini tutdu və e᾽lan etdi ki, qızını ona ərə verir.

Bununla da varlı bir qəbilə başçısının qızı, kasıb və zənci olan, lakin Allaha iman və mə᾽rifətlə bəzənmiş bir şəxsə ərə verildi.

Toy məclisində qonaqların qəbul edilməsinə və qulluğunun təşkilində üç nəfər müxtəlif milliyyətli, lakin təqvalı müsəlmanlardan olan Salman Farsi, Səhib Rumi və Bilal Həbəşi başçılıq edirdilər. Qeys adlı bir ərəb məclisə daxil olduqda bu üç nəfərin yüksək mövqeyini görüb narahat halda dedi: Ovs və Xəzrəc ərəbdəndirlər. Peyğəmbərin (s.ə.v.v) xidmətində fədakarlıq ediblər və heç zaman ondan köməklərini əsirgəməyiblər. Bu üç nəfər əcnəbi kimlərdir? Peyğəmbərə (s.ə.v.v) kömək etməyə onları kim də᾽vət edib? Qeysin sözləri Peyğəmbərə (s.ə.v.v) çatdıqda o həzrət bərk narahat oldu. Camaatı məscidə toplamağı əmr etdi və müsəlmanlar qarşısında belə danışmağa başladı: «Allah birdir. Sizin atanız birdir, dininiz birdir və sizin ərəbliyiniz nə atanız tərəfindən deyil, nə də ananız tərəfindəndir».

Rəsuli-Əkrəm (s.ə.v.v) irqi ayrı-seçkiliyin kökünü kəsmək üçün və müsəlmanlar arasında

bərabərliyi bərqərar etməkdən ötrü çox çalışmışdır.

Bir gün Peyğəmbərin (s.ə.v.v) hüzuruna bir zənci gəlmişdi. Həzrətin yanında olan Əbuzər Qəffari həmin zənciyə «ey qara dərili» deyə müraciət etdikdə, Peyğəmbər (s.ə.v.v) bərk narahat oldu və Əbuzərə öz e҆tirazını bildirdi. Əbuzər bu işdən çox peşiman oldu və səhvinə görə üzr istədi. O, hətta üzünə toz-torpaq sürtərək peşmançılığını boynuna aldı. Bundan sonra Peyğəmbər (s.ə.v.v) onu bağışladı.

Doktor Qustav Lebon belə yazır:

«Müsəlmanlar arasında bərabərlik nəhayət dərəcəsindədir. Həmin bərabərlik ki, Avropada uzun illər müxtəlif təbəqələrin dilində əzbər olub, lakin kitablardan və sənədlərdən kənarda müşahidə olunmur. Amma müsəlmanlar onu əməldə tətbiq etmişlər. Avropada müxtəlif təbəqələr arasında baş vermiş çəkişmələr və inqilablar müsəlmanlar arasında mövcud olmamışdır. Çünki İslam dini şəxsi, sinfi və ailə imtiyazlarını tamamilə ləğv etmişdir və Peyğəmbərin (s.ə.v.v) nəzərində bütün müsəlmanlar qardaş və bərabər hüquqludurlar. Ərəb dünyasında belə bir əzəmətli şəxsiyyət meydana çıxıb, müxtəlif millətləri və qəbilələri «vahid kəlmə» ətrafında birləşdirdi. Bir çinli

müsəlman, İslam cəmiyyətində müsəlman ərəblə eyni hüquqa malikdir. Baxmayaraq ki, müsəlmanlar arasında da ixtilaflar mövcuddur, amma onların bir-birləri ilə xüsusi mə᾽nəvi rabitəsini inkar etmək olmaz. Bu da onları asanlıqla bir bayraq altında toplaya bilər».

Leplau isə belə deyirdi:

«Avropada baş vermiş kasıb və varlı təbəqələr arasındakı çəkişmələr müsəlman cəmiyyətində heç vaxt mövcud olmamışdır. İslam cəmiyyətində varlı və kasıb, qara və ağ bir-birlərilə eyni hüquqlu və qardaş hesab edilirlər. Bunu qətiyyətlə deyə bilərik ki, bir çox şüarları iddia edən Avropa İslam məktəbindən dərs almalıdır».

Geb öz əsərlərindən birində belə yazırdı:

«İndiyədək dünyada heç bir təşkilat və qurum İslam cəmiyyətində olduğu kimi müxtəlif millətlər və irqlər arasında hüquq bərabərliyini tə᾽min edə bilməmişdir».

İslamdakı bərabərlik və qardaşlıq ideyaları həcc mərasimi zamanı daha aydın nəzərə çapır. Kə᾽bə evi bütün müsəlmanları qəribə bir cazibə ilə özünə tərəf çəkir. Burada müxtəlif millətlərdən və irqlərdən olan müsəlmanlar ümumi İslam qanunları əsasında həmin mərasimdə iştirak edirlər. Qara və ağ, qırmızı və sarı dərili müsəlmanlar bir-birinin yanında İslamın

əzəmətini və həqiqi bərabərlik ideyasına sadiqliyini nümayiş etdirərək ibadətlə məşğul olurlar.

Professor Filip Hitti belə deyir:

«İslamda həcc mərasimi uzun illərdir ki, vacibi əməl olmaqla yanaşı, əzəmətli bir dini-ictimai hadisəyə çevrilir və müsəlmanların vəhdətini nümayiş etdirir. Hər bir müsəlmana (imkan olan halda) ömründə bir dəfə Həccə getmək vacibdir. Dünyanın hər yerindən Məkkə və Mədinəyə müsəlmanlar gəlirlər və bir-birilərinə qardaş deyirlər. İslam yeganə dindir ki, irqi və milli ayrı-seçkiliyi tamamilə və əməli olaraq rədd edir. Müsəlmanlar üçün insanları fərqləndirən amil yalnız küfr və iman sayılır».

Təəssüf ki, bu gün dini bağlılıq bə᾽zi İslam ölkələrində irqi və milli təəssüblərin təzyiqinə mə᾽ruz qalır. Bu isə İslamın ruhu və hədəfləri ilə qəti şəkildə ziddir.

İslamın məhkəmə sistemi də öz ədalətinə görə dünyada tayı-bərabəri olmayan bir məhkəmə sistemidir. Hətta İslam tarixinin ən qaranlıq dövrlərində İslam məhkəməsinin misilsiz ədalət nümunələri yaratdığının şahidi oluruq.

Abbasi xəlifəsi Harun ər-Rəşid bir hadisəyə görə məhkəmə qarşısında ifadə verməli oldu. Onun sözlərinin doğruluğunu təsdiq edən isə

vəziri Fəzl ibni Rəbi idi. Qazi həmin şahidliyi qəbul etmədikdə, Harun əsəbləşib dedi: «Nə üçün onun şahidliyini qəbul etmirsən»? Qazi cavab verdi: «Mən eşitmişəm ki, Fəzl özünü sizin qulunuz və köləniz hesab edir. Əgər doğru danışırsa, qulunuzun sizin xeyrinizə ifadəsini qəbul edə bilmərəm. Əgər yalan danışırsa, yalançının şahidliyini qəbul edə bilmərəm».

Abbasi xəlifəsi Mənsur həccə getmək üçün çoxlu dəvə kirayə etmişdi. Həccdən qayıdandan sonra dəvələrin kirayə haqqını verməkdən imtina etdi. Dəvələrin sahibi məhkəməyə müraciət edərək Mənsurun məhkəməyə çağırılmasına nail oldu. Məhkəmə dəvə sahibinin haqqının ödənilməsini Mənsurdan tələb etdi və o da nəhayət pulları ödədi.

Doktor Loben İslam məhkəməsi haqqında belə deyir: «Müsəlmanların məhkəmə sistemi tərtib və intizamına görə çox sadədir. Bir nəfər hakim məhkəmədə bütün iddialara şəxsən baxır və hökm çıxarır. Onun hökmü də qəti olur. İddiaçılar şəxsən məhkəmədə iştirak edirlər və öz nəzərlərini hakimə bildirirlər Hər iki tərəfə qulaq asdıqdan sonra hakim hökm çıxarır.

Mən Mərakeşdə bir məhkəmə prosesində iştirak edirdim. Hakim iddiaçıların sözlərinə bir-bir qulaq asıb, elə oradaca öz qərarını e῾lan etdi.

Məhkəmə başa çatdıqdan sonra oradaca hökm icra olunurdu. Belə sadə və eyni zamanda ədalətli məhkəmənin ən böyük faydası odur ki, Qərbdəki kimi insanların vaxtı və enerjisi uzun-uzadı müzakirələrdə, bürokratik məhkəmə mərhələlərində hədər olmur».

İnsanlar biləndə ki, qanunlar Allah tərəfindən tə᾿yin olunub və hakim də onlarla eyni hüquqlu, tərəfkeşlik etməyən adil bir müsəlmandır, belə şəraitdə cəmiyyətdə məhkəmə sisteminə həqiqi inam yaranır.

Əgər dünya ədalətsizliklərin qarşısını almaq və hər cür ayrı-seçkiliyin mənfi təzahürlərindən yaxa qurtarmaq istəyirsə, onda İslamın ictimai-siyasi qayda- qanunlarına üz tutmalıdır.

İslamın hədəfi cəmiyyəti ali insaniyyət mərtəbəsinə yüksəltməkdir. İslam istəyir ki, müsəlmanların qəlbləri paklaşsın, məhəbbət və qardaşlıq hissləri əsasında onların həmkarlığı və bağlılığı daha da möhkəmlənsin. Allah insanları bir-birlərilə ixtilaflar üzündən öz aralarındakı əlaqələri kəsmək və düşmənçilik etməkdən ötəri yaratmayıb.

***«Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra***

*bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq».*[7]

İslamdakı qardaşlıq məsələsi inkarolunmaz bir gerçəklikdir və onun çox böyük əhəmiyyəti vardır. Müxtəlif millət, irq və siniflərdən olan insanlar bu prinsipə əsaslanaraq öz aralarında həqiqi bağlılıq yarada bilirlər. Baxmayaraq ki, Qərbdən nüfuz etmiş şəxsi mənafe düşkünlüyü və maddiyyat əsiri olmaq bu gün bir çox müsəlman ölkələrinə də sirayət edib, amma bununla yanaşı hələ də çoxlu sayda müsəlman İslamın ilk çağlarında olduğu kimi, öz dini dəyərlərinə olan sədaqətlərini qoruyub saxlaya bilmişlər.

## *İSLAMDA CİHADIN SƏBƏBLƏRİ*

İslamın müşriklər əleyhinə mübarizələri işğalçılıq, müstəmləkəçilik və iqtisadi mənbələrə yiyələnmək kimi maddi səbəblər üzündən deyildi. Bu barədə İslamın baxışları bütün məktəblərlə fərqlidir. İslam bayrağı altında aparılan müharibələrdə daha dərin və böyük hədəflər nəzərdə tutulurdu. Bu din öz zühurunun lap ilk çağlarından zülmkarların hökmranlığı üçün təhlükəyə çevrilmişdi. Buna görə də bütün müxalif qüvvələr birləşib, onun genişlənməsinin

---

[7] Hucurat surəsi, 13 cü ayə.

və qüdrətlənməsinin qarşısını almağa çalışırdılar. Düşmənlər bütün maddi imkalarını işə salıb, hər vasitə ilə ona qarşı mübarizəyə başladılar. İslamı qəbul edənlərlə amansızcasına düşmənçilik edir və imkanları olan kimi onlara işkəncələr verirdilər.

Qüreyş qəbiləsi Peyğəmbərin (s.ə.v.v) ardıcılları ilə əlaqələrini tamamilə kəsdi və üç il müddətində o Həzrət (s.ə.v.v) və müsəlmanlar Məkkənin yaxınlığındakı dağların birində iqtisadi mühasirə şəraitində yaşamağa məcbur oldular. Bu dövrdə müsəlmanlar çox böyük əziyyət çəkmiş və aclıqla üzbəüz qalmışdılar.

İslam Peyğəmbəri (s.ə.v.v) Mədinəyə hicrət etdikdən sonra da müşriklər müsəlmanlara qarşı düşmənçilikdən əl çəkmədilər. Ona görə də Peyğəmbər (s.ə.v.v) hərbi müdafiə tədbirlərinə əl atdı.

Rəsuli-Əkrəmin (s.ə.v.v) qəzvələrinin (müharibələrinin) çoxu müdafiə xarakteri daşıyırdı və bu müharibələr müşriklərin və İslam düşmənlərinin hazırladığı hücumları qabaqlamaq məqsədi güdürdü. Düşmənlər isə daim belə hücum planları hazırlayırdılar. Aşağıdakı ayələrdə ilk dəfə olaraq, cihada icazə verilməsi səbəbləri göstərilirdi:

*«Zülmə məʾruz qaldıqlarına görə vuruşanlara izn verilmişdir. Allah əlbəttə, onlara kömək etməyə qadirdir».*

*«Onlar həmin kəslərdirlər ki, haqsız yerə, yalnız «Rəbbimiz Allahdır» dediklərinə görə yurdlarından çıxarıldılar».*[8]

*«Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun. Lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz».*[9]

İslam beynəlxalq bir din və bütün bəşəriyyətə şamil olan ayin olduğu üçün, onun feyzi yer üzündəki hər bir insana çatmalıdır. O, özünü bir məntəqənin sərhədləri çərçivəsində məhdud edə bilməz. İslam bütün bəşəriyyəti şirkin və ruhi napaklıqların pəncəsindən xilas etmək üçün Allah tərəfindən göndərilən bir dindir. Köhnə və çürümüş əqidələri aradan aparan və yeni nizam-intizam yaratmağa çalışan heç bir ideya mübarizəsiz və müharibəsiz öz məqsədinə çata bilməz. Məgər dünyadakı inqilablar mübarizə və müharibəsiz həyata keçirilmişlərmi?

Fransa, Rusiya, Hindistan inqilabları, Amerikanın istiqlaliyyət uğrunda mübarizəsi yalnız müharibə və qurbanlar hesabına öz hədəflərinə çatmışdır. İslamın hədəfi mürtəce və

---

8 Həcc surəsi 39-40-cı ayələr.

9 Bəqərə surəsi 190-cı ayə.

puç fikirləri, yaramaz adət-ənʾənələri dəyişdirmək olduğu üçün, öz maddi mənafelərini və hökmranlıqlarını qorumağa çalışan təbəqə ilə müsəlmanlar arasında müharibələr qaçılmaz idi. Belə bir dinin yayılması üçün təkcə qələmin və sözün gücündən istifadə etməklə kifayətlənmək olmaz. Bəʾzi cahil insanlar öz əsassız fikirlərinə o qədər bağlı olurlar ki, onlara heç bir məntiqli söz və aşkar dəlillər təʾsir etmir. Beləlėri yalnız zor qarşısında təslim olurlar. İslam Peyğəmbəri (s.ə.v.v) bu gerçəkliyi belə bəyan edir: *«Bəʾzən yaxşılıq və xeyir qılıncın qüdrəti sayəsində bərqərar olur. Xalqın bəʾziləri güc və qüdrət tətbiq edilmədən haqqa boyun əymirlər»*[10]

Əgər müxalif qüvvələr hərbi qüdrətlə ilahi dinin qarşısını alırlarsa və haqqı əzmək istəyirlərsə, hərbi yolla onların qarşısına çıxmaqdan başqa yol varmı?

Belə bir şəraitdə İslam silahlı mübarizəyə başladı və əslində bu bəşəriyyətə azadlıq bəxş etmək uğrunda aparılan müharibə idi. Bu müharibələr şirkə, zülmə və ədalətsizliyə qarşı aparılırdı. Allahın adı ilə aparılan həmin müharibələr dünya tarixindəki maddi maraqlar və işğalçı müharibələrdən əsaslı surətdə fərqlənirdi. İslam insani dəyərləri sabit etmək

---

[10] Vəsail, «Kitabe Cihad» 1-ci bab.

üçün bəşəriyyətə ədalət, izzət və başıucalıq bəxş etməkdən ötrü vuruşurdu. O, xalqın ümumi mənafeyini düşünür, fəsada səbəb olan amilləri dağıtmaq məqsədi ilə müharibə aparırdı. İslamın ilk çağlarında müsəlmanlar təkcə dini qəbul etdiklərinə görə şiddətli işgəncələrə və təzyiqlərə məʾruz qalırdılar. Amma, onlar bütün bunlara mətanətlə dözdülər və nəhayətdə qalib gəldilər.

***«[Ey müsəlmanlar!] Siz nə üçün Allah yolunda və «Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən [Məkkədən] kənarə çıxart, bizə Öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!»- deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?»***[11]

Bir çoxlarının nəzərində müharibə, adamları qırmaq, düşmənləri məhv etmək və rəhimsizlik deməkdir. Amma İslamın müharibə haqqındakı baxışları tam fərqlidir. İslam deyir: Müharibə zülmkarlarla, fəsad və pozğunluqlarla mübarizə deməkdir. Zülmün və təcavüzün kökünü kəsmək, haqqı dirçəltmək və ədaləti bərpa etmək deməkdir. İslamın əsas dəʾvəti xalqı Allahdan başqa hansısa bir varlığa və kiməsə pərəstiş etməkdən çəkindirməkdir. İslam istəyir ki, Allah qanunlarından başqa heç nə insanlara hökumət etməsin. Çünki daşlara, ağaclara, şüursuz əşyalara,

[11] Nisa surəsi 75-ci ayə.

pula, var-dövlətə pərəstiş etmək doğrudan da ən böyük rəzalətdir. Müsəlmanların döyüşdən qabaq düşməni İslama də᾿vət etmələri onların ali hədəf və məqsədlərindən xəbər verirdi. İslam qoşunu iranlılarla üzbəüz dayandığı vaxt, İran qoşununun sərkərdəsi Rüstəm müsəlmanların sərkərdəsi S᾿əd ibni Vəqqasdan bir nəfər nümayəndə tələb etdi ki, İslami cihadın hədəfini onlara açıqlasın. Həmin nümayəndə iranlılar üçün cihadın nə olduğunu belə bəyan etdi: «Biz gəlmişik ki, Allahın bəndələrini batil mə᾿budlara pərəstiş etməkdən çəkindirək. Onları tək olan Allaha ibadət etməyə və onun Peyğəmbərinin (s.ə.v.v) risalətinə tabe olmağa çağıraq. Biz gəlmişik ki, Allah bəndələrinə şirkin zülmündən nicat verək və sizi qiyamət gününə inanmağa də᾿vət edək. Biz sizi dünyanın məhdudiyyətlərindən və sıxıntılarından azad etmək üçün gəlmişik. İstəyirik ki, batil ayinlərin və zülmün yerinə haqq və ədalət bərqərar olsun».

Üç gün ərzində İslam qoşununun nümayəndələri Rüstəmlə müzakirə apardılar və onların hamısının sözü də eyni idi. Həmin nümayəndələr sözlərinin axırında belə deyirdilər: «Əgər bizim də᾿vətimizi qəbul etsəniz, elə buradan da geri qayıdırıq. Bu siz, bu da ölkəniz!»

Rəsuli-Əkrəm (s.ə.v.v) həzrət Əliyə (ə) belə buyurub: *«İslama də᾽vət etməmişdən qabaq heç kəslə vuruşa başlama. Allaha and olsun, əgər bir nəfər sənin vasitənlə hidayət olsa, bu sənin üçün, günəşin işığı üzərinə düşən hər bir şeyin sənin malın olmasından daha xeyirlidir».*

Müsəlmanlar üçün cihad ibadət və öz dini vəzifələrinə əməl etmək demək idi. Onlar inanırdılar ki Allahın haqqını bütün dünyaya çatdıra bilsələr, insanlar arasında bərabərlik, ədalət və qardaşlıq bərqərar olacaq.

***«Həqiqətən Allah onun yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər».***[12]

Mücahidlərin bə᾽zisi cahiliyyət adətləri üzrə maddi qənimətlərə göz dikdikdə, başqa müsəlmanlar tərəfindən şiddətlə məzəmmət olunurdular.

***«Siz puç dünya malını istəyirsiniz. Allah isə sizin axirəti qazanmağınızı istəyir».***[13]

İslam müharibə qayda-qanunlarında insani-əxlaqi səciyyələr kamil surətdə riayət olunurdu. Bu qaydaların ədalət və humanistliyi indi də heç bir «mədəni» ölkələrin qanunlarında gözə dəymir. İslam, adamların canının qorunması üçün və günahsızların öldürülməsinin qarşısını almaqdan,

---

[12] Əs-Səff surəsi, 4-cü ayə.

[13] Ənfal surəsi, 67-ci ayə.

habelə nahaqq qan tökülməməkdən ötrü qəti tədbirlərə əl atırdı.

İslamda düşmənçilikdən əl çəkmək və sülh e᾽lan etmək düşmənin təslim olmasından asılı deyil. Düşmən tərəfdən təhlükə olmadıqda da belə şərait yarana bilər. Əgər düşmən müsəlmanlara qarşı təcavüzkar hərəkətlərdən əl çəksə və onlara qarşı fitnə-fəsad törətməsə sülh yaratmağa icazə verilir. Müharibə vaxtı mücahidlərdən biri hansısa düşmən əsgərinə aman versə və onunla bu barədə əhd-peyman bağlasa, hətta İslamın ən yüksək vəzifəli qanun icraçısı da həmin əhdi ləğv edə bilməz.

Müharibədə dağıdıcı hərəkətlə əkinlərə ziyan yetirmək, su və ərzaq yollarını bağlamaq, düşmən əmlakını yandırmaq, uşaqlara, qocalara, qadınlara və xəstələrə əl qaldırmaq qəti qadağandır. Düşmən səfirləri və danışıqlardakı nümayəndələri də toxunulmazlıq hüququna malik olurlar.

Paris universitetinin professoru Məhəmməd Həmdullah belə deyirdi:

«Məhəmməd (s.ə.v.v) bir milyon kvadrat mildən artıq ərazidə hökumət edirdi. Bu bütün Avropa boyda böyük bir ərazi deməkdir. Burada milyonlarla insan yaşayırdı. Həmin ərazilər fəth edilən zaman döyüş meydanlarında

müsəlmanlara müxalif olanlardan cəmi 150 nəfər öldürülmüşdü. Müsəlmanlar 10 il ərzində ildə bir şəhid vermişdilər. Bütün bunlar İslamın insan həyatına və canına necə böyük qiymət verdiyini açıq şəkildə göstərir».

Bu həqiqəti daha da aydınlaşdıran faktları nəzərinizə çatdırırıq:

Rəsuli-Əkrəm (s.ə.v.v) haqq uğrunda müharibəyə gedən döyüşçülərinə belə tapşırıq verərdi: ***«Gedin! Allahın adı ilə, Allahın yolunda, Allahın köməyi və Onun elçisinin üsuli ilə vuruşun! Xəyanət və məkr etməyin! Heç kəsin bədən üzvlərini kəsməyin. Qocaları, qadınları və uşaqları öldürməyin. Zərurət olmadan və əlacsızlıqdan başqa bir ağacı belə kəsməyin. Sizin hər birinizə pənah aparan şəxslərə toxunmayın. Belələri əgər sizə qoşulsalar qardaşınız hesab olunur. Əgər qoşulmasalar, onlara pənah verin. Hər bir vəziyyətdə Allahdan kömək diləyin!»***

Müaviyənin qoşunu ilə döyüşdən qabaq həzrət Əli (ə) belə bir göstəriş verdi:

*«Düşmən döyüş meydanından qaçdıqda onu tə᾽qib etməyin və qaçanları öldürməyin. Özlərini müdafiə edə bilməyənləri və ya meydanda yaralı vəziyyətdə qalanları incitməyin. Qadınlara toxunmayın və onları narahat etməyin».*

Müharibə vaxtı mümkündür ki, düşmən elə əməllərə əl atsın ki, müsəlmanlarda onun intiqamını almaq hissləri oyansın. Belə həssas məqamlarda da gərək müsəlmanlar öz əsil hədəflərini unutmasınlar, hiss və həyəcanlarına qalib gəlməyi bacarsınlar. Bu əhvalatı yəqin ki, çoxunuz eşitmisiniz: Döyüşlərin birində Həzrət Əli (ə) düşməninə zərbə endirib, onu yerə sərdi. Sonra sinəsinin üstündə oturub kafirin başını kəsmək istədikdə, düşmən öz ağzının suyunu o Həzrətin (ə) mübarək üzünə atdı. Əmirəl-mö᾽minin (ə) tez ayağa qalxdı. Bunun səbəbini ondan soruşduqda Həzrət (ə) belə buyurmuşdu: «Düşmənin bu hərəkəti məni bərk qəzəbləndirdi. Əgər həmin vaxt onu öldürsəydim, bu işi şəxsi intiqam hissi ilə görmüş olardım. İstəmədim ki, şəxsi intiqamımı ondan alım və pak niyyətlərimi belə dəyərsiz hisslərə qurban edim».

İslam dini heç bir şəraitdə ədalətsizliyə yol vermir. Allah yolunda ədalətli müharibə aparanların ədalət sərhədlərini keçməyə və təcavüzkarlıq etməyə haqları yoxdur. Bu barədə Qur᾽an belə deyir:

***«Sizə qarşı həddi aşanlara siz də həmin ölçüdə cavab verin. Allahdan qorxun və bilin ki, Allah təqvalılarladır».***[14]

---

[14] Bəqərə surəsi 194-cü ayə.

***«Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir şəxsə qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu təqvaya daha yaxındır».***[15]

***«Sizi Məscidul-harama daxil olmağa qoymayan camaata qarşı bəslədiyiniz kinin təˈsiri ilə təcavüzə sövq etməyin»***[16]

İslam dini bütün dünyada ədaləti bərqərar etmək üçün gəlib. Ona görə də hətta bir dəstə müsəlman ədalət və haqq yolundan çıxıb təcavüzkarlıq etsələr, onlarla axıra qədər vuruşmaq əmr edilir.

***«Əgər möˈminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə qayıdana qədər vuruşun. Təcavüzkarlıq edən [Allahın itaətinə] qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Həqiqətən, Allah insaflıları sevər».***[17]

İslam müxalif tərəflər arasında ədalətli və insaflı sülh yaratmağa təˈkid edir. Əgər bir dəstə bu şəraitdə güzəştə gedərsə, belə alicənablığı çox yüksək qiymətləndirir. Amma belə güzəştlərdən

---

[15] Maidə surəsi 8-ci ayə.

[16] Maidə surəsi 2-ci ayə.

[17] Hucurat surəsi 9-cu ayə.

qarşı tərəf sui-istifadə etsə və ya müxaliflərinin ondan qorxaraq bu cür addım atmaqlarını xəyal etsə, belələri ilə sülh yaratmaq məsləhət görülmür. Çünki, İslam təcavüzkarlığın və insafsızlığın, hətta əsər-ələmətini belə aradan qaldırmağı tövsiyə edir.

Müsəlmanlar qədəm qoyduqları hər yerdə məğlub etdikləri millətlərlə çox alicənablıqla və insafla rəftar edirdilər. Bu da yerli xalqlar tərəfindən lazımınca qiymətləndirilir, onların islama qarşı rəğbəti artırdı. Homs xalqı öz şəhərlərinin darvazalarını Rum hökmdarı Heraklın üzünə bağladı. Amma onlar müsəlmanlara məktub göndərib, rumluların zülmündən ədalətli və insaflı müsəlmanlara pənah apardıqlarını bildirdilər.

Əbu Ubeydənin başçılığı altında olan İslam ordusu İordaniyaya çatdıqda, oranın xaçpərəstləri müsəlmanlara aşağıdakı məzmunda məktub göndərdilər:

«Ey müsəlmanlar! Biz sizi rumlulardan daha artıq istəyirik. Baxmayaraq ki, onlar bizimlə eyni dindədirlər. Biz sizin vəfadarlığınızı, ədalətinizi və mehribanlığınızı tanıyırıq. Rumlular isə ölkəmizi işğal edərək, hətta mənzillərimizi də tar-mar etmişdilər».

Tanınmış şərqşünas Filip Hitti müsəlmanların İspaniyanı tutması haqqında belə deyir: «İslam ordusu hara qədəm qoyurdusa, xalq onları duz-çörəklə qarşılayırdı. Onlara su və ərzaq verirdilər. Bunun da əsas səbəbi müsəlmanların İspaniyaya gəlişindən qabaq, oradakı hakimlərin xalqa etdiyi zülmlər idi».

Müsəlmanlar tutduqları ərazilərin əhalisini öz əvvəlki dinlərindən əl çəkməyə zorla vadar etmirdilər.

İslamın ictimai quruluşu əqidə azadlıqlarını kamil surətdə tə᾿min edir. Başqa dinlərin zorla aradan götürülməsi və İslamı güclə başqalarına qəbul etdirmək dinimizdə qeyri-məqbul sayılır. Qeyri-müsəlmanlarla əlaqələr isə İslami qanunlar əsasında tənzim edilir. Müsəlmanlardan yığılan zəkatın həm vergi, həm də ibadət xüsusiyyətləri var. Amma qeyri-müsəlmanlar zəkat ödəməkdən azaddırlar. Onlar zəkat yerinə «cizyə» adlanan başqa bir vergi ödəyirlər. İbadət xarakteri daşımadığından, qeyri-müsəlmanlar burada da heç bir dini məcburiyyətə mə᾿ruz qalmırlar. «Cizyəni» ödəməklə isə onlar, İslam hökumətinin himayəsinə arxalana bilərlər və dövlətin bütün fərdlər üçün müəyyən etdiyi imtiyazlardan istifadə etmək hüququ qazanırlar. İslam öz qanunlarında təkcə müsəlmanların deyil, eləcə də

başqa din və məzhəbdən olanların hüquqlarının tam qorunmasını tə᾽min edir. Cinayət, ticarət və mədəni sahələrdə qeyri-müsəlmanların və dini azlıqların öz dini əqidələrinə görə ayrı-seçkiliyə mə᾽ruz qalmaları İslami cəmiyyətdə müşahidə olunmayan məsələlərdəndir. Qur᾽an, müsəlmanların başqa dinlərdən olanlarla rabitələrinin necəliyini dəqiqliklə göstərir. Əgər qeyri-müsəlmanlar İslama qarşı gizli və ya açıq düşmənçilik hərəkətlərinə yol vermirlərsə, onlarla mehribancasına davranmaq müsəlmanların borcudur.

***«Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər».***[18]

***«Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır».***[19]

Hələ Peyğəmbər (s.ə.v.v) dünyadan köçməzdən qabaq İslam hökumətinin nüfuz dairəsində yaşayan məsihilər və yəhudilər müsəlmanlarla qarşılıqlı əhdnamələr bağlayıb, Mədinə və onun ətrafında tam əmin-amanlıqda

[18] Mumtəhinə surəsi 8-ci ayə.
[19] Mumtəhinə surəsi 9-cu ayə.

həyat sürürdülər. Əhdlərini pozub, müsəlmanlara qarşı gizli və açıq şəkildə düşmənçilik etməyənə qədər oradakı yəhudi qəbilələri heç bir təzyiq görməmişdilər. Peyğəmbərin (s.ə.v.v) vəfatından sonra da qeyri-müsəlmanlar öz ölkələrində müsəlmanlarla sülh şəraitində rahatcasına yaşayırdılar. İslam Peyğəmbəri (s.ə.v.v) buyurub:

*«Hər kəs zimmiyə (İslamın pənahında yaşayan qeyri-müsəlmanlar) əziyyət versə, mənə əziyyət vermişdir»!*

Həzrət (s.ə.v.v) digər hədisdə isə belə buyurub:

*«Agah olun! Bizimlə həmpeyman olan qeyri-müsəlmana zülm edən və ya onun bacarmadığı şeyi ondan tələb edən və ya onun malını icazəsiz olaraq işlədən şəxslə qiyamət günü ehticac edəcəyəm (hesab çəkəcəyəm).»*

Həzrət Əmirəl-mö᾿minin Əli (ə) xilafət etdiyi dövrdə bir qoca, zəif və kor bir kişini müşahidə edir. Onun vəziyyəti haqqında yanındakılardan soruşduqda, ona belə cavab verirlər: «Bu qoca xaçpərəstdir, cavanlıqda qüdrətli adam olub və dövlət xidmətində işləyib». Həzrət buyurdu: «Cavanlıqda ondan istifadə edibsiniz, qocalıqda isə haqqından məhrum edirsiniz». Sonra göstəriş verdi ki, Beytül-maldan onu maaşla tə᾿min etsinlər.

Neapol universitetinin professoru Doktor Laura Vagliyeri belə deyir:

«İslam hökuməti məğlub etdiyi millətlərin hüququnu, təqribən müsəlmanların hüququ kimi qoruyurdu. Müsəlmanlar qələbə və fəthlərinin ən qızğın vaxtında da düşmənlərinə döyüşdən qabaq belə deyirdilər: Bizimlə döyüşməkdən əl çəkin və orta səviyyəli bir vergi verin. Onda bizim malik olduğumuz hüquqlardan siz də eyni şəkildə istifadə edəcəksiniz.

Əgər İslam Peyğəmbərinin (s.ə.v.v) sözlərinə və əməllərinə, habelə müsəlmanların fəthlərinə diqqətlə baxsaq, aydın şəkildə görərik ki, İslamın zor və qılınc gücünə yayılması haqqındakı iddialar tamamilə boş və yalan sözlərdir. Qur᾿an isə belə buyurur:

**«Dində zorakılıq yoxdur».**

İslam tarixində müsəlmanların qeyri-müsəlmanlarla müsbət davranışları haqda kifayət qədər danılmaz faktlar vardır. İslam Peyğəmbəri (s.ə.v.v) şəxsən özü Nəcran məsihilərinə zəmanət vermişdi ki, onların mə᾿bədlərinə heç kəs toxunmayacaq. Həmçinin, Peyğəmbər (s.ə.v.v) Yəmənə e᾿zam olunmuş qoşun başçısına oradakı yəhudilərə toxunmamaq əmrini vermişdi. İslam hökumətinin yəhudi və məsihilərin dini ibadət və mərasimlərinə heç vaxt mane olmaması da

hamıya yaxşı mə᾽lumdur. İslam hökumətinin pənahında olan qeyri-müsəlmanların ödədiyi «cizyə» vergisi, hətta müsəlmanların özlərinin ödədiyi verginin məbləğindən çox aşağı idi. Tanınmış şərqşünaslardan biri yazır:

«İslam ölkələrində məsihi və yəhudilər çox azad şəkildə yaşayırdılar. Onlar öz kilsə və mə᾽bədlərində rahatcasına ibadət edir və dini mərasimlərini keçirirdilər. Bu azadlıq elə bir şəkildə idi ki, guya həmin məsihi və yəhudilər İslam ölkəsində deyil, öz ölkələrində yaşayırdılar. Belə sülh şəraitində asudə birgə yaşayışı orta əsrlər Avropasında heç cür təsəvvür etmək olmazdı».

Başqa bir məsihi şərqşünas isə belə yazır:

«İslam mütləq ədaləti təkcə müsəlmanlar üçün deyil, həm də onun pənahında yaşayan qeyri-müsəlmanlar üçün də bərqərar etmişdi».

Fransalı alim Doktor Qustav Loben belə deyir: «Müsəlmanlar uzun bir müddət ərzində Əndəlosu elmi və iqtisadi cəhətdən yüksək səviyyəyə çatdırmışdılar. Onu Avropanın tacına çevirmişdilər. Müsəlmanlar həm də xaçpərəstlərə yüksək əxlaqi dəyərlərə yiyələnməyi öyrədirdilər. Bu sülh və birgə yaşayışın ən gözəl nümunəsi idi. Müsəlmanlar xristianlara öz dini mərasimlərini keçirmək icazəsi də vermişdilər. İslam hökuməti

dövründə Əndəlosda hətta yeni kilsələr də tikilmişdi. Xristianların çoxu heç bir təzyiq olmadan İslamı qəbul etmişdi. Yəhudi və xaçpərəstlər müsəlmanlarla bərabər hüquqlu sayılırdı və onların bə᾽ziləri hətta dövlət işlərində də çalışırdılar».

Biz burada müsəlmanların məsihilərlə belə xoş davranışını, xristianların səlib yürüşləri zamanı müsəlmanlara qarşı törətdikləri vəhşiliklərlə müqayisə edib nəticə çıxara bilərik. Beytül-müqəddəsi tutan səlibçilər minlərlə günahsız adamın, o cümlədən qocaları, uşaqları və qadınları qılıncdan keçirmişdilər. Şəhərin küçələri və meydanlarında kəsilmiş insan bədəni üzvlərindən təpələr ucalmışdı. Ömər məscidinə sığınmış 10 min müsəlman səlibçilər tərəfindən tamamilə qətlə yetirildi. Süleyman mə᾽bədində öldürülmüş adamların qanı o qədər çox idi ki, atların dizinə çatırdı. Küçələrdə insan qanı su yerinə axırdı.

Avropalı yazıçı Klark deyir:

«Qəti şəkildə deyə bilərik ki, dünya səlibçilər qədər şər, həyasızlıq, əxlaqsızlıq və vəhşilik törədən ikinci bir qoşun görməyib. Özü də bütün bu qeyri-insani hərəkətlər müqəddəs müharibə adı altında həyata keçirilib. Müsəlmanların vəhşicəsinə qətlləri «günahların» bağışlanması

üçün şərt hesab edilib! Səlibçilərin Fələstində 88 illik hökmranlığından sonra müsəlmanlar onlarla müharibəyə başladılar. Avropa ixtiyarında olan bütün qüvvələri Beytül-müqəddəsin işğalını qorumaq üçün Fələstinə göndərdi. Amma bunların heç bir faydası olmadı. Səlahəddin Əyyubinin başçılığı ilə müsəlmanlar Beytül - müqəddəsi səlibçilərin işğalından azad etdilər. Səlibçilər Avropaya qayıtmağa məcbur oldular. Bu hadisə 1187-ci ilin oktyabrında baş vermişdi. Beytül-müqəddəsi tutduqdan sonra Səlahəddin Əyyubi əmr verdi ki, səlibçilərin müsəlmanlara qarşı törətdikləri cinayətlərin əvəzi çıxarılmasın və oradakı xristianları əfv etdi! Bu İslam tarixinin ən iftixarlı səhifələrindən biridir. Həmin döyüşlərdə İslam ordusu güclü bir ruhun tə`siri altında idi və müsəlmanların rəftarı hər cür rəhimsizlikdən uzaq olmuşdur.

Səlahəddin e`lan etdi ki, bütün şəhər əhlinə aman verilir. Kişilər 10 dinar, qadınlar 5, uşaqlar isə 2 dinar ödəmək şərtilə bütün var-dövlətlərini götürüb istədikləri yerə gedə bilərlər. Bu vaxt şəhərin baş keşişi saysız-hesabsız var-dövlətlə birgə Beytül-müqəddəsi tərk etmək istəyirdi. Səlahəddinin yaxın adamları ona təklif etdilər ki, bu mal-dövləti müsadirə edib, müsəlmanlar arasında bölüşdürsün. Səlahəddin isə belə cavab

verdi: «Bu cür xəyanəti edə bilmərəm. Tə᾽yin olunmuş 10 dinarı ödəyib, istədiyi yerə gedə bilər». Tanınmış tarixçi Corc Zeydan belə yazır: «Məsihilər Əndəlosu tutduqdan sonra müsəlmanları yəhudilər kimi xüsusi nişanlar taxmağa məcbur etdilər ki, bununla onları tanıya bilsinlər. Onlara ölümü və ya xristianlığı qəbul etməyi seçmək təklif edilirdi». Məsihilərin Əndəlosdakı vəhşilikləri səlibçilərin şərqdə törətdikləri cinayətlərdən heç də az olmayıb. Müsəlmanların İspaniyadakı elə böyük xidmətlərindən sonra, xristian rəhbərləri onların **qətlinə** fərman verdilər. Burada da nə qocalara, nə qadınlara nə də uşaqlara aman verilmirdi. Papa ikinci Filip müsəlmanların İspaniyadan qovulması haqqında göstəriş verdi. Amma ölkəni tərk etməmiş onların hər 4 nəfərindən üçü kilsənin əmri ilə öldürülürdü. Sağ qalanlar isə sonradan «təftiş məhkəməsinin» göstərişi ilə e᾽dam edilirdilər! Həmin müddətdə üç milyona yaxın müsəlman qətlə yetirilmişdi!! Halbuki, müsəlmanlar illərlə İspaniyada hakimiyyət sürdükləri vaxt heç kəs onlardan zülm görməmişdi.

Daha sonra məsihilər müsəlman məscidlərini kilsələrə çevirdilər, onların qəbristanlıqlarını

dağıtdılar. Müsəlmanların hamamlarını da söküb, yuyunmağı onlara qadağan etdilər!

Dördüncü Henrinin dövründə xristian «cəngavərləri» müsəlmanlar yaşayan Dulan qəsəbəsinə hücum edib, oranın dörd minə yaxın əhalisini əlləri ilə boğub öldürmüşdülər!

Tarix boyu xristianların «sülh məramlı çağırışları» bu şəkildə həyata keçirilib.

Müstəmləkəçilik dövründə də məsihilərin buna oxşar «qəhrəmanlıqları» çox müşahidə edilmişdir. İndinin özündə isə sülh və demokratiya bəhanəsi böyük dövlətlərin əlində müsəlmanların köksünə taxılmağa hazırlanan paslanmayan bir xəncərdir. Görəsən bu «sülh» tərəfdarları öz ixtilaf və problemlərini müharibəni kənara qoyaraq, yalnız diplomatik yollardan istifadə etməklə həll edirlərmi?

İslam dini sülhsevərliyi insanların batinində bərqərar etmək istəyir. Əgər insanlar daxilən sülh tərəfdarı olmasalar, zahirdə e᾿lan olunan sülhün heç bir faydası olmaz. Bəşər öz mə᾿nəvi keyfiyyətlərinə görə yüksək səviyyəyə çatmazsa, sülh müqavilələri və əhdnamələrə əməl etmək iman və Allah qanunlarına əsasən olmazsa, həmin müqavilələr gec-tez pozulacaq və sülhsevərlik yalnız şüar olaraq qalacaq.

Əgər insanların daxilində vicdani hisslər baş qaldırsa, qəlblərinə mərhəmət nuru hopsa, onlar çəkişmələrin əsl səbəblərini anlayar və bu halda bütün ədalətsizliklər və keşməkeşlər tədricən zəifləyər və nəhayət tamamilə aradan gedər. Onda həqiqi sülh bəşər cəmiyyətində bərqərar olar.

İndi də sülhün İslam və «mədəni cəmiyyət»lər nəzərindən necə bir anlayış olduğunu araşdıraq. İslamın irəli sürdüyü sülh proqramı böyük dövlətlərin qəbul etdiyi sülhlə əsaslı şəkildə fərqlənir. Böyük dövlətlərin nəzərincə sülh kiçik dövlətlərin təbii sərvətlərini öz aralarında bölüşdürmək üçün yaradılan şərait deməkdir. Belə sülhlə onlar dünyanın bütün məntəqələrində öz nüfuzlarını daha rahat yaya bilirlər. Onların təşkil etdikləri sülh konfransları və məclisləri zahirdə bu ideyadan bol-bol danışmaq, əslində isə öz məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaratmaqdan ötrü olan başqa bir şey deyil. Amma İslam dini dünyanın müxtəlif millətlərinin hüquq bərabərliyinə əsaslanan sülh istəyir. Heç bir ayrı-seçkilik olmadan, dövlətləri «böyük» və «kiçik»liyə bölmədən, zəiflər və qüdrətlilər üçün eyni olan, hər cür təcavüz və zoru rədd edən həqiqi sülhün bərqərar olunması İslamın ən ali hədəflərindəndir.

BMT bütün dünyada sülh və əmin-amanlığın tə᾽min olunması, ixtilafların aradan qaldırılması və müharibəyə yol verilməməsi üçün çoxlu səy᾽lər edir. Amma beynəlxalq aləmdə böyük dövlətlər münaqişələri «həll etmək» üçün heç BMT-yə məhəl qoymur və istədikləri kimi hərbi gücə əl atırlar. Hansı ölkəyə hərbi müdaxilə etmək istədikdə onları dünya ictimaiyyətinin nəzəri zərrə qədər də olsa, maraqlandırmır.

İslam insanların səadət və xoşbəxtliyi üçün təkcə sülhü kifayət bilmir. Fikir azadlığı, əxlaqi və mə᾽nəvi dəyərlər ilahi qanunlar çərçivəsində bəşər cəmiyyətinə hakim olmasa, insanlar heç vaxt həqiqi asayiş əldə edə bilməzlər. Bu səbəbdən də İslam dini zorla başqalarına əqidə qəbul etdirmək və dinə qarşı ikrah oyatmağı qadağan edir. İdeologiya yalnız könüllü olaraq qəbul edilir.

***«Dində məcburiyyət yoxdur. Artıq doğruluq azğınlıqdan aydın fərqlənir».***[20]

***«Rəbbinizdən sizə aşkar dəlillər gəlmişdir. Kim onları görsə lehinə, kim görməsə əleyhinədir. Mən sizə nəzarətçi deyiləm».***[21]

---

[20] Bəqərə surəsi 256-cı ayə.
[21] Ə᾽nam surəsi 104-cü ayə.

*«[Ya Peyğəmbər!] Mənim bəndələrimə öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən».*[22]

*«Sən onların üzərində hakim deyilsən».*[23]

İslam əqidə azadlığının tərəfdarıdır və zorla dinin qəbul etdirilməsinə qarşı çıxır. Əqidə və iman isə insanın qəlbi ilə bağlıdır. İnsanın batini meylləri olmasa, o, heç bir əqidəni qəbul etməz. Xalqın fikir və əqidələrinin formalaşmasında müxtəlif amillərin tə᾽siri olur. Onları düzgün istiqamətləndirmək üçün məntiqi dəlillər və düzgün tə᾽lim-tərbiyə lazımdır.

Müsəlmanlar hansısa bir məntəqəni hərbi qüvvə ilə tutduqda, oranın əhalisi üçün tam fikir azadlığı olan bir mühit yaradırdılar. İnsanların çoxu azadlıq şəraitində asanlıqla özləri İslamı qəbul edirdilər. İslam insanların zor gücünə müsəlman olmalarını heç vaxt istəməyib.

İslam Peyğəmbərinin (s.ə.v.v) Qüreyş müşrikləri ilə bağladığı «Hüdeybiyyə sülhü» Ərəbistanda ümumi sülh və ictimai təhlükəsizliyi bərqərar etməkdən ötrü idi. Bu müqavilənin maddələri İslamın ruhunu özündə əks etdirir və bədxahların iradlarına lazımi cavab verir. Onun maddələrindən biri belə idi: «Öz böyüyündən icazəsiz İslamı qəbul edən və Məkkədən qaçıb

---

[22] Ğaşiyə surəsi 21-ci ayə.
[23] Ğaşiyə surəsi 22-ci ayə.

müsəlmanlara birləşən hər bir qüreyşlini İslam Peyğəmbəri (s.ə.v.v) geri qaytarmalıdır. Amma əgər müsəlmanlardan bir nəfər Qüreyşə tərəf qaçsa o, geri qaytarılmayacaq».

Bə᾽zi müsəlmanlar bu maddədən bərk narahat olub, Peyğəmbərə (s.ə.v.v) dedilər: «Niyə Qüreyşdən qaçanları biz onlara təhvil verməliyik, amma bizdən qaçanları onlar bizə təhvil verməməlidirlər?»

Peyğəmbər (s.ə.v.v) belə buyurdu:

*«Hər hansı bir müsəlmanın İslam bayrağı altından qaçıb, şirkə və başərə zidd ayinə tərəf getməsi, bütpərəstlik mühitini sağlam İslam mühitindən və Tovhid ayinindən üstün tutması, həmin adamın İslamı yalnız zahirdə qəbul etməsinə dəlalət edir. Belə müsəlman bizə lazım deyil. Biz Qüreyşdən qaçmışları onlara təhvil verdikdə, yəqin bilirik ki, Allah həmin adamların nicat və azadlıq yollarını açacaq».*

Peyğəmbərin (s.ə.v.v) sözlərinə uyğun olaraq, Allah belə adamların nicat yolunu doğrudan da açdı. Çünki, bir sıra hadisələrdən sonra Qüreyş başçıları bu müqaviləni ləğv etdi və İslama pənah gətirənlərin müşriklərə təhvil verilməsi zərurəti aradan qalxdı.

Dünyanın müxtəlif nöqtələrində müharibələrin və hərbi münaqişələrin baş verməsi «mədəni

cəmiyyət»lərin insani dəyərlərə əsaslanan sülhü tə᾿min etməkdə acizliyini göstərir.

İslamın müharibə və sülh barəsindəki nəzərlərinə görə, müasir dünyada baş vermiş bütün müharibələr ədalətsiz və maddi mənafelər uğrunda aparılan, bəşəriyyətə zidd olan toqquşmalardır.

Şübhəsiz ki, mə᾿nəvi dəyərlər, başqalarının hüquqlarına hörmət və haqq qarşısında təslim olmaq ictimai fikirlərə hakim olmayınca, dünya sülh və asayiş əldə edə bilməz. Əxlaqi və insani dəyərlərin tapdalandığı müasir dünyada hazırkı vəziyyətdən başqa bir şey gözləmək çətindir.

Müasir texnologiyalar inkişaf etdikcə, «mədəni cəmmiyyət»lər sülhü və təhlükəsizliyi tə᾿min etmək bəhanəsilə yeni-yeni qorxulu silahlar hazırlayır. Bəşəriyyət qarşısında iki yol var: Belə silahlanmaların axırı ya dünyanı darmadağın edə biləcək müharibə ilə nəticələnəcək, ya da xalis imana əsaslanan, əxlaqi və insani dəyərlərdən qaynaqlanan yaşayış üsulları ilə bəşəriyyət həqiqi səadətə çatacaq. Biz inanırıq ki, bir gün bəşəriyyət bu yolu seçəcək. Həmin yol böyük İslam Peyğəmbərinin (s.ə.v.v) yoludur. İslam qaydalarından başqa bəşəriyyətə nicat verə biləcək ikinci bir yol yoxdur. Necə ki, L.Tolstoy deyirdi: «Məhəmmədin (s.ə.v.v) şəriəti əql və

hikmətə müvafiq olduğu üçün, gələcəkdə bütün dünyaya hakim olacaq».

## *İSLAM NÖQTEYİ-NƏZƏRİNDƏN AİLƏNİN MÖVQEYİ*

İnsan orqanizmi müxtəlif hissələrdən təşkil olunduğu və onların arasında təbii rabitə mövcud olduğu kimi, cəmiyyət də ailələr adlanan kiçik vahidlərdən təşkil olunub. Ailənin bütün üzvləri arasında qarşılıqlı anlaşma, səmimiyyət və mehribanlıq hakim olsa və bütün üzvlər bir-birləri ilə zəncir kimi sarsılmaz əlaqə yarada bilsələr, habelə onların arasında birlik və xüsusi bağlılıq mövcud olarsa, orada düzgün və kamil bir təşkilat meydana gələr. Nəticədə, sağlam və güclü özülə malik, səadətə çatmaq üçün üzvlərinin bütün qüvvələrini səfərbər edən ailə yaranar.

Əgər bunun əksinə olarsa, həmin kiçik vahidlər arasında ziddiyyətlər yaranar və ailə hərc-mərclik ucbatından dağılıb aradan gedər. İsanın fitrəti öz həyatını qoruyub davam etdirməyi tələb edir. Bu məqsədə çatmaq üçün o, hər vasitə ilə çalışır. İnsanın bu hədəfini tə`min etmək üçün ən yaxşı və ən asan yol nəsil yetişdirməkdir. Çünki, övlad insanın vücudunun bir hissəsi və onun həyatının davamı deməkdir. Fitrətin bu kəskin istəyinə ailənin təşkil edilməsi ilə cavab verilir.

İnsanın fəaliyyətlərinin mühüm bir hissəsi və onun iqtisadi çarpışmaları ailənin yaşayış ehtiyaclarını ödəmək üçün nəzərdə tutulur.

Ailənin yaranma səbəbləri haqqında müxtəlif fikirlər mövcuddur. Bəʾziləri nikahın və ailənin təşkilini cinsi ehtirasların təʾmin olunmasına xidmət etdiyini bildirirlər. Digərləri məsələnin iqtisadi tərəfini qabardırlar və deyirlər ki, nikah iki ailə arasındakı ticarətin bir növüdür. Belə fikirlər nikahın əsil hədəfindən, onun ictimai zərurət olmasından və yeni insan nəsli yetişdirmək məqsədindən çox uzaqdır. Alman sosioloqu Muller evlənmənin səbəbləri barəsində belə deyirdi:

«Fərdləri evlənməyə sövq edən üç amil var: İqtisadi ehtiyac, övlada yiyələnmək meyli və eşq. Hər bir cəmiyyətdə bu amillərin olmasına baxmayaraq, onların əhəmiyyəti müxtəlif dövrlərdə bir-birindən fərqli olmuşdur. Bəşər həyatının əvvəllərində iqtisadi amilin əhəmiyyəti daha böyük idi. Halbuki, qədim sivilizasiyalarda övlada yiyələnmək meylləri bu günkü cəmiyyətlərdən qat-qat üstün olmuşdur».

İslam ailə təşkili məsələsini təşviq etməklə yanaşı, ümumi məʾnəvi təmizliyi qorumaq üçün ən yaxşı vasitə rolunu oynayır.

***«Allah sizin üçün özünüzdən [yəʾni öz cinsinizdən] zövcələr yaratdı. Zövcələrinizdən də sizin üçün oğullar və nəvələr əmələ gətirdi, pak neʾmətlərdən sizə ruzi verdi».***[24]

İslam cavanların cinsi qüvvələrinin öz təbii yolundan çıxmasının qarşısını almaq üçün və onlara bu ehtirasların təzyiqindən nicat verməkdən ötrü ailə başçılarına həddi-büluğa çatan vaxt cavanların evlənməsi üçün lazım olan vəsaitin hazır edilməsini tövsiyə edir. Çünki, özləri üçün ailə qurmaq imkanına malik olmayan cavanlar cinsi ehtirasların təʾsiri altında fəsad və müxtəlif təhriklərlə üzbəüz qalırlar. Ona görə də İslam dini ata-anaları öz övladlarını evləndirmək işində məʾsul hesab edir. Bununla valideynlər övladlarının imanının və əxlaqının qorunmasına böyük yardım göstərmiş olurlar. İslam ailə ocağının təşkilini müxtəlif fəsad və pozğunluqların qarşısını almaq üçün yeganə yol sayır. Həqiqətən sağlam ailə həyatı insan cəmiyyətinin xoşbəxt yaşayışını təʾmin edən mühüm amillərdəndir.

Bir gün Peyğəmbər (s.ə.v.v) minbərdən xalqa belə buyurdu: *«Ey müsəlman milləti! Sizin qızlarınız ağacdakı yetişmiş meyvələr kimidirlər. Əgər vaxtı çatdıqda meyvə dərilməsə, günəş işığı və başqa amillər*

[24] Nəhl surəsi 72-ci ayə.

*onu korlayar. Qızlarınızı da vaxtında ərə verməsəniz fəsadlar yarana bilər. Çünki onlar da bəşərdirlər və onların da insani ehtiyaclarına cavab verilməlidir».*

İmam Baqir (ə)-ın yaxın adamlarından biri olan Əli ibni Əsbat, o Həzrətə yazdığı məktubda belə deyirdi: «Qızlarıma layiq və münasib həyat yoldaşı tapa bilmirəm. Vəzifəm nədir?» Həzrət cavabında belə yazmışdı:

*«Ürəyin istədiyi cavanların tapılmasını gözləmə. Çünki, Peyğəmbər (s.ə.v.v) buyurub: Əgər qızlarınıza evlənmək üçün cavanlar elçilik etsələr və onların dini və əxlaqi cəhətdən eyibləri olmasa, qızlarınızı belələrinə ərə verin. Bundan qeyri surətdə oğlan və qızlarınızın fəsada düşməklərindən ehtiyat edin».*

İslam evlənmək məsələsində heç bir maneə yaratmır. Əksinə, bunu ictimai mənafeyə xidmət kimi qiymətləndirir və bu yolda var gücü ilə çalışır. Evlənmək insanın cismini və ruhunu sakitləşdirməklə yanaşı, bəşər səadətinin təməlini də qoyur, cəmiyyətdə əxlaqi və cinsi stabillik yaradır. Çünki, ruhunda təşviş və nigaranlıq olan şəxslər həqiqi səadətə çata bilmirlər.

İslam nöqteyi-nəzərindən insani bağlılıq ürəklərin müqəddəs bağlılığı və rahatlıq amilidir. Nikah ona görədir ki, bunun sayəsində hər iki tərəf sağlam və rahat yaşamaq imkanı əldə edirlər. Bu da ona paklıq və təmizlik bəxş edir.

**«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaranması da Onun qüdrət nişanələrindəndir».**[25]

İslam dini ailə üzvləri arasında əlaqələri möhkəmlətmək məqsədilə, buna aid olan bütün qayda-qanunları göstərir və onları çox dəqiqliklə tanıtdırır. Qurʾani-Kərim evlənməni «möhkəm peyman» adlandırır[26] və ondan məqsədin maddi hədəflər olmadığını göstərir. Ailə üzvləri arasında məʾnəvi vəhdətin yaranması üçün, İslam onların bütün vəzifələrini kamil surətdə müəyyən etmişdir.

***«Ər və arvadın bir-birlərinin boynunda qarşılıqlı haqları vardır.»***[27]

Ər iqtisadi məsələlərə və ailənin maddi cəhətdən təʾmin edilməsinə cavabdehdir. Qadın isə övladın qayğısına qalmaq, onların tərbiyəsi ilə məşğul olmaq və ailə işlərinin tənzim edilməsi vəzifəsini öhdəsinə alır.

İslam dini qadının öz fitri vəzifələrini yerinə yetirməyi tövsiyə edir və onun hüquqlarının tapdalanmasına icazə vermir. Dinimiz qadının

---

[25] Rum surəsi 21-ci ayə.

[26] Nisa surəsi.

[27] Bəqərə surəsi 228-ci ayə.

həm evdə, həm də ondan xaricdə ağır işlərlə həddən artıq məşğul olmasını qəbul etmir.

Əlbəttə, evdən xaricdə qadının işləməsinə zəruri hallarda icazə verilir. Amma həm fərdi, həm də ictimai işlərdə qadının yad kişilərlə birgə fəaliyyəti mümkün qədər məhdud olmalıdır.

Şübhəsiz ki, hər təşkilat və qurumun müəyyən bir başçıya ehtiyacı var. Ailə də özü-özlüyündə təşkilatdır və onun da məˈsuliyyətini öhdəsinə alan bir rəhbər olmalıdır. Başçısız qurum isə hərc-mərcliyə düçar olur və nəticədə məhv olub aradan gedir. Buna görə də ailənin başçılığını kişiyə və ya qadına tapşırmaq lazımdır. İndi görəsən onlardan hansı biri bu vəzifəyə daha layiqdir? Əlbəttə, bu təşkilatın məˈsuliyyətini qəbul etməyə, övladların qəyyumluğunu öhdəsinə almağa, başçılıq vəzifələrini yerinə yetirməyə və ailənin idarə olunmasının ağır yükünə dözməyə kişi qadından daha layiqlidir. Kişi ailədə hərc-mərcliyin qarşısını almağı qadından daha yaxşı bacarar. Qadının fitrətində mehribanlıq və məhəbbət daha dərin kökə malikdir. Ancaq kişi təbiət eˈtibarilə hiss və atifədən daha çox əqlə tabe olur. Ona görə də «fikir» məsˈuliyyət qəbul etməkdə «mehribanlıqdan» daha münasibdir. İslam ailəyə başçılıq üçün kişini seçmişdir. Bu isə ailədə

qadınla məsləhətləşmək, həmkarlıq və qarşılıqlı anlaşma ilə ziddiyyət təşkil etmir. Kişi ailəni ürəyi istədiyi kimi idarə etməməlidir. İslam kişini ailə başçısı tə᾽yin etsə də, qadına qarşı zor işlətməyi bəyənilməz bir iş sayır.

***«[Qadınlar] açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin [mehriyyənin] bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin».***[28]

Kişi ailənin məs᾽ulu və keşikçisidir. Qadın da evin, ərinin və övladlarının məs᾽uliyyətini öz öhdəsinə almalıdır. Bizim əsrdə ər-arvad münasibətlərinin və ailə tellərinin bu qədər zəifləməsi, habelə boşanmaların sayının artması, ən əhəmiyyətsiz və kiçik hadisələr üzündən ailələrin dağılması, nikahın məs᾽uliyyətinə və həyati məsələlərə diqqətsizlik ucbatından olur.

Bir çox şəxslər evlənmə məsələlərində səmimiyyət və həmkarlıq, qadınla kişinin xüsusiyyətlərinin uyğun gəlib-gəlməməsinə diqqət yetirmir, ailə qurarkən ən çox sərvət, şəhvət və zahiri gözəlliklərə fikir verirlər. Mə᾽nəvi və ruhi məsələlərə əhəmiyyət verilmədiyi üçün yenicə qurulmuş ailə həyatı tez bir zamanda sarsılır, müxtəlif xüsusiyyətli ər-arvad arasındakı ziddiyyətlər günbəgün artır və dərinləşir. Ailədə

[28] Nisa surəsi 19-cu ayə.

hərc-mərclik, nizamsızlıq hökm sürdükdə isə o, tez bir zamanda dağılır. İslam ailədə belə münasibətləri qəti şəkildə rədd edir. Ailənin təşkili sərvət, şəhvət və zahiri gözəlliklərə görə olmamalıdır. Nikah iman, iffət və əxlaqi fəzilətlərə əsasən bağlandıqda və ailə İslami qaydalar əsasında idarə olunduqda, yuxarıda göstərilən arzuolunmaz hallar heç vaxt meydana çıxmır.

İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur:

*«Qadınla yalnız onun gözəlliyinə görə evlənən şəxslər, bu izdivacda xoşuna gəldiyi və axtardığı şeyləri tapa bilməyəcək. Təkcə sərvətə görə evlənənləri isə, Allah-taala özbaşına buraxar. Ona görə də sizə imanlı və iffətli zövcələr seçmək lazımdır».*

İslami hədislərdə insanlar evlənməyə və ailə qurmağa təşviq edilirlər. Səhv və ağılsız bəhanələrlə ailə qurmayan şəxslər kəskin şəkildə tənqid olunurlar.

Rəsuli-Əkrəm (s.ə.v.v) buyurur:

*«Evlənmək və nikah mənim ayinlərimdəndir. Bu ayinə əməl etməyənlər məndən deyildirlər».*

İslam nöqteyi-nəzərindən alçaq, əxlaqsız və şəriətə riayət etməyən adamlarla evlənmək bəyənilmir. İslam Peyğəmbəri (s.ə.v.v) belə buyururdu:

*«Çirkin və bulanıq bataqlıqların ətrafında bitən bitki və güllərdən dərməyin».*

O Həzrətdən soruşdular: «Bataqlıq ətrafındakı bitkilər nədir?»

Peyğəmbər (s.ə.v.v) belə cavab verdi:

*«Tərbiyəsiz və imansız ailədə böyümüş gözəl qadınlar».*

Təbiidir ki, əxlaqi və dini qayda-qanunlara riayət etməyənlər ailənin səadət və xoşbəxtliyini tə᾿min edə bilməzlər. Ona görə də İslam nikahda hər iki tərəfin yüksək əxlaqi keyfiyyətlərə malik olmasına xüsusi diqqət yetirir. Fəsad törədə biləcək nəslin yaranmasına səbəb olan imansız ailələrdən çıxmış adamlarla evlənməyi məsləhət görmür. Cavanlar ailə qurarkən İslamın qayda-qanun və tövsiyələrinə diqqət etsələr, gələcəkdə möhkəm və əsil müsəlman ailəsinin yaradılmasına səbəb ola bilərlər. Müasir dövrdə bə᾿zi cavanlar elə təsəvvür edirlər ki, həyat yoldaşı seçməyin düzgün yolu evlənənə qədər bir-birlərilə gəzib-dolanmaq və müəyyən münasibətlərdə olmaqdadır. Halbuki, bu cür qanunsuz təmaslar əksər hallarda fəsad və əxlaqi pozğunluqlarla nəticələnir. Məhz bu məqsədlə öz müqəddəratını «gələcək Həyat yoldaşına» tapşıran, bir müddətdən sonra səhv etdiyini başa düşən aldanmış qızların statistikası adamı dəhşətə

gətirir. İnsanların bir-birlərini yaxşı tanıması adətən uzun illər boyu davam edən münasibətlər nəticəsində baş verir və qısa müddət ərzində gələcək «ər-arvad» heç vaxt bir-birləri barəsində düzgün və obyektiv təsəvvürlər əldə edə bilməzlər. İnsanların əxlaqi və ruhi xüsusiyyətləri onların müxtəlif hadisələrlə və həyati sınaqlarla üzləşdiyi vaxt daha yaxşı üzə çıxır. Səbir və dözümlülük, mətanət, fədakarlıq və sair insani keyfiyyətlər çətin məqamlarda, həyatda qarşıya çıxan təbii imtahanlarda bəlli olur. Amma gəzinti, əyləncə və eyş-işrət vaxtı belə xüsusiyyətlər çox nadir hallarda aşkar edilir. Görəsən bulvarda, kinoda, restoranda və ya digər əyləncə yerlərində görüşməklə, kiminsə xüsusiyyətlərini lazımi şəkildə müəyyənləşdirmək olarmı? Əlbəttə, qəlbi məhəbbət hissi ilə döyünən gənclər heç vaxt öz nöqsanlarını biruzə vermir, əksinə sün᾽i şəkildə olsa da, özlərini ən yaxşı xüsusiyyətlərə malik adamlar kimi göstərməyə çalışırlar. Ehtirasların coşğun bir dövründə belə münasibətlər vasitəsilə cavanlar bir-birlərinə obyektiv qiymət verə bilərlərmi? Bu şəraitdə qurulan ailə həyatı adətən, axıradək tab gətirə bilmir. Bu cür «tanışlıq» nəticəsində qurulan ailədə ər-arvad sonradan öz eyb və nöqsanlarının şahidi olurlar.

İslam dini hər bir şəxsə evlənməzdən qabaq öz gələcək həyat yoldaşının zahiri qiyafəsini görməyə icazə verir və onun ruhi, əxlaqi xüsusiyyətləri haqda ətraflı mə᾽lumat əldə etməyi tövsiyə edir.

Ailənin səadəti ilk növbədə qadınla kişi arasındakı rabitənin və onların birgə yaşayışının necəliyindən asılıdır. Onların rabitələri nə qədər möhkəm olsa, o qədər də ailə xoşbəxtliyi artıq olacaq. Ruhi bağlılıq və çətinliklər qarşısında fədakarlıq həqiqi ailə səadətinin bərqərar olması üçün əsas şərtlərdəndir.

İslam dinində ailə mühitində yaşayan kişi və qadınlar üçün hüquqlar müəyyən edilmiş və onların hər birinin vəzifələrini dəqiq göstərən qayda-qanunlar tə᾽yin olunmuşdur. Bundan əlavə, əxlaqi cəhətdən də ailənin səadətini tə᾽min edən göstəriş və tövsiyələr nəzərdə tutulmuşdur. İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur:

*«Ümmətimin ən yaxşı kişiləri öz ailəsi ilə xoş rəftar edənlərdir».*

*«Sizlərdən ən yaxşınız öz ailəsi ilə daha yaxşı rəftar edən kəslərdir və mən sizin hamınızdan çox öz ailəmlə xoş rəftar edirəm».*

İslam dini qadının öz əri ilə xoş rəftarını «müqəddəs cihad» sayır.

Peyğəmbər (s.ə.v.v) belə buyurur:

«Qadının cihadı öz əri ilə yaxşı davranmaqdır». Müasir dövrdə cavanların evlənməsinə mane olan amillərdən biri də, ailə qurmaq üçün nəzərdə tutulan xərclərin həddindən artıq ağır olmasıdır. Cavanların əksəriyyəti belə böyük maddi imkanlara malik deyildirlər və bu da onların vaxtında ailə qurmasının qarşısını alır. İslam dini evlənmə xərclərinin indiki qədər yüksək olmasının qəti əleyhinədir və izdivacın ən sadə şəkildə, yüngül xərclərlə həyata keçirilməsini tövsiyə edir.

İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur:

*Qadının qədəmlərinin düşərgəli və mübarək olması, onun istəklərinin asanlığında və mehriyyəsinin az olmasındadır».*

Şübhə yoxdur ki, ailə ixtilafları zamanı qadının əlində «ağır mehriyyə» adlı təzyiq vasitəsi olsa, özünü daha sərt aparar və tərslik edər. Həmin tərslik də ailənin dağılması ilə nəticələnə bilər. Bir gün Rəsuli-Əkrəm (s.ə.v.v) öz yaxın adamları ilə birgə söhbət edirdi. Bu zaman cavan bir qadın ona yaxınlaşıb salam verdi və dedi: «Ey Allahın Rəsulu! Mən bir cavanla evlənmək istəyirəm».

Peyğəmbər (s.ə.v.v) ətrafındakı cavanlara üz tutub buyurdu: «Kim bu qadınla evlənmək istəyir?» Bir nəfər buna razı olduğunu dedi. Həzrət (s.ə.v.v) ondan soruşdu: «Onun

mehriyyəsini nə ilə ödəyəcəksən?» Həmin adam heç nəyə malik olmadığını bildirdi. Həzrət (s.ə.v.v) buyurdu: «Xeyr! Belə olmaz».

Digər bir cavan evlənməyə hazır olduğunu bildirəndə, Peyğəmbər (s.ə.v.v) ondan soruşdu: «Qurʾan oxumağı bacarırsanmı?»

Cavan müsbət cavab verdikdə, Həzrət (s.ə.v.v) belə buyurdu: «Bu qadına Qurʾan oxumağı öyrətsən, səni onunla evləndirərəm.»

İslam maddi çətinliklərin ailə qurmağa maneçilik törətməsinin əleyhinədir və sadə üsullarla evlənməyi təklif edir. İslam dini kasıbların məhrumiyyətlərinin üzərinə başqa çətinliklərin əlavə olunmasını istəmir.

***«[Ey möʾminlər!] Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər».***[29]

Təbiidir ki, hər bir şəxs öz yaşayışını təʾmin etmək üçün daim çalışır. Amma evləndikdən sonra ailə-məişət problemlərini həll etmək üçün daha artıq səʾy göstərir. Buna görə də evlənmək həyat səhnəsində inkişaf amilinə çevrilə bilər. Qərb ölkələrində cinsi pozğunluqların artması və qadın-kişi münasibətlərindəki misilsiz açıq-saçıqlıq cavanların ailə qurmasına mane olan və

[29] Nur surəsi 32-ci ayə.

tədricən nikahın əhəmiyyətini heçə endirən səbəblərdəndir.

Əyyaşlıq və cinsi azadlıq cavanlar arasında evlənməyə olan meyilləri kəskin surətdə azaldır.

Qərbdə nikahın sayının azalması və boşanmaların artması «mədəni cəmiyyət»lərdə ailə əsaslarının açıq-aşkar dağılma prosesinin sürətlənməsini göstərir.

Məşhur sosioloq Vill Dorant yazır:

Yeni cəmiyyətlərdə ailə təməli düzgün qoyulmur və əksər hallarda o, cinsi əlaqə əsasında qurulur. Buna görə də tez bir zamanda öz möhkəmliyini itirir. Ər və arvad hər biri öz «şəxsi» həyatını yaşayır. Onlar arasında əvvəllər mövcud olan coşğun ehtiraslar soyuyur və əlaqələr zəifləyir. Bir-birlərini aldatmaq halları və ardıcıl xəyanətlər görünməyə başlayır.

Böyük şəhərlərdə ailə qurmaq məsələsi demək olar ki, tənəzzül etməkdədir. Kişilərin öz həyat yoldaşlarından uzun müddət zövq ala bilmələri problemə çevrilib. Cinsi ehtiraslara əsaslanan evlənmələrin sayı günbəgün artır. Belə şəraitdə ər-arvadın qarşılıqlı xəyanətləri və ailəyə sədaqətin mə`nasız bir iş olması adi hal alır. Ailə öz müqəddəsliyini itirir, üzdəniraq adətlər ictimaiyyətdə ümumi bəlaya çevrilir.»

Dünya xalqları İslamda qadına verilən hüquqlardan, yüksək mövqedən və həqiqi azadlıqlardan xəbərsizdirlər. Qərbdəki qadın «azadlığı» isə cəmiyyətdə əxlaqsızlığın artmasından başqa bir şeyə gətirib çıxarmayıb.

İslam dini öz hüquq və azadlıqları çərçivəsində qadına yüksək imtiyazlar verir və bununla yanaşı, onların cəmiyyətdə fəsadlara səbəb ola biləcək hər hansı formada davranışının qarşısını alır.

***«Mö᾽min olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik».*****[30]**

İslam nöqteyi-nəzərindən kişi və qadın bir-birlərini təkmilləşdirirlər. Zəriflik və ya sərtlik onların heç biri üçün məziyyət hesab olunmur.

***Allah onların dualarını qəbul edərək cavab verdi: «İstər kişi, istərsə də qadın olsun, mən heç birinizin əməlini puça çıxarmaram. Siz bir-birinizdənsiniz».*****[31]**

Əxlaqi fəzilətlərə və yüksək imana malik olan bir çox qadınlar həqiqi səadətə nail olurlar. Amma nəfsani istəklərə, şəriətə zidd olan meyllərə uyan bir çox kişilər bədbəxtliyə düçar olurlar.

İslamın ilk çağlarında qadınların hüququ, imtiyaz və mövqeyi o qədər yüksəlmişdi ki,

---

[30] Nəhl surəsi 97-ci ayə.

[31] Ali-İmran surəsi, 195-ci ayə.

bə᾿zən İslam hökuməti qadınlarla bağlı məsələlərə müdaxilə etməyə məcbur olurdu. Bütün sünni və şiə mənbələrinin təsdiq etdiyi belə bir tarixi hadisə diqqətəlayiqdir. Bir gün ikinci xəlifə Ömər minbərə çıxıb belə dedi: «Hər kəs 500 dirhəmdən artıq mehriyyə versə, onun artıq hissəsini müsadirə edib beytul-mala qatacağam!»

Orada iştirak edən qadınlardan biri Ömərə e᾿tiraz edib dedi: «Sizin bu əmriniz Allah hökmlərinin ziddinədir! Çünki, Allah-taala belə buyurur:

***«Onlardan [qadınlardan] birinə çoxlu mal vermiş olsanız da, heç bir şeyi geri almayın».***[32]

Ömər öz səhvini başa düşüb belə dedi: «Kişi səhv etdi, qadın isə həqiqəti dedi.» Bu tarixi hadisə bir daha İslamda qadının hansı yüksək mövqeyə malik olmasını sübut edir. Bir qadın xəlifə qarşısında e᾿tiraz edir və o da, cəmiyyətin hüzurunda öz səhvini e᾿tiraf edərək, Allah qanunlarına zidd olan göstərişini ləğv etməyə məcbur olur.

Bəli, İslam qadınları əsarət və köləlikdən qurtarıb, onlara kişilərlə bərabər hüquqlar verən bir dindir. Bu bərabərlik riyazi bölgülər əsasında deyil, fitri və təbii xüsusiyyətlərə görədir. Bu, zatən və mahiyyətcə mütləq bərabərlik deyil.

[32] Nisa surəsi 20-ci ayə.

Yaşayış şəraitində vəzifə e`tibarilə qadınla kişinin bərabərliyi yalnız xəyal aləmində mümkündür.

İslam öz qanunvericiliyində bəşərin təbii və fitri ehtiyaclarını həmişə nəzərə alır. Bu səbəbdən də qadınla kişinin təbii bərabərliyini təsdiq edir, mümkün olmayan şəraitdə isə məsələyə başqa me`yarlarla yanaşır.

586-cı ildə Fransada dini şura qadınlar haqqında belə bir qərar çıxarmışdı: «Qadınlar kişilərə xidmət etmək üçün yaradılmış bir növ insandır».

Son əsrə qədər Avropa ölkələrində qadınlar hətta mülkiyyətdən istifadə etmək hüququndan məhrum idilər. İngiltərədə 1850-ci ildə qəbul edilmiş qanuna görə, qadınlar ölkə vətəndaşları sayılmırdılar və heç bir mülkiyyət hüququna malik deyildilər. Hətta əyinlərindəki paltarları da onların mülkiyyəti hesab edilmirdi!_Səkkizinci Henri isə qadınlara dini kitab oxumağı qadağan edən bir fərman vermişdi.

1882-ci ildə Britaniyada təsdiq edilmiş yeni bir qanuna görə qadınlar həmin dövr üçün «misilsiz» hüquq əldə edirdilər. Onlar qazandıqları pulu istədikləri kimi xərcləyə bilər və öz ərlərinə təhvil verməmək ixtiyarı qazanırdılar!

Amma İslam dini 14 əsr bundan qabaq qadının xüsusi mülkiyyətə sahib olması və onun iqtisadi

cəhətdən müstəqilliyini e᾽lan etmişdi. Qadın ticarətdən, hədiyyədən və sair yolla əldə etdiyi maliyyə vəsaitlərini ərindən asılı olmayaraq, istədiyi kimi xərcləməkdə azad və müstəqildir. Həqiqətən bu qanun İslam dini üçün iftixar sayılır.

***«Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır».***[33]

Mülkiyyətlə bağlı hüquqlardan əlavə, İslam dini evlənmək məsələsində də qadına azadlıq və müstəqillik verir. İslam nöqteyi-nəzərindən qadının razılığı olmazsa, onu heç kim ərə getməyə məcbur edə bilməz. Ümumiyyətlə, qadınla əlaqədar elə bir məsələ yoxdur ki, İslam qanunları onu ən yaxşı şəkildə həll etməmiş olsun.

Təəssüflər olsun ki, bu gün bir çox Şərq ölkələrində qadınların hüquqları lazımı formada tə᾽min olunmur. Bu isə həmin ölkələrin ictimai, siyasi və iqtisadi vəziyyəti ilə bağlıdır. Bir çox müsəlman ölkələrində İslam qayda-qanunları deyil, qondarma və dinimizə zidd olan adət-ən᾽ənələr hökm sürür. Həmin ölkələrdə qadın hüquqlarının tapdalanmasında İslam dini deyil, bu dövlətlərin və hökumətlərin özləri günahkardırlar. İqtisadi çətinliklər şərq qadınlarının ağır vəziyyətə düşməsinə səbəb olan

[33] Nisa surəsi, 32-ci ayə.

amillərdəndir. Belə ölkələrdə adamların bir hissəsi naz-ne᾿mət içində yaşayır, böyük bir hissəsi isə yoxsulluğa düçar olurlar. Bu şərait ailə mühitinə də tə᾿sir edir və ondan ən çox əziyyət çəkənlər isə qadınlar olurlar. Onlar öz şər᾿i hüquqlarından istifadə edə bilmir və kişilərin öz hədlərini aşması adi hala çevrilir.

Aydındır ki, yoxsul cəmiyyətdə əxlaqi dəyərlər qiymətdən düşür, zor və ədalətsizlik bərqərar olur. Qadınların mövqeyini alçaldan səbəb məhz, həmin yoxsulluq və cəmiyyətin qeyri-islami qayda-qanunlarla yaşamasıdır.

İslam isə yoxsulluq və ədalətsizliklə mübarizə aparan bir dindir. O, sərvətin bütün adamlar arasında ədalətlə bölünməsini tövsiyə edir və qadınların hüquqlarının tə᾿min olunması uğrunda mübarizə aparır.

Görəsən «mədəni cəmiyyət» uğrunda mübarizə aparan müasir qərb dünyasında qadın hansı məqam və dəyərə malikdir. Müasir dövrdə qadının mövqeyi demək olar ki, tənəzzülə uğrayıb. Çünki, bu dövrdə qadın kişinin heyvani ehtiraslarını doyurmaq üçün alətə çevrilib. Qadınlardan kütləvi informasiya vasitələrində, reklamlarda, restoran və ticarət mərkəzlərində təbliğat vasitəsi kimi istifadə edirlər. Amerikalı alimlərdən biri belə deyir: «Bu gün açıq sinəsini

kişilərə göstərən bir qadın bir milyon, bir yumruq zərbəsi ilə adamı öldürə bilən kişi isə yarım milyon dollar pul qazanır. Amma öz elm və zəkası ilə milyonlarla insana xidmət yolunda saçını ağartmış bir alimin qazancı normal yaşayışı üçün kifayət etmir».

Professor Albert Kannolli öz məqaləsində belə bir həqiqəti açıqlayırdı:

«1919-cu ildə İngiltərə qadınları öz hüquqlarını əldə etmək üçün Parlamentlə mübarizə apardıqda, hətta ölüm və zindandan da qorxmurdular. Amma o zaman onların heç biri bilmirdi ki, gələcəkdə bu «hüquq azadlığı» qadınların ictimai vəziyyətini tam ayrı bir istiqamətdə dəyişib, onların bə҆zilərini pul qazanmaq üçün alətə çevirəcək. Əgər o vaxt mübarizə aparan qadınlar indi sağ olsaydılar, öz əvvəlki vəziyyətlərinin bərpa ediməsi üçün yenidən mübarizəyə başlayardılar».

## *İSLAMDA BOŞANMA*

İlk növbədə bilmək lazımdır ki, boşanma qeyri-təbii və yaradılış qayda-qanunlarına müxalif olan bir işdir. Əgər hansısa cəmiyyətdə boşanmaların sayı artırsa, bu ona dəlalət edir ki, həmin cəmiyyət öz təbii yaşayış qanunlarından kənara çıxıb. Psixolqlar, sosioloqlar və hüqüqşünaslar

boşanmanın səbəbləri haqqında bir çox tədqiqatlar aparmışlar. Boşanma yalnız çox zəruri hallarda baş verməlidir. Çünki, onun nəticəsində bir ailə dağılır, uşaqlara mə᾽nəvi və ruhi zərbələr dəyir. Alimlər ailə münasibətlərinin elə bir şəkildə tənzim edilməsini təklif edirlər ki, bununla boşanma imkanları son dərəcə məhdudlaşdırılsın və buna ən zəruri vəziyyətlərdə yol verilsin.

Əgər müxtəlif səbəblərdən ər-arvadın birgə yaşaması mümkün deyilsə, onda nə etmək lazımdır? Belə ailə axıradək ruhi narahatçılıq və bədbəxtçilik şəraitində ömür sürməlidir? Yoxsa, onlara ailə tellərini qırmağa və mə᾽nəvi əzablardan xilas olmağa imkan yaradılmalıdır?

Boşanmanı qadağan edən xristianlıqdan fərqli olaraq, İslam dini müəyyən şəraitdə buna icazə verir. Əgər ər-arvadın birgə yaşayışı dözülməz dərəcəyə çatıbsa, onlara boşanmaq imkanı vermək lazımdır. Baxmayaraq ki, boşanma Allahın ən çox qəzəbinə səbəb olan işlərdəndir. Bununla belə, ər-arvada ayrılmağa icazə verilməlidir ki, boşandıqdan sonra kişi və qadın özlərinə yeni ailə qurub, rahat yaşaya bilsinlər. Digər tərəfdən də nikahın qorunması və ailənin möhkəmləndirilməsi barədə İslamın xüsusi baxışları var. Ailə nizamını qorumaq üçün İslam dini bə᾽zi azadlıqları məhdudlaşdırır. Məsələn,

qadının boşanmada mütləq ixtiyara malik olmaması, onun nəfsani istəklərə tabe olaraq, ürəyi istədiyi vaxt və əhəmiyyətsiz mübahisələr ucbatından ailəni dağıtmasına imkan verilməməsi həmin məhdudiyyətlərdəndir.

Əgər boşanma təkcə iki nəfərin, yəˈni ər və arvadın ixtiyarında olsa, ayrılmaq ehtimalı bir neçə dəfə artır. Boşanmada nəzərdə tutulan mehriyyənin ödənilməsi, uşaqlara qəyyumluq məsələsi hikmətlə düşünülmüş proqramlardır və çox vaxt məhz bu amil boşanmanın qarşısını alır.

Aydın məsələdir ki, qadın və kişinin fitri, cismi və digər xüsusiyyətlərində kəskin fərqlər mövcuddur.

Doktor Aleksis Karl bu barədə deyir:

«Kişi və qadının bədənlərindəki cinsi fərqlər və onların əsəb sisteminin müxtəlifliyi bir sıra məsələləri ortaya çıxarır. Mütəxəssislər gərək bu cismi və ruhi müxtəlifliyə xüsusi diqqət yetirsinlər. Həmin fərqləri əhəmiyyətsiz sayanlar səhvən elə fikirləşirlər ki, qadın və kişi iş fəaliyyətləri, məˈsuliyyətlər və imkanlar baxımından eyni səviyyədə olurlar». Həmin gerçəklikləri nəzərə alaraq, İslam dini belə hökm edir: «Boşanma kişinin ixtiyarındadır».

Qadının xüsusiyyətləri elə bir şəkildədir ki, o, ən kiçik bəhanə ilə ailənin dağılmasına səbəb ola

bilər. Ona görə də boşanma ixtiyarı kişiyə verilir. İslam evlənmə məsələlərində nə qədər rahatlıq və sadəlik yaradırsa, boşanma işlərində qarşıya bir o qədər çətinlik və maneələr çıxarır. İslam dini ailə ocağının sönməsini istəmir və onun əmin-amanlıq, anlaşma şəraitində davam etməsini istəyir. İslam ailə tellərinin möhkəmliyini qorumağa çalışır. Qurˈan, kişilərə xitabən belə buyurur:

***«Onlarla [qadınlarla] gözəl rəftar edin. Əgər onlara qarşı ikrah etsəniz, ola bilsin ki, sizdə ikrah doğuran hər hansı bir şeydə Allah sizin üçün çoxlu xeyir nəzərdə tutmuş olsun».***[34]

Kişilərin bəˈzi vaxtlarda qadınlara qarşı bəslədikləri ikrah hissi və narahatlıqları aradan qaldırmaq üçün, Qurˈan səbir və dözümlüklə ailə ocağını qorumağı tövsiyə edir. Çünki elə həmin qadınlarda bəˈzi şəraitlərdə ərləri üçün xeyir-bərəkət ola bilər ki, adi vaxtlarda kişilər bunu görə bilmirlər. Qurˈan qadınlara belə sifariş verir:

***«Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb-düzəlişmələrindən ər-arvada heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir».***[35]

---

[34] Nisa surəsi 19-cu ayə.
[35] Nisa surəsi 128-ci ayə.

İslam Peyğəmbəri (s.ə.v.v) boşanmanı məzəmmət etmiş və onu çirkin işlərdən saymışdır. Həzrət Rəsuli-Əkrəm (s.ə.v.v) öz hədislərində bu barədə belə buyurur:

*«Zərurət olmadan öz ərindən boşanmaq tələb edən qadını Allah öz rəhmət və mərhəmətindən məhrum edər».*

*«Evlənin, amma boşanmayın! Çünki, boşanma Allahın ərşini lərzəyə salır».*

İslam dini kişiyə boşanmada ixtiyar versə də, ondan sui-istifadə etməyi qadağan edir. Müqəddəs şəriətimizdə boşanma qayda-qanunları elə bir şəkildədir ki, onlar boşanmaların sayının artmasının qarşısını alır. İslam dinində ər-arvad arasındakı ixtilafları boşanmaya qədər həll etmək üçün «ailə məhkəməsi» mövcuddur. Belə məhkəmələr bir çox məsələlərin həllinə kömək edir və ailəni dağılmaqdan qoruyur. Qərbdə isə hələ də bu cür məhkəmə mövcud deyil.

Həmin ailə məhkəməsində ər-arvad arasındakı ixtilafların səbəbləri araşdırılır və nəticə çıxarılır. Ər-arvada səmimi məsləhətlər verilir. Özlərinin ən yaxın qohumlarından belə sözləri eşidən kişi və qadın daha tez həmin məsələhətləri qəbul edirlər. Ailə məhkəmələri əksər hallarda sülhün yaradılmasına nail olurlar.

***«Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, bir nəfər kişinin və bir nəfər də qadının adamlarından münsif tə᾽yin edib onların yanına göndərin. Əgər bu iki vasitəçi ər-arvadı barışdırmaq istəsə, Allah da onlara yardım edər. Allah hər şeyi biləndir və hər şeydən xəbərdardır».***[36]

Ər-arvad arasında sülh yaratmaq heç cür mümkün olmasa, onda boşanma zərurəti qarşıya çıxır. Ümumi məhkəmələrin əvvəldən belə işlərə baxması isə, adətən ixtilafları bir az da dərinləşdirir və əksər hallarda boşanmanın qanuniləşdirilməsi ilə sona çatır. Çünki, həmin məhkəmələr işə qanun çərçivəsindən baxıb qərar çıxarırlar. Bu halda onun ixtilaf səbəblərini araşdırmaqla sülh və barışıq yaratmasının arasında heç bir fərq olmur.

İki adil şəxsin boşanma vaxtı şahidliyi də əsas şərtdir.

***«İki nəfər adil müsəlman kişini şahid tutun»***[37]

Həmin iki ədalətli şahid olmadıqda boşanma batildir. Şahidlərin iştirakının faydalarından biri də budur ki, onlar boşanmadan qabaq ər-arvad arasında barışığın yaranmasına çalışırlar. Böhranın aradan qaldırılması üçün onların

---

[36] Nisa surəsi, 35-ci ayə.
[37] Təlaq surəsi, 2-ci ayə.

nəsihət və vasitəçiliyi bəʾzən yaxşı nəticə verir, ailənin dağılmasının qarşısını alır.

Boşanmanın gerçəkləşməsi üçün vacib olan şərtlərdən biri də qadının həmin ərəfədə heyz və nifas halında olmamasıdır. Bu müddətin başa çatması ilə nikahın qorunması üçün bir növ əlavə vaxt yaranır və mümkündür ki, həmin müddətin sona yetməsilə kişi boşanma fikrindən daşınsın.

***«Zövcələrinizi boşadığınız zaman onları gözləmə müddətlərində [heyzdən pak olduqdan sonra] boşayın. Gözləmə müddətini sayın. Rəbbiniz olan Allahdan qorxun. Onları açıq-aşkar bir pis iş etməyənə qədər evlərinizdən çıxartmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hüdudlarıdır [hökmləridir]. Allahın müəyyən etdiyi hüdudları aşan şəxs özünə zülm etmiş olar. Nə bilirsən, ola bilsin ki, Allah bundan sonra bir iş icad edə bilər [Ər-arvad arasında yenidən məhəbbət yarada bilər və onlar barışarlar]».***[38]

Şübhə yoxdur ki, üç ay ərzində ərin evində gözləmə müddətini yaşayan qadına qarşı ərində yenidən məhəbbət hisslərinin yaranması ehtimalı çox böyükdür. Ona görə də Qurʾan: **«Ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin»** deyə buyurur. Bu da qadının gözləmə müddətinin

[38] Təlaq surəsi, 1-ci ayə.

sonuna qədər ər evində qalmasının fəlsəfəsinə bir işarədir. «Ricʾi təlaq»da (gözləmə müddətində kişinin boşanma niyyətindən dönməsi) kişinin qadına cüzʾi şəkildə öz meylini bildirməsi ilə yenidən əvvəlki münasibətlər bərpa edilə bilər.

İslamın bu qayda-qanunları bir çox ixtilafların aradan qalxmasına və ailənin qorunmasına səbəb olur. Həmin qaydalar və məhdudiyyətlər də boşanmanın qarşısını alan amillərdəndir. Bütün bunlar İslamın ailənin qorunması üçün nə qədər hikmətli və gözəl qanunlara malik olmasını sübut edir.

İslam dini qadın hüquqlarını müdafiə edərək, qeyri-sağlam mühitdə və yaşamaq mümkün olmayan şəraitlərdə boşanma üçün yol qoyur:

1. Nikah bağlanan vaxt qadın kişi qarşısında şərt qoya bilər ki, əgər onunla pis rəftar etsə və ya onun xərclərini ödəməsə və ya başqa qadınla evlənsə, onda qadın nikahı poza bilər;

2. Qadın intim məsələlərdə əri ilə həmkarlıq etməsə, əlacsız olaraq ər ona təlaq verir;

3. Qadının xərclərini ödəməyə aciz olan və ya bundan imtina edən, yaxud intim məsələlərdə vəzifələrini yerinə yetirməyən ərdən şəriət hakiminə şikayət etmək olar və əgər həmin iddiaların doğruluğu sübut olunsa, boşanma haqqında hökm verilir;

4. Əgər ər öz arvadını iffətsizlikdə günahlandırsa və ya övladlarının ondan olmamasını iddia etsə, qadın İslam məhkəməsinə şikayət edə bilər. Həmin iddialar sübut olunmazsa, belə nikah pozulur;

5. Əgər qadın öz mehriyyəsindən imtina etsə, kişi gözləmə müddətində onun xərclərini ödəməyə bilər. Bu halda da nikahı pozmaq olar;

6. Əri itmiş qadın onun barəsində heç bir xəbərə malik olmazsa və öz xərclərini tə᾿min etməkdə çətinlik çəkərsə, şəriət hakiminə boşanmaq üçün müraciət edə bilər. Şəriət hakimi də mövcud şərtlər daxilində belə nikahın ləğv olunması haqqında qərar çıxara bilər.

İslam qanunlarında kişi qadına qarşı ikrahla yanaşdıqda nikahın pozulması nəzərdə tutulduğu kimi, qadının da ərinə qarşı eyni və ya ərinə əlavə bir şey verməklə boşanmaq tələbini irəli sürmək hüququna malik olması mövcuddur.

***«[Ey kişilər!] onlara [qadınlarınıza] verdiyinizdən bir şey tələb etməniz sizə halal olmaz. Bu yalnız kişi ilə qadının Allahın hökmlərini yerinə yetirməkdən qorxduqları zaman mümkündür. Əgər onların [ər-arvadın] Allahın hökmlərini yerinə yetirməyəcəklərindən***

***qorxarsınızsa, arvadın [kəbin haqqından] ərinə bir şey verməsində heç biri üçün günah yoxdur».***[39]

Göründüyü kimi, İslam dini bu məsələlərdə qadın hüquqlarının qorunmasını tamamilə tə᾽min edir. Peyğəmbərin (s.ə.v.v) dövründə aşağıda nəql olunan bir hadisə baş vermişdi. İbni Abbas deyir:

«Sabit ibni Qeysin həyat yoldaşı Cəmilə bir gün pərişan halda Peyğəmbərin (s.ə.v.v) hüzuruna gəldi və dedi: «Ya Rəsuləllah! Bu gündən e᾽tibarən mən Sabitlə yaşamağa razı deyiləm. Əlbəttə, onun imanından, əxlaq və davranışından şikayətim yoxdur. Amma onunla birgə yaşamağa davam etsəm, qorxuram ki, dinsizliyə düçar olum. Səbəbi də budur ki, bir gün qarşıdan gələn bir dəstə kişi ilə rastlaşdım və mənim ərim də onların içərisində idi. Bu dəstəyə diqqətlə baxıb gördüm ki, onların içərisində ən yaraşıqsız, qara və qısa boylu şəxs mənim yoldaşımdır. Bundan sonra özümdən asılı olmayaraq, ona qarşı məndə ikrah hissi yarandı. Ona görə də mən artıq, Sabitlə birgə yaşa bilmirəm».

Peyğəmbər (s.ə.v.v) bu sözləri dinlədikdən sonra Cəmiləyə öyüd-nəsihət verdi. Lahin bunların heç bir tə᾽siri olmadı. Nəticədə, Sabit öz həyat yoldaşına həddindən artıq bağlı olmasına

[39] Bəqərə surəsi 229-cu ayə.

baxmayaraq, mehriyyə kimi verdiyi bağı geri almaqla, onu boşamağa razı oldu.

Bə`zi vaxtlar kişi deyil, qadın boşanmaq istəyir. Bu növ ayrılıq bə`zən məhkəməyə müraciət etməklə, bə`zən bunsuz da mümkün olur. Məsələn, istər qadın, istərsə də kişi ruhi və psixi xəstəliyə tutularaq ağlını əldən versə, hər iki tərəf eyni səviyyədə nikahı ləğv etmək səlahiyyətinə malik olar. Kişinin intim məsələlərdə acizliyi də (cinsi ehtirasların olmaması) qadına nikahı pozmaq haqqı verir. Qarşı tərəfə kəskin ikrah hissi də əqdin ləğv olunmasına səbəb ola bilər.

Qərb cəmiyyətlərində ailə təməlinin sarsılması və boşanmaların hədsiz şəkildə artmasının səbəblərindən biri də uzun əsrlər boyu kilsənin boşanmaya ümumiyyətlə icazə verməməsidir. Xristianlıq boşanmanı qət`i surətdə qadağan etdiyindən, axırda dövlətlər rəsmən ona icazə verməyə məcbur oldular.

Məsələn: Fransada boşanma 1789-cu il inqilabına qədər qadağan idi. Lakin 1804-cü ildə xalqın təzyiqi nəticəsində «yeni mədəni hüquq» layihəsində boşanmağa icazə verildi. Boşanmanın sür`ətli artımına görə, yenidən kilsənin təzyiqi ilə 1816 -cı ildə təlaq qadağan edilərək «müvəqqəti boşanma» qanununu qəbul etdilər. Yenə xalqın tələbi ilə 1884-cü ildə müəyyən məhdudiyyətlərlə

boşanmağa icazə verildi. Həmin məhdudiyyət şərtləri bunlar idi:

1. Qadın və ya kişi aşağıda göstərilən cəzaların hər hansı biri ilə məhkum edildikdə: E᾿dam, ömürlük həbs, sürgün, ictimai hüquqlardan məhrum edilmə və ağır cinayətlər;

2. Ər və ya arvadın hər hansı biri zina etdikdə; (Bu qanuna əsasən, qadın o zaman boşanma hüququ qazanır ki, əri öz yaşadığı yerdə zina etmiş ola.)

«Qadının xəyanəti hüquq-mühafizə orqanları tərəfindən tam şəkildə sübuta yetirilməlidir. Belə ki, əgər ər, ya arvad boşanmaq istədikdə, ər öz arvadının başqa kişilə qeyri-qanuni əlaqədə olmasını polisə xəbər verməlidir və polis də bunu qeydə almalıdır. Polis ərlə birlikdə həmin evə gəlib arvadın başqa kişiylə yatdığını isbat etdikdən sonra boşanmağa icazə verilməlidir!» Görün boşanmağa hansı iffətsizlik şəraitində icazə verilir. «Mədəni cəmiyyət» bir tərəfdən qadına ictimai-siyasi işlərdə yaxından iştirak etmək imkanı verir, digər tərəfdən isə onun belə bir alçaq vəziyyətdə rüsvay olmasına şərait yaradır;

3. Ər və ya arvad bir-birlərinə zərər vururlarsa, ya bir-birlərini təhqir edib söyürlərsə, boşanmağa icazə verilir.

Hal hazırda Fransa, Portuqaliya və İtaliyanın özündə «müvəqqəti boşanma» qanunu öz qüvvəsindədir. Bu qanuna görə, boşanmaq istəyən ər-arvad əvvəlcə üç il müddətində bir-birlərindən ayrı yaşamalıdırlar. Bu müddət ərzində qadın kişinin cinsi təmini və kişi qadının xərclərini ödəmək məsˈuliyyətini daşımır. Amma aralarındakı digər ər-arvad münasibətləri yerində qalır və üç il başa çatdıqdan sonra könüllü olaraq, ayrılmaq və ya birgə yaşamaq yolunu seçməlidirlər.

ABŞ-da isə boşanmaq üçün geniş imkanlar vardır. Bu səbəbdən də boşanma statistikasına görə Amerikaya çatan bir ölkə yoxdur. Orada qadınlar ən kiçik şeylər üstündə boşanma haqda məsələ qaldırırlar. Bu isə ailə əsaslarını dağıdan ən mənfi amildir. Əslində Qərb dünyası ailəni möhkəmlətmək əvəzinə ona zərbə vurur. Qadınların tam sərbəstliklə boşanma hüququna malik olduğu bütün ölkələrdəki statistik göstərişlər hər bir insanı dərindən düşünməyə vadar edir.

Məşhur qəzetlərdən biri belə yazırdı: «Fransada bir il ərzindəki boşanmaların 27%-i, Almaniyada 33%-i, İsveçdə 17%-i və Hollandiyada 36%-i qadınların modabazlığı ucbatından baş vermişdir. Halbuki, bu xüsusiyyət

nə ailəni möhkəmləndirir, nə də qadının şəxsiyyətini yüksəldir. Qadınlara bu şəkildə boşanma ixtiyarı vermək məʾnasız işlər üstündə ailənin dağılmasına səbəb olur.

İslamda boşanma qanunlarının üstünlüyünü vurğulayan Valterin eʾtirafını xatırlamaq yerinə düşərdi:

«Məhəmməd (s.ə.v.v) ağıllı bir qanunverici idi. O, istəyirdi ki, bəşəriyyəti bədbəxtlikdən, cahillikdən və fəsaddan xilas etsin. Öz arzusunu həyata keçirmək üçün kişi və qadının, uşaq və böyüyün, ağ və qara dərili bütün insanların hüquq bərabərliyini təʾmin etməyə çalışırdı. Şərqdə hakimlərin öz hərəmxanalarında saysız-hesabsız qadın saxlaması adətini ləğv edərək, bir kişinin yalnız ən çox dörd qadına malik ola bilməsini qanuniləşdirmişdi. Onun evlənmək və boşanmaq haqqındakı qanunları xristian qanunlarından nəhayətsiz dərəcədə üstündür. Qurʾanın boşanma haqqındakı qanunlarından daha kamil bir qanun ola bilməz».

## *MÜVƏQQƏTİ EVLƏNMƏ*

Şübhə yoxdur ki, İslam səadət və xoşbəxtlik bəxş edən bir dindir və heç vaxt xalqı bəlalara, bədbəxtliyə düçar etmək üçün göndərilməyib.

İslam dini insanlar üçün problemlər yaratmır və həyatın bütün sahələri üçün onun müsbət və dolğun göstərişləri vardır. Heç bir yerdə bəşəriyyətin səadətinə mənfi təˈsir göstərə biləcək proqramlar irəli sürmür. Buna görə də İslam saysız-hesabsız məziyyətlərə malik olan, ən yaxşı ayin və ən kamil dindir.

İslamın hüquqi əsasları ədalət və ictimai bərabərliklə uyğun olduğu üçün öz xüsusi məˈna dərinliyi ilə seçilir, müasir dövrün bütün tələblərinə cavab verir. Evlənmə və ailə-məişət qanunları ən mütərəqqi proqramlardandır ki, heç bir dində və hüquqi məktəblərdə onların tayı-bərabəri yoxdur. İslam dini ailə qurmağın çox əhəmiyyətli və lazımi bir iş olmasına təˈkid edir. Lakin, xristianlıqda evlənmək haqda qeyri-təbii qayda-qanunlara rast gəlirik. Xristian ruhani xadimlərinin ömürlərinin axırına qədər ailə qurmaması, onlar üçün hətta əxlaqi bir fəzilət sayılır! Vatikanda təşkil olunmuş konqreslərin birində belə bir qərar çıxarılmışdı: «Keçmişdə olduğu kimi, xristian ruhanilərin evlənməsi bəyənilməz bir işdir və kilsə bu barədə öz fikrini dəyişə bilməz».

Təbiidir ki, insanın təbii ehtiyacları və cinsi ehtirasları evlənmək vasitəsilə təˈmin olunmasa, insanın daxilində qeyri-sağlam və çirkin cinsi

meyllər baş qaldırmış olar. Qərb cəmiyyətlərində yaramaz və üzdəniraq cinsi meyllərin baş alıb getməsində kilsənin xüsusi «xidmətləri» var.

İslamın insanlara həddi-buluğa çatan vaxt evlənmək üçün verdiyi göstərişlər təbii cinsi ehtirasların ödənməsi üçün ən yaxşı vasitədir. Aydındır ki, insan vaxtında evlənməsə, həmin istəklər onu ən alçaq və heyvani yollara sövq edə bilər. Bu gün Qərbdə insana yaraşmayan cinsi meyllərin ən iyrənc formaları çox geniş yayılıb.

İslam dini insanın öz ailə-uşaqlarını sevməsini bəşəriyyətin yüksək dəyəri adlandıraraq buyurur: **«Öz qadınlarını və uşaqlarını sevmək insanın zinətidir».**

İslam 14 əsr bundan qabaq cəmiyyətdə fəsad və əxlaqsızlığın qarşısını almaqdan ötrü müvəqqəti kəbinə icazə vermişdi. Cahiliyyət dövründə qanunsuz cinsi əlaqələr və fahişəlik adi hal almışdı. Açıq şəkildə mövcud olan fahişəxanalar cəmiyyətdə pozğunluğun yayılmasına kömək edirdi. İslam dini əxlaqın qorunması və tərbiyəsizliyin azaldılması üçün müvəqqəti kəbinə icazə verdi.

O vaxt Peyğəmbərin (s.ə.v.v) carçısı küçə və bazarlarda nida edirdi: «Ey camaat! Allahın Rəsulu (s.ə.v.v) sizə müvəqqəti evlənmək üçün icazə vermişdir. Cinsi ehtirasları sakitləşdirmək

üçün düzgün yoldan istifadə edin və cinsi tərbiyəsizlikdən , zina və qanunsuz əlaqələrdən çəkinin!».

Bu qanuna əsasən, kişi və qadın daimi izdivacla yanaşı, müəyyən müddət davam edən ər-arvadlıq münasibətləri də qururdular.

Həmin dövrdə müvəqqəti ər-arvad əlaqələrinə riayət edilirdi. Müvəqqəti nikahda varislik qanunları, kişinin qadını yemək-içmək, pal-paltar və məskənlə tə̓min etməsi vacib olmur. Amma nizam-intizamı qorumaq üçün digər qayda-qanunlar yerinə yetirilir və qadın da müxtəlif hüquqlara malik olurdu. Qur̓anda buyurulur:

***«Daimi və ya müvəqqəti evlənmə üçün seçdiyiniz qadınların mehriyyələrini lazımı qaydada verin».***

İzdivacda müddət müəyyən edilməsə o, daimi evlənmə hesab olunur. Müəyyən müddətlə məhdudlaşan nikah isə müvəqqəti izdivac sayılır. Müvəqqəti kəbindən olan övladlar daimi nikahdan olan övladlarla hüquqi baxımdan heç nə ilə fərqlənmirlər və bütün imtiyazlardan istifadə edə bilərlər.

Fahişəliyin geniş yayılma səbəblərindən biri də müvəqqəti nikah bağlamaq imkanının olmamasıdır. Adətən daimi evlənmə üçün lazımi şərait olmadığından və ya maddi imkanların

çatışmazlığı ucbatından çoxları ailənin ağır məsʾuliyyət yükü altına girməyə razı olmurlar. İş dalınca və ya ticarət üçün uzun müddətli səfərə gedən şəxslər, xüsusilə də cavanlar cinsi ehtirasların təʾmin olunması ehtiyacı ilə üzləşirlər. Bunun da müsbət həlli yalnız müvəqqəti kəbinlə mümkündür. Əks təqdirdə qanunsuz əlaqələr qaçılmaz bir iş olacaq. Bu mütərəqqi qanun xüsusi şəraitdə və şərʾi qanunlar çərçivəsində düzgün icra olunsa, fəsad və əxlaqsızlığın qarşısı müəyyən məʾnada alına bilər. Burada «düzgün icra» ifadəsindən məqsəd, bəʾzi fürsəttələb şəxslərin bu qanundan sui-istifadə etməsinin qarşısını almaq üçündür. Çünki bəʾzi şəxslərin yaramaz hərəkətləri bu qanuna qarşı qərəzli və müxalif mövqe tutan şəxslərin əks-təbliğatına geniş imkan yaratmışdır. Halbuki, müvəqqəti izdivac pak bir evlənmə növüdür. Bu qanun günahlara eʾtina etməyən şəxslərin qarşısını almaq, fəsad və fahişəliklə mübarizə aparmaq üçün ən düzgün mexanizmdir.

Şübhəsiz, bu qanun ictimaiyyəti islah etmək üçün nəzərdə tutulub. Ondan sui-istifadə edildikdə bunun qarşısı qətiyyətlə alınmalıdır. İmam Məhəmməd Baqir (ə) həzrət Əli (ə)-dan belə nəql edir: «**İkinci xəlifə müvəqqəti kəbini qadağan etməsəydi, çox alçaq və pozğun**

**adamlardan savayı heç bir müsəlman zina etməzdi».**

Peyğəmbərin (s.ə.v.v) öz dövründə müvəqqəti nikaha icazə verilir və bu qanuna əməl edilirdi. Amma Ömər naməˈlum səbəblərə görə xəlifəliyinin son dövründə bu məşhur cümləsi ilə onu qadağan etdi: **«Rəsuli-Əkrəm (s.ə.v.v) zamanında icazə verilən və əməl olunan iki mütˈəni mən qadağan edirəm: Biri həcc mütˈəsi, digəri qadın mütˈəsi»**. Aydındır ki, Ömər öz şəxsi fikrinə əsasən müvəqqəti nikahı qadağan etmişdi. Peyğəmbərin (s.ə.v.v) bir çox səhabələri onun bu göstərişinə eˈtina etmirdilər və müvəqqəti izdivacı halal sayırdılar. Müasir dövrdə fitnə-fəsadın təhrikedici hücumları cavanların əxlaqına çox pis təˈsir etməkdədir. Pornoqrafik şəkillər və filmlər hər addımda cavanları əxlaqsız əməllərə sövq edə bilər. Belə şəraitdə möˈmin gənclər çox ağır təzyiqlər qarşısında qalırlar. Bəs bu halda onların təbii ehtiyaclarını təˈmin etmək üçün hansı yoldan istifadə edilməlidir? Məgər bütün cavanlar öz nəfslərini saxlamağa qadirdirlərmi? Ehtiraslarını şiddətli təzyiq altında saxlayan həmin gənclər öz səbr və dözümlüklərini nə vaxta qədər qoruya bilərlər? Belə şeylər ümumiyyətlə bəşəriyyət üçün böyük təhlükələr yaradır və İslam təˈlimləri ilə ziddir. Qurˈan açıq şəkildə belə buyurur:

***«Allah [Öz dini üçün] sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı».*** [40]

Əgər şəriətin icazə verdiyi yolu bağlayırlarsa, onda cavanlar nə etməlidirlər? Əxlaqa və dinə zidd olan yola qayıtmalıdırlarmı? Qur᾿an buyurur:

***«Siz xeyirli olan şeyləri alçaq şeylərlə dəyişdirmək istəyirsiniz?»*** [41]

Müvəqqəti izdivac qanununa əməl etməməklə minlərlə dul və baxımsız, ağır şəraitdə yaşamağa məcbur olan qadınların maddi ehtiyaclarını tə᾿min etmək mümkündürsə də, onların intim ehtiyaclarını necə ödəmək olar? Müvəqqəti kəbin isə qeyri-qanuni və əxlaqsız əməllərin qarşısını almaq üçün ən yaxşı yoldur. Bu gün Qərb ölkələrində qanunsuz kişi-qadın münasibətləri çox geniş yayılıb və cinsi həyatda hərc-mərclik hökm sürür. Hətta Qərb mütəfəkkirləri cürbəcür xəstəliklərin və fahişəliyin qarşısını almaqdan ötrü müvəqqəti kəbin qanununun tətbiq edilməsini istəyirlər. İngilis alimi Bertrand Rassel belə deyir:

«Müasir dünyada ictimai-iqtisadi problemlər bizim istəklərimizin xilafına olaraq, cavanların evlənmə məsələsini tə᾿xirə salır. Bir əsr bundan öncə əgər bir tələbə 17-20 yaşlarında təhsilini başa

---

[40] Həcc surəsi, 78-ci ayə.

[41] Bəqərə surəsi, 61-ci ayə.

vururdusa, onun evlənmə məsələsi birinci növbəli iş sayılırdı. 40 yaşına qədər ailə qurmayanların sayı həddən artıq az idi. Lakin indiki cavanlar təhsillərini başa vurduqdan sonra bir müddət işləmək məcburiyyətində qalır, ailə qurmaq haqqında isə heç fikirləşmək belə istəmirlər. 35 yaşından sonra evlənmək adi hala çevrilib. Cinsi ehtirasların aşıb-daşdığı həmin dövrdə cavanlar istər-istəməz qeyri-qanuni yollarla öz istəklərinin tə˒min edilməsinə çalışırlar. Bunun isə heç vaxt yaxşı nəticələri olmur. Həmin dövrdəki şərait fəsad və əxlaqsızlığa qurşanmaq, sağlamlığa vurulan ziyanlarla müşahidə edilir. Bəs bunların qarşısını almaq üçün nə etməliyik?

Cavanların bu həssas dövrdəki problemlərini yalnız müvəqqəti kəbinlə həll etmək olar. Bu qanun onları müxtəlif fəsadlardan, qanunsuz əlaqələrdən, cürbəcür xəstəlik və günahlardan xilas edə bilər.»

Amerikalı professor Vilhelm Van Lum belə yazırdı:

«Psixoloji sahələrdəki elmi təcrübələr sübut etmişdir ki, kişilər bir müddət ailə həyatı sürdükdən sonra, onlarda təzə evləndikləri vaxt mövcud olan hisslər zəifləyir. Bu cəhətdən də onlar cinsi pozğunluqlara meyl edirlər. Mövcud statistik göstəricilərdən mə˒lum olur ki, evli

kişilərin 65%-dən çoxu öz arvadlarına xəyanət edirlər (Əlbəttə, burada Qərb ölkələri nəzərdə tutulur). Bunun qarşısını almaq və belə münasibətləri tənzim etmək üçün dövlət müvəqqəti nikah barədə qanun qəbul etməlidir».

## *ZÖVCƏLƏRİN SAYI*

İctimai quruluş üçün təʾyin edilən qanunlar o vaxt kamil və mütərəqqi olurlar ki, onlar insanın fitrətinə uyğun şəkildə bəşəriyyətin bütün zərurətlərini geniş surətdə nəzərə ala bilsinlər. Əks təqdirdə, insan cəmiyyəti saysız-hesabsız problemlərlə üzləşir.

İslam qanunları yalnız xüsusi bir region və millət üçün nəzərdə tutulmayıb. Bu qanunlar bütün zaman və məkanlarda öz misilsiz hikmət və ədalətini qoruyub saxlayır, hər bir dövrdə bəşər cəmiyyətinin ehtiyaclarına cavab verir və onları heç bir təzyiq sarsıda bilmir.

Xristian missionerlərinin və kilsənin İslam əleyhinə apardığı təbliğatın mövzularından biri də bu dində «zövcələrin sayı» məsələsidir. Kilsə öz mövqeyini qoruyub saxlamaq üçün, xalqın məʾlumatsızlığından istifadə edərək, bu barədə saysız-hesabsız töhmət və iftiralarla İslam qanunlarını gözdən salmağa çalışır. Onlar deyirlər ki, guya müsəlman kişiləri istədikləri qədər arvad

ala bilərlər və onlarla istədikləri kimi rəftar etmək hüququna malikdirlər. Şübhəsiz ki, bütün bu iddialar əvvəldən axıracan yalan və böhtandır. İslamda zövcələrin sayı haqda qanunun yaranmasının dini-tarixi kökləri vardır. İslamdan qabaq müxtəlif cəmiyyətlərdə qeyri-məhdud sayda arvad almaq adi hal idi və hətta bu iş onlar üçün şərəf sayılırdı. Peyğəmbərlərin tarixini və dini kitabları öyrənməklə aydın olur ki, hələ İslamdan qabaq zövcələrin sayı dəqiq tə҆yin olunmuş bir məsələ idi.

Çində Li-Ki qanununa görə hər kişi 130 arvad ala bilərdi. Bə҆zi hökmdarların hərəmində 400-ə qədər qadın olurdu. İncil və Tövrat bir neçə zövcəyə malik olmaqlığı qadağan etməyib. İkinci əsrin əvvəllərinə qədər xristian Avropasında da bu hal mövcud olub və kilsə onu qadağan etmirdi. Sonradan isə kilsə bunu qəti şəkildə qadağan etdi. Kişilər yalnız bir zövcə ilə kifayətlənməli olurdular və nəticədə fahişəlik sür҆ətlə yayılmağa başladı. Cahiliyyət dövründə zövcələrin sayı məsələsi ərəblər arasında tam nizamsız bir formada idi. Qadın hüququna heç bir məhəl qoyulmur və onlara adi əşyalar kimi baxılırdı. İslam bu ifratçılığın qarşısını alıb, hərc-mərcliyə son qoydu və bir kişinin ən çox dörd zövcəsi olması qanununu irəli sürdü. İslam nöqteyi-

nəzərindən bu qanun ictimai fəsadların və cürbəcür təhlükələrin qarşısını almaqdan ötrü tə`yin edilib. Nə etmək olar, bə`zən insan elə bir şəraitlə qarşılaşır ki, onların daha zəifini seçmək məcburiyyətində qalır. Bununla belə, zövcələrin sayı qanunu bütün müsəlmanlar üçün zəruri bir vəzifə sayılmır. Əgər bir şəxsin maddi və digər şəraiti ona, dörd qadınla birgə yaşamaq imkanı verirsə və həmin kişi bütün zövcələrinin hüquqlarını qoruya bilirsə, habelə yalnız bir qadınla yaşasa, günaha düşmək ehtimalı böyükdürsə, bu halda çoxarvadlıq qanunu tətbiq edilir. Lakin burada da qadınların razılığı və onlara azadlıq verilməsi mühüm şərt sayılır. Belə bir məsələyə xüsusi diqqət yetirmək lazımdır. Əgər hansısa cəmiyyətdə qadınların sayı kişilərin ümumi sayından çoxdursa, ailə qurmaq və evlənmək problemlərini bundan başqa hansı yolla həll etmək olar? Dünyadakı kişi və qadınların sayının statistikası qadın cinsindən olanların çoxluq təşkil etdiyini göstərir. Bu məsələ demək olar ki, bütün dövrlərdə belə olmuşdur və onun bir çox ictimai, sosioloji və intim səbəbləri vardır. Məsələn, dünyaya yeni gələn qız uşaqları oğlanlarla müqayisədə müxtəlif xəstəliklərə qarşı daha dözümlü olurlar və ya baş verən müharibələrdə, hərbi toqquşmalarda əksərən

kişilər öldürülür. Buna görə də qadınların sayı kişilərin sayından həmişə çox olur.

Qadınların ailə qurmaq, övlad sahibi olmaq istəklərinin kişilərdən daha artıq olması hamıya bəllidir. Bu isə qanuni ailə qurmaqdan başqa, digər layiqli yollarla mümkün deyil.

Bə͑ziləri qadınların sayının kişilərdən çox olmasını aşağıdakı səbəblərlə izah edirlər: Qadınların ömrü daha uzun olur və hər bir subay kişinin qarşısında 20 nəfər dul qadın durur. Ümumiyyətlə, əvvəldən ərə getməmiş qadınların sayını da bura əlavə etsək, mövcud statistik göstəricilər adamı narahat etməyə bilməz. Qadının tək, ailəsiz yaşaması isə ruhi və mə͑nəvi sıxıntılarla keçir. Bu həqiqətləri heç kəs dana bilməz. İslamda çoxarvadlıq qanunu bütün bu çətinlikləri həll etməkdə və ərsiz qadınlara yeni ailə səadəti bəxş etməkdə misilsiz rol oynayır. Qadınların fizioloji xüsusiyyətlərini və ya övladı olmayan kişilərin başqa qadınla evlənmək imkanını nəzərə alsaq, bu qanunun nə qədər mütərəqqi olduğunu daha yaxşı başa düşərik. Əgər bir kişinin bir qadından övladı olmursa, nə üçün o, ömrünün axırına qədər bu vəziyyətlə barışmalıdır. Mə͑lum məsələdir ki, başqa qadınla evlənmək bir çox hallarda belə problemləri asanlıqla həll edir. Qanun insanı övlad sahibi

olmaqdan məhrum edərsə, həmin qanun zalım bir qanundur.

Bə`zi vaxtlarda qadın müəyyən bir xəstəliyə düçar olur və artıq onların ər-arvad münasibətləri (cinsi və s.) ödənilmir. Bəs belə halda ər nə etməlidir? Bu problemlə üzləşən kişiləri öz həyat yoldaşını boşamağa məcbur etmək lazımdırmı?! Öz ilk həyat yoldaşı ilə yaşadığı halda, belə kişilərin yenidən evlənməsi nəyə görə qəbahət sayılmalıdır? Onları evlənməkdən məhrum etmək ədalətsizlik deyilmi? Belə kişilərin təbii ehtiyaclarını tə`min etmək üçün çoxarvadlıq qanununun tətbiqindən başqa digər bir çıxış yolu vardırmı? Çətin və ağır günlərdə ərinə sirdaş olan qadını belə şəraitdə boşamaq hansı insanlıq norması ilə uyğun gəlir?

Əgər bir cəmiyyətdə müxtəlif səbəblərdən insanların bə`zisi kasıb vəziyyətdə yaşayırsa, təbiidir ki, beləlləri evlənmək imkanından məhrum olurlar. Nəticədə evlənmək həddinə çatmışlar arasında müvazinət pozulur. Bu cür şəraitdə əgər imkanlı kişilər bir neçə kasıb qadını halal yolla alırlarsa, bunun nəyi pisdir? İslamın fahişəliyə qarşı apardığı tə`sirli mübarizə üsullarından biri də həmin çoxarvadlıq qanunudur.

İkinci dünya müharibəsində milyonlarla kişi həlak olmuş və bununla da müharibədən sonra qadınların sayı artmışdı. Almaniyada qadınlar dövlətdən bir kişi üçün bir neçə qadının nikahını qanuniləşdirməyi tələb edirdilər. Lakin kilsə qəti şəkildə bunun əleyhinə çıxış etdi. Nəticədə ölkədə fahişəlik, əxlaqsızlıq və qeyri-qanuni uşaqların sayı həddən artıq çoxaldı. Kilsənin belə mövqeyi nəinki təkcə Almaniyada, eləcə də bütün Avropada iffətsizliyin geniş yayılmasına səbəb oldu.

Qərbdə e՝lan olunan «qadın azadlığı» əslində qadınların əsl və ən önəmli səadəti sayılan ailə qurmaq və övlad sahibi olmaq kimi arzularının gerçəkləşməsinin əksinə yönəlmişdi. Statistik mə՝lumatlara görə, Almaniyada 32 yaşına qədər qadınların yalnız 50%-i, 40 yaşına qədər olanların isə 20%-i ərli qadınlardır. Deməli, bu gün 6 milyon nəfər 40 yaşından yuxarı alman qadınları ərsizdirlər və hər ərsiz qadına bir kişi düşür. Bu kişilərin 13%-nin təqaüdçü olduğunu nəzərə alsaq, vəziyyətin daha da acınacaqlı olması aydınlaşar. Almaniyadan xaricə gedən qadınların 50%-i ər tapmaq ümidi ilə ölkəni tərk edənlərdir. Qərb dünyası qadınlara mütləq azadlıq və hərtərəfli səadət əldə etmək imkanlarının verildiyini iddia edir. Bəs onda nəyə görə qadın problemi ilə bağlı

olan ən mühüm bir məsələdə müxalifət edilir? Görəsən çoxarvadlıq qanunu qadına azadlıq və xoşbəxtlik bəxş etmirmi?

Qadının başqa bir qadınla birgə ərə malik olmağa razılığı və onların bir evdə rahat yaşamaqları sübut edir ki, hər halda bu, ərsiz və himayəsiz yaşamaqdan daha üstündür. Ədalət naminə deməliyik ki, qadın yox, əksinə kişi həmin şəraitdə daha artıq əziyyətlərə qatlaşır və daha çox məs՝uliyyətlə üzləşir. Hüquq elmləri doktoru olan bir qadının bu barədə e՝tirafları çox yerinə düşərdi:

«Heç bir qadın zövcələrin birdən çox olmasından zərər çəkməz. Bu zaman zərər çəkənlər əksinə kişilər olar. Çünki, onların bu vaxt yükləri və qayğıları çoxalır. Kişinin bir neçə həyat yoldaşı varsa, gərək onların hamısını lazımi qaydada tə՝min etsin. Həmçinin kişi qadınların sağlamlığının qayğısına qalmalıdır və onları müdafiə etməlidir. Əgər kişi arvadlarını incitsə, Allah və şəriət qarşısında cavab verməli olacaq. Bir kişinin iki qadını olduqda, cinsi rabitələr baxımından da qadınlar zərər çəkmirlər. Onların ruhi və mə՝nəvi iztirabları barəsindəki sözləri isə belə ailələrin rahat şəkildə həyat sürməsi haqqındakı tarixi misallar rədd edir. Bu cür ailələrdə şəriət qanunları hökm sürərsə,

qadınların narahatlıq və narazılığından söhbət gedə bilməz. Bir də ki, əgər belə narahatlıqlar həqiqətən mövcud olsaydı, onda keçmişdə də bir neçə qadının bir kişi ilə ailə qurması mümkün olmazdı».

Bəli, Qərb tərbiyəsizliyə icazə verir, lakin təbii və qanuni insan istəklərinin qarşısını alır. Amma İslam dini insanlara məntiqi azadlıqlar bəxş edir, əxlaqa zidd olanları isə qadağan edir.

İslam fərdin, cəmiyyətin rifah və səadətinə xüsusi diqqət yetirir. Bu səbəbdən də zövcələrin sayı ədalətlə həll olunmalıdır. İslam fiqhində ər-arvad münasibətlərini tənzim edən, onlar arasında ədalətli davranışı bərqərar edən bir çox bəhslər mövcuddur və izdivacda qadınların hüququ tamamilə gözlənilir.

Bir çox qadınlar mövcuddur ki, ərlərinə eyni zamanda başqa qadınla evlənməyə icazə verirlər. Həmin gerçəklik bir daha çoxarvadlıq qanununun bəşər fitrəti ilə uyğun olduğunu sübut edir. Əgər bu, qadının fitrəti ilə zidd olsaydı o, heç vaxt ərinin ikinci qadınla evlənməyinə razı olmazdı və ya heç bir qadın başqa bir qadını olan kişiyə getməyə razı olmazdı. Buna müxalif olan qadınlar qorxurlar ki, ərləri ikinci qadın aldıqdan sonra onların hüquqlarına riayət etməsin. Belə ailələrdə meydana çıxan narazılıqlar yalnız ədalətlə bütün

arvadların hüququna riayət edilməməsindən irəli gəlir. Qur᾽an belə buyurur:

***«Sizə halal olan qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın. Əgər onlarla ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir qadınla kifayətlənin».***[42]

Bə᾽zi kişilərin nadürüst və kobud hərəkətləri ailədə ixtilafların yaranmasına səbəb olur. Kişinin ailəsi ilə ədalətsiz rəftarı məhəbbət ocağı sayılan ailəni cəhənnəmə çevirir. Ona görə də ailə barəsindəki əsil İslami nəzərləri öyrənib, onları həyatda tətbiq etmək lazımdır. Əlbəttə, kişinin arvadları ilə ədalətli rəftarını tənzim edən İslam qayda-qanunları mövcuddur. Əgər onlara əməl olunsa, ailədə heç bir ixtilaf meydana çıxa bilməz.

Kişi öz həyat yoldaşının xərclərini ödəməkdən boyun qaçırsa və ya ərlik vəzifələrini yerinə yetirməsə, ona qarşı İslami qanunlar tətbiq edilir və həmin nikaha yenidən nəzər salınaraq, hökm çıxarılır. Əlbəttə, mehr-məhəbbət insanın öz əlində deyildir. Mümkündür ki, kişi arvadlardan birini başqalarından daha çox istəsin. Ona görə də İslam bu barədə bütün şəraitləri nəzərə alaraq, heç bir qadının haqqının tapdalanmaması şərtilə göstərişlər verir və onların hüquqlarına riayət edilməsində hər cür ayrı-seçkiliyi rədd edir.

---

[42] Nisa surəsi, 3-cü ayə.

Həmin hüquqların qadınlar üçün çox böyük əhəmiyyəti vardır. Əgər kişinin mehr-məhəbbəti onların yemək-içmək, pal-paltar və ər-arvadlıq münasibətlərinə təˈsir etmirsə və bunlara hər bir halda ədalətlə riayət olunursa, deməli qadının hüquqlarını heç kim tapdalamır. Qurˈan buyurur:

**«Qadınların ölüm və həyat arasında qalmaqlarına razı olmayın».**

Ona görə də heç bir kişinin öz qadınına eˈtinasızlıq etməyə haqqı yoxdur. Çünki belə halda qadın, nə ərli qadın kimi olur, nə də ərsiz qadın kimi.

Peyğəmbərin (s.ə.v.v) dövründə dörd arvadı olan kişilərdən hansı biri onlar arasında ədalətə riayət etməsəydi, bir qadından artıq arvad saxlamağa icazə verilmirdi. Əgər ədalətə riayət edirdilərsə, dörd arvaddan artıq qadın saxlamağa haqları yox idi. Beləliklə, İslam həm daimi nikahda qadınların sayını təyin edib, həm də səhlənkarlığı və qadınlara qarşı ədalətsizliyi qadağan etmişdir. Müsəlmanlar arasında elə şəxslər olmuşdur ki, hətta qadınları vəfat etdikdən sonra da onların hüquqlarına riayət etmişlər.

Rəsuli-Əkrəmin (s.ə.v.v) Məaz ibni Cəbəl adlı səhabəsinin iki arvadı var idi ki, onların hər ikisi eyni vaxtda taun xəstəliyindən ölmüşdülər. Məaz

onlardan hansının daha tez dəfn edilməsi üçün püşk atmışdı.

Qərb alimləri arasında çoxarvadlıq qanununa insafla yanaşanlar da olmuşdur ki, onlar bu qanunu ictimai bir zərurət hesab etmişlər.

Şopen Hauer özünün «qadınlar barəsində bir neçə söz» adlı kitabında belə yazır:

«Çoxarvadlıq qanununa malik olan ümmətdə əksər qadınlar ərli və övladlı idi. Onların bu şəraitdə ruhi və cismi ehtiyaclarının tə᾿min olunması ehtimalı çox böyükdür. Amma Avropada kilsənin bizə belə icazə verməməsi üzündən ərli qadınlar ərsizlər kimidirlər. Ərə getmədən dünyasını dəyişən çoxlu qadınlar, ehtirasların təzyiqi altında iffətsizliyə məcbur olan saysız-hesabsız cavan qızlar həyatları boyu ər və övlada həsrət qalırlar. Nə qədər fikirləşirəmsə də, cavab tapa bilmirəm ki, nəyə görə arvadı xəstə olan və ya doğa bilməyən kişilər başqa qadınla evlənə bilməsinlər? Təəssüf ki, buna cavab verməyə kilsə qadir deyil. Məhz kilsənin qayda-qanunları bizi məhrumiyyətlərə düçar edib, bizim əl-ayağımızı zəncirləyib və cəmiyyəti fəsada, namussuzluğa və fahişəliyə sürükləyib».

Başqa bir ingilis alimi xanım Anne Bezant belə yazırdı:

«Qərb iddia edir ki, birdən artıq arvadın qanuniliyini qəbul etməmişdir. Amma əslində Qərbdə çoxlu sayda arvadı olan kişilərin sayı məʾlum deyil və onlar bu münasibətlərdə heç bir məsʾuliyyət daşımırlar. Bizim cəmiyyətdə kişi bir qadınla qanunsuz əlaqədə olur və müəyyən müddətdən sonra onunla əlaqələrini kəsir. Həmin qadın ya sərgərdan qalır, ya da başqa kişilərlə qanunsuz əlaqələrdə olmağa məcbur olur. Ərinin evində halal arvad və uşaq anası kimi yaşayan qadının vəziyyəti yaxşıdır, yoxsa Qərbdəki kimi qeyd olunan tərzdə yaşayan qadının vəziyyəti? Qərbdəki fahişələrin sayının çoxluğu nəzərə alınsa, heç kim İslamdakı çoxarvadlıq qanununa irad etməz».

Doktor Qustav Loben deyir:

«İndiyədək Avropada şərq adət-ən’ənələri içərisində ən çox tənqid olunan və ən pis qələmə verilən məsələ İslamda «çoxarvadlılıq» qanunudur. Halbuki ən çox da elə bu məsələdə yanılmışlar. Doğrusu, mən lap mat qalmışam ki, görəsən, şərqdəki qanuni çoxarvadlılığın qərbdəki iffətsiz çoxaşnalıqdan nəyi əskikdir! Mənim fikrimcə qanuni çoxarvadlılıq hər cəhətdən üstün və ləyaqətli işdir.»